BAKI: HADİSƏLƏRLƏ ZƏNGİN TARİX

C. D. Henri (J. D. Henry). Baku: An Eventful History. London, 1905. İngilis dilindən tərcümə, tərcüməçinin qeydləri ilə

Mündəricat

Tərcüməçidən 3
Lesli Urkart və Stepan Qulişambarov haqqında 4
İthaf 6
Ser Boverton Redvudun ön sözü 7
Müəllifin ön sözü 8
I HİSSƏ. RUSİYA NEFT SƏNAYESİNİN MƏNŞƏYİ, İNKİŞAFI VƏ İNDİKİ VƏZİYYƏTİ 11
I fəsil. Bakı və onun əhalisi 11
II fəsil. Əbədi odlar diyarı 20
III fəsil. Rusiya neft sənayesinin şəfəqi (1813) 27
IV fəsil. Qafqazda fotogen sənayesi 32
V fəsil. Neft mədəni maliyyəsinin romantikası. İlk (1872) hərraclar və ibtidai iş üsulları 39
VI fəsil. Bəzi məşhur fontanlar (1876–1880) 46
VII fəsil. Nəqliyyat və qazmada təkmilləşdirmələr (1872–1880) 49
VIII fəsil. Nobellər və rus nefti 55
IX fəsil. 1881–1890-cı illərin böyük fontanları 61
X fəsil. 1881–1890-cı illərdə sənayenin artımı 70
XI fəsil. İlk qurultayların tarixi 76
XII fəsil. 1891-ci ildən sonra sənaye 82
II HİSSƏ. QAFQAZDA QİYAM 95
XIII fəsil. Birinci (fevral) qırğınları — Mühasirədəki erməni 95
XIV fəsil. Bakıda “Şaxsey-vaxsey” 104
XV fəsil. Sentyabrda Bakı 111
XVI fəsil. Balaxanı neft mədənləri alov içində 116
XVII fəsil. Balaxanı (davamı). Neft mədəninə həyəcanlı səfərin təsviri 120
XVIII fəsil. Zabrat, ingilislərin mühasirədə qaldığı yer 123
XIX fəsil. Bibiheybət 131
III HİSSƏ. BATUM — BAKININ ƏSAS NEFT LİMANI 140
XX fəsil. Batum: onun boru kəmərləri, gəmiçiliyi və neft ixracı 140
XXI fəsil. Avropa–Batum neft ticarətinin artımı 149
ƏLAVƏ 155
Bakı neftinin daşınması 155

Tərcüməçidən

Kitab 1905-ci ilin payızında, Bakıda baş vermiş fevral və avqust–sentyabr qanlı toqquşmalarının ardınca, "Petroleum World" jurnalının redaktoru, ingilis jurnalisti C. D. Henri tərəfindən yazılmışdır. Müəllif dövrünün Avropa ədəbiyyatına uyğun olaraq azərbaycanlıları "Tartars" ("tatarlar") adlandırır; mətnin tarixi xarakterini qorumaq üçün bu ad tərcümədə saxlanılmışdır (bax: I fəsil, qeyd 3). Müəllifin qeydləri səhifənin altında adi qaydada, tərcüməçinin qeydləri isə "— Tərc." işarəsi ilə verilir. Müəllifin birtərəfli və ya faktlara uyğun olmayan mülahizələri ixtisarsız və yumşaldılmadan tərcümə edilmiş, onlara isə tərcüməçinin qeydlərində münasibət bildirilmişdir. Yer və şəxs adları müasir Azərbaycan yazılışında, müəllifin yazılışı isə ilk dəfə mötərizədə verilir.

Lesli Urkart və Stepan Qulişambarov haqqında



Cənab Lesli Urkart (Britaniyanın Bakıdakı vitse-konsulu)

Cənab Lesli Urkart (Leslie Urquhart). Cənab Urkart Kiçik Asiyada, İzmir vilayətinin Aydın şəhərində anadan olmuşdur. Qlazqoda mühəndislik, Edinburq Universitetində kimya üzrə təhsil almış, sonra Şotlandiyada Broksbern və Lanark neft zavodlarının laboratoriyalarında çalışmışdır. Daha sonra Ucarda (Oudjari) atası cənab Endrü Urkartın[1] işinə qoşulmuşdur. Təxminən dörd il əvvəl Bakıda Şibayev şirkətinin baş direktoru təyin edilmiş, bir il əvvəl isə Rusiyadakı dörd əsas Britaniya neft şirkətinin baş direktoru olmuşdur. O, Rusiya dəmir yollarında maye yanacağı ilk dəfə tətbiq etmiş mərhum cənab Tomas Urkartın qardaşı oğludur.



Cənab Stepan Qulişambarov

[1] Burada Azərbaycandakı Ucar rayonu nəzərdə tutulur: məlumata görə, Urkartlar ailəsinin orada biyan kökü emalı müəssisəsi var idi. — *Tərc.*

Cənab Stepan Qulişambarov (Stephen Goulishambarov). Maliyyə Nazirliyində çalışan cənab Qulişambarov Qafqaz neft sənayesi müasir əsaslarla inkişaf etməyə başladığı ilk günlərdən onunla rəsmi şəkildə bağlı olmuşdur. Sənayenin mühəndislik, maye yanacaq və ticarət cəhətləri haqqında heç kəs ondan daha ətraflı yazmamışdır. Maliyyə Nazirliyinin nümayəndəsi kimi dünyanın neft yataqlarının çoxunda olmuş, təxminən üç il əvvəl isə Britaniya neft bazarının vəziyyəti haqqında hesabat vermişdir.

İthaf

Bir çox səbəbə görə, lakin əsasən bir neçə böhranlı anda nadir bacarıq, tədbirlilik və şəxsi cəsarətlə hərəkət edərək Qafqazda özünə misilsiz mövqe qazandığı üçün — Bakıdakı Britaniya vitse-konsulu cənab LESLİ URKARTA həsr edirəm.

Ser Boverton Redvudun ön sözü

Ser Boverton Redvud (Boverton Redwood), elmlər doktoru, Edinburq Kral Cəmiyyətinin üzvü, İmperator Rus Texniki Cəmiyyətinin (Bakı şöbəsi) fəxri müxbir üzvü.

Mərhum Çarlz Marvinin “Əbədi odlar diyarı” (“The Region of the Eternal Fire”) kitabında Bakı neft sənayesi haqqında Britaniya oxucusuna canlı və obrazlı məlumat verməsindən iyirmi il keçmişdir. Mövzu istər-istəməz çox texniki idi, lakin elə ədəbi məharətlə təqdim olunmuşdu ki, verdiyi məlumatların dəqiqliyinə görə texnoloq üçün bu gün də faydalı olan bu əsər, yəqin ki, geniş oxucu kütləsini də bu növdən olan hər hansı başqa nəşrdən daha çox maraqlandırmışdır.

İndi bu vəzifə başqa bir jurnalistin, “Petroleum World”ün redaktoru, Rusiya neft yataqlarından görülmüş işin miqyası və əhəmiyyətindən eyni dərəcədə təsirlənərək qayıtmış cənab C. D. Henrinin üzərinə düşmüşdür: o, sənayenin bugünkü vəziyyətini təsvir etmək və onun daha da genişlənmə imkanlarını göstərmək niyyətindədir. Bu vəzifənin uğurla yerinə yetiriləcəyinə əminəm, çünki cənab Henrinin faktları sürətlə toplamaq və qaydaya salaraq qeyd etmək qabiliyyətinə yüksək dərəcədə malik olduğunu öyrənmək üçün kifayət qədər imkanım olmuşdur.

Qafqaz neft işinin tərəqqisi son iğtişaşlar və əmlakın məhv edilməsi nəticəsində müvəqqəti olaraq dayanmışdır, lakin bunun ilk nəticəsi İmperiyanın sənaye həyatının maye yanacaq şəklində neft təchizatından nə dərəcədə asılı olduğunu daha qabarıq şəkildə göstərmək olmuşdur və son nəticə, şübhəsiz ki, işi daha möhkəm əsasa qoymaq olacaqdır. Buna görə də cənab Henrinin bu mövzuya dair ədəbiyyata töhfəsi çox vaxtında işıq üzü görür.

BOVERTON REDVUD.

Müəllifin ön sözü

Bakı əsrlər boyu diqqətəlayiq bir şəhər olmuşdur. Lakin onun qədim tarixi, əlamətdar müasir inkişafı və geniş, artmaqda olan sənaye nüfuzu Rusiyadan kənarda yalnız bu il həqiqi maraq doğurmağa başladı. On iki ay əvvəl neft haqqında heç nə bilməyən adam Bakı haqqında da heç nə bilmirdi; bu gün Bakını milyonlar tanıyır. Biz Qafqazın müasir həyatının ən dəhşətli dramlarından birinin Bakı səhnəsində oynanıldığını gördük. Bu bir illik dram üç aydın seçilən, ayrı-ayrı pərdədən ibarət oldu: dekabr — tətillər, terror və qətllər; fevral — üç günlük irqi qırğın; sentyabr — on dörd günlük cilovsuz vəhşilik və qırğın, yanan neft mədənlərində və ən sirli şəhərlərdən birinin küçələrində tayfaların döyüşü[2]. Təəssüf ki, mədəni dünya Bakını dünyanın neft təchizatının təxminən yarısını verən, Rusiyanın ən varlı və ən diqqətəlayiq şəhərlərindən biri kimi — yəni daha mühüm simasında deyil, tayfalararası çəkişmələrin meydanı kimi tanıdı.

Son on il ərzində Bakının müasir sənayesi ilə qədim adətləri qüvvələrin qeyri-təbii birləşməsini yaratmışdı və bu birləşmə gec-tez insanları sarsıtmalı idi. Çarlz Marvin "Əbədi odlar diyarı"nı yazdığı vaxtlarda yeni şərait hələ zirvəsinə çatmamışdı və sənaye bugünkü ölçülərinə heç yaxınlaşmamışdı. Təbii ki, bir-birinə qaynayıb-qarışmayan xalqların və mənəvi təsirlərin bu qədər müasir bir ticarət müəssisəsi ilə bir yerə toplanması həyəcanlı tarix üçün zəngin material verməli idi.

Kitab bəzi yerlərdə istər-istəməz texniki və statistik xarakter daşısa da — və buna görə də, ümid etmək olar ki, dünyanın hər yerindəki neftçilər üçün daimi dəyərə malik olacaq — o, böyük ölçüdə yeni ilə köhnənin toqquşmasından doğan şiddətli sarsıntının və irqi düşmənçilik və ticarət rəqabətindən doğan inanılmaz dərəcədə acı hisslərin məhsuludur.

Baş verənlər neft mədənlərinin simasını tamamilə dəyişdirmiş və neft dünyasının ticarət və maliyyə sahələrində tarazlığı pozmuşdur. Cəsarət edib deyərdim ki, zaman belə bir kitab tələb edir, xüsusən ona görə ki, Bakı və onun əsas sənayesinin mənşəyi, inkişafı və indiki vəziyyəti haqqında qeyri-texniki məlumat çox azdır.

Kitabın əhatə dairəsi haqqında bir neçə söz. Mən şəhərin və onun sənayesinin erkən tarixini qısaca xülasə etməyə, fontan vuran quyuların tarixini bu günə qədər izləməyə, hər ilin işinin əsas nəticələrini qeyd etməyə və neft mədənlərində və neftayırma zavodlarında — onların çoxunda hələ keçən fevralda olmuşam — insanlar və üsullar haqqında bəzi yeni məlumatlar verməyə çalışıram. İctimai və siyasi tərəfinə gəlincə, şübhəsiz nüfuzlu şəxslərin, xüsusən də ermənilərin özlərinin məktubları vasitəsilə Bakıdakı həmvətənlərimə qarşı irəli sürülən — təhlükə anında ermənilər qəsdən tərk edərək onları tatar düşmənlərinə təslim etmələri barədəki — ittihamı təkzib etməyə kömək edə bildiyim üçün şadam. Aydın şəkildə bildirmək istərdim ki, bu məsələdə və həqiqətən toxunduğum bütün məsələlərdə qərəzsiz yazmışam; qırğınlara aid

[2] Müəllif 1905-ci il hadisələrini "tayfaların döyüşü", "irqi qırğın" kimi təqdim edir. Müasir tarixşünaslıqda 1905-ci ilin fevral (köhnə təqvimlə 6–9 fevral) və avqust Bakı toqquşmaları erməni–azərbaycanlı münaqişəsi kimi qiymətləndirilir və onların başlanmasında çar administrasiyasının rolu, inqilabi hərəkatı zəiflətmək üçün milli qarşıdurmanın qızışdırılması, eləcə də erməni silahlı partiyalarının ("Daşnaksütyun" və b.) fəaliyyəti ayrıca öyrənilir. Tərəflərin itkiləri və günahkarlıq məsələsi haqqında məlumatlar mənbələrdə xeyli fərqlidir; müəllifin təsvirləri çox vaxt bir tərəfin şahidlərinə əsaslanır. Müəllif tarixləri yeni (Qriqori) təqvimlə verir: onun "sentyabr" adlandırdığı hadisələr rus rəsmi sənədlərində qəbul olunmuş köhnə (Yuli) təqvimlə 1905-ci il avqustun 20–25-nə düşür. — *Tərc.*

hissəni hətta Bakıda da çox şeyin mədəni, dərin insani və hətta cəngavərcəsinə olduğunu göstərən qəhrəmanlıq hərəkətlərinin və həyəcanlı hadisələrin soyuqqanlı qeydi ilə məhdudlaşdırmağa çalışmışam[3].

Kitabın tarixi tərəfi barədə qoy kitabın özü danışsın; mən isə, bəlkə də, Cənubi Rusiyada sənayenin tamamilə romantik inkişafı haqqında bir neçə qeyd etməyə cəsarət edim. Son illərdə Texas çöllərində toxunulmamış neftli torpaqlarda çadırımı qurmuşam; neft bumu zamanı Spindltopda olmuşam ; Karpatlarda kiçik, lakin heyrətamiz dərəcədə məhsuldar yataqları görmüşəm və Qalisiyada, Borislavda hər bir diqqətəlayiq mülkü nəzərdən keçirmişəm; lakin dünyanın heç bir yerində Bakının o köhnə və məşhur yataqları ilə müqayisə oluna biləcək bir neft rayonu, sərvətdə Qafqazın bu paytaxtı ilə bərabərləşə bilən bir neft şəhəri və ya Bakıda sənayenin başında duranları enerji, təşəbbüskarlıq və ya işgüzarlıq qabiliyyətində üstələyən neftçilər görməmişəm.

Rusiyanın neft yataqları tükənməmişdir və onların tezliklə tükənəcəyi barədə nəzəriyyələr ən son qazma göstəriciləri və hasilat nəticələri qarşısında gülünc görünür. Bu kitabda tez-tez xatırlanan heyrətamiz Bibiheybət (Bibi-Eibat) yatağının tarixi onun yeraltı sirlərini açmağa, ömrünün uzunluğunu qabaqcadan söyləməyə və sərvət gətirmə qabiliyyətini ölçməyə boş yerə çalışmış texnoloqların irəli sürdüyü çoxsaylı nəzəriyyələrin yanlışlığını sübut etmişdir. Professor Abix iki ən mühüm məsələdə hesablamalarında ciddi səhvə yol verənlərin ilklərindən biri idi. İltizam sisteminin ləğvindən bir qədər əvvəl bu geoloq qabaqcadan demişdi ki, (1) neft 60 və ya 70 futdan dərində tapılmayacaq və (2) buxarla qazmanın tətbiqi Bakı üçün faydalı olmayacaq. Avropada şöhrət qazanmış başqa bir mütəxəssis, Trautşold, Bakını ziyarət etmiş (1873) və belə qərara gəlmişdi ki, ticarət dəyəri olan neft 200 futdan aşağıda tapılmayacaq. Onun fikrincə, qazma 140 fut həddindən aşağı düşdükcə neftin dəyəri azalacaqdı. Bu, ilk məşhur (Xələfi) fontanının vurması ilə tezliklə yanlış çıxdı.

Bu günün ən məhsuldar quyuları 1500 ilə 2000 fut arasındadır və Abixin üstünlük verdiyi əllə qazılmış quyulardan hələ 1878-ci ildə imtina edilmişdi. Diqqətəlayiq faktdır ki, 2000 quyudan Bibiheybətin payına yalnız 222-si, yəni təxminən onda biri düşsə də, bu yataq Abşeron yarımadasının hasilatının təxminən üçdə birini verir. Bibiheybətdə və Ramanada (Ramani), əslində isə, bəlkə də Balaxanı (Balakhani) istisna olmaqla, heç bir yataqda ən dərin laya çatılmamışdır. Bibiheybətdə yalnız bəzi mühüm ehtiyat sahələr deyil, həm də hökumətin həyata keçirdiyi, dənizin bir hissəsini qurudaraq yeni neft yatağı əldə etməli olan layihə var (xəritəyə bax). Rusiyanın neft yataqlarının tükənmədiyinə dair kifayət qədər sübut var.

Rusiyanın neft yataqlarının yaxın zamanda genişlənəcəyini desəm, həddindən artıq nikbin proqnoz vermiş olmaram. Hər tərəfdə yeni yataqlar açılır. Balaxanının yaxınlığında Binəqədi var ki, onun səthində qazma yenicə ilk izlərini qoymağa başlamışdır; daha uzaqda ümidverici Qroznı yataqları yerləşir ki, yeri gəlmişkən, Rotşild orada yenicə Axverdov şirkətinin mülkünü almış, “Spies Petroleum Company” isə daha bir fontan vurdurmuşdur; Xəzər dənizinin sahilində isə Nobelin açdığı və qızğın qazma işlərinin aparıldığı Berikey və ingilis-rus müəssisəsinin

[3] Müəllif qərəzsizliyini bəyan etsə də, burada özü də etiraf edir ki, hadisələrin təsvirində əsasən ingilis və erməni mənbələrinə — “xüsusən də ermənilərin özlərinin məktublarına” — istinad edir; azərbaycanlı tərəfin şahidliklərinə kitabda demək olar ki, yer verilmir. Kitabın II hissəsi oxunarkən bu nəzərə alınmalıdır. — *Tərc.*

mülkü olan Qayakənd var. Bundan başqa, Şimali Qafqazda, Uralda və neft limanı Batumdan uzaq olmayan Qara dəniz sahilində Çatma, Çələkən, Fərqanə, Telavi və başqa yataqlar da var.

Bakıda inqilabi hərəkatın ən pis nəticələri yaşanmışdır. Fəhlə kütləsinə kənardan müdaxilə edilmiş, onun sabitliyi pozulmuş, o, təhqiramiz dərəcədə öz iradəsini diktə edən qüvvəyə çevrilmiş və gözəl bir sənaye təhlükə altına düşmüşdür. Bu gün Bakıda daha çox tətil var və teleqramlar xəbər verir ki, neft sənayesinin tarixində ilk dəfə olaraq Britaniya neft mədəni rəsmilərinin evlərinə hücum edilmişdir. Lakin Qafqaz neftçilərinin çarın manifestində və qraf Vittenin vəzifəyə və hakimiyyətə qayıtmasında Rusiyanın ticarət və sənaye mərkəzləri üçün daha yaxşı vaxtların yaxınlaşdığının əlamətini görmək üçün müəyyən əsasları var və təbii ki, bunların arasında geniş mineral sərvətləri və böyük neft sənayesi olan Qafqazı da daxil etməyi unutmamalıyıq. Qraf Vitte bu sənayenin dostu kimi tanınır; onun ehtiyaclarını hamıdan yaxşı bilir və keçmiş maliyyə naziri kimi onun imperiya gəlirinin amili kimi böyük dəyərini qiymətləndirmək üçün kifayət qədər imkanı olmuşdur.

Bu, məni Qafqaz, Sibir və Ural sənayelərinin gələcəyi mövzusuna gətirir. Etiraf olunduğu kimi kasıb olan Rusiya indi də, iyirmi beş il əvvəl olduğu kimi, mədəni millətlər arasında xeyriyyəçi deyil, lakin onun xarici maliyyə yardımı olmadan reallaşa bilməyəcək yeni sənaye arzuları var. Məlumdur ki, ölkə Sibirin bir çox yerlərində, Transsibir xətti boyunca, Uralda, Qafqazda və hətta şəhərlərdə xarici kapitalın yardımını əldə etməyə can atır. Konsessiya təklifləri rədd edilməyəcək, əksinə, məmnuniyyətlə qarşılanacaq və nüfuzlu xaricilərin işin tamamilə dürüst aparılacağına inanması üçün hər şey ediləcək.

Qafqaz təbiət tərəfindən praktiki olaraq tükənməz mineral sərvətlərlə təmin edilmişdir; mis, dəmir, sink, qalay və bir çox başqa metallar bütün bölgədə nəinki tapılır, həm də heyrətamiz dərəcədə geniş yataqlarda toplanmışdır. Biz bu geniş bölgənin xarici maliyyəçinin üzünə açılacağı vaxta yaxınıq. Britaniya maraqları böyük imkanlara malik bu ölkədə yaxşı təmsil olunmalı və Böyük Britaniyanı bir sıra mühüm ticarət mərkəzləri ilə birləşdirən bağları möhkəmləndirmək üçün dərhal addımlar atılmalıdır. Rusiyada nəyimiz varsa, onu saxlamalıyıq və indi almanlar və amerikalılar Rusiyanın rəğbətini və opsionlarını qazanmaq uğrunda daha güclü rəqabət apardıqları bir vaxtda Britaniya maliyyəçiləri Rusiyanın tezliklə xarici maliyyənin köməyi ilə açmağa çalışacağı sənaye sahələrindən ədalətli pay əldə etməyin ən yaxşı yolu barədə ciddi düşünməlidirlər. Şübhəsiz ki, Sankt-Peterburqdakı son konfrans nəinki can və əmlakın daha yaxşı qorunmasını təmin edəcək, həm də sənaye inkişafının tamamilə yeni dövrünə gətirib çıxaracaqdır.

Aydındır ki, Bakıya firavanlığın qayıtmasını təmin etmək üçün praktiki olaraq ən əsas lazım olan şey davamlı sülhdür — Qafqazın fanatik xalqları arasında tələsik, yamaq-yamaq düzəldilmiş razılaşma deyil, ölkənin öz mineral və sənaye ehtiyatlarının inkişafına xarici kapitalın yardımını cəlb etməyi gözləməzdən əvvəl Qafqazda saxlamalı olduğu hərbi qüvvə ilə təmin edilmiş həqiqi, daimi sülh[4].

MÜƏLLİF.

Daunsvud, Linqfild yaxınlığında, Surrey. Noyabr, 1905-ci il.

---

[4] “Qafqazın fanatik xalqları” kimi ümumiləşdirici ifadələr XIX–XX əsrin əvvəllərinin Avropa müstəmləkəçi ədəbiyyatı üçün səciyyəvi olan stereotiplərdir və müəllifin mövqeyini əks etdirir. — *Tərc.*

I-ci HİSSƏ. RUSİYA NEFT SƏNAYESİNİN MƏNŞƏYİ, İNKİŞAFI VƏ İNDİKİ VƏZİYYƏTİ

I fəsil. Bakı və onun əhalisi

Bir əsr əvvəlki Bakı — Qan şəhəri — Qafqazda buxarla qazılmış ilk quyu — Bakı haqqında yanlış təsəvvürlər — Bəzi milyonçu neft kralları — Dünyaca məşhur ticarət sistemi — Müasir Bakı çirklidirmi? — Çarlz Marvinin etirafları və proqnozları — Bakıda gecə mənzərəsi — Qədimlə müasirin qarışıqlığı — Qırx dörd millətdən ibarət əhali — Şərqlə Qərbin görüşdüyü yer — Qəbiristanlıqdakı ingilis məzarları — Körfəz — Gecə mənzərələri — Polkovnik Stüartın təsviri — Düz damlı evlər — Sənayenin dirçəlişi.

Rusiyanın ən qədim şəhərlərindən biri olan və Elize Reklü (Elisée Reclus) tərəfindən "böyük təbii emalatxana" adlandırılan Bakı hələ VIII əsrdə çiçəklənən bir yer idi. XVI əsrdə o, İranın əlinə keçdi, baxmayaraq ki, ayrıca xanın idarəsi altında öz muxtariyyətini saxladı. Ruslar nəhayət 1806-cı ildə şəhəri hücumla aldılar və bir neçə aydan sonra onun Rusiyanın hakimiyyəti altında olmasının yüz ili tamam olacaqdır[5]. Bakının ensiklopedik tarixi budur.

Müasir Bakı sirli, üsyankar və qana bulaşmış Qafqazın ən böyük qan ləkəsidir. Bu ilin mart ayının 12-də olan qırğınlar haqqında ilk məlumatımı göndərərkən onu belə başlamışdım:

"Bakı "qan şəhəri" kimi tanınıb. Son 400 ildə burada Qafqazın hər hansı başqa yerindən daha çox qan axıdılıb. Bu həftə baş verən dəhşətli hadisələr bu şöhrəti daha da möhkəmləndirəcək. Belə ki, Bakı haqqında belə bir təsəvvür yaranıb: burada xalqlar bir-birinə qarşı vəhşicəsinə amansızdır, insanlar sanki qan tökməkdən zövq alırlar və ən qorxunc silahla — xəncərlə — insanları doğrayıb şikəst etməkdə az qala peşəkar ustalığa çatıblar."[6]

Bakı bunun təsdiqini qan hərfləri ilə yazdı. Sentyabr faciəsi o qədər böyük oldu ki, fevral hadisələri onunla müqayisədə kiçik görünməyə başladı. Halbuki fevralda üç gün ərzində Bakının küçələrində və neft mədənlərində 2000 nəfər öldürülmüş, şəhərdə çaxnaşma və aclıq hökm sürmüşdü. Beləliklə, bu il Bakı iki dəfə qanlı hadisələrin səhnəsinə çevrildi və bütün dünya bunu gördü. Fevral və sentyabr qırğınlarına səbəb olmuş, Rusiyanın heç bir başqa yerində rast gəlinməyən xalqlararası nifrət Bakıya pis ad qazandırıb. Lakin unutmaq olmaz ki, neft dünyasında Bakıdan məşhur ad yoxdur. Dünya Bakıya çox şey borcludur. Bakı neftin çıxarıldığı və emal edildiyi ən qədim mərkəzdir. Bu qırğınlara qədər o, həm də ən çox neft verən və ən gəlirli mərkəz idi.

Buxarla qazılmış quyunun Bakıda əllə qazılmış ibtidai quyular dövrünə son qoymasından təxminən otuz il keçir. İş tək bir quyu ilə başlandı və bu kiçik başlanğıcdan kömür və dəmir sənayeləri qədər mühüm bir sənaye yarandı.

---

[5] Bakı xanlığı 1806-cı ildə Rusiya qoşunları tərəfindən işğal edilmiş və şəhər Rusiya İmperiyasının tərkibinə qatılmışdır. Müəllif hadisəni rus tarixşünaslığının ənənəvi təqdimatında verir; Bakının "Rusiyanın ən qədim şəhərlərindən biri" adlandırılması da bu baxışın ifadəsidir. — *Tərc.*

[6] "Qan şəhəri", "insanlar sanki qan tökməkdən zövq alırlar", "şikəst etməkdə az qala peşəkar ustalığa çatıblar" kimi ifadələr Bakı əhalisinə, əslində isə Qafqaz xalqlarına aid ümumiləşdirici, sübutsuz stereotiplərdir. "Son 400 ildə burada Qafqazın hər hansı başqa yerindən daha çox qan axıdılıb" iddiası heç bir mənbə ilə əsaslandırılmır. Müəllif burada 1905-ci ilin martında qəzetə yazdığı reportajdan sitat gətirir. — *Tərc.*

Təxminən dörddə bir əsr ərzində Bakı geniş neft yataqlarının heyrətamiz hasilatı və çoxsaylı neftayırma zavodlarının məhsulu ilə neft dünyasının hökmdarına çevrilmişdir. Bir nəsil boyu Bakı dünya əmtəəsi olan mühüm bir məhsulda ticarət tarazlığını saxlamışdır; onun yeraltı ehtiyatları dünya miqyasında Amerika inhisarının qarşısını alan və Atlantikanın bu tərəfində nefti ucuz saxlayan təchizatı təmin etmişdir.

Neftdə Bakı misilsizdir. Mən onunla nə yeraltı sərvətdə, nə də — bir anlığa ticarəti bir kənara qoysaq — tarix və ənənə, əfsanə və rəvayət zənginliyində müqayisə oluna biləcək bir neft şəhəri tanımıram. Uzaq Kaliforniyanın neft rayonlarının əsas şəhəri Los-Anceles; Kanadanın neft paytaxtı Petroliya; cəmi dörd yaşı olan Texas neft şəhəri Bomont; qədim polyakların vətəni Qalisiyada geniş əraziyə səpələnmiş neft yataqlarının mərkəzi Borislav; Rumıniyada Kampina və iyirmi başqa neft hasilatı mərkəzi heç bir cəhətdən Bakı ilə müqayisə edilə bilməz. Bakı dünyanın hər hansı başqa neft şəhərindən böyükdür. Əgər neft kraldırsa, Bakı onun taxtıdır.

Bakı heç bir başqa şəhərə bənzəmir. Onun həyatı sərt və tələtümlüdür, keçmişi üsyanlarla və romantik əhvalatlarla doludur. Bakı əhalisi də bir sirrdir: burada bir-birinə zidd xalqlar, bir-biri ilə barışmayan dinlər və adətlər qəribə şəkildə qarışıb. Ən böyük sirr isə şəhərin altındakı neft yataqlarının ucsuz-bucaqsız olmasıdır. Bütün bunlar Bakının ticarətdə qazandığı real uğurlardan heç də az maraq doğurmur.

İngiltərədə “rus nefti” deyirik, amma əslində “Bakı nefti” demək daha düzgün olardı. Çünki Rusiyada çıxarılan neftin demək olar ki, hamısı iki yataq qrupundan gəlir: Bibiheybətdən və Balaxanı–Sabunçu–Ramanadan. Bunlar dünyanın ən məşhur neft yataqlarıdır. Qəribədir ki, onlar nəhəng Rusiya imperiyasının lap cənub ucunda, az qala onun sərhədindən kənarda yerləşir. Amerika nefti isə bir çox ştatdan gəlir: Pensilvaniya, Ohayo, İndiana, Texas, Kaliforniya və daha altı-yeddi ştatdan. Ona görə də “Amerika nefti” adı həqiqətə uyğundur. “Rus nefti” adı isə o qədər də dəqiq deyil, çünki bu neft bütün Rusiyadan yox, yalnız Abşeron yarımadasından gəlir.

* * *

Bakının bədbəxtliyi ondadır ki, onu tez-tez və absurd şəkildə yanlış təsvir ediblər, qırğınlar zamanı isə həmişəkindən daha tez-tez belə hallara təsadüf etmək olur. Bu gün, binaların çoxu xarabalıq halında olanda, mənzərəni həddindən artıq qara rəngə boyamaq mümkün deyil, lakin qırğınlardan əvvəl Bakı böyük və gözəl bir şəhər idi.

Bakı yanarkən qəzetlər onun görünüşü, əhalisi və neft ticarəti haqqında köhnə və bir-biri ilə ziddiyyət təşkil edən təsvirləri qarışdırıb oxuculara təqdim edirdilər. Adama elə gəlirdi ki, qəzetlər bu bədbəxt şəhəri pis göstərmək üçün sanki əlbir olublar. Məsələn, London səhər qəzetlərindən birində redaksiya səhifəsində belə yazılmışdı: “Bakı çox varlıdır, lakin çox çirkindir… İlk təəssürat kədərlidir, yaxından baxanda da heç də xoş təəsürat bağışlamır.” Yəqin ki, bunu pis niyyətlə yazmayıblar, amma bu, böhtandır və Bakını görməmiş adamı mütləq çaşdıracaq. Burada yalnız “Bakı çox varlıdır” sözləri doğrudur[7]. Bəli, Bakı həqiqətən varlıdır, sadəcə öz sərvətini gözə soxmur; bəziləri deyər ki, onun sərvəti nağıllardakı kimidir. Bakı neftinə pul qoyan milyonçular Rusiyanın hər hansı başqa sənayesindəkilərdən çoxdur. Onlardan

[7] Mətndə “ilk dörd söz” (ingiliscə “Baku is very rich”) nəzərdə tutulur. — *Tərc.*

bəzilərinin — isveçli Nobelin, fransız Rotşildin, erməni Qukasovun və erməni Mantaşevin — adını ona görə çəkirəm ki, onların neft şirkətlərinin Londonda nümayəndəlikləri var. Quyular, çənlər və boru kəmərləri kütləvi şəkildə dağıdıldığı üçün bu adamlar böyük pul itirə bilərlər, amma yenə də milyonçu olaraq qalacaqlar. Qafqazın ən böyük neft krallarından bəziləri ilk sərvətlərini neftli torpaqları ingilis və digər xarici şirkətlərə satmaqla qazanıblar. Bəziləri isə hələ də neft işindədir və neft çıxaran, neft emal edən şirkətlərdə əsas yerləri tutur. Qafqazın ən böyük neftçilərinin bir neçə şəxsi sarayı var; onları ölkənin ən yaxşı memarları layihələndirib, tanınmış italyan rəssamları isə zəngin şəkildə bəzəyiblər[8]. Deyirlər ki, Bakı Amerikadan daha çox adamı varlı edib. Əgər Con D. Rokfelleri və onun yaxın ortaqlarını hesaba qatmasaq, bu, doğrudur.

Bakı həqiqətən varlıdır: burada böyük sərvətin — deyərdim ki, eyni ölçülü hər hansı ingilis şəhərindəkindən daha böyük sərvətin — danılmaz əlamətləri var. Onu bu hala neft gətirmişdir.

Bu, böyük uğursuzluqların — əsasən əcnəbilərin uğursuzluqlarının — və nəhəng uğurların şəhəridir. Onun dünyaca məşhur ticarət sisteminin qolları Həştərxanda, hətta Nijnidə də bitmir. Nobel və Rotşild kimi şirkətlərin bütün gücü və imkanları sayəsində bu qolları qüdrətli Volqa boyunca İmperiyanın qəlbindən Baltik sahilinədək, Qafqazdan keçərək Batum və Novorossiyskədək, oradan isə Avropaya, Yaxın və Uzaq Şərqə və bizim Hindistan İmperiyamıza, yaxud Xəzər dənizindən keçərək İrana və Orta Asiyaya qədər izləmək olar.

Bakı nə üçün varlıdır? Cavab sadədir: Bakı elə bir məhsul istehsal edir ki, ona təkcə mədəni ölkələrdə deyil, ondan da geniş bir dünyada ehtiyac var. Bakı neftini dəvə karvanları Asiyanın ən uzaq guşələrinə, qotazlar (yaklar) isə Himalay dağlarının ucqar, çətin keçilən yerlərinə aparır.

* * *

Qəzetlərin Bakını yanlış təsvir etdiyi başqa bir cəhət də var.

“Şəhərin üzərində qatı qara tüstü buludu asılıb. Şəhərə çatmamışdan xeyli əvvəl hər yeri bürüyən neft qoxusunu duyursunuz: Bakıda qaldığınız müddətdə hər yerdə bu havanı udacaq, hər şeydə onun dadını hiss edəcəksiniz.”

Bu abzası yazan müəllif vəziyyəti həddən artıq qaranlıq təsvir edir. Doğrudur, Bibiheybət yatağı ən çox neft verdiyi dövrdə — təxminən beş il əvvəl, bir sahədə eyni vaxtda üç fontanın vurması adi hal olanda — külək fontanlardan qalxan neft damcılarını Bakı ilə Bibiheybət arasındakı Bayıl burnunun üstündən aşırıb şəhərin qədim hissəsinə qədər gətirirdi. Lakin Bakıda çirkli yer yalnız ikidir: Bibiheybət və Qara şəhər. Balaxanı isə şəhərin özündə deyil, Bakıdan doqquz mil şimaldadır. Qala divarlarının içindəki Bakı İngiltərənin sənaye rayonu olan “Qara ölkə”nin[9] ən səliqəli şəhərlərindən də təmizdir.

---

[8] Müəllif milyonçular sırasında yalnız xaricilərin və ermənilərin adlarını çəkir. Halbuki dövrün ən iri neft sahibkarları arasında azərbaycanlılar da var idi; onlardan Hacı Zeynalabdin Tağıyevin portreti bu kitabda da verilmişdir, onun 1895–1901-ci illərdə tikilmiş sarayı (indiki Milli Tarix Muzeyi) isə müəllifin bəhs etdiyi “xüsusi saraylardan” biridir. — *Tərc.*

[9] “Qara ölkə” (Black Country) — İngiltərədə, Birmingem ətrafında kömür və metallurgiya sənayesinin tüstüsü ilə məşhur rayon. — *Tərc.*

Bakının neftə bulaşmış, çirkli şəhər olduğu barədə yazılanların çoxu əslində köhnə təsvirlərin təkrarıdır. Bu təsvirləri şəhəri əvvəllər görmüş yazıçılar yaradıblar. O vaxt fontanlar hər gün vururdu, buruqlar isə taxtadan tikilirdi. Ona görə də mədənlərdəki adi yanğınlar indikindən qat-qat təhlükəli olurdu. İndi isə buruqların böyük hissəsi yanmayan gipsolitlə və ya dəmir təbəqələrlə örtülüb.

Bakının yanlış təsviri mövzusunu davam etdirmək üçün ən yaxşısı Çarlz Marvinin təxminən otuz il əvvəl[10] — şəhərin memarlıq simasının dəyişdiyi və yeni neft sənayesinin ehtiyaclarına uyğun olaraq sürətlə müasirləşdiyi bir vaxtda — yazdığı rəyi gətirməkdir. Marvin "Bakı məni lap heyrətə saldı" nidası ilə başlayan etirafından sonra belə davam edirdi:

"Son illərdə rus qəzetlərində Bakının inkişafından bəhs edən və onu tərifləyən çoxlu məqalə oxumuşdum. Ona görə də sürətlə böyüyən bir şəhər görəcəyimi gözləyirdim. Amma etiraf edim ki, Bakının bu qədər böyük olacağını heç ağlıma gətirmirdim.

İngilislərin çoxu Xəzəri ölü, həyatsız bir dəniz sayır. Onlara elə gəlir ki, orada heç bir iş-güc yoxdur. Halbuki Xəzərə Rusiyanın ən böyük çayı — Volqa tökülür, Volqa boyu isə ölkənin ticarəti və həyatı axıb Xəzərə çatır. Belə adamlar Bakını görsəydilər, Dikkensin qəhrəmanı Dik Sviveller demişkən, "mat qalardılar". Cəmi on il əvvəl yuxulu bir fars (İran) şəhəri olan Bakı bu gün çiçəklənən bir şəhərdir. Burada Rusiyanın hər hansı başqa yerindən daha çox tikinti gedir.

Bakı aypara şəklində böyük və gözəl bir körfəzin sahilində yerləşir. Körfəzin bir ucundan o biri ucuna qədər məsafə yeddi mil, sahil xəttinin uzunluğu isə təxminən on beş mildir. Körfəzin ağzında, dənizin içində bir ada var. O, İngiltərədəki Plimut limanını qoruyan dalğaqıran kimi Bakını küləklərdən tam qoruyur. Ona görə də körfəzdə minlərlə gəmi təhlükəsiz lövbər sala bilər. Körfəzdə nə qədər çox gəmi olduğunu görüb heyrətləndim.

Şəhərin hər yerində Bakının necə dəyişdiyini gördük. Köhnə evlər sökülür, yerində yeniləri tikilirdi. Küçələr düz xətlər boyunca salınır, daş və ya asfaltla örtülürdü. Farsların kiçik dükanlarının yerini geniş rus mağazaları tuturdu. Böyük köhnə fars qalası isə onu dörd tərəfdən sıxan binalardan təmizlənib hamının görəcəyi şəkildə açılırdı. İki-üç ildən sonra Bakı müasir həyatın rahatlıqlarının çoxuna malik yeni bir şəhər olacaq; hətta tramvayı da olacaq, onun üçün indi Rusiyada şirkət yaradılır. Şəhər inkişaf etdikcə onun çatışmazlıqları — isti, toz, yaxşı içməli suyun olmaması, az yağış və az yaşıllıq — xeyli azalacaq."

Zaman Marvinin proqnozlarının doğru olduğunu göstərdi. Marvin neft haqqında kitabçalar yazmış, Rusiyanı yaxşı tanıyan məşhur səyyah və alim idi. Bakı həqiqətən yeni bir şəhərə çevrilib. Məsələn, Marvinin vaxtında Bakının dəmir yolu stansiyası səhranın ortasında yazıq, kiçik bir daxma idi; qatar onu sadəcə orada "düşürüb" getmişdi. İndi isə Bakının möhtəşəm vağzalı var. Rusiya böyük vağzalları və yavaş qatarları ilə tanınan ölkədir. Bakı vağzalı belə bir ölkədə də ən yaxşı layihələndirilmiş və ən geniş vağzallardan biridir.

[10] Ç. Marvin Bakıda 1883-cü ildə olmuş, "The Region of the Eternal Fire" kitabı 1884-cü ildə çıxmışdır; yəni hadisədən təxminən iyirmi il keçmişdir. Müəllifin "otuz il əvvəl" ifadəsi dəqiq deyil. — *Tərc.*

Şəhər haqqında öz təəssüratlarımı danışmazdan əvvəl daha bir yanlış təsviri düzəltmək istəyirəm. Bu səhvi bağışlamaq olar, çünki o, bir əfsanə ilə bağlıdır və hər gələn səyyaha bu əfsanənin yeni bir variantını danışırlar. Söhbət məşhur Qız qalasından gedir.

Təxminən altı il əvvəl Bakıda olmuş F. H. Skrayn bu rəvayəti belə danışır: “Bir vaxtlar gözəl bir şahzadə qız varmış. Onunla eyni nəsildən olan bir gənc onunla evlənmək istəyirmiş. Lakin qız başqasını sevirmiş və həmişə onun elçilərini rədd edirmiş. Gənc əl çəkmirmiş, qızın valideynləri də qıza təzyiq edirmiş. Axırda qız razılaşıb, amma bir şərtlə: gənc ona Xəzər dənizinin içində qala tikdirməlidir. Aşiq heç bir çətinlikdən qorxmayıb və tezliklə dalğaların üstündə yüz iyirmi fut hündürlüyündə bir qala ucalıb. Qızın toyu təxirə salmağa daha bəhanəsi qalmayıb. Toy yeni qalada təmtəraqla keçirilib. Lakin bəy gəlinin üzündəki duvağı qaldırmaq üçün ona yaxınlaşanda qız ondan qaçıb özünü qaladan dənizə atıb. Bu sevgi əhvalatını Qara şəhərdə belə danışırlar.”

Qırğınlar zamanı fikir verdim ki, bu gözəl şahzadənin kədərli hekayəsi hər şeyi son dərəcə qısa xülasələrlə verməsi ilə məşhur olan London gündəlik qəzetlərindən birinin sütunlarında yeni və heyrətləndirici bir şəkil aldı. Qız qalası əfsanəsinin yeni variantı belədir: “Şəhərin ortasındakı köhnə fars qalasının daş divarları hələ də demək olar ki, bütöv qalır və onların altında Qız qalası ucalır — bu da daşdan, təxminən 150 fut hündürlüyündə qoşa bir tikilidir. Əfsanəyə görə, bir tatar xanı və oğlu eyni qıza aşiq olmuşlar və onunla hansının evlənəcəyinə qərar verə bilməyib, məsələni qızı qalanın başından ataraq həll etmişlər.”

Mənim üstünlük verdiyim rəvayət cənab Skraynın danışdığından yalnız bir qədər fərqlənir və bunun intihar, yoxsa qətl olması kimi mühüm məsələdə gündəlik qəzetin variantı ilə ziddiyyət təşkil edir. Bakıda məni inandırdılar ki, qızın aşiqi “eyni nəsildən gənc” deyil, şəhvətpərəst qoca bir xan idi və qız qalanın başından dənizə xan tərəfindən atılmamış, özünü atmışdı[11].

Bakı şəhərinin, Bayıl burnunun, Ağ şəhərin, Keşlə (Kishli) və Əhmədli (Akhmedli) kəndlərinin, Bibiheybət neft mədəni rayonunun, Balaxanı–Sabunçu–Ramana yataqlarının və Balaxanı, Sabunçu, Ramana və Zabrat kəndlərinin siyahıyaalma məlumatları əhalinin sayını 206 757 nəfər müəyyən edir[12]. Qırx dörd millət qeydə alınmışdır. Bunlara demək olar ki, bütün Avropa millətlərinin, Orta Asiyanın, Kiçik Asiyanın, İranın, Ərəbistanın və hətta Həbəşistanın nümayəndələri daxildir. Əsas millətlər on üçdür və onların hər birinin 500-dən çox nümayəndəsi var. Birinci yeri sayı 74 254 nəfər olan ruslar tutur; sonra 53 827 yerli tatar, 34 259 erməni, 18 572 fars, 5 859 yəhudi, 5 025 alman, Cənub-Şərqi Rusiyadan olan 4 157 tatar (Kazan tatarları kimi tanınan), 3 857 ləzgi, 2 614 gürcü, 1 548 polyak, 617 yunan və 679 mordva gəlir[13]. Qalan sakinlər — sayca 1 646 nəfər — otuz bir milləti təmsil edir. Onlardan səkkizinin

[11] Qız qalası haqqında Azərbaycan xalq rəvayətlərinin bir neçə variantı var; onların heç birində “tatar xanı” ifadəsi işlənmir. Qalanın tarixi və təyinatı (müdafiə, rəsədxana, məbəd və s.) barədə alimlər arasında hələ də müzakirə gedir; 2000-ci ildə İçərişəhər, o cümlədən Qız qalası və Şirvanşahlar sarayı UNESCO-nun Ümumdünya irsi siyahısına daxil edilmişdir. — *Tərc.*

[12] İyirmi il əvvəl Bakının əhalisi 70 000 ilə 80 000 arasında idi.

[13] Müəllifin “yerli tatarlar” adlandırdığı 53 827 nəfər Bakının yerli azərbaycanlı əhalisidir. XIX əsr və XX əsrin əvvəllərinin rus və Avropa mənbələrində azərbaycanlılar “tatarlar”, “Qafqaz tatarları”, “Azərbaycan tatarları” və ya “müsəlmanlar” adlandırılırdı; bu ad Kazan tatarları ilə heç bir etnik eyniyyət bildirmir (müəllif özü də onları ayrıca sayır). Siyahıyaalma 1903-cü ilə aiddir. Mətndə ümumi say 206 757, cədvəldə isə 206 751 göstərilmişdir; uyğunsuzluq orijinala aiddir. — *Tərc.*

— isveçlilər, osetinlər, latışlar, çexlər, slovaklar, fransızlar, litvalılar, ingilislər və türklərin — hər birinin yüzdən çox nümayəndəsi var. Qalan iyirmi üç millətin hər biri 100-dən az nəfərlə təmsil olunur, on yeddisi isə hər biri 25 nəfərdən azdır.

Cinslər üzrə:

	Şəhər	Ətraf	Neft mədənləri	Cəmi
Kişilər	78 863	11 144	38 080	128 087
Qadınlar	59 748	6 121	12 795	78 664
Cəmi	138 611	17 265	50 875	206 751
1000 kişiyə düşən qadın	758	549	336	614

* * *

Ticarət və etnik baxımdan Rusiyanın Yohannesburqu olan Bakı tarixən, memarlıq baxımından və hətta adi küçə mənzərələrində qədimlə müasirin olduqca qeyri-adi qarışıqlığını özündə daşıyır. Bunun hər yerdə şahidi olursunuz. Neft krallarının müasir daş sarayları, ən yaxşı Avropa nümunəsində tikilmiş yeni texniki məktəb və yüzlərlə gözəl ictimai bina şəhərin qədim nişanələrindən — Qız qalası (Bakının qeyri-adi mayakı), qədim və uçub-tökülən dişli qala divarları, fars şahlarının məscidi (1078)[14], xanların sarayı[15] (XV əsr)[16], keçmiş günlərin şahzadələrinin yaşadığı köhnə binalar və kədərli baxışlı asiyalıların və daha işgüzar və çalışqan ermənilərin məşhur Qafqaz xalçalarını, döymə və filiqran gümüş məmulatlarını, ucuz hazır geyimləri və hər cür qədim silahları satdıqları minlərlə kiçik dükandan — daha gözə çarpan deyil.

Burada xüsusi şəxslər elektrik işığından və telefondan bizim ölkədəki eyni ölçülü hər hansı şəhərdəkindən daha çox istifadə edirlər. Bu baxımdan çox müasir olsa da, Bakı qədim su arabalarına və dəvə karvanlarına sadiq qalır. Dedim ki, qədimlə müasir burada görüşür; onlar hətta şəhərin nəhəng qəbiristanlıqlarında da bir araya gəlir.

Qədim qəbiristanlıq Bakının arxasındakı təpənin dik yamaclarında göz önündə uzanır. Xristianların, ermənilərin və müsəlmanların qəbirləri üzərindəki minlərlə baş daşı yıxılmış və elə qarmaqarışıq halda yatır ki, adama burada torpaq sürüşməsi olub kimi gəlir. Təpənin başında yeni qəbiristanlıq var. Bu qəbiristanlığın erməni məhəlləsinə yaxın alman hissəsində üç britaniyalı dəfn olunmuşdur. Şibayev neft şirkətinin baş direktoru cənab A. U. Vaqstaff orada dəfn olunmuşdur, yaxınlıqda isə cənab Viskin və cənab Fergusonun məzarları var.

Bakı, Xəzər dənizi tərəfdən yaxınlaşdıqda, mənzərəli, hətta əzəmətli və vüqarlı görünür. Onu qış qarı altında da, tropik yay günəşi altında da görsəniz, təəssürat eyni olur. Yamac boyunca ağ evlər və gözəl ictimai binalar yuxarı qalxır. Aşağıda isə Bayıl burnundan Qara şəhərə qədər yeddi mil uzanan işgüzar küçə sahil boyu uzanır.

Böyük körfəz aypara şəklindədir. Onun Bayıl tərəfindəki ucunun qoynunda, təbii sığınacaq limanında Xəzər donanmasının gəmiləri lövbər salıb dayanır və dənizə nadir hallarda

[14] Çox güman ki, Məhəmməd məscidi (Sınıq qala minarəsi ilə, 1078–1079) nəzərdə tutulur; o, “fars şahlarının” deyil, Şirvan dövründə tikilmişdir. — *Tərc.*

[15] Şərq memarlığının gözəl nümunəsi olan xanların sarayı o illər sursat anbarı kimi istifadə olunmuşdur. Qırğınlardan bir qədər əvvəl şəhər hakimiyyəti hərbi rəhbərlərdən onu ictimai muzeyə çevirməyə icazə verməyi xahiş etmişdi. Xahiş qədim binanın Mancuriyadan qayıdan yaralılar üçün hospital kimi istifadə olunacağı əsası ilə rədd edilmişdir.

[16] Müəllifin “xanların sarayı” adlandırdığı bina XV əsrdə Şirvanşahlar sülaləsi tərəfindən tikilmiş Şirvanşahlar sarayıdır. — *Tərc.*

çıxır. Bunlar əsasən top gəmiləridir. Şəhərdə silahlı dəstələr arasında gedən şiddətli döyüşlərə ciddi təsir göstərmək üçün çox kiçikdirlər.

Vintli yedək gəmiləri neftlə dolu nəhəng taxta barjaları durmadan yedəkləyir. Barjalar Bayıl burnunun arxasındakı Bibiheybət mədənlərindən körfəzin qarşı sahilindəki Qara şəhər və Ağ şəhər neftayırma zavodlarına aparılır.

Gecə Bakı xüsusilə gözəl görünür. İşıq sıraları təpələrə doğru qalxır, bulvarı haşiyələyir, körpüləri, pristanları və sərnişin gəmilərini işıqlandırır. Daha bir müqayisəyə cəsarət etsəm, bu mənzərə bizim ən məşhur kurort şəhərlərimizin körfəzlərindəki ən yaxşı süni işıqlandırmadan heç də geri qalmır.



Balaxanının neft mədənindəki kilsə. Sentyabr qırğını zamanı burada fəhlələrə xəbərdarlıq etmək üçün zəng müəmmalı və məşum şəkildə çalınmışdı; zəngi kimin çaldığını isə heç kim bilmirdi.



Bakıda xanların qədim sarayı.

1886-cı ildə Qafqaz səyahətləri haqqında maraqlı bir əsər yazmış polkovnik Stüart deyir:

“Şəhərin özü gözəl, yaxşı qorunan bir körfəzdə yerləşir; ondan bir qədər cənubda öz körfəzi olan kiçik Bibiheybət neft mədəni yerləşir; sonra, şəhərə daha yaxın, bir burunda dəniz qərargahı yerləşir. Sonra körfəzin sahili boyunca, qərbdən şərqə uzanan xətt üzrə əvvəlcə ticarətin aparıldığı şəhərin özü, sonra neftayırma zavodlarının əksəriyyətinin yerləşdiyi Qara şəhər yerləşir. Daha şərqdə müasir və daha yaxşı neftayırma zavodlarının çoxunun yerləşdiyi Ağ şəhər gəlir. Nobel qardaşlarının neftayırma zavodu müasir sistemlə idarə olunanlardan biri olsa da, Qara şəhərin yaxınlığında yerləşmək bədbəxtliyinə düçar olmuşdur. Qara və Ağ şəhərlərin görünüşü arasında çox nəzərəçarpan fərq var: ikincisində neftayırma zavodlarının bacalarından heç bir tüstü çıxmır, birincisində isə, bir neçəsi istisna olmaqla, qara tüstü burum-burum qalxır.”

Dağılmış, güllə izləri ilə dolu və yanmış binaları təmir edildikdən sonra Bakı yenə o danılmaz cazibələrə malik olacaq və daha yaxşı tanınsa, heç kəs onun qədimdən məşhur və bu gün də şöhrətli çoxsaylı memarlıq abidələrinə, o möhtəşəm liman işıqlarına və bu daxili dənizdəki ən yaxşı körfəzə malik olduğunu inkar edə bilməyəcəkdir.

Əgər Bakı tərk edilmiş bir şəhər olsaydı, çoxdilli əhalisinin ən rəzil ünsürləri getsəydi[17], xarabalıqları bərpa olunsaydı və sənayesi susmuş olsaydı — əgər insan qədim şəhərdə tək gəzib onu bir zamanlar olduğu kimi, odpərəstlərin Məkkəsi, “onların müqəddəs ünsürünün ən saf mənbəyi” kimi görə bilsəydi — o, nə eybəcər, nə də çirkli görünərdi, əksinə, Zaqafqaziyanın

[17] “Çoxdilli əhalisinin ən rəzil ünsürləri” ifadəsi müəllifin şəxsi, təhqiramiz mülahizəsidir və heç bir konkret qrupa istinad etmir. — *Tərc.*

ən mənzərəli şəhərlərindən biri olardı. Hesab edirəm ki, əgər Bakı süni şəkildə suvarılsaydı, gözəllikdə Qafqazın qərb tərəfinin və Qara dənizin şərq sahilinin bir çox dünyaca məşhur yerlərini üstələyərdi.

Düz damlı evləri ilə Bakı həqiqətən Asiya şəhəridir; yalnız asfaltla və yaşıla boyanmış maili dəmir təbəqələrlə örtülmüş bəzi kazarmaya bənzər binalar və zərli günbəzli pravoslav kilsəsi Rusiyanın hakimiyyətini bəyan edir. Bakını təsvir etməyə cəhd edən hər kəs razılaşır ki, ən mənzərəli hissə fars qalası, minarəsi, məscidi və xan hamamlarının xarabalıqları olan köhnə şəhərdir. Düz damlı, pəncərəsiz qəribə evləri olan, dolanbac döngələrlə kəsişən və fevralda və sentyabrda çoxlu qətllərin baş verdiyi köhnə tatar şəhərində tatar və erməni tacirləri adətən mallarını kiçik, qaranlıq dükanların qabağında nümayiş etdirirlər. Mən bazarda olanda erməni tacirlərinin dükanları bağlı idi. Onların sahibləri ya qaçmış, ya da fevral qırğınlarının ilk günü öldürülmüşdülər. Hazırda köhnə tatar məhəlləsində bir nəfər də erməni yoxdur[18].

Lakin Bakının əsl tacı onun neft mədənləridir. Şəhəri bugünkü halına məhz onlar gətirmişdir: Bakı Qafqazın paytaxtıdır. Rusiyada bir xalqın firavanlığının ən yaxşı ölçüsünün onun mineral sərvətlərinin genişliyi və zənginliyi olduğu tam dərk ediləndə, bu şəhər o vəhşi diyarların sənaye tarixində daha da böyük rol oynayacaqdır.

Baş verən fəlakət dünya miqyaslı bu sənayedə misli görünməmiş bir fəlakətdir. Lakin Qafqaz neft sənayesi birdəfəlik məhv olmayıb və ola da bilməz. O, həmin heyrətamiz neft mədənlərinin və qədimdən məşhur olan bu sənaye şəhərinin külündən ənqa quşu kimi yenidən dirçələcəkdir.

---

[18] Qırğınlardan sonra Abşeron yarımadasının şimal sahilindəki Maştağa (Mashtagi), Mərdəkan (Mardakiany), Buzovna və Bilgəh (Bilga) kəndlərində ermənilərə məxsus üzüm bağları boş qaldı. Bu yaya qədər həmin bağlarda Bakının orta təbəqədən olan ailələri yaşayırdı. Bağ və üzümlüklərin bir hissəsi varlı ermənilərin idi. Onlar burada dəbdəbəli villalar tikmiş, nadir meyvə ağacları və üzüm sortları yetişdirmişdilər.

Yay boyu erməni villalarının qapı və pəncərələri mıxlanmış qaldı, bağlar və üzümlüklər baxımsız qaldı. 1000 funt sterlinq dəyərində olan ev və üzümlük cəmi 100 funta satışa çıxarılırdı, amma bu qiymətə də alıcı tapılmırdı. Ruslar almağa qorxurdu. Tatarlar isə tələsmirdilər: vaxt keçdikcə bunların hamısını pulsuz ələ keçirəcəklərini düşünürdülər.

Sentyabrda Bakının özündə də daşınmaz əmlakın qiymətləri kəskin dəyişdi. Şəhərin yuxarı hissəsindəki tatar məhəlləsində bir çox ev və torpaq sahəsi boşaldı, çünki onların sahibləri olan ermənilər qaçmışdı. Bakıda qalan ermənilər isə kütləvi şəkildə şəhərin aşağı hissəsinə köçdülər. Bəzi yerlərdə onlar başqa millətlərdən olan sakinləri demək olar ki, tamamilə sıxışdırıb çıxardılar. Nəticədə Qara şəhərin yaxınlığındakı bataqlıq və malyariya yayılmış aşağı hissə "İkinci Ermənikənd" adlanmağa başladı. Bu ad Bakıdakı ilk erməni məhəlləsi olan Ermənikəndə işarə idi.

Beləliklə, tatar məhəlləsində ev və otaqların qiyməti düşdü, iki erməni məhəlləsində isə əmlak xeyli bahalaşdı.

[*Tərcüməçinin qeydi:* "Tatarlar isə vaxt keçdikcə hər şeyi pulsuz əldə edəcəklərini düşünərək…" cümləsi tatarların (azərbaycanlıların) motivlərinə dair müəllifin şəxsi ehtimalıdır və heç bir sübutla təsdiqlənmir; erməni əmlakının pulsuz ələ keçirilməsi niyyətini bütöv bir xalqa aid etmək qərəzli ümumiləşdirmədir. Bundan başqa, eyni qeyddə müəllif özü də göstərir ki, ermənilər "bəzi yerlərdə başqa millətlərdən olan ev sahiblərini demək olar ki, tamamilə sıxışdırıb çıxardılar"; deməli, köçkünlük və əmlak dəyişiklikləri hər iki tərəfə toxunmuşdu.]

II fəsil. Əbədi odlar diyarı

Neft və qır haqqında Bibliyadakı işarələr — Misirdə neft — Zakinf quyuları — Makedoniyalı İsgəndər Bakıda — Ən erkən fontanlardan biri — Böyük Pyotrun general Matyuşkinə göstərişləri — Diqqətəlayiq bəyannamələr; bir təsadüf — Pyotrun Bakıya yürüşü — Bakı xanları və neft quyuları — Odpərəstlik kultu — İmperator İraklinin muğ məbədlərini dağıtması, lakin Suraxanı məbədini saxlaması — Bibiheybət yaxınlığında dənizdə təbii qaz alovları — "Dəniz sanki yanırdı" — Texasda eyni hadisə.

"Bir zamanlar məbədi zəif-zəif işıqlandıran neft indi bir imperiyanı işıqlandırır və tezliklə bütöv bir yarımkürəyə işıq və istilik verəcəyini vəd edir."

Bakıdan on mil aralıdakı qədim Suraxanı kəndindəki "sönməz", yaxud daha çox deyildiyi kimi, "əbədi" odların qısa salnaməsində Abşeron yarımadasında neftin mövcudluğu haqqında ilk hekayələrin xülasəsini görürük. İyirmi beş il əvvəl Suraxanı məbədinin kahini — Hindistandan gəlmiş bir parsi, 2500 il əvvələ gedib çıxan uzun odpərəstlər silsiləsinin sonuncusu — öləndə Bakıda neft sənayesi xarici təşəbbüskarlığın faydasını hiss etməyə başlayırdı[19]. Lüdviq Nobel rus neftinin böyük imkanlarını sübut edə bildikdən sonra kapital da gəldi.

Məbədin işığı sönəndə Kanada üçün Petroliya, Amerika üçün Pensilvaniya və Qalisiya üçün Bubrka dünyanı yeni işıqla təchiz edirdi. Bakı nefti yavaş-yavaş qüdrətli Rusiyanın daxili bölgələrinin qaranlıq guşələrinə, Xəzəri keçərək İranın gizli şəhərlərinə və naməlum kəndlərinə və Şərqə sızırdı, zaman keçdikcə bizim ölkəyə də işıq kimi, lakin heç vaxt yanacaq kimi deyil, gəlib çatırdı.

* * *

Neft qədimlərə məlum idi və sivilizasiyanın ən erkən dövründə o, hörgü məhlulu və ya sement kimi işlədilirdi. Bibliya tarixində ona işarələr var. Makkavey kitabında oxuyuruq ki, yəhudilər əsir olaraq İrana aparılarkən qurbangahın müqəddəs odunu bir quyuda gizlətdilər. Peyğəmbər Nehemya ilə Fələstinə qayıdanda yəhudilərin nəsli əcdadlarının gizlətdiyi müqəddəs odu axtarmağa başladılar, lakin onun əvəzinə "qatı su" tapdılar ki, onu qızdırılmış qurbangah daşının üzərinə tökəndə dərhal alovlandı. Bu yer hasara alındı, müqəddəs elan edildi və o vaxtdan "Neftar — təmizləyici yer" kimi tanındı.

Müqəddəs Kitabda aşağıdakı işarələr də var:

Yaradılış, 14:10 — "Siddim vadisində qatranla dolu çoxlu çuxur var idi."

Qanunun Təkrarı, 32:13 — "Onu qayadan süzülən balla, Çaxmaq daşından çəkilən yağla bəslədi."

---

[19] Suraxanı Atəşgahının sonuncu hindu xidmətçisi XIX əsrin 80-ci illərinin əvvəlində məbədi tərk etmişdir. Mövcud Atəşgah binası XVII–XVIII əsrlərdə Hindistandan gəlmiş tacirlər və zəvvarlar tərəfindən tikilmişdir; onun hücrələrindəki kitabələr əsasən hind (devanaqari, qurmukhi) və fars dillərindədir və tədqiqatçıların çoxu məbədin son dövrdə hinduizm (şivaizm) və sikhizm ardıcıllarına xidmət etdiyini göstərir. Müəllifin xidmətçini "parsi" (zərdüştilik ardıcılı) adlandırması və bu məbədi 2500 illik odpərəstlik ənənəsinin birbaşa davamı kimi təqdim etməsi dəqiq deyil. — *Tərc.*

Əyyub, 29:6 — “Yollarımın südlə yuyulduğu, Yanımdakı qayadan zeytun yağı axdığı günlər.”

Mikeya, 6:7 — “Rəbbə min-min qoç qurbanları, Zeytun yağının on minlərcə selləri xoş gələrmi?”

Misirlilər nefti mumiyalamaq[20] və tibbi məqsədlər üçün işlədirdilər. Babildə tikintidə Babildən bir neçə yüz mil aralıda, Fəratın qollarından birində toplanan neftdən hazırlanmış asfaltabənzər materialdan istifadə edilirdi. Bəzi tədqiqatçılar hesab edirlər ki, hərbi məqsədlər üçün işlədilən məşhur “yunan odu”nun tərkibinə neft daxil idi; bu od suyun üzərində yanırdı və yunanlar İqorun Konstantinopola yürüşü zamanı rus hərbi gəmilərini məhz bu yolla məhv etmişdilər.

Yunan və Roma yazılarında neftin və onun törəmələrinin yanacaq kimi işlədilməsinə çoxlu işarələr var.

Eramızdan əvvəl 500-cü ildə Herodot Zakinf adasının neft quyularından danışmışdı (onlar tez-tez neft üçün istismar edilmiş, lakin heç vaxt ticari uğur qazanmamışdır; bu il gəlirli miqdarda neft əldə edə bilməyən bir ingilis şirkəti onlardan imtina etmişdir), Pliniy və Dioskorid isə “Siciliya yağı” adı ilə çıraqlarda yandırılan Akraqant neftini təsvir etmişlər.

Kurtsi, Diodor, Pliniy, Boşar və İosif Flavi qırın Babilin nəhəng divarlarının, uca qüllələrinin və dünyanın möcüzələrindən biri olan asma bağlarının tərkib hissəsi olduğundan danışırlar. Zamanın insan əməlini korlamaq və dağıtmaq üçün bacardığı hər şeyə baxmayaraq, təxminən otuz altı əsr keçdikdən sonra neftlə bərkidilmiş bu divar və qüllələrin qalıqları mövcuddur; qədim şəhərlərin xarabalıqlarından hələ də üzərinə asfalt yapışmış kərpic qırıqları çıxarılır.

Orta əsrlərdə neft yanacaq kimi, dərman kimi və Amiano nefti misalında olduğu kimi, Genuya küçələrində işıqlandırıcı kimi istifadə olunurdu. Bohemiyada Tegern gölündə toplanan neft Müqəddəs Kvirin yağı kimi tanınır və bəzi xəstəliklərə qarşı dərman sayılırdı[21].

Qafqazda belə bir əfsanə var ki, Makedoniyalı İsgəndər indi Bakının yerləşdiyi yerin yaxınlığından keçərkən bir oğlanı “yanan su” ilə isladaraq yandırmışdır.

---

[20] Doktor Pettiqryu Misir mumiyalarının tarixinə dair əsərində bildirir ki, qazıb çıxardığı mumiyaların çoxunun boşluqları asfaltla doldurulmuşdu. Müasir tədqiqat və müşahidələr neftin mumiyalama prosesində geniş istifadəsi barədə iddianı, görünür, təsdiq edir. Mumiyanın rəngi, qoxusu və alışqanlığı neftin mövcudluğunu göstərir. Hətta cəsədlər köçəri ərəblər tərəfindən yanacaq kimi işlədilir və o bölgələrdəki müasir səyyahlar da onlardan eyni məqsədlə istifadə etmişlər; o, həmçinin qədim papirusun hazırlanmasında həşəratların hücumunun və zamanın aşındırıcı təsirinin qarşısını almaq üçün yapışdırıcı kimi işlədilirdi. Onun Babilin tikintisində istifadəsi xatırlanır. Herodot deyir: “Xəndək qazaraq, çıxarılan torpaqdan kərpic düzəltdilər və iri kərpic istədiklərindən onları sobalarda bişirdilər, əhəng və ya məhlul əvəzinə isti asfalt, yaxud qır işlətdilər.” O, daha sonra danışır ki, qır Fəratın qollarından biri olan çaydan gətirilirdi. XVIII əsr səyyahı Kartrayt deyir: “Qədim Babilin xarabalıqlarından Ait (indiki Hit) adlı bir şəhərə gəldik; bu şəhərin yaxınlığında baxması çox heyrətamiz bir qır vadisi və az qala inanılmaz şeylər var; orada qətrana və ya qıra bənzər çoxlu bulaqlar var ki, ətraf ölkələrin hamısı qayıqlarını və gəmilərini kipləşdirmək üçün onlardan istifadə edir; bu bulaqların hər biri dəmirçi kürəsi kimi səs çıxarır, bu səs gecə-gündüz kəsilmir və bir mil uzaqdan eşidilir.” Latın səyyahı cənab Riç deyir: “Hitdəki əsas qır çuxurunun iki mənbəyi var və ortasından bir divarla bölünür; onun bir tərəfində qır, digər tərəfində isə nafta yağı qaynayıb çıxır.”

[21] Müəllif çox güman ki, Bavariyadakı Tegernzee gölünü (Bohemiyada deyil) nəzərdə tutur; Müqəddəs Kvirin yağı məhz oradan tanınır. — *Tərc.*

Abşeron yarımadasının yerli sakinləri nefti çoxdan praktiki məqsədlər üçün kifayət qədər geniş miqyasda işlədirdilər. Eramızın VIII əsrində yaşamış ərəb salnaməçisi İstəxri qeyd edir ki, Bakı əhalisi odun olmadığı üçün yeməyi neftə hopmuş torpağın köməyi ilə hazırlayırdı[22].

XIII əsrdə Qara dənizdən Orta Asiya vasitəsilə Çinə səyahət etmiş məşhur Venesiya taciri Marko Polonun dediyinə görə, neft dəvələrlə ətraf ölkələrə ixrac olunur və işıqlandırıcı kimi işlədildiyi Bağdada qədər gedib çatırdı. Bu müəllif bir saat ərzində "yüz gəmini yükləməyə kifayət edən miqdarda neft" püskürən məhsuldar bir neft fontanını xatırladır[23].

Doktor Oskar Şneyder bildirir ki, Bakıda köhnə bir neft quyusunda ərəbcə yazısı olan bir daş tapılmışdır; ona görə, quyu hicri 1003-cü ildə (bizim təqvimlə 1600-cü il) istismar olunmuş və bu məqsədlə Məhəmməd Nurun oğlu Allahyardan icarəyə götürülmüşdü[24].

Qafqaz haqqında qədim rus əsərlərini oxuyarkən Böyük Pyotrun Bakını farslardan almağa göstərdiyi böyük həvəs diqqətimi cəlb etdi. Rusiyanın mütləq hökmdarlarının ən işgüzarı Abşeron neft mənbələrinin imkanlarını dərk etmiş görünür. 1723-cü ildə Bakı xanlığı Rusiyanın nəzarəti altına keçəndə[25] Pyotr Bakıya xüsusi diqqət yetirdi, çünki onu Şərqlə ticarətin mərkəzləşdirilməsi üçün münasib məntəqə hesab edirdi. Onun gözü həm də şəhərin maye mineral sərvətində idi. Bakını hücumla almış general Matyuşkinə verdiyi göstərişdə Pyotr yazırdı: "Ağ neftdən min pud, yaxud mümkün qədər çox göndərin və burada bir təmizləmə ustası tapın."

Qafqaz tarixini öyrənənlər xatırlayarlar ki, 1722-ci ildə Pyotr İrana yürüş etmişdi. Həmin il iyunun 15-də Həştərxana çatanda o, tatar, türk və fars dillərində[26] bir manifest dərc etdi. Orada deyirdi:

"Əlahəzrət, ən nəcib, ən qüdrətli və ən zəhmli İran şahının, bizim böyük dostumuz və qonşumuzun hakimiyyəti altında olan Ləzgi ölkəsinin hakimi Daud bəy və Qazıqumuq vilayətinin hakimi Surxay bu yerlərdə müxtəlif millətlərdən çoxlu bədniyyət və fitnəkar adam toplayıb adı çəkilən əlahəzrət dostumuz şaha qarşı üsyan etmiş, eyni zamanda onun Şirvan vilayətində yerləşən Şamaxı şəhərini hücumla almış və əlahəzrət dostumuz şahın təbəələrindən çoxunu öldürməklə yanaşı, müqavilələrə və qədim adətlərə uyğun olaraq ticarət məqsədilə oraya köçmüş ruslarımızı da ən özbaşına və qeyri-insani şəkildə qətlə yetirmiş, onların dörd milyon rubl məbləğində əmlakını və mallarını ələ keçirmiş və bununla da müqavilələri və

[22] Əl-İstəxri X əsrdə yaşamışdır ("Kitab məsalik əl-məmalik" əsəri təxminən 950-ci illərə aiddir), VIII əsrdə deyil. — *Tərc.*

[23] Marko Polo Bakıda olmamışdır; onun "Səyahət kitabı"nda Gürcüstan sərhədi yaxınlığında böyük neft bulağı və neftin dəvələrlə uzaq ölkələrə daşınması haqqında məlumat başqalarının sözlərindən verilir. "Bir saatda yüz gəmi" ifadəsi müəllifin sərbəst nəqlidir; Marko Poloda söhbət bulağın bir dəfəyə "yüz gəmini doldura biləcək" qədər neft verməsindən gedir. — *Tərc.*

[24] Söhbət Balaxanıda tapılmış və hazırda Azərbaycan Milli Tarix Muzeyində saxlanılan məşhur kitabədən gedir. Ərəb-fars dilində yazılmış kitabəyə görə, 35 arşın dərinliyində olan quyu hicri 1003-cü ildə (miladi 1594/1595) Məhəmməd Nurun oğlu Allahyar tərəfindən qazılmışdır; "1600-cü il" tarixi və "icarəyə götürülmüşdü" ifadəsi dəqiq deyil. — *Tərc.*

[25] 1723-cü ildə "Bakı xanlığı" hələ mövcud deyildi: Bakı Səfəvi dövlətinin Şirvan bəylərbəyiliyinin tərkibində idi; Bakı xanlığı XVIII əsrin ortalarında, Nadir şahın ölümündən sonra yaranmışdır. Rus qoşunları Bakını 1723-cü ilin iyulunda mühasirədən sonra tutmuşdu. — *Tərc.*

[26] Pyotrun manifestinin "tatar dili" adlandırılan nüsxəsi Azərbaycan türkcəsində idi; manifesti Dmitri Kantemir tərtib etmiş və çap etdirmişdi. — *Tərc.*

ümumi asayişi pozaraq imperiyamıza zərər vurmuşlar[27]. Buna görə də rus millətimiz bu yaramazlar tərəfindən zərər çəkdiyi və təhqir olunduğu və heç bir əvəz ala bilmədiyi üçün biz Rəbbimiz Allaha qələbə üçün qızğın duadan sonra məğlubedilməz ordumuzla üsyançılara qarşı şəxsən yürüş etməyə məcburuq, tam əminik ki, hər iki tərəfə bu qədər narahatlıq və ziyan vurmuş həmin yaramazları layiqli cəzaya çatdıracaq və özümüz üçün tam ədalət bərpa edəcəyik. Buna görə də bununla əziz dostumuz ən nəcib, ən qüdrətli və ən zəhmli Əlahəzrət şahın bütün sərkərdələrinə və təbəələrinə, hansı dindən və millətdən olursa olsun — farslara və əcnəbilərə (əcəm), ermənilərə, gürcülərə və bu yerlərdə yaşayan bütün başqalarına — ən mərhəmətli imperator təminatımızı veririk; bizim qəti və səmimi qərarımızdır ki, yuxarıda adı çəkilən vilayətlərdə nə yerlilərə, nə də əcnəbilərə zərrə qədər zərər vurulmasın və heç kəs onların canına və ya əmlakına, şəhərlərinə və kəndlərinə toxunmasın; çünki biz generallarımıza, zabitlərimizə və həm süvari, həm də piyada digər komandirlərə və ümumiyyətlə bütün orduya hər hansı bir şəxsə ən kiçik zərər vurmağı ən ciddi şəkildə qadağan etmişik; əgər adamlarımızdan biri ən kiçik xətada təqsirli bilinsə, cəza və edam dərhal ardınca gələcəkdir. Lakin bu, belə bir şərtdən asılı olaraq başa düşülməlidir ki, siz dostlara yaraşan kimi evlərinizdə sakit qalasınız və əmlakınızı aparmayasınız. Əksinə, əgər görsək ki, siz o vəhşi quldurlarla əlbir olursunuz və onları gizli və ya açıq şəkildə pulla və ya ərzaqla təmin edirsiniz, yaxud mərhəmətli təminatlarımıza baxmayaraq evlərinizi və ya kəndlərinizi tərk edirsiniz, *biz sizi düşmənlərimiz sırasına daxil etməyə və amansızcasına od və qılıncla təqib etməyə məcbur olacağıq. O zaman siz edam olunacaqsınız və bütün əmlakınız talana veriləcəkdir*. Buna görə siz və yalnız siz günahkar olacaqsınız və Rəbbimiz Allahın ikinci gəlişində bunun cavabını verməli olacaqsınız.”

Kursiv mənimdir və bir təsadüfə — Pyotrun hədələri ilə Bakıda çap olunmuş və bu ilin 25 avqust tarixini daşıyan aşağıdakı bəyannamənin son cümləsindəki hədə arasındakı oxşarlığa — diqqəti cəlb etmək məqsədi daşıyır:

“Artilleriya da daxil olmaqla qoşunlar gəlir. Atəş açılmış bütün evlər qeyd olunmuşdur; bu evlərin sahibləri, idarəçiləri və sakinləri bu atəşlərə görə məsul şəxslər kimi cəzalandırılacaq və atəş nəticəsində dəymiş zərərlər onların hesabına yazılacaqdır. Buna görə də xəbərdarlıq edirəm ki, bundan sonra evlərdən və damlardan atəş açmaq kimi cinayət əməllərində təqsirkar olan hər kəslə eyni qaydada rəftar ediləcəkdir. Hər hansı bir şəkildə qoşunlara mane olanlara və ya sakinləri narahat edənlərə heç bir mərhəmət göstərilməyəcəkdir. — (İmza) General-leytenant Fadeyev, müvəqqəti general-qubernator.”

İyulun 18-də imperator 442 gəmidən ibarət donanma ilə, 22 000 nizami qoşun və 5 000 dənizçidən ibarət ordunun başında Həştərxandan yola düşdü. Bu yürüş üçün nəzərdə tutulmuş bütün qüvvələrin 106 000 nəfərə çatdığı deyilir, çünki ora 22 000 piyada, 20 000 kazak, 30 000 tatar, 20 000 kalmık, 9 000 süvari və 5 000 dənizçi daxil idi. Bir neçə döyüşdən sonra, 1722-ci il avqustun 23-də imperator hakimi şəhəri könüllü olaraq təslim etmiş Dərbəndə daxil oldu.

[27] Manifestdə adı çəkilən “Daud bəy” Hacı Davud Müşkürlü, “Surxay” isə Qazıqumuq hakimi Surxay xandır. 1721-ci ildə onların başçılıq etdiyi qüvvələr Səfəvi hakimiyyətinə qarşı üsyan edərək Şamaxını almışdılar; bu zaman rus tacirlərinin mallarının talan edilməsi Pyotrun Xəzəryanı yürüşünə rəsmi bəhanə olmuşdur. Manifest Rusiya tərəfinin mövqeyini əks etdirir. — *Tərc.*

Lakin Bakını almaq cəhdləri o qədər də uğurlu olmadı və imperator sentyabrın əvvəlində Həştərxana geri qayıtdı.

1723-cü ildə Bakını ələ keçirmək əmri almış general Matyuşkin şəhəri top atəşinə tutdu və hücuma hazırlaşırdı ki, iyulun 26-da qapılar onun üzünə açıldı. (Mən bu fəsli yazdığım zaman əsgərlər Qafqazdakı zorakılığa və qan tökülməsinə son qoymaq və üsyan alovlarını söndürmək üçün Xəzərə və Vladiqafqaz dəmir yoluna doğru irəliləyirlər. — MÜƏLLİF.)

Hekayəni tarixi baxımdan tamamlamaq üçün deməliyəm ki, 1735-ci ildə, imperatriça Annanın hakimiyyəti dövründə Bakı İrana qaytarıldı və şəhər yalnız 1813-cü ildə yenidən və həmişəlik Rusiyaya təhkim olundu[28].

1735-ci ildə Bakını ziyarət etmiş Lerxe yazır: “Balaxanıda böyük sərvət mənbəyi olan əlli iki neft quyusu var idi. Quyulardan çıxan neft daşdan tikilmiş böyük və dərin hovuzlarda toplanır və böyük dəri tuluqlarda Bakıya daşınır. Neft bütün evlərdə yanacaq kimi (bütün evlər qatı tüstüdən qaralıb) və revmatizm və dəri xəstəliklərinə qarşı dərman kimi işlədilir, daxilə qəbul edildikdə isə böyrək daşını müalicə edir. Çox güman ki, qara ölümün (taunun) Bakıya toxunmaması neftin mövcudluğu ilə bağlı idi.”

Onun səfəri zamanı ildə cəmi 1 500 ilə 3 500 ton (keçən il təxminən 10 000 000 tona qarşı) neft verən neft quyuları onları podratçılara icarəyə verən Bakı xanları üçün böyük gəlir mənbəyi idi. Neft əsasən gil çıraqlarda yandırılır və arabaların (ağır iki təkərli nəqliyyat vasitələri) oxlarını yağlamaq üçün işlədilirdi. Təmizlənməmiş xam neft Qafqazın şimal yamacı boyunca Kubanda və Terekdə də işlədilirdi.



Bakı yaxınlığında, Suraxanıda odpərəstlərin qədim məbədi (Atəşgah).

[28] Bakı 1735-ci il Gəncə müqaviləsi ilə Nadir şaha qaytarılmışdır. 1806-cı ildə rus qoşunları Bakını tutmuş, Bakı xanlığı ləğv edilmiş, 1813-cü il Gülüstan müqaviləsi ilə isə Bakı da daxil olmaqla Şimali Azərbaycan xanlıqlarının Rusiyaya keçməsi İran tərəfindən hüquqi cəhətdən tanınmışdır. — *Tərc.*

Abşeron yarımadası öz “əbədi” odları ilə erkən çağlardan Şərqin yerli xalqlarının diqqətini cəlb etmişdi; onlar bu odları Tanrının təzahürü sayırdılar.

Odpərəstlər eramızdan əvvəl VI əsrdə mövcud idi və Bakının “əbədi” odlarından Zərdüşt (onun Qafqaz silsiləsinin şimal-şərq yamacının yerlisi olduğu güman edilir) işıq və od haqqında təlimini və odpərəstlik kultunu qurarkən istifadə etmişdir[29]. Çox əsrlər boyu Zərdüştün ardıcılları eramızın 624-cü ilinə qədər mövcud olmuş məbədlərdə odların qarşısında ibadət edirdilər. Gibbonun dediyinə görə, həmin il imperator İrakli farslara qarşı yürüşü zamanı Bakıdan on mil cənubda, Kürün mənsəbindəki çöllərdə qışlamışdı[30]. Gibbon deyir ki, orada o, xristian imperatorun qeyrətini və intiqamını nümayiş etdirdi: onun əmri ilə əsgərlər odu söndürdülər və muğların məbədlərini dağıtdılar. On iki il sonra (636-cı ildə) İran ikinci dəfə məğlub oldu, bu dəfə ərəblər tərəfindən, onlar da xalqı qılınc gücü ilə odpərəstlikdən müsəlman dininə çevirdilər. Çoxları Hörmüzə, oradan isə Hindistana qaçdı və indiki Bombey parsilərinin əsasını qoydu. Bu parsilər, yaxud gəbrlər tez-tez Abşeron yarımadasına ziyarətə gəlirdilər. Gəbrlərin məbədlərini Hindistandan, İrandan və iddia edildiyinə görə, vaxtaşırı Litvadan gələn odpərəstlər müntəzəm ziyarət edirdilər.

Məbədlər lap yaxın vaxtlara qədər mövcud idi. Bu gün yalnız biri — Bakıdan bir neçə mil aralıda, Suraxanı kəndində, “Bakı Neft Şirkəti”nə məxsus köhnə Kokorev neftayırma zavodunun yaxınlığında yerləşən və artıq xatırladığım məbəd — qalmışdır. 1879-cu ildə, hökumət məbədə sitayiş edənləri dəhşətə gətirərək rayonun təbii qaz mənbələrinin istismarı üçün Zaqafqaziya şirkətinə konsessiya verəndə bu sonuncu bütpərəst ibadətgahı dağılma təhlükəsi ilə üzləşdi. İndi o, tərk edilmişdir[31].

Bakının neft mənbələri və əbədi odları haqqında ilk dəfə Avropa alimi XVII əsrin əvvəlində Abşeron yarımadasını ziyarət etmiş akademik Kempfer məlumat vermişdir[32]. Bir neçə il sonra onun ardınca Hanvey, Qmelin və Lerxe gəldilər.

1754-cü ildə Bakıda qalmış Cons Hanvey bildirirdi ki, Bakıdan on mil şimal-şərqdə, quru, daşlı bir düzənlikdə qayadan tikilmiş və qədim zamanlarda odpərəstlik üçün istifadə edilmiş köhnə ibadətgahlar və ya məbədlər var idi; onlardan biri, onun dediyinə görə, hindu zəvvarlar üçün ibadətgah kimi xidmət etməkdə davam edirdi. Məbədin yanında, alçaq bir qaya parçasının çatında 6 fut 3 düym uzunluğunda uzununa bir dəlik var idi ki, oradan rəngi və şiddəti ilə spirt lampasının alovunu xatırladan, lakin ondan daha saf bir alov fasiləsiz çıxırdı. Küləkli havada alov bəzən səkkiz fut hündürlüyə qalxır, sakit havada isə xeyli alçaq olurdu. Hanveyin dediyinə görə, Bakıya axışan hind odpərəstlərinin belə bir rəvayəti var idi ki, əbədi od Tufandan bəri yanır və dünyanın sonuna qədər yanacaqdır.

---

[29] Zərdüştün vətəni məsələsi elmdə mübahisəlidir; tədqiqatçıların çoxu onu Şərqi İran və ya Orta Asiya ilə bağlayır. Bəzi orta əsr mənbələri və Azərbaycan tarixşünaslığı onu Azərbaycanla (Atropatena, Urmiya gölü ətrafı) əlaqələndirir. Müəllifin “Qafqaz silsiləsinin şimal-şərq yamacının yerlisi” ehtimalı heç bir mənbəyə əsaslanmır. — *Tərc.*

[30] Kürün mənsəbi Bakıdan təxminən 150 km cənubdadır, “on mil” deyil; Bizans imperatoru İraklinin 624-cü il yürüşü zamanı Qafqaz Albaniyasında (Partav və Kür çayı ətrafında) qışladığı məlumdur. — *Tərc.*

[31] Mövcud Suraxanı Atəşgahı 1975-ci ildən tarix-memarlıq qoruğudur; 2007-ci ildən isə Dövlət Tarix-Memarlıq Qoruğu statusundadır. — *Tərc.*

[32] Engelbert Kempfer Bakıda 1683-cü ildə, yəni XVII əsrin sonunda olmuşdur; o, “akademik” deyil, alman həkimi və səyyahı idi. Lerxe (1735, 1747), Hanvey (1743–1744; müəllifdə 1754) və Qmelin (1770–1771) ondan onilliklər sonra gəlmişlər; “bir neçə il sonra” ifadəsi dəqiq deyil. — *Tərc.*

1771-ci ildə Bakını ziyarət etmiş rus akademiki Qmelin qeyd edirdi ki, yerli odpərəstlər qədim gəbrlərin nəslindəndir. O deyir: “Onlar bu sönməz oda ən müqəddəs bir şey və Tanrının təzahürü kimi ehtiram edirlər — elə bir Tanrının ki, insanlara oddan və ya mayedən daha saf və daha mükəmməl bir mühitdə, başqa sözlə, artıq maddi cisimlər sırasına aid edilə bilməyəcək qədər saf bir mühitdə təzahür edə bilməz. Nicat tapmaq üçün bu dindarlar Hindistandan Bakının əbədi odlarına gəlir və orada Əbədi Varlığın qarşısında yalvarış ibadətlərini elə təsirli şəkildə icra edirlər ki, adamda bütpərəstlər haqqında ümumiyyətlə yayılmış təsəvvürdən tamamilə fərqli bir təəssürat yaradırlar. Əbədi odun yandığı yerin ətrafında onlar hündürlüyü 12 futdan 20 futa qədər olan tağlı məbədlər tikmişlər.”

1845-ci ildə professor Berezin odları təsvir edərək deyirdi: “Qafqaz silsiləsinin şərq ucunda, Bakıdan on mil aralıda, Suraxanı kəndinin yaxınlığında məsaməli, balıqqulaqlı əhəngdaşından yanar qaz şırnaqları çıxır. Gündüz bu odlar o qədər də diqqəti cəlb etmir, lakin gecə, qaranlıq və ıssız ətrafı işıqlandıranda mənzərə dəyişir və budur, odpərəstlərin sadə məbədi sehrli bir qəsrə çevrilir. Rəngbərəng alov dilləri küləkdə sehrli şəkildə rəqs edir. Alov dillərini meh aparır, lakin onların tərk etdiyi yerlərdə daha parlaq alovlar baş qaldırır. Şərqlilərin təxəyyülünün belə nadir gözəllikdə və əzəmətdə bir mənzərədən təsirlənməsi və odpərəstlərin bu əbədi odlara sirli və fövqəltəbii məna verməsi təəccüblü deyil. Unutmamalıyıq ki, odpərəstliyə yalnız şərqlilər qapılmamışlar; əslində dünyada öz odpərəstləri olmayan ölkə demək olar ki, yoxdur.”

Təbii qaz çıxışları hələ də Bakı ətrafında bir çox yerdə müşahidə olunur. Onlar yalnız qurunun özü ilə məhdudlaşmır, Xəzər dənizində də müşahidə edilir. Bibiheybətdəki burundan avarla yarım saatlıq məsafədə dənizə yanan küləş atılsa, dibdən qaynayıb qalxan təbii qazın dərhal alovlandığı və alovun xeyli sahəyə yayıldığı müşahidə olunur. Odu yalnız külək və dalğalar söndürə bilər; bu, xüsusən gecə vaxtı çox maraqlı bir mənzərədir. Bu hadisələr başqa neft yataqlarının yaxınlığında dənizdə də müşahidə olunur. Spindltop bumu (1901) zamanı ziyarət etdiyim Texas neft yataqlarının sahil xəttinə yaxın, Sabin keçidinin lap kənarında qaz dəniz səthinə qaynayıb çıxır.

Ser Boverton Redvud neft texnologiyasına dair əsas əsərində Texasdakı bu hadisəni təsvir etmişdir; Bakıda dənizdəki odlardan bəhs etmiş səyyahlar isə cənab Artur Arnold (1875-ci ildə, Salford parlament üzvü olarkən yazmışdır), cənab Avqustus Mansi (Vyanadakı Britaniya səfirliyi ilə bağlı), cənab Marvin, cənab Edmund O’Donovan (“Daily News” müxbiri) və cənab Osmastondur. Cənab Osmaston yazırdı:

“Dənizçilərdən biri yanan bir küləş parçası atdı və bir-iki uğursuz cəhddən sonra dalğalar bir neçə yard məsafədə alova büründü. Hava artıq qaralmışdı, buna görə onu gözəl gördük. Bu, çox qeyri-adi mənzərə idi; dəniz sanki yanırdı; onun soyuq sinəsi üzərində parlaq bir alov ləkəsi yanırdı. “Temzanı yandırmaq” ifadəsini eşitmişdik, lakin heç düşünməzdim ki, dənizin yandığını həqiqətən görəcəyəm. Onun ətrafında avar çəkdik, sonra uzaqlaşdıq, lakin biz təxminən bir mil uzaqlaşana qədər alovun dalğalarla birlikdə enib-qalxaraq rəqs etdiyi görünürdü. Sonra külək gücləndi və onu söndürdü, çünki o, birdən yox oldu. Xəzərdə neft qazının eyni şəkildə qaynayıb çıxdığı bir neçə başqa yer də var.”

III fəsil. Rusiya neft sənayesinin şəfəqi (1813)

Bakı hökmdarları və neft quyuları — Özbaşınalıq — İltizam sisteminin başlanması — Xəzinənin neftdən gəliri — Humboldtun 1839-cu ildə səksən iki quyu barədə hesablaması — 1832–1840-cı illərin hasilat statistikası — Məhsulun yarısı İrana göndərilir — Reyxenbaxın 1830-cu ildəki təcrübələri — Libixin Suraxanıda fotogen zavodu tikməsi — 1863–1873-cü illər dövrü — Məlikovun Bakıdakı neftayırma zavodu — Bakıda ilk hərraclar və ardınca yeni vergilərin qoyulması — Amerika rəqabətindən müdafiə — Maşınla qazılmış ilk quyu — Mirzoyevin rekordu.

Bakı xanlığının 1813-cü il oktyabrın 12-də İranla bağlanmış Gülüstan müqaviləsi ilə həmişəlik ələ keçirilməsi Rusiya neft sənayesinin tarixində dönüş nöqtəsi oldu. Sənaye ticarət əsasında inkişaf etdirilməyə başlandı. O dövrdə Qafqazın ən yüksək dövlət orqanı olan Gürcüstan hökumətinin Xəzinə idarəsi iki quyudan başqa bütün quyuların Bakının keçmiş hökmdarı Hüseyn[33] xana məxsus olduğunu müəyyən edərək onları müsadirə etdi və ildə 13 000 funt sterlinqə bir iltizamçıya icarəyə verdi; bu, o vaxt bu Qafqaz hökumətinin gəlirində nəzərəçarpan bir maddə sayılırdı. Müsadirə edilməyən iki quyu Səlimxanovların Bibiheybətdəki xüsusi mülkündə idi. Lakin sahiblər hasil etdikləri neftin, ildə təxminən 174 tonu, pudu 18¼ qəpikdən (tonu təxminən 22 şillinq 3 pens) Xəzinəyə təhvil verməli idilər.

Neft sənayesindən, dayaz quyulardan xam neft hasilatından və onun işıqlandırma üçün satışından gəlirini artırmaq məqsədilə Xəzinə onu inhisar kimi idarə etməyə çalışdı, lakin uğur qazanmadı; əslində 1825-ci ildə Xəzinə quyuları öz əlinə alanda bu mənbədən gəlir 13 000 funtdan 7 600 funta düşdü və yenidən iltizam sisteminə qayıtmaq qərara alındı. İltizam sistemi ləğv edildiyi 1872-ci ilə qədər davam etdi. Bu dövrdə Xəzinənin gəliri heç vaxt ildə 15 000 funtu keçmirdi, istehlakçılar isə iltizamçılara yüksək qiymətlər ödəməyə məcbur idilər. Xəzinənin istehlakçının mənafeyi naminə gördüyü yeganə müdafiə tədbiri iltizamçıların xam neftin pudu üçün qırx altı qəpikdən artıq almasını qeyri-mümkün edən bir qayda idi.

O günlərdə xam neft hasilatı az idi. Məşhur səyyah A. Humboldtun dediyinə görə, 1829-cu ildə cəmi səksən iki quyu var idi[34]. 1850-ci ildə bütün Şamaxı quberniyasında ümumi hasilatı 5 436 ton olan təxminən 136 neft quyusu var idi, lakin 1872-ci ilə qədər onların sayı 415-ə, hasilat isə 22 581 tona çatmışdı. Neft quyularının hökumət tərəfindən istismar edildiyi 1834–1849-cu illər arasında hasilat aşağıdakı cədvəldən göründüyü kimi az-çox sabit qalmışdı:

İl	Pud	İl	Pud
1832	150 000	1841	212 117
1833	180 000	1842	215 142
1834	230 091	1843	212 919
1835	237 479	1844	213 503
1836	228 604	1845	212 779
1837	230 538	1846	215 650
1838	233 915	1847	216 318

[33] Bakının sonuncu xanı Hüseynqulu xan (1792–1806). — *Tərc.*

[34] Fəslin başlığında “1839-cu ildə səksən iki quyu”, mətndə “1829-cu ildə səksən iki quyu”, bir neçə səhifə sonra isə “1829-cu ildə cəmi iyirmi səkkiz quyu” deyilir; ziddiyyət orijinala aiddir. — *Tərc.*

İl	Pud	İl	Pud
1839	234 950	1848	269 769
1840	221 032	1849	207 029

İbtidai üsullarla (quyulardan) əldə edilən neft demək olar ki, yalnız xam halında, əsasən məişətdə, işıqlandırma üçün, dərinin, təkərlərin və at yəhər-qoşqusunun yağlanması üçün, mal-qaranın çimizdirilməsi üçün və s. işlədilirdi. Hasilat nə qədər az olsa da, onun böyük hissəsini yerində istehlak etmək mümkün deyildi və məhsulun təxminən yarısını İrana ixrac etmək lazım gəlirdi.

Həm daxili istehlakın, həm də İrana ixracın həcmi həmişə hökumətin xam neft üçün müəyyən etdiyi qiymətdən asılı idi. 1825-ci ildə qiymət Bakıya çatdırılmaqla pudu otuz beş qəpik idi; 1839-cu ildə hökumət qiyməti quyuların başında otuz beş qəpik müəyyən etdi, lakin 1846-cı ildə Xəzər Dövlət Palatası Qafqaz canişini və indiki canişinin əcdadı knyaz Vorontsovdan qiyməti qırx qəpiyə, bir il sonra isə qırx beş qəpiyə qaldırmağa icazə aldı. Qiymət artımının nəticəsi Bakıda xam neft satışının azalması və həm daxili, həm də İran istehlakçılarının daha keyfiyyətli nefti Çələkən türkmənlərindən daha ucuz qiymətə almaları oldu. Gəlir azaldığından canişin 1848-ci ildə ixrac olunan neft üçün qiymətin qırx qəpiyə endirilməsinə icazə verdi, daxildə istehlak olunan neft üçün isə qırx beş qəpiklik qiyməti saxladı; məqsəd bu güzəştlə Çələkən rəqabətini zəiflətmək idi. Bu tədbir də vəziyyəti yaxşılaşdırmadı və 1850-ci ildən son ləğvinə, 1873-cü ilə qədər hökumət iltizam sisteminə sadiq qaldı. Müqavilələr adətən cəmi dörd illik olduğundan iltizamçılar, təbii ki, böyük məbləğlər qoymaqla hasilatı artırmağa can atmır, təkmilləşdirmələr və düzgün idarəetmə məsələləri ilə özlərini narahat etmədən mümkün qədər az xərclə yerdən bacardıqları qədər çox çıxarmağa üstünlük verirdilər.

Xam neftin yüksək qiyməti onun daha geniş tətbiqinə mane olurdu və işlər 1860-cı ilə qədər beləcə ləng gedirdi; həmin il Zaqafqaziya şirkəti xam neftdən işıqlandırıcı yağ çıxarmağa başladı.

Reyxenbax 1830-cu ildə Almaniyada torfdan, boqhed[35] kömüründən və oxşar materiallardan fotogen[36] çıxarmaq üçün uğurlu təcrübələr aparmışdı. Bu təcrübələr təşəbbüskar rusların diqqətini Qafqazın bir çox yerində rast gəlinən qır yataqlarına cəlb etdi; qır asfalta bənzəyən bir karbohidrogendir.1858-ci ildə “Zaqafqaziya Ticarət Şirkəti” adı ilə fəaliyyət göstərən cənablar Kokorev və Qubonin təbii qazdan pulsuz yanacaq kimi istifadə edə bilmək üçün Suraxanıda, Odpərəstlər məbədinin yanında yerli qırdan fotogen çıxarmaq üçün zavod tikdilər. Bu zavod alman kimyaçısı Libixin verdiyi layihələr əsasında tikildi; o, zavodun quraşdırılmasına və işə salınmasına nəzarət etmək üçün köməkçisini göndərmişdi. Lakin tezliklə məlum oldu ki, cəmi 15–20 faiz ağır yağ ehtiva edən qır nəzərdə tutulduğu məqsəd üçün yararlı deyil. Eyni vaxtda və eyni məqsədlə — fotogen, solyar yağları və xam parafin istehsalı üçün — Rusiyada tikilmiş digər iki zavod da eyni dərəcədə uğursuz oldu. Onlardan biri Tver yaxınlığında tikilmiş və Tver quberniyasının kənd torf yataqlarının istismarı üçün nəzərdə tutulmuşdu; digərini isə “Vitte və Şərikləri” şirkəti 68 faiz xam parafin və 8 faiz yağ verən

[35] Boqhed — əsasən qədim yosun qalıqlarından ibarət, tərkibində çoxlu qatran və yağ olan bitumlu kömür növü (Şotlandiyadakı Boghead məntəqəsinin adından). — *Tərc.*

[36] Fotogen — XIX əsrin ortalarında torfun, qonur kömürün, yanar şistlərin və s. quru distilləsindən alınan işıqlandırıcı yağ; sonralar neftdən alınan kerosinlə sıxışdırılıb çıxarılmışdır. — *Tərc.*

ozokerit maddəsinin (dağ mumunun) quru qovması üçün Müqəddəs adada (Pirallahı, Abşeron yarımadasının şərqində)[37] tikmişdi. Hər iki zavod tezliklə bağlandı.

1859-cu ildə Amerika Birləşmiş Ştatlarında neft mənbələri kəşf edildi. İşıqlandırma üçün neft xam halında deyil, distillə edilmiş və kimyəvi reagentlərlə təmizlənmiş halda satılırdı. Neft distillatına tələbat inanılmaz sürətlə artdı. Hasilat artdıqca yeni məhsullar ucuzlaşdı və bu, onların populyarlığına daha da çox kömək edərək neftdən çıxarılan işıqlandırıcı maddələrin fotogenlə uğurla rəqabət aparmasına imkan verdi. Kokorev–Qubonin zavodunda xammal kimi xam neftlə aparılan təcrübələr əla nəticələr verdi və neftayırma zavodunun tamamilə yenidən qurulmasına səbəb oldu. İdarəetmə tanınmış Moskva kimyaçısı cənab Eyxlerə tapşırıldı; o, kimyəvi təmizləmənin yeni üsulunu tətbiq etməklə açıq rəngli məhsul almağa nail oldu. Bakı yaxınlığında ilk kerosin zavodunun mənşəyi belə oldu. 1863-cü ildə zavod sahibləri çəlləklərdə nefti Rusiyanın daxili bazarlarına göndərməyə başladılar və Volqaboyu kimi neftin münasib xərclə çatdırıla biləcəyi mərkəzlərdən Amerika kerosinini sıxışdırıb çıxarmağa nail oldular. Bu firmanın nümunəsini tezliklə başqaları da izlədi və altmışıncı illərin sonlarına yaxın sənayenin emal sahəsi Abşeron yarımadasında möhkəm yerləşdi.

Mərhum cənab V. Raqozin Zaqafqaziya Ticarət Şirkətinin sənayeyə göstərdiyi böyük xidməti etiraf edirdi; onun dediyinə görə, cənablar Kokorev və Quboninin təşəbbüskarlığı sayəsində 1863–1873-cü illər onilliyi neft sənayesində canlı fəaliyyətin ilk dövrü oldu.

1863-cü ildə Məlikov Bakıda ilk neftayırma zavodunu tikdi. Bu zavodun tikilməsindən təxminən on il sonra Bakıda və onun yaxınlığında təxminən iyirmi üç kerosin zavodu var idi. Onlar kiçik miqyaslı idi və ümumi məhsulları ildə 8 065 tondan az olduğundan Rusiya bazarlarını tələb olunan kerosinin böyük hissəsi ilə amerikalılar təchiz etməkdə davam edirdilər.

Altmışıncı illərin sonlarına yaxın Xəzinənin neft yataqlarının istismarında iltizam sisteminin ləğvini məqsəd qoyan bir təşviqat başlandı. Professor Mendeleyev kimi adamlar daxili neft sənayesinin ləng inkişafında bu sistemi günahlandırırdılar. Xəzinə iltizam sistemindən kifayət qədər fayda görmürdü və onu dəyişməklə Bakı neft yataqlarından daha çox gəlir əldə etməyi gözləyirdi. 1821–1872-ci illər arasında keçən yarım əsrdə o, neft mülklərindən cəmi 474 311 funt sterlinq xalis gəlir götürmüşdü və bu məbləğə xeyli müddət ərzində duz gəliri də daxil idi, çünki iltizam tenderlərində neft və duz bir maddə kimi götürülürdü. İltizam sisteminin son on ilində Xəzinə sistem ləğv edilib torpaqlar açıq hərracla icarəyə verildikdən sonra bir ildə götürdüyündən də az almışdı, özü də sürətlə inkişaf edən sənayedən əldə edilən dolayı gəlirlər bir yana.

İltizam sisteminin neft yataqlarının inkişafını nə dərəcədə ləngitdiyi hasilat statistikasından görünür. 1829-cu ildə cəmi iyirmi səkkiz quyu var idi, 1872-ci ildə isə 415 quyu və buxarla qazılmış iki quyu. 1825-ci ildə xam neft hasilatı 3 387 ton, 1850-ci ildə 4 194 ton, 1863-cü ildə 4 839 ton, 1872-ci ildə isə 22 500 ton təşkil edirdi. İltizam sistemi dövründə, qırx il ərzində, təxminən 274 194 ton neft hasil edildi, sistemin ləğvindən sonrakı ilk on ildə isə təxminən 2 580 645 ton, ikinci on ildə 29 032 258 ton əldə edildi. Hazırda, neft sənayesinin bu sistemdən azad olmasından otuz il sonra, hasilat orta hesabla təxminən 10 483 871 ton təşkil edir.

[37] Müqəddəs ada — indiki Pirallahı (keçmiş Artyom) adası. — *Tərc.*

1867-ci ildə neft sənayesi və fotogen istehsalına aksiz haqqında qaydaların layihəsini hazırlamaq üçün komissiya təyin edildi. Qaydalar 1872-ci il fevralın 1-də təsdiq olundu və 1873-cü il yanvarın 1-dən qüvvəyə mindi. Sənaye azad elan edildi və Xəzinənin neftli mülkləri birdəfəlik ödəniş və sahələrin səthindən istifadəyə görə hər desyatin üçün illik on rubl (akr üçün 5 şillinq 8 pens) icarə haqqı ilə açıq hərracla icarəyə verildi; 24 il keçdikdən sonra bu icarə haqqı desyatin üçün 100 rubla (akr üçün 56 şillinq 8 pens) qaldırılmalı idi. Hərraca təxminən 1 240 desyatin çıxarıldı, o cümlədən Bakı quberniyasında təxminən 1 053 akr, bunlara da Balaxanıda cəmi 418 akr daxil idi. Quyuları olan bütün mülklər hər biri iyirmi yeddi akrdan ibarət qruplara bölündü və o vaxtkı quyuların hasilatına və neftin qiymətinə görə hər qrup 1 funtdan bir neçə yüz funta qədər qiymətləndirildi. Mülklərin ümumi dəyəri 55 200 funt müəyyən edilsə də, hərraca çıxarılan sahələrin yeganə neftli ərazilər olduğu təsəvvüründə olan yeni müəssisələr bir-birini qabaqlayaraq qiymətləri inanılmaz dərəcədə yüksək rəqəmlərə qaldırdılar.

Beləliklə, bir rubl qiymətləndirilmiş qruplar üçün on minlərlə, 100 funt qiymətləndirilmiş qruplar üçün yüz minlərlə təklif edildi. 24 400 funt qiymətləndirilmiş üç əsas qrup 169 800 funta satıldı. Xəzinə təklif olunan bütün qırx səkkiz qrup üçün cəmi 298 000 funt aldı. Əsas alıcılar Mirzoyev, Kokorev və Qubonin idi. Mirzoyev Balaxanıda qırx desyatin üçün təxminən 122 000 funt, sonuncu ikisi isə altmış desyatin üçün 132 300 funt ödədi. Mirzoyevin müəssisəsi, eləcə də sonradan “Bakı Neft Şirkəti”nə çevrilmiş Kokorev və Qubonin firması çox az uğur qazandı və başqa torpaqlarda neft vurması təşəbbüskarların planlarını tamamilə alt-üst etdi. İltizam sisteminin ləğvi ilə eyni vaxtda kerosin aksizi qaydası ən qüsurlu əsasda tətbiq edildi. Neftayırma zavodu sahiblərindən kublarının tutumuna görə vergi alınırdı; distillə prosesinin mükəmməllik dərəcəsindən asılı olan bu sistem son məhsulun olduqca qeyri-bərabər vergiyə cəlb edilməsinə gətirib çıxarırdı ki, bu da orta hesabla kerosinin pudu üçün on beş qəpikdən iyirmi beş qəpiyə qədər təşkil edirdi. Bu aksiz anomaliyaları üzündən emal sənayesi hasilat sənayesi kimi rəvan inkişaf edə bilmədi. Kerosin aksizi müxtəlif neftayıranlar arasında son dərəcə qeyri-bərabər bölünürdü. Aksiz gəliri çox az idi. 1873-cü ildə o, cəmi 20 366 funt, 1874-cü ildə 28 022 funt, 1875-ci ildə 21 076 funt və 1876-cı ildə 29 933 funt təşkil edirdi. Hökumət neft sahibkarlarının təqdim etdiyi ərizə əsasında (1877-ci il, 17 sentyabr) kerosin vergisini müvəqqəti ləğv etdi. Aksiz ləğv edilən kimi neft sənayesi sürətlə irəlilədi.

Kerosin istehlakı artdı. İxrac da artdı, qiymətlər isə daxili rəqabət və bol hasilat nəticəsində düşdü. Bu şəraitin birləşməsi, xüsusən də aksizin ləğvindən sonrakı on il ərzində baş verən qiymət enişi (pudu 60–80 qəpikdən 20–30 qəpiyə) o vaxt yeni gəlir mənbələri axtarışında olan hökuməti kerosinə yenidən aksiz qoymağa vadar etdi və 1888-ci ildə o, adi kerosinin pudu üçün qırx qəpik, ağır sortlar (yüksək alışma temperaturu olan) üçün isə otuz qəpik vergi qoydu, lakin şərtlə ki, benzin, sürtkü yağları, xam neft, mazut və ixrac olunan bütün neft məhsulları vergiyə cəlb edilməsin. 1892-ci ilin sonuna yaxın vergilər pud başına altmış və əlli qəpiyə qaldırıldı və aşağı dərəcə ilə vergiyə cəlb olunan ağır işıqlandırıcı yağın təsnifatı ilə bağlı bir neçə dəyişiklik edildi, lakin ümumiyyətlə vergi əvvəlki kimi qaldı. Aksizin yenidən tətbiqi sənayenin genişlənmə sürətini bir qədər azaltsa da, ciddi zərər vura bilmədi, çünki kerosin artıq qiymətlərin vergi yenidən qoyulduqdan sonrakından da yüksək olduğu bir vaxtda geniş və genişlənən bazar qazanmışdı.

Aksiz vergisinin qoyulması ilə eyni vaxtda (1872) idxal olunan kerosinə pud başına əlli beş qəpik (kağız pulla) idxal rüsumu qoyuldu, 1877-ci ildə isə rüsumların qızıl pulla ödənilməsi şərtini qoymaqla daxili sənayeyə daha böyük müdafiə verildi. Bu tədbir, xüsusən həm Amerikada, həm də Rusiyada baş vermiş sürətli qiymət enişi ilə əlaqədar nəzərdən keçirildikdə, böyük əhəmiyyətə malik idi. Gömrük müdafiəsi olmasaydı, o zaman inkişafın ilk mərhələsində olan daxili sənayeni Amerika rəqabəti əzib yox edərdi və bu asan olardı, çünki amerikalılar daxili sənaye hələ rüşeym halında olarkən Rusiya bazarlarında möhkəm mövqe qazanmışdılar. 1865–1875-ci illər dövründə Amerika kerosininin idxalı ildə orta hesabla 24 194 tondan 40 323 tona qədər, 1876–1879-cu illər arasında ildə təxminən 32 258 ton, 1880–1882-ci illər arasında ildə təxminən 16 129 ton idi, 1883-cü ildə isə idxal cəmi 7 419 ton təşkil etdi. O vaxtdan bəri idxal nəinki dayanmış, əksinə, rus neftinin xarici bazarlara ixracı durmadan artmaqdadır. Daxili sənayeni həvəsləndirmək üçün qoyulmuş yüksək idxal rüsumları məqsədinə xidmət etmişdir və sənayenin xarici rəqabətdən müdafiəyə ehtiyacı qalmayanda da o, əvvəla, neftin Qafqazdan uzaqda yerləşən sərhəd bölgələrinə idxalının qarşısını almaq, ikincisi isə xəzinənin daxildə istehsal olunan kerosindən əldə etdiyi gəliri qorumaq məqsədilə saxlanıldı.

Maşının köməyi ilə qazmağa ilk cəhdi altmışıncı illərin ortalarında Kuban vilayətində cənab Novosiltsev etdi. Kuban kazaklarından geniş ərazilər icarəyə götürüb bir neçə xüsusi mülk sahəsi əldə etdikdən sonra Novosiltsev kəşfiyyat quyuları vasitəsilə axtarışa başladı. Nəticədə Kudakoda ilk fontan vurdu ki, bu da Novosiltsevi Fanaqori neftayırma zavodunu tikməyə sövq etdi; lakin neftin hasilatında və emalında göstərilən qeyri-adi enerji, əsasən dövriyyə kapitalının çatışmazlığı üzündən gözlənilən uğuru gətirmədi. Bakı rayonunda Zaqafqaziya Ticarət Şirkəti (indiki “Bakı Neft Şirkəti”) 1866-cı ildə qazma işlərinə başlamaq icazəsi üçün hökumətə müraciət etdi, lakin rədd cavabı aldı. Çox ehtimal ki, bu rəddə üç il əvvəl hökumətin tapşırığı ilə Abşeron yarımadasını tədqiq etmiş və qazma qurğusunun neft sənayesinə heç bir fayda verə bilməyəcəyi qənaətinə gəlmiş Abixin rəyi səbəb olmuşdu. Faktiki olaraq ilk quyunu 1871-ci ildə Mirzoyev başa çatdırdı; 1872-ci ildə başlanmış ikinci quyunun sahibi də o idi. Qazma yerliləri heyrətə gətirən sürətlə irəliləyirdi. Yeni üsulun üstünlükləri tezliklə aydın oldu: çox qısa müddətdə bir neçə milyon pud neft vermiş ilk məhsuldar fontan 122 fut dərinlikdən vurdurulmuşdu. 1873-cü ilin sonunda buxarla qazılmış on yeddi quyu var idi; 1874-cü ildə əlli, 1875-ci ildə altmış beş, 1876-cı ildə isə 101; bu zaman əllə qazılan quyu keçmişdə qaldı.

IV fəsil. Qafqazda fotogen sənayesi

Baron Tornau Bakıya gəlir — Hökumət mühüm imtiyazlar verir — Əbədi odların yanında ilk zavod — Tornau–Eyxler təcrübələri — Gəmi sahibləri sulfat turşusu daşımaqdan imtina edirlər — "Fotonaftil" uğursuzluğu — Müqəddəs adada parafin qurğusu — Bakıda ilk neftayırma zavodu (1863) — Bakıda satılan ingilis kaustik sodası — Məlikovun mübarizəsi — Aksizlə döyüşlər — Sürtkü yağı sənayesi — Qara şəhərin mənşəyi.

Əllinci illərin ortalarında, fotogen qızdırmasının Almaniyada zirvəyə çatdığı vaxt, baron Tornau Rusiyada fotogen fabriki açmağa qərar verdi. O, Bakını seçdi, çünki bilirdi ki, yerlilər Almaniyada fotogen çıxarılan bitumlu materiallara bənzəyən bir məhsul hasil edirlər. Yerli olaraq qır kimi tanınan bu məhsulu cüzi qiymətə əldə etmək olurdu və bundan da vacibi, yanacaq kimi istifadə etmək istədiyi Əbədi odlar lap yaxında idi. Təxminən eyni vaxtda cənablar Kokorev və Qubonin tərəfindən Sankt-Peterburqda Rusiyanın İran və Xəzərin şərq sahilindəki türkmənlərlə ticarətini genişləndirmək üçün möhkəm bir müəssisə — Zaqafqaziya Ticarət Şirkəti yaradıldı.

Hökumət kömək etməyə çox can atırdı və bir çox mühüm imtiyazlar verdi. Baron Tornau fotogen zavodu tikmək və İranı işıqlandırıcı yağla təmin etmək layihəsini şirkətə təqdim etdi. Layihə qəbul edildi və ilk fotogen zavodu Əbədi odlar məbədinin yanında otuz iki akrlıq sahədə tikildi. Layihənin müəllifləri heç vaxt neftdən işıqlandırıcı yağ çıxarmaq imkanı barədə düşünmədilər və xammal kimi yalnız qır nəzərdə tutulmuşdu. Məşhur kimyaçı Libix şistdən fotogen istehsal edən alman istehsalçılarının qəbul etdiyi sistem üzrə layihələndirilmiş planları və işçi çertyojları verdi. Bu qurğu xammalın ilkin distillədən keçirildiyi üfüqi çuqun retortlardan və alınmış distillatların təkrar distillə edildiyi ikinci dəst kublardan ibarət idi. Zavodun tikintisinə, xüsusən də avadanlığın quraşdırılmasına və təbii qaz mənbələrinin istismarına nəzarət etmək üçün Libix 1858-ci ildə köməkçisi Moldenhaueri göndərdi. Moldenhauer zavodun tikintisinə növbəti il başladı, lakin avadanlığın xaricdən sifariş edilməsi və nəqliyyat çətinlikləri üzündən zavod 1860-cı ilə qədər başa çatdırılmadı, ilk satışa yararlı məhsul isə 1861-ci ilə qədər buraxılmadı. Moldenhauer bu arada təcrübələr aparırdı və lap əvvəldə — 1859-cu ildə — göstərdi ki, qırdan alınan fotogen şist yağından yaxşı olsa da, xüsusi çəkisi həddindən artıq ağırdır və bundan başqa, çıxımı emal olunan xammalın on beş–iyirmi faizindən artıq deyil. Bütün 1859-cu il boyu davam edən təcrübələri heç vaxt laboratoriyasından kənara çıxmadı və qır fotogeni heç vaxt böyük miqdarda bazara çıxarılmadı. Sonra o, Balaxanı və digər quyulardan o vaxt qeyri-adi sayılan miqdarda əldə edilən xam neftlə təcrübə aparmaq fikrinə düşdü. Nəticə onun ən nikbin gözləntilərini də üstələdi. Distillat tamamilə şəffaf idi, dərhal istifadəyə hazır idi və daha da vacibi, çıxım qırdan alınandan xeyli yüksək idi. Moldenhauer təbii qazı toplamaq üçün qazholderlər tikdikdən sonra 1860-cı ildə Almaniyaya qayıtdı.



Üsyankar Qafqazın paytaxtı Tiflis şəhəri



Qafqazın ürəyiyə sayılan məşhur Gürcü yolu

1860-cı ildə Eyxler Suraxanı zavoduna gəldi. Şirkət öz müəssisəsindən ümidini az qala üzmüşdü və ondan imtina etmək ərəfəsində idi ki, Eyxler şirkətin idarəçisi baron Tornauya qırdan fotogen istehsalını dayandırmağı və Moldenhauerin laboratoriya təcrübələrindən istifadə edərək neftdən işıqlandırıcı yağ çıxarmağı təklif etdi. Tornau, yaxşı və ucuz yağ alınması şərtilə, xammal məsələsində Eyxlerə sərbəstlik verdi. Gedişindən bir qədər əvvəl Moldenhauer təmizləmədən də keçinmək olar deyə düşündüyü neft fotogenindən məmnun qalaraq onu lehimlədiyi tənəkələrə doldurmuş və az bir miqdarını pudu səkkiz rubldan (təxminən qallonu 3 şillinq 10 pens) satış üçün Tiflisə göndərmişdi. Tiflisə çatanda məlum oldu ki, göndəriləndə şəffaf olan yağ tədricən qaralır və nəhayət tünd qəhvəyi rəng alır. Bu, Qafqaz işıqlandırıcı yağının ilk elmi təhlilinə səbəb oldu. Yağ tədqiq üçün zavoda qaytarıldı və Moldenhauer Almaniyaya qayıtdığından Eyxlerin əlinə keçdi. O, yağda müxtəlif üzvi turşularla, əsasən qarışqa, sirkə və yağ sırasının digər homoloqları ilə birləşmələr şəklində yüksək faizlə dəmir

tapdı və təhlili göstərdi ki, təmizlənməmiş fotogen dəmirə təsir edən üzvi turşular ehtiva edir və buna görə də onlar neytrallaşdırılmalıdır. Bu turşuları neytrallaşdıraraq o, dəmirə təsir etməyən və rəngini dəyişməyən daha yaxşı bir yağ əldə etdi, lakin onun fitili bir qədər kömürləşdirmək kimi bir nöqsanı var idi ki, bu da yağda sərbəst qələvinin olduğunu göstərirdi. O, bunu zəif xlorid turşusu məhlulu ilə yumaqla aradan qaldırdı. Lampada kifayət qədər yaxşı yanan, lakin sarı rəngli bir məhsul aldı. Rəqabət olmadığı müddətdə rəng o qədər də əhəmiyyət kəsb etmirdi, ta ki 1863-cü ildə Rusiyaya ilk Amerika nefti partiyası gəlib çatdı. Amerika neft fotogeni lampada mükəmməl yanan yüngül, tamamilə şəffaf bir yağ idi. Suraxanı məhsulu artıq yaramırdı və Eyxler yağını təmizləmək və rəngsizləşdirmək üçün daha yaxşı üsul tapmalı oldu. Müxtəlif kimyəvi maddələri sınadıqdan sonra o, 60° Bome sulfat turşusunu seçdi ki, bu da bütün rəngləyici maddələri məhv etməklə yanaşı, təmizlənməmiş işıqlandırıcı yağa xas olan kəskin qoxunu da aradan qaldırırdı. Lazım olan sulfat turşusunu əldə etmək asan iş deyildi; onu Həştərxandan gətirmək mümkün deyildi, çünki gəmi sahibləri belə təhlükəli yükü daşımaqdan imtina edirdilər və o, ehtiyacını Qara dəniz sahilindəki Poti vasitəsilə İngiltərədən ödəməyə və onu Qafqazdan keçirərək 530 mil araba ilə daşımağa məcbur oldu. Bu daşımanın tələb etdiyi böyük xərcləri nəzərə alsaq, zavodda turşunun pudu heç vaxt 10 rubldan (sentneri 3 funtdan çox) ucuz başa gəlməməsi təəccüblü deyildi. Lazım olan sodanı o, yerindəcə dəniz yosunlarından çıxarırdı. Alınmış 38° Bome kaustik soda məhlulunu heç bir əlavə durulaşdırma olmadan işlədirdi. Əvvəlcə qatı sulfat turşusu, sonra isə zəif kaustik soda ilə təmizlənmiş yağ bir daha zəif sulfat və ya xlorid turşusu məhlulu ilə yuyulur və çökməyə qoyulurdu. Fotogenin ilk kiçik partiyası Tiflisə göndərildi; əsl Rusiyaya göndərişlər isə yalnız 1863-cü ildə, daha doğrusu, 1864-cü ildə başladı.

Neftdən alınan işıqlandırıcı yağ o vaxt yeni bir məhsul olduğundan Moldenhauer və Eyxler ona bitum məhsulu olan fotogendən (yunanca “işıq verən” deməkdir) kifayət qədər fərqləndirəcək bir ad verməyə qərar verdilər. Onlar “neft maddəsinin işığı” mənasını verən üç yunan sözünün birləşməsindən ibarət “fotonaftil” adını qəbul etdilər. Bu adla yağlarını Rusiyaya göndərdilər, lakin bir müddət onu satmaqda çətinlik çəkdilər, çünki istehlakçı yalnız fotogenin və kerosinin (Amerikada uydurulmuş söz) varlığından xəbərdar idi və “fotonaftil”in nə ola biləcəyindən tamamilə xəbərsiz olduğu üçün onu almaqdan imtina edirdi. Yeni ad heç vaxt kök salmadı.

Suraxanı zavodunun tikilməsindən az sonra “Vitte və Şərikləri” şirkəti Abşeron yarımadasının şərq ucunun qarşısındakı Müqəddəs adada geniş bir parafin qurğusu qurdu. Zavod Çələkəndən gətirilən ozokeritdən parafin pulcuqları çıxarırdı. Kublar 60 faiz pulcuqdan və 8 faiz açıq-qəhvəyi işıqlandırıcı yağdan ibarət 68 faiz distillat verirdi. Maye əvvəlcə buxarla 60° C-yə qədər qızdırılır, sonra 1 faiz sulfat turşusu ilə qarışdırılırdı. Qarışdırma köpük tamamilə ağarana qədər davam etdirilir, sonra sönməmiş əhəng əlavə edilir və hamısı yenidən distillə olunurdu. Toplanan ilk fraksiyalar 0,750–0,810 xüsusi çəkili və kifayət qədər xoş efir qoxulu tamamilə rəngsiz bir maye idi. Distillənin sonuna yaxın rəng pisləşirdi. İlk on–on üç qallon ayrıca toplanır və pulcuqların təmizlənməsində həlledici kimi işlədilirdi.

Suraxanı və Müqəddəs ada zavodlarının sahibləri sirlərini qısqanclıqla qoruyurdular, lakin sirlər üzə çıxdı və 1863-cü ildə Bakı şəhərində ilk neftayırma zavodunu Vitte zavodunun keçmiş

qulluqçusu, naməlum və savadsız bir erməni, Cavad Məlikov tikdi[38]. Onun neft distillə qurğusu tikmək təklifi hamının istehzasına səbəb oldu, dostları da, düşmənləri də onu dəli adlandırırdılar. Lakin tədricən onun səbatı qalib gəldi və o, 30 funt sterlinq səhm kapitalı ilə üç nəfərdən ibarət kiçik bir şirkət yaratmağa nail oldu; təbii ki, bu pulla geniş qurğu tikə bilməzdi və yalnız açıq səma altında soyuducu ilə təchiz edilmiş bir kub quraşdırdı. Bu ibtidai zavodu görmək üçün istehza edən bir kütlə toplandı, lakin bir neçə saat sonra soyuducudan təmiz və şəffaf fotogenin axdığını görəndə şübhələri və istehzaları kəsildi və Məlikov o yerlərin qəhrəmanına çevrildi.

Dərhal daha böyük kapitallı (200 funt) başqa bir şirkət yaradıldı və idarəçilik Məlikova tapşırıldı. Lakin onlar fotogen istehsal etməyi öyrəndikdən, yaxud öyrəndiklərini düşündükdən sonra ixtiraçıdan qurtulmaq üçün səbəblər tapdılar. Məlikov o zaman yeni enerji ilə ozokeritdən pulcuq çıxarmağa girişdi. Bunda uğursuzluğa düçar oldu, əvvəla, Bakıda buz olmadığı üçün, həm də bu iş onun ixtiyarındakı cüzi vəsaitdən xeyli çox kapital tələb etdiyi üçün. Məlikovun dəli sayılması təəccüblü deyil. O, qazanc güdmürdü və gələcək barədə bircə dəfə də düşünmədən son qəpiyini də verirdi. O, ideyalarının həyata keçdiyini görmək həsrətində idi və onun sonu — yoxsulluq — öz sinfindən olan ixtiraçıların çoxunun sonu ilə təxminən eyni oldu. O, Mirzoyevi Qroznı neft mənbələrindən istifadə etməyə və Şimali Qafqazı işıqlandırıcı yağla təmin etmək üçün neftayırma zavodu tikməyə razı saldı. Zavodu tikdi, lakin yenə də aldadıldı və haqqından məhrum edildi. Bakı emal sənayesinin bu qabaqcılı ifrat yoxsulluq içində öldü, onun şərikləri və işəgötürənləri isə işıqlandırıcı yağlar istehsal edərək sərvət qazandılar.

Üsulun sadəliyinə baxmayaraq fotogen sənayesi ləng inkişaf edirdi. Səbəb iltizam sisteminin mövcudluğu və xam neftin yüksək qiyməti idi. Bu səbəbdən altmışıncı illərin birinci yarısında yalnız bir neçə neftayırma zavodu tikildi. Az-çox kor-koranə işləyərək onlar adətən Suraxanı zavodundan fəhlələri ələ keçirməyə çalışır və onlardan çoxlu qiymətli məlumat öyrənirdilər. Tezliklə müəyyən etdilər ki, fotogen turşu və qələvi ilə təmizlənməlidir. Turşunu Moskvadan alırdılar, lakin soda haqqında heç bir müəyyən təsəvvürləri yox idi və onu bəziləri dəniz suyu, bəziləri adi duzlu su ilə əvəz etməyə çalışırdılar. Bu yolla məhsul yaxşılaşmırdı.

İltizamçı Mirzoyev hər şeyə qadir idi və özü neftayıran olmayıb yalnız təmizlənmiş məhsulun alıcısı olsa da, Nijni yarmarkasında xam neftin və məhsulların qiymətlərini müəyyən edir və rəqabətə dözmürdü. Sənayeni daha möhkəm ələ almaq üçün böyük bir neftayırma zavodu tikməyə başladı. Qrikurovdan kiçik bir fotogen mülkü aldı; bu, yetmiş pud tutumlu və Qrikurova 70 funta başa gəlmiş bir kubdan ibarət idi. Moskvadan on yeni kub sifariş etdi, lakin onlar yararsız çıxdı, çünki misdən hazırlanmış və qalayla lehimlənmişdi. Xaricdən hər biri əlli pud tutumlu daha altı kub sifariş etdi və təxminən eyni vaxtda Əbədi odlardan istifadə etməyi ümid etdiyi Suraxanı zavodunu tikməyə başladı.

Bir-iki il sonra Vitte zavodunun keçmiş mexaniki cənab Veyzer təkmilləşdirilmiş üsulla işləyən bir fotogen zavodu tikdi. Bu vaxt Bakıda “ingilis potaşı” kimi tanınan ingilis kaustik sodası ilk dəfə Bakıya gətirildi. Fotogenin az-çox rasional təmizlənməsinin başlandığı dövr,

[38] Müəllif ilk Bakı neftayırma zavodunun banisi Cavad Məlikovu “erməni” adlandırır. Bir çox Azərbaycan və rus mənbələrində Cavad Məlikov Bakı müsəlmanı, azərbaycanlı sahibkar kimi təqdim olunur və “Cavad” adı da müsəlman adıdır; müəllifin bu məlumatı yanlış görünür. Müəllifin “naməlum və savadsız” xarakteristikası da qərəzlidir: Məlikov sənaye tarixində ilk dəfə Bakıda kerosin zavodu qurmuş, sonra Qroznıda da neftayırma işini təşkil etmişdir. — *Tərc.*

düzünü desək, məhz bu oldu. Təmizləmə üsullarının sirri tezliklə hamıya məlum oldu və 1869-cu ildə iyirmi üç neftayırma zavodu mövcud idi. Onlardan iyirmisi gündə ancaq yüz pud emal edə bilirdi.

İltizam sisteminin ləğvindən iki-üç ay sonra neftayırma zavodlarının sayı o qədər sürətlə artdı ki, yaşayış evləri neft zavodlarına çevrildi. Bunlar yanacaq kimi xam neft işlətdiyi və tam yanmaya nail olmağa cəhd etmədiyi üçün bütün şəhər his və tüstü örtüyü altında qaldı. Sakinlər bu narahatlığa etiraz etdilər; yerli hakimiyyət yeni neftayırma zavodlarının tikilməsini qadağan etdi və mövcud olanları bağladı, neftayıranlara isə şəhərdən təxminən bir yarım mil kənarda xüsusi ayrılmış ərazidə yeni binalar tikməyə icazə verdi. 1873-cü ilin yazında bu ərazidə iş qızğın gedirdi və yarım il ərzində səksən neftayırma zavodu fəaliyyət göstərirdi.

Kerosin üçün əla qiymətlər alınırdı və bu işdə olan hər kəs xeyli mənfəət gözləyirdi. Yüksək qiymətlərin təsiri altında hasilat tezliklə tələbatı üstələdi. Yeni neftayırma zavodlarının tikintisi sürətlə davam etdi və qısa müddətdə Bakının lap kənarındakı bu ərazidə neftayırma zavodlarının, emalatxanaların və yaşayış evlərinin nəhəng bir toplusu olan Qara şəhər yarandı.

Neftayırma zavodları aksiz qaydalarının zəif yerini tapmaqda ləngimədilər. Aksiz istehsal olunan miqdara görə deyil, kubun tutumu əsasında alınırdı. Bu səbəbdən onların əsas məqsədi keyfiyyətdən asılı olmayaraq hər kubdan mümkün qədər çox məhsul almaq idi. Mazut, turşu və soda çöküntüləri istifadə olunmur və əslində tamamilə yararsız sayılırdı. Qalıq çuxurlara axıdılır və orada yandırılırdı, çöküntülər isə ictimai küçələrdə gölməçələrə yığılırdı.

Aksiz orqanlarının Bakı emal sənayesinin erkən inkişafında oynadığı rol maraqlı oxu materialıdır. Hakimiyyət təkmilləşdirilmiş aparatların və emal üsullarının tətbiqini həvəsləndirmək əvəzinə daha qabaqcıl istehsalçıların təşəbbüskarlığını qəsdən ruhdan salırdı. Biri Mərkəzi, digəri Cənubi Rusiyada olan və qalığı distillə etməklə sürtkü yağı, his, pek-koks və ağır işıqlandırıcı yağ istehsal edən iki zavodun sahibləri Daxili Gəlirlər idarəsini inandıra bildilər ki, onlardan vergi almaq ədalətsiz olardı, çünki onlar yalnız artıq aksiz vergisi ödənilmiş məhsul olan qalığı emal edirdilər. Xüsusi reskriptlə Mərkəzi Rusiya zavodu 1872-ci il noyabrın 3-də 1872-ci il 1 fevral tarixli fotogen qaydalarına riayət etməkdən azad edildi; Cənubi Rusiya zavodu da qapalı kublar deyil, açıq çənlər işlətdiyi üçün vergidən azad edildi. Biri sürtkü yağı, digəri asfalt istehsalçısı olan iki Bakı neftayıranı, Veyzer və Bağırov, bu qaydanın onlara da şamil ediləcəyini düşündülər, lakin yanıldıqlarını öz ziyanlarına öyrəndilər. Zaqafqaziya Aksiz İdarəsi vergidən azad etməyə icazə vermədi və sahiblər zavodlarını bağlamalı oldular.

Bundan az sonra Raqozin xam neftdən işıqlandırıcı və xüsusən sürtkü yağları almağın yeni üsulunu sınamaq üçün müvəqqəti neftayırma zavodu açmağa icazə istədi. Onun ərizəsi Maliyyə naziri tərəfindən imperatora təqdim edildi. Nəticə 1874-cü il 6 noyabr tarixli reskript oldu ki, bu da nazirə yeni neftayırma zavodlarında üç il müddətinə təcrübi işlər aparmaq hüququ verməyə və təcrübələr zamanı istehsal olunan bütün işıqlandırıcı yağa pud başına iyirmi beş qəpik vergi qoymağa icazə verirdi.



Qara şəhərin neftayırma zavodları rayonunun bir hissəsi

Təxminən 1874-cü ilin ortalarında yeni Bakı neftayırma zavodlarından birinin idarəçisi azad olunmaq üçün Qafqaz Aksiz İdarəsinə müraciət etdi, lakin rədd cavabı aldı. "Bakı Neft Şirkəti"nin müraciəti də eyni aqibətə düçar oldu. Bu şirkət o zaman öz qalığını distillə etdiyi ayrıca bir kub qurdu və xam neft vergisini ödədi. Ümumilikdə şirkət istehsal olunan hər pud işıqlandırıcı yağ üçün iyirmi doqquz qəpik aksiz ödədi və qalığın sürtkü yağı üçün emalı işıqlandırıcı yağ üçün xam neftin emalından daha çox vaxt apardığından vergi məbləği qalığın pudu üçün təxminən qırx qəpik təşkil etdi. Başqa sözlə, üç pud xam neftin emalı və bir pud işıqlandırıcı yağ və bir pud sürtkü yağı çıxımı üçün şirkət altmış doqquz qəpik aksiz ödədi, halbuki qanunun mənasına görə bu məbləğ heç bir halda iyirmi beş qəpiyi keçməməli idi.

Sürtkü yağları istehsalı ilə məşğul olmaq istəyən Robert Nobel də öz zavodunda təcrübələr aparmaq üçün icazə istədi. Rədd cavabı aldıqdan sonra aksiz məmurları ilə daimi narahatlıq və sürtüşmədən qaçmaq üçün kublarından biri üçün altı aylıq tam aksiz vergisini qabaqcadan ödədi və bu kubu artıq vergisi ödənilmiş qalığın emalı üçün istifadə etdi.

Aksiz İdarəsinin ilkin sınaqlara münasibəti kubun konstruksiyasında təkmilləşdirmələr məsələsinə gəldikdə açıq düşmənçiliyə çevrildi. O, təklif olunan hər bir təkmilləşdirməyə qanundan yayınmaq cəhdi kimi baxır və təcrübi işi kökündən boğmaq üçün əlindən gələni edirdi.

Cakeli Marseldən xam neftdən daha uçucu məhsulları çıxarmaq üçün qidalandırıcı qızdırıcı ilə təchiz edilmiş Marten kubu gətirdi. Aksiz idarəsi bu qızdırıcının ikinci kub sayılmasında israr etdi və ona ya ikiqat vergi ödəməyi, ya da köməkçi aparatı çıxarıb xam neftini adi üsulla, yəni tək kubda distillə etməyi təklif etdi. Təşəbbüskar Cakeli ikinci təklifə əməl etdi və digər istehsalçılarla eyni sortda yağ istehsal etdi.

Fasiləsiz distillə prosesinin tarixi rəsmi axmaqlığın daha bir ibrətamiz dərsidir. O günün şəraitində neftayıran üçün vaxt hər şey demək idi. Adi (dövri) kubda iş aparılanda kub və qalıq soyuyana qədər xeyli vaxt itirilir və bunun əvəzini ödəmək lazım gəlirdi. Onlara bunun qaçılmaz olduğunu qaynar qalığın açıq havada sürətlə oksidləşməsi və öz-özünə alışması

nəticəsində baş verən çoxsaylı dağıdıcı yanğınlar öyrətmişdi. Hamı nöqsanın harada olduğunu görürdü, lakin heç kəs çarə tapa bilmirdi, ta ki Bakı neftayıranlarından biri A. Təbrizov (Tavrizov) mahiyyətcə bir qədər dəyişdirilmiş spirt rektifikasiya qurğusunun neftin distillə edilməsinə uyğunlaşdırılmasından ibarət olan fasiləsiz distillə prosesini patentləşdirdi (1875). 1872-ci il qaydalarında fasiləsiz distillə barədə heç bir şey yox idi və yalnız bu əsasla onun aparatını quraşdırmaq üçün icazə istəməsi rədd edildi.

Digər tərəfdən, etiraf etmək lazımdır ki, neftayıranlar da qismən günahkar idilər. Ərizələrin əksəriyyətini sürtkü yağı istehsalına aksizdən yayınmaq vasitəsi kimi baxanlar təqdim edirdilər və əslində aksiz ləğv ediləndə cəmi üç sürtkü yağı zavodu var idi və onlardan heç biri Bakıda deyildi. Bakıda sürtkü yağı sənayesinin tarixi əslində səksəninci illərin əvvəllərindən o yana getmir.

1880-ci ildə Abşeron yarımadasında 195 neftayırma zavodu var idi. Bakının özündə cəmi biri var idi, 32-si isə şəhərlə Qara şəhər arasında səpələnmişdi. Qara şəhərdə 118 neftayırma zavodu var idi, əksəriyyəti sahilə yaxın, digər 44-ü isə şəhər hüdudlarından kənarda, Bakının kənd rayonunda idi: 39-u Qara şəhərin şərqində sahil boyunca uzanır, biri daha da şərqdə, Sultan burnunun yaxınlığında, ikisi Suraxanıda və ikisi Bibiheybətdə yerləşirdi. Bunlarda bir yükdə təxminən 89 000 pud tuta bilən və gündə ən azı 204 000, ən çoxu 300 000 pud xam neft emal edə bilən 505 kub var idi.

V fəsil. Neft mədəni maliyyəsinin romantikası. İlk (1872) hərraclar və ibtidai iş üsulları

1873-cü il hərracları — Mirzoyevi məğlub etmək cəhdi — Qızğın rəqabət günləri — Balaxanıda mülklərin ilk sahiblərinin siyahısı — Bibiheybətdəki XIX qrupun Tağıyev tərəfindən Londondakı "Rus Nefti və Maye Yanacaq Şirkəti"nə satılması — İltizam sistemi dövründə Balaxanı — Cənab Raqozinin təəssüratları — Balaxanıda gərgin il (1872) — Neft mədənlərində ilk mexaniki emalatxanalar — Köhnə yeraltı göl nəzəriyyəsi — Balaxanıda Vermişev fontanı — Pudu iki qəpiyə xam neft — Hasilatın sürətli artımı — Hər gün vuran fontanlar.

Neft maliyyəsində çoxlu romantika var. Müəyyən məşhur sahələrin tarixini onların neftliliyinin hələ sübut olunmadığı və cüzi dəyərlərinin səthi əlamətlərdən başqa etibarlı heç nəyə əsaslanmadığı vaxtdan izləsək, bunun belə olduğunu görərik. Sənayenin ilk günlərindəki hərraclarda irqi nifrətlə kəskinləşmiş işgüzar hisslər vəhşi spekulyasiyaya və rəqibləri əzmək üçün mütəşəkkil cəhdlərə gətirib çıxarırdı[39].

İştirakçıların öz aralarında sövdələşməsini qeyri-mümkün olmasa da, çətinləşdirmək üçün Xəzinə 1872-ci il dekabrın 7, 14, 21 və 28-də möhürlü təkliflər qəbul etdi. Nəticələr gözlənilməz oldu. Qiymətləndirilmiş 50 000 funt sterlinq əvəzinə Xəzinə Balaxanıda təklif olunan on beş qrup üçün 298 000 funtdan çox xalis gəlir əldə etdi. Cənablar Qubonin və Kokorev keçmiş iltizamçı Mirzoyevi qabaqlamaq və onu ən yaxşı hasilat verən mülklərindən məhrum etmək qərarı ilə rəqabətə girdilər. Birinci və ikinci satışlarda qruplar bir-birinin ardınca onun əlindən alındı və elə görünürdü ki, bu qüdrətli neftçi — iki böyük neftayırma zavodunun sahibi və iri fotogen taciri — xam neftsiz qalacaq. Üçüncü satışda, məhsuldar bir quyu qazdığı III qrup bazara çıxanda o, heç bir riskə yol vermədi və 11 456 funt qiymətləndirməyə və Kokorevin təklif etdiyi 60 000 funta qarşı 95 000 funtluq təklif verdi. Mirzoyevlə Kokorev arasındakı şiddətli rəqabət başqalarını da oxşar taktikaya sövq etdi. Qızğın rəqabət burulğanına düşən başqaları dövriyyə kapitallarını istər-istəməz xeyli azaltmalı olan qiymətlər təklif etdilər və elə də oldu: 1874-cü ildə fotogen sənayesindəki böhran zamanı nağd pulun olmaması onların bir çoxunu müflisləşmə həddinə gətirdi.

Ölçmə komissiyası Abşeron yarımadasında dövlətə məxsus neft hasil edən mülkləri iyirmi yeddi akrlıq sahələrə böldü. Sayı qırx səkkiz olan bu sahələr hər mülkdə iltizam rejimi dövründə neft çıxarılmış bir neçə əl quyusu olduğu üçün qruplara bölündü. Balaxanıda on yeddi qrup təklif edilməli idi, lakin ikisi, V və XVI nömrəlilər, xüsusi sahiblərin irəli sürdüyü iddialara görə geri götürüldü. Uzun məhkəmə çəkişmələri nəticəsində V qrupun yarısından bir qədər çoxu — Maştağa yolunun sol tərəfindəki hissə, XVI qrupda hər biri təxminən 4 900 kvadrat fut olan dörd sahədən ibarət — Xəzinə mülkü kimi tanındı. V qrupun yarısı və XVI qrupun tamamı indi Sabunçu yatağındadır. Balaxanının neftli sahəsi təxminən 842 akr təşkil edirdi, lakin satışa yalnız 460 akr çıxarıldı. Hökumət əvvəlcə qalan 382 akrı otlağı olmayan Balaxanı kəndlilərinə ayırmağı təklif edirdi. Bu torpaqların böyük imkanlarını dərk edən hökumət mütəxəssisləri və

[39] "İrqi nifrətlə kəskinləşmiş işgüzar hisslər" ifadəsi müəllifin 1905-ci il hadisələrinin təsiri altında 1870-ci illərə tətbiq etdiyi yozumdur. 1872-ci il hərraclarında əsas rəqiblər rus kapitalistləri Kokorev və Qubonin ilə erməni iltizamçı Mirzoyev idi; müəllif özü də aşağıda mübarizəni milli deyil, ticari rəqabət kimi təsvir edir. — *Tərc.*

məsləhətçiləri — bu torpaqlarda ən azı bir fontan qazılmışdı — elə rəylər bildirdilər ki, hakimiyyət sahələri saray sevimliləri, məşhur hərbçilər və zadəganlar arasında bölüşdürdü[40]. Neftli torpaqlar praktiki olaraq çar hədiyyəsi kimi paylanırdı. 1878-ci ildə general-leytenant Lazarevə iyirmi yeddi akr (6 nömrəli sahə), bir neçə il sonra isə qrafinya Qaqarinaya on üç yarım akr (8 nömrəli sahə) bəxş edildi. Ən böyük maraq Balaxanıdakı on beş qrupa göstərildi. Bunlar aşağıdakı altı firmanın əlinə keçdi:

(1) İ. M. Mirzoyev 122 155 funta III, IX, X və XI qrupları əldə etdi (qiymətləndirmə 13 500 funt).

(2) Kokorev və Qubonin (1874-cü ildə "Bakı Neft Şirkəti"nə çevrilmiş) 132 333 funta I, II, IV, VI, VIII və XV qruplara sahib oldular (qiymətləndirmə 366 296 funt)[41].

(3) A. və M. Benkendorflar və P. P. Muromtsev 10 375 funta XII və XVII qrupları əldə etdilər (qiymətləndirmə 1 704 funt).

(4) Xələfi şirkəti (Vermişev və Şərikləri) 11 722 funta XIV qrupu əldə etdi (qiymətləndirmə 2 278 funt).

(5) Lianozov 2 491 funta VII qrupu əldə etdi (qiymətləndirmə 131 funt).

(6) 1872-ci il avqustun 19-da yaradılmış "Souçastniki" şirkəti (Şəriklər şirkəti) 1 858 funta XIII qrupu əldə etdi (qiymətləndirmə 4 funt).

Balaxanıdan kənardakı qalan otuz bir qrup nisbətən aşağı qiymətlərə getdi. Bibiheybətdəki XIX qrupu 57 funt qiymətləndirməyə qarşı 906 funta Tağıyev və Sarkisov əldə etdilər. Bu qrup indi mülkə görə 600 000 funt ödəmiş Londondakı "Rus Nefti və Maye Yanacaq Şirkəti"nə məxsusdur. Alqı-satqı sənədi imzalandıqdan az sonra bu şirkətin bir ay ərzində təxminən 500 000 ton neft püskürən və mülkə ödənilən qiymətin təxminən yarısını qaytaran bir fontanı oldu[42]. İkinci (XX) qrupu Zubalov və Cakeli aldılar.

1872-ci il dekabrın 28-də son satış keçirildi və 1873-cü il yanvarın 1-də qruplar ciddi şəkildə işlənməyə başlayan sahiblərə təhvil verildi.

İltizam sisteminin ləğvindən əvvəl Balaxanıda iş ən ibtidai şəkildə aparılırdı. Cənab Raqozin öz təəssüratlarının qeydini qoyub getmişdir. Bakıdan Abşeron yarımadasının şimal sahilindəki Maştağaya gedən əsas yolun solunda, Balaxanı kəndinin qarşısında bir neçə dayaz quyu var idi. Bu rayonda buxar maşınının fiti eşidilməmişdi və sahiblərin və onların yerli fəhlələrinin təkmilləşdirilmiş iş üsulları haqqında nə isə bildiyini göstərən heç nə yox idi. Hər şey ibtidai idi. Neft quyulardan çarx qurğusunu hərəkətə gətirən atlar vasitəsilə səthə çəkilən

[40] Balaxanı kəndlilərinə otlaq kimi ayrılması nəzərdə tutulan torpaqların sonradan saray əyanlarına və hərbçilərə paylanması yerli kənd icmalarının, yəni əsasən azərbaycanlı kəndlilərin torpaq hüquqlarının pozulması demək idi; bu məsələ sonrakı onilliklərdə Abşeron kəndləri ilə Xəzinə arasında uzunmüddətli məhkəmə çəkişmələrinə səbəb olmuşdur. — *Tərc.*

[41] Orijinalda qiymətləndirmə 366 296 funt göstərilir ki, bu da ödənilmiş məbləğdən çoxdur və digər qrupların nisbətinə uyğun gəlmir; çox güman ki, mətbəə səhvidir. — *Tərc.*

[42] Söhbət Hacı Zeynalabdin Tağıyevdən gedir. O, XIX qrupu Sarkisovla birlikdə 1873-cü ildə almış, uzun müddət neft tapa bilməmiş, şərikləri payını ona satdıqdan sonra 1878-ci ildə güclü fontan vurdurmuşdur; bu, onun sərvətinin əsası oldu. 1897-ci ildə Tağıyev mülkünü ingilis şirkətinə (müəllifə görə, 600 000 funta) satmış və əldə etdiyi vəsaitin xeyli hissəsini Bakıda maarifə, xeyriyyəçiliyə və sənayeyə yönəltmişdir. Müəllif bu tarixdə Tağıyevin rolunu yalnız bir cümlə ilə qeyd edir. — *Tərc.*

dəri tuluqlarla çıxarılırdı. Neft mədənlərindən daşınma da yerli quruluşlu, qumlu yollarda daha yaxşı hərəkət etmək üçün təkərləri 9 fut hündürlüyündə olan iki təkərli arabalardan asılmış dəri tuluqlarla aparılırdı. Cənab Raqozin yalnız rayonun kənarında iki tənha hündür buruq gördü, onlarda da, sanki mənzərənin yeknəsəqliyi ilə ahəngə gətirmək üçün, bütün işlər dayandırılmışdı. Daha uzaqda, orda-burda kiçik üzüm tənəklərinin alçaq kolluqları ilə canlanan çılpaq, qumlu bir düzənlik uzanırdı. Neft quyuları fars hökmdarlarının və Bakı xanlarının qoyub getdiyi kimi idi. Cənab Raqozinin dediyinə görə, iltizam sisteminin uzun və ağır hökmranlığının başa çatdığı 1872-ci ilin sonuna qədər Qərbin sənaye ruhu onları narahat etməmişdi. Bundan bir neçə ay sonra neft mədənlərində maşınlar quraşdırıldı, göyə doğru kiçik bir buruq meşəsi ucaldı və qazan fitləri müasir sənayenin inkişafında əl quyusunun uyğunsuzluğuna qarşı cingiltili səslə etiraz etdi.

Balaxanı fəaliyyətin əsas mərkəzi idi. Bir-birinin ardınca, hamısı da dayaz dərinlikdən vuran fontanlar bu rayonun zəngin ehtiyatlarını və böyük imkanlarını[43] nümayiş etdirən kimi Xəzinə kifayət qədər səxavətli bir torpaq paylanması proqramını həyata keçirməyə başladı. Bu yolla cəmi 254 akr paylandı. Bundan əlavə, Balaxanıda və Bibiheybətdə sonradan hökumətin iddia etdiyi geniş icma torpaqları icma hakimiyyəti tərəfindən hasilatçılara icarəyə verildi — bu, nəticədə Xəzinə ilə ciddi mübahisələrə səbəb oldu.

Həmin il (1873) heç bir mexaniki emalatxana yox idi. Zədələnmiş alətləri Bakı Liman idarəsinin və "Qafqaz və Merkuri" gəmiçilik şirkətinin emalatxanalarına aparmaq lazım gəlirdi. İltizam rejimi ləğv edilən kimi çoxsaylı mexaniki emalatxanalar tikildi, lakin iş xeyli çətinliklə başlandı, özü də bu çətinliklərin çoxu gözlənilməz xarakterdə idi. Bakıda nəinki təcrübəli neft qazıyıcıları çatışmırdı, hətta adi usta da az tapılırdı. Buna baxmayaraq, buruq buruğun ardınca tikildi və Balaxanı dünyanın ən böyük neft yataqlarından biri kimi öz yoluna başladı. Hasilat artdıqca və neftin qiyməti pudu qırx beş qəpiyə qalxdıqca spekulyasiya qızdırması həmişəkindən daha şiddətlə tüğyan edirdi, o dövrün nəzəriyyəçi mütəxəssisləri və mütəxəssis olmayan bir neçə tanınmış Britaniya səyyahı isə yekdilliklə belə bir fikir irəli sürürdülər ki, Balaxanının altında tükənməz bir yeraltı neft gölü var — yeri gəlmişkən, bu nəzəriyyə müasir dövrün aparıcı neft geoloqlarının tədqiqat işləri ilə alt-üst edilmişdir.

Fevralın sonunda qiymət pudu qırx beş qəpikdən aşağı düşdü və birdən otuz qəpiyə endi; bu sensasiyalı enişdən təşvişə düşən aparıcı hasilatçılar qiymətləri münasib səviyyədə saxlamaq üçün görülməli ən yaxşı tədbirləri müzakirə etmək məqsədilə toplantı keçirdilər. Toplantıda

[43] Fontanda (Amerikada "gusher" adlanır), əgər güclüdürsə, neft borudan yuxarı yarıb çıxır, tez-tez qazma alətlərini və fəhlələri hər tərəfə tullayır, buruğu parçalayır və qara, fasiləsiz bir kütlə halında yüksəlir. Günəşdə rəqs edərək qəribə formalarda neft çiləri atır və aşağı düşüb arxlar boyunca anbarlara axarkən göy qurşağı rənglərində parıldayır. Neft quyudan fəvvarədən çıxan su kimi çıxmır. O, üçqat güclə atılır. Neft fontanının bir xüsusiyyəti onun şüalanma tərzidir. Bu, tərkib hissələrinin sıxlığına və birləşmə qabiliyyətinə görə fərqlənməsi ilə bağlıdır. Quyudan atılarkən onlar maye kütləsində öz xüsusi çəkilərinə görə yer tutur, genişlənən qaz isə neft sütununu parçalayır. Su fəvvarəsində axın fasilələrlə, neft fontanında isə dövri olaraq gəlir. Fontanların Bakının məşhur quyuları qədər güclü olmadığı Texasda ağıllı klapan sistemindən istifadə edirlər və hasilatçılar quyularını nəzarət altına almaqda mümkün qədər az vaxt itirməyə məcburdurlar. Bum günlərində (1901) mən çoxlu quyunun qapağının açıldığını və mis orkestrlərin başçılıq etdiyi səhmdar kütlələri Spindltopdakı neft mədəninə təntənəli yürüşlə gələrkən onların əyləncəsi üçün quyuların eyni vaxtda və müxtəlif bucaqlar altında fəvvarə vurmasına icazə verildiyini gördüm. Bakıda, Borislavda (Qalisiya) və digər neft mədənlərində neftçilər fontanın doğulmasına daha ciddi bir iş kimi yanaşırlar. Bu əsərdə təsvir etdiyim kimi, Bakının məşhur vəhşi quyularından bəziləri mədənlərdə elə dəhşətli dağıntılar törətmişdir ki, heç bir lüzumsuz riskə yol verilmir, əmlakın məhvinin və insan tələfatının qarşısını almaq üçün isə mümkün olan hər şey edilir.

iştirak edənlər öz qərarlarına əməl etmədilər: ümumi inamsızlıq hökm sürdüyündən hamı bazara atıldı və bir-birindən ucuz satmağa çalışdı.



Sabunçu gölü; uzaqda Sabunçu neft mədəni görünür.

İşlər 1873-cü ilin iyun ayının sonuna qədər beləcə ləng getdi; həmin vaxt Xələfi şirkətinin mülkü olan XIV qrupda məşhur Vermişev fontanı fəaliyyətə başladı. O, püskürəndə neft çaylar kimi bütün mədənə axdı və bu xəbər Sankt-Peterburq və Moskvada böyük sensasiya yaratdı. Quyunun üstündə palçıq və qum konusvari bir təpə əmələ gətirdi, onun yamacları ilə neft çayları axırdı. Kifayət qədər çən tutumu təmin edilmədiyi üçün böyük miqdarda neft itdi. Bu itki quyu dövri fontana çevrilib nəzarət altına alınana qədər təxminən dörd ay davam etdi.

1875-ci ildə Bakını ziyarət etmiş parlament üzvü cənab Artur Arnold qeyd etmişdir ki, o vaxt iki yaşı olan bu fontanın sütununun diametri doqquz fut, hündürlüyü isə qırx futdan az deyildi. Quyunun gözlənilmədən böyük məhsuldarlığının bilavasitə nəticəsi neft bolluğu və alıcıların olmaması oldu.

İltizam sisteminin ləğvindən səkkiz ay sonra xam neftin qiyməti pudu iki qəpiyə düşdü. Bu ilin avqustunun bir hissəsində tələb edilən müstəsna yüksək qiymətləri nəzərə almasaq, qiymət bir daha heç vaxt qırx beş qəpiyə qalxmamışdır. Əvvəlcə düşünürdülər ki, sonrakı qazma işlərindən imtina etmək lazım gələcək, lakin nəticədə məlum oldu ki, hətta iki qəpiklik aşağı qiymət də hasilatçıya mənfəət payı saxlayır.

“Bakı Neft Şirkəti”nin (Kokorev və Qubonin) VIII qrupda vurdurduğu nasoslu quyu iki il ərzində gündə 10 000 pud verdi, hasilat nəhayət gündə altmış–səksən tona düşdü və səksəninci illərin xeyli içərilərinə qədər bu səviyyədə qaldı. O, “Kormilitsa” (Süd anası) quyusu kimi tanınırdı. 1886-cı ildə onu görmüş ziyarətçilər onu etibarlı hasilatçı hesab edirdilər.

Xələfi şirkətinin 1874-cü ildə doqquz düymlük quyudan daha bir fontanı oldu. İyulun 27-də vuran fontan ilin sonuna qədər fəvvarə vurdu, sonra altı ay fasiləli fontana çevrildi və karyerasını nasoslu quyu kimi başa vurdu. Əvvəlcə axını dayandırmaq üçün hər cəhd uğursuz oldu və böyük miqdarda neft hədər axdı.

Sübut olunmuş Balaxanı mülklərinin yaxınlığındakı xüsusi torpaqlara gəlincə, onlar kəşfiyyat edilməmişdi və təşəbbüskar hasilatçıların harada qazmaq kimi mühüm məsələdə

mülahizəsinə kömək edəcək heç bir quyu da yox idi. Xüsusi torpaqda ilk quyu Maştağa yolunun sağında, demək olar ki, XV qrupun qarşısında qazıldı. Tezliklə onun ətrafında daha üç quyu peyda oldu; hamısı təsadüfən neftə rast gəlmək ümidi ilə qazılırdı və maliyyənin yoxsulluğu və uğurun qeyri-müəyyənliyi üzündən iş yarımçıq aparılırdı. 1874-cü ildə daha üç quyu başlandı, lakin neft vurmadığından 1875-ci ildə onlardan imtina edildi.

Bu arada Balaxanıda, işləri uğura əmin olan və istismar işlərini aparmaq üçün kifayət qədər vəsaiti olan adamların əlində olduğu yerdə quyuların sayı və hasilat sürətlə artmaqda davam edirdi — məhz hansı sürətlə artdığı aşağıdakı cədvəldə göstərilir:

İl	Quyuların sayı	Hasilat, pud
1870	—	1 482 100
1871	—	1 165 285
1872	2	1 395 114
1873	9	3 903 886
1874	19	4 702 343
1875	28	5 353 043

Balaxanıda qazma işləri enerjili şəkildə aparılırdı və 1875-ci ilin oktyabrında “Souçastniki” şirkətinin mülkündə (XIII qrup) daha bir güclü fontan fəaliyyətə başladı. Bu fontan yenidən neft qiymətlərində kəskin enişə səbəb oldu və başqa hasilatçılar qazmağı dayandırdılar.

1874-cü ildə 196 fut dərinliyində olan və gündə 2 000 pud verən quyu hasilatı azaltmağa başladı. Mülkün qazma rəhbəri Burmeyster yeni neft layı axtarmaq üçün daha dərindən qazmağa başladı. 318 futda neft itirdi, lakin böyük miqdarda qaz aşkar etdi. 280 futda[44] o qədər bərk bir qaya layına çatdı ki, onu qazmaq üçün səkkiz nəfər qoymalı oldu və onlar da gündə cəmi bir neçə düym irəliləyə bilirdilər. Birdən oktyabrın 26-da qazma aləti yeraltı su anbarının tavanını yarıb keçdi və səkkiz nəfər əvəzinə yalnız bir nəfər lazım oldu. Dəyişikliyin səbəbini müəyyən etmək üçün alət çıxarıldı, nəticədə quyudan az miqdarda neft atıldı. Bu püskürmə bir neçə dəqiqədən sonra dayandı; sonra qəribə bir sükutun ardınca qazın qorxunc uğultusu, yeraltı partlayışlar və quyunun yaxınlığında torpağın hiss olunan titrəyişi gəldi. Neft və qaz fasilələrlə fəvvarə vururdu. Borunun ağzına ehtiyat üçün yarım düymlük qazan təbəqəsindən qapaq qoyuldu; lakin həmin gecə neft onu yarıb keçdi və 40 fut hündürlüyə qalxdı. Ertəsi gün axın sutkada 150 000 pud təşkil etdi. Fontan noyabrın 23-də nəzarət altına alınana qədər dörd böyük neft gölü əmələ gəldi. Neft ya torpağa hopdu, ya da buxarlandı. Yeni quyular üçün yer təmizləmək məqsədilə göllərdən birinə od vuruldu və təxminən bir həftə ərzində hər gecə Bakının səmasını neft mədəni yanğınının böyük alovu ilə işıqlandı. Heç kəs neftə dəyər vermirdi; hamı bilirdi ki, tələbat olsa, istədikləri qədər neft tapa bilərlər. Hər gün fontanlar vururdu, hər biri əzəmətinə görə özündən əvvəlkini üstələyirdi. Hasilatçılardan heç biri özünü nə neft saxlamaq imkanları ilə, nə də bütün rayona yayılan, əhəngli qumlu torpağa hopan və Balaxanı və Sabunçu neft mədənlərinin boş torpaqlarında səpələnmiş bitki örtüyü ləkələrini məhv edən neftin axınını tənzimləmək vasitələri ilə təmin etməmişdi. Mədənin bütün səthi neftə doymuşdu və Pensilvaniyanın kiçik quyularına öyrəşmiş amerikalı qazıyıcılar Balaxanı fontanlarının heyrətamiz və ağlasığmaz hasilatı qarşısında mat qalırdılar. Qaçılmaz nəticə neft bolluğu və

[44] Orijinalda rəqəmlər belədir: əvvəlcə 318 fut, sonra 280 fut. Ardıcıllıq məntiqsiz görünür (dərinləşdirmə zamanı dərinlik azalmaz); ola bilsin ki, rəqəmlərdən biri səhvdir. — *Tərc.*

qiymətlərin çökməsi oldu; emal sənayesinin böhran keçirməsi bazara daha da təsir edirdi. Durğunluq o qədər kəskin idi ki, yalnız eyni zamanda neftayırma zavodlarının sahibi olan hasilatçılar quyularını işlədə bilirdilər.

Sabunçudakı xüsusi torpaqlarda qazma işləri 1875-ci ildə davam etdi, lakin yalnız kiçik miqyasda. Torpaq bahalı deyildi; bir akrı mülkiyyətə 270 funtdan 400 funta qədər qiymətə, Ramana və Zabrat yaxınlığında, bir qədər uzaqda olan torpağı isə 135 funta almaq olardı. Sabunçuda 70–80 fut dərinlikdən vurdurulmuş və Balaxanıdakılardan daha çox neft verən uğurlu bir quyu torpaq bumu yaratdı və çoxlu şirkətin yaranmasına səbəb oldu. Bir neçə min kvadrat futluq kiçik bir sahədə buruq buruğun ardınca ucaldıldı və məşhur Şeytan bazarı yarandı. Bu şeytani ad kiçik koloniyada gecə-gündüz zəhmət çəkən neftə bulaşmış fəhlə kütlələrini görənlərin ağlına gəlmişdi. İmkanları məhdud olan hasilatçılar birləşib mülkləri desyatinlə (bir desyatin = 2,7 akr) deyil, sajenlə (bir sajen = 7 fut) əldə etməyə çalışan bir sıra kiçik şirkətlər yaratdılar. Bir kvadrat sajen əvvəlcə beş rubla (kvadrat futu təxminən 10¾ pens) əldə edilirdi, lakin tezliklə ikiqat qiymətə satılmağa başladı və iki il ərzində qiymət akr başına 270 funtdan 4 400 funta yüksəldi. Sahələr kvadrat sajeni on və on beş rubldan, adətən on–on iki il müddətinə satılırdı; satıcılar bundan əlavə hasilatdan müəyyən bir pay şərt kəsirdilər. Sahələrin bölünməsi ifrata çatdırıldı və mülklər artıq yüzlərlə deyil, onlarla sajenlə alınırdı. Bəzi mülklərdə iki təkərli arabanı döndərmək mümkün deyildi, buruqların arasında isə, necə deyərlər, iynə atsan yerə düşməzdi. Sahələrin bölünməsinin ardınca payların və mənfəət iştirakı şəhadətnamələrinin bölünməsi gəldi.

Mərhum cənab Raqozin (rus emal sənayesinin qabaqcıllarından biri, xarici istehlakçıları rus sürtkü yağını almağa ilk dəfə razı salan, ixtisasca mühəndis və kimyaçı və öz dövrünün ən bacarıqlı neft publisistlərindən biri) kvadrat futu 5¾ pensdən 7 350 kvadrat futluq bir sahə almış on nəfərdən ibarət bir şirkətin hekayəsini danışmağı xoşlayırdı. Neft vurduqdan sonra şəriklərdən biri öz payının yeddidə birini yeddi nəfərdən ibarət yeni bir şirkətə satdı, bunlardan biri isə öz payının üçdə birini dörd nəfərin olduğu üçüncü bir şirkətə satdı.

Bu ilk hasilatçıların əldə etdiyi mənfəəti xatırlasaq, mülklərin belə bölünməsi o qədər də təəccüblü görünmür. Sərvətlər tez qazanılırdı; hər hasilatçı pul qazanırdı və o vaxt neft sənayesində bircə də olsun iflas halı qeydə alınmamışdı. Budur tipik bir hal. “Souçastniki” şirkəti 1872-ci il avqustun 19-da 4 600 funt səhm kapitalı ilə yaradıldı; iyirmi üç şərikin hər biri 200 funt qoymuşdu. Dekabr satışlarında şirkət təxminən 4 funt qiymətləndirilmiş XIII qrupu 1 858 funta aldı. Qalıq qismən başqa mülklərin alınmasına, qismən də neft mədəni avadanlığının əldə edilməsinə sərf edildi. 1873-cü ilin əvvəlində işə başlayan şirkət ilk beş ildə qazandığı mənfəətdən ilkin kapitalı 5 412 funt artıra bildi, belə ki, 1878-ci ildə kapital təxminən 10 000 funt təşkil edirdi. 1877-ci ildə şirkət 1 592 569 pud hasil etdi və 7 868 funt, yəni hər ilkin pay üçün 342 funt, yaxud 171 faiz xalis mənfəət əldə etdi. Xərclərin əvvəlki ildəkindən 400 funt az olduğu 1878-ci ildə şirkət 2 083 649 pud hasil etdi, lakin qiymətlər daha aşağı olduğundan mənfəət cəmi 6 531 funt, yəni pay başına 2 840 rubl, yaxud 142 faiz təşkil etdi.

Boş torpaqlarda neft vurması və 1873-cü ilin ortalarında ilk fontanın vurdurulması xam neftin qiymətində misli görünməmiş enişə səbəb oldu. Qiymətlər pudu 45 qəpikdən 2–3 qəpiyə düşdü. Xam neftin dəyərinin belə qəfil düşməsi hasilatçıların hesablamalarını alt-üst etdi. Yeni hasilat müəssisələrinin neftayırma zavodları tikmək üçün nağd pula ehtiyacı var idi, digər

tərəfdən isə onların vəsaitləri hərracda Xəzinəyə təxminən 300 000 funt ödənilməsi ilə ciddi şəkildə gərginləşmişdi. Düzgün təşkil edilmiş kreditin olmaması şəraitində neft məhsullarına tələbatın durmadan artmasına baxmayaraq sənayenin sonrakı inkişafı və genişlənməsi ləngidi. Bu şərait sənayeyə son dərəcə ağır təsir göstərdi və hasilat sahəsi özünün ilk sənaye böhranının caynağına düşdü.

VI fəsil. Bəzi məşhur fontanlar (1876–1880)

“Souçastniki” şirkəti və onun fontanlar rekordu — Şeytan bazarı — Ramana və Zabrat mülkləri — Yatağın genişlənməsi — Üç milyon pud vermiş quyu — Bağ necə neft mədəninə çevrildi — Neftçilər Qızıl bazara can atırlar — “Ararat” və “Günəş” quyuları; ikisi birlikdə iyirmi dörd milyon pud verir — Binəqədi və aksiz — Suraxanıda qazmanın uğursuzluğu — Ağ neft — Erkən aksiz anomaliyaları — Zaqafqaziya dəmir yolunun açılması.

1876-cı ildə fontanlar rekordu ilə məşhur olan “Souçastniki” şirkəti diametri 6¼ düym[45] və dərinliyi 280 fut olan bir quyuda neft vurdu. Neft mənbəyinə çatılan kimi neft dəhşətli qüvvə ilə püskürdü. Hasilat gündə təxminən 70 000 pud, yaxud nəzarət altında olmadığı doxsan gün ərzində 6 000 000 pud təşkil etdi. Bu quyuda, ilk bir neçə ildə qazılmış başqaları kimi, qoruyucu boru yuxarıda heç bir möhkəmləndirmə edilmədən yerinə endirilmişdi və bu, onun bağlanmasını qeyri-mümkün edirdi. Bu cür quyular bağlanan kimi neft qoruyucu borunun yanlarını yarıb çıxırdı.

Təcrübəli qazıyıcı Lents[46] boru ətrafında 25 fut qazdı və onunla bərk torpaq arasındakı boşluğu sement, yaxşı yoğrulmuş gil, daş və digər qırıntılarla doldurdu; təzyiqə müqavimət göstərmək üçün hamısı bərk döyəclənmişdi. Sonra quyunun üstünə dəmir qapaq qoyuldu. Tələbat olmadığından neft satılmadı və onun təbii bir gölə yığılmasına imkan verildi; o, orada on il qaldı və Bakı neft sənayeçilərinin üçüncü qurultayında iştirak edənlərdən bəzilərinə göstərildi.

Növbəti ildə (1877) Orbelov qardaşları Şeytan bazarında nəhəng bir fontan vurdurdular. Quyu cəmi 210 fut dərinliyində, borunun diametri isə 10½ düym idi. Başlanğıc sakit idi, quyu asanlıqla bağlandı, lakin qapaq qurğusu daha etibarlı edilərkən təzyiq onu parçaladı və neft qarşısıalınmaz bir qəzəblə püskürdü. Otuz dəqiqə ərzində bir çən ağzına qədər doldu və neft hər yerə axaraq göl göl ardınca əmələ gətirdi. Fontan nəzarət altına alınana qədər təxminən 9 000 000 pud hədər getdi. Axın bəzən gündə təxminən 250 000 puda çatırdı.

Daha az sensasiyalı, lakin daha gəlirli uğuru 1877-ci ildə IX qrupda Mirzoyev qazandı. Neft bir il əvvəl vurulmuşdu. Növbəti yaz quyunu 240 futa qədər dərinləşdirərkən neft gündə 18 000 pud sürətlə fəvvarə vurmağa başladı. Bir müddətdən sonra o, nəzarət altına alındı və illər boyu mədənin ən sabit hasilatçılarından biri oldu.

1878-ci il fontanları arasında Xəzər şirkəti 462 fut dərinlikdən bir fontan vurdurdu; o, gündə 40 000 puda yaxın və cəmi 2 000 000 puddan çox neft verdi, bunun yarıdan çoxu yanacağa getdi, qalanı isə hədər axdı.

Sənayenin inkişafında Ramana və Zabrat mülklərində quyuların qazılması böyük əhəmiyyət kəsb etdi. Nəticə sübut olunmuş ərazinin genişlənməsi oldu. Boyçevskinin Ramana

---

[45] Orijinalda “6¼ ft. diameter” (6¼ fut) yazılmışdır; quyunun diametri üçün bu mümkün deyil, söhbət çox güman ki, düymdən gedir. — *Tərc.*

[46] 1869-cu ildə o zaman “Qafqaz və Merkuri” gəmiçilik şirkətinin baş mühəndisi olan, indi isə Bakıda qazma podratçısı olan Lents maye yanacaq ocaqları məsələsində Aydon və Dorsetlə görüşmək üçün bu ölkəyə göndərilmişdi. Qayıtdıqdan sonra o, Rusiyada geniş tətbiq olunan bir ocaq ixtira etdi. Aparatı uğur qazandıqda şirkətdən ayrıldı və mühəndis və podratçı qazıyıcı kimi işə başladı.

yaxınlığındakı ilk quyusu əla keyfiyyətli xam neft verən fontan vuranda rayonun məziyyətləri dərhal tanındı və ətrafdakı mülklər tez bir zamanda tutuldu. Fontanın ətrafındakı torpaq tezliklə buruqlarla örtüldü, bəziləri isə Ramana bağlarında ucaldıldı. Bu uğurlu quyular ikinci bir Şeytan bazarının yaranmasına gətirib çıxarmadı, çünki Şeytan bazarının şimalındakı Zabrat mülkündə məhsuldar fontanlar bir-birinin ardınca vurdurulurdu.

V qrupun şərqində ilk quyunu Zığ Neft Şirkətinin mülkündə mühəndis cənab Kleyqels qazdı. Neftə rast gəlmədən təxminən 450 fut qazdıqdan sonra işi tərk etdi və bu yerin perspektivsiz olduğu bildirildi. Bu, cənab Burmeysteri (Bakının polkovnik Lukası)[47] Birinci Sabunçu Şirkətinin (Mnatsakanov və Şərikləri) qonşu xüsusi mülkündə bir quyunu dərinləşdirməkdən çəkindirmədi. Onun səbatı 294 futda məhsuldar bir fontanın vurdurulması ilə mükafatlandırıldı. 10 düymlük borunun quraşdırıldığı quyu ilk ay ərzində su və qaz atdı; ardınca böyük miqdarda qum gəldi və nəhayət neft elə bir hücumla gəldi ki, ağır qapağı top mərmisi kimi quyunun ağzından atdı. Püskürmə təxminən dörd ay fasiləsiz davam etdi, hasilat orta hesabla gündə 20 000 pud, yaxud cəmi 3 000 000 pud təşkil etdi. Bundan 500 000 pud pudu yarım qəpikdən (tonu təxminən 8 pens) satıldı; 150 000 pudu Xəzər şirkəti yanacaq üçün 800 rubla aldı, qalanı isə qəsdən yandırıldı və ya torpağa hopmağa buraxıldı. 500 funta başa gəlmiş qoruyucu borular qumla dolu neftin sürtünməsindən didik-didik oldu. Qonşu sahələr tezliklə yüksək qiymətlərlə tutuldu və buruqlar yağışdan sonrakı göbələklər kimi peyda oldu. Dəyişiklik tam idi; bağ neft mədəninə çevrilmişdi. Başqa bir mərkəz — Qızıl bazar — ön plana çıxdı. Onun yeraltı neft mənbələri tükənməz görünürdü. 1878-ci ilin ilk altı ayında bu nisbətən kiçik sahədə iyirmi beşdən çox fontan qeydə alınmışdı. Qızıl bazarın hasilatı heyrətamiz sürətlə artırdı, şəriklərin paylarının və sahə icarələrinin bölünməsi isə son dərəcə xırda paylara çatırdı. O dövrün Bakı neftçiləri Qızıl bazara girmək üçün bir-birini itələyirdilər, lakin tezliklə 1878-ci il böhranı nəticəsində çətinliyə düşdülər və işi dayandırıb daha yaxşı vaxtları gözləməyə məcbur oldular.

Qızıl bazarda 1879-cu ilin sonunda qismən “Ararat” şirkətinə məxsus V qrupda daha məhsuldar bir fontan vurdu. 10½ düymlük boru ilə 280 futda neft layına çatdıqda qazma alətləri çıxarıldı, lakin quyu fəvvarə vurmaqdan imtina etdiyindən qazma işləri bərpa edildi və nəticədə quyu 15 düym dərinləşdirilən kimi fəvvarə başladı. Ştanqlar xeyli çətinliklə çıxarıldı və quyu bağlandı, lakin təzyiq qoruyucu boru üçün həddindən artıq güclü çıxdı və neft deşiklərdən şirkətin ehtiyaclarını ödəməyə kifayət edən miqdarda fışqırdı. Ümumi hasilat təxminən 9 000 000 pud oldu, bundan 1 000 000 pudu mülkünü basmış neftin vurduğu zərərə görə bir hasilatçıya təzminat olaraq verildi; təxminən 2 000 000 pud pudu yarım qəpikdən satıldı, qalanı isə Zabrat gölünə hədər axmağa buraxıldı.

V qrupun başqa bir hissəsini işləyən “Günəş” şirkəti (1893-cü ildə Məlikov qardaşları firmasına birləşmiş) “Ararat” şirkətinin fontanının ətraf neft mənbələrini qurutmuş ola biləcəyi ehtimalından çəkinməyərək 12 düymlük bir quyu qazmağa başladı. Növbəti ilin əvvəlində neftli qumdan, sonra gildən, daha sonra isə axar qumdan keçildi. “Ararat” şirkətinin fontanını qidalandıran neft layına yaxınlaşdıqlarına dair əlamətlər olduğundan iş dayandırıldı və qoruyucu borunun başı 20 fut dərinliyə qədər sıx doldurulmuş betonla möhkəmləndirildi.

[47] Entoni Lukas (Anthony Lucas) — 1901-ci ildə Texasda Spindltop fontanını vurdurmuş mühəndis. — *Tərc.*

Səkkiz gün-gecə davam etdikdən sonra qazıyıcılar neft vurdular. Bunun "Ararat" quyusuna təsiri təəccüblü idi. "Günəş" şirkəti neftli laya çatan kimi "Ararat" fontanı dayandı. "Günəş" quyusu bağlananda o yenidən işə düşdü. Ticarət baxımından vəziyyət, aydındır ki, maraqlı idi. Müəssisələri birləşdirmək cəhdi uğursuz oldu və quyular iki ay rəqabət şəraitində işlədildi; bu müddət ərzində "Günəş" şirkəti pudu iki qəpikdən 4 800 000 pud satdı. Üçüncü ayda "Günəş" quyusu qapağını atdı, nəzarətdən tamamilə çıxdı və 2 000 000 pud neft Zabrat gölünə axdı. Hər iki quyu fəvvarə vurmağı dayandırdı. İkisi birlikdə 24 000 000 pud neft atmışdı. Jelonka ilə çıxarılan quyular kimi onlar hər biri gündə 5 000 puddan çox hasilat saxladılar və səksəninci illərin xeyli içərilərinə qədər davam etdilər.

Qazma işləri Binəqədidə, Suraxanıda, Bibiheybətdə, Ramanada və başqa yerlərdə də aparılırdı, lakin nəticələr hər yerdə eyni deyildi. Binəqədi yaxşı başladı; bircə də quru quyu olmadı. Təəssüf ki, neft yüksək xüsusi çəkili və Balaxanı xam neftindən xeyli qatı olduğundan neftayıranların tələblərinə cavab vermirdi. Neftin praktiki dəyəri yox idi, çünki daha az faiz işıqlandırıcı yağ ehtiva etməklə yanaşı, distillə prosesi daha çox vaxt aparırdı. Bunun nə qədər əlverişsiz olduğu aydın olar, əgər xatırlasaq ki, aksiz neftayırana məhsulun pudu başına sabit dərəcə ilə deyil, hər kubun tutumuna görə, saatda müəyyən məbləğ hesabı ilə qoyulurdu. Rəsmi olaraq pudu iyirmi beş qəpik müəyyən edilsə də, neftayıranın ödədiyi vergi distillatın pudu üçün səkkiz qəpikdən qırx qəpiyə qədər dəyişirdi. Bu, Binəqədidə qazma işlərindən imtina edilməsinin əsas səbəblərindən biri idi. O zaman hasilatçılar ağır xam neft üçün münasib tətbiq tapa bilmirdilər. Bəziləri onu yanacaq kimi işlədilməyə yenicə başlayan mazutun əvəzinə işlətməyə çalışdılar. Bunda uğursuzluğa düçar oldular, əsasən ona görə ki, xam neft Bakıya daşınma xərci (pudu beş qəpik) üzündən mazutla rəqabət apara bilmirdi, neftayırma zavodları isə mazutdan istənilən qiymətə qurtulmağa çox şad idilər.

Suraxanıda qazma tamamilə uğursuz oldu. Bu halda uğursuzluğun səbəbi xam neftin aşağı xüsusi çəkisi idi. Bütün quyularda ağ neft kimi tanınan özünəməxsus bir xam neft növü vuruldu. Xam neft az qala şəffaf idi və xüsusi çəkisi kerosindən aşağı idi; o, işıqlandırıcı yağ kimi istifadəyə yararlı fraksiyaların çox kiçik faizini ehtiva edirdi, digər fraksiyalar isə adi lampalarda təhlükəsiz işlədilmək üçün həddindən artıq aşağı alışma temperaturuna malik idi. Onu boyaların qarışdırılmasında skipidar əvəzinə işlətməyə cəhd edildi, lakin nəticələr qeyri-qənaətbəxş oldu və Suraxanıda qazmaya son qoyuldu.

Bibiheybətdə yalnız iki qrup, XIX (1896-cı ildən Britaniya mülkü) və XX işlənirdi. Fiziki xüsusiyyətlərinə görə burada hasil edilən neft Suraxanı və Binəqədi xam neftləri arasında orta yer tuturdu, lakin Balaxanı xam neftindən xeyli üstün idi. Xüsusi çəkisi 0,850 idi və təxminən 60 faiz işıqlandırıcı yağ verirdi. Aksiz kubun tutumuna görə hesablandığı müddətdə Bibiheybət xam nefti Balaxanı xam neftindən iki dəfə baha idi. Hər iki qrupun sahibləri öz mülklərində neftayırma zavodları tikmişdilər. Məhsullarının satışı baxımından onlar ən əlverişli vəziyyətdə idilər. Balaxanı hasilatçıları neftayırma zavodlarına çatdırılma üçün pudu beş qəpik ödəməli idilər, neftayıranlar isə öz növbəsində Bakı körpülərinə çatdırılma xərcini daşımalı idilər. Bu xərcləri iki Bibiheybət hasilatçısı daşımırdı. Dövlət qruplarının yaxınlığında mülkiyyət hüququ şübhəli olan bir neçə icma torpağından başqa xüsusi mülk olmadığından hasilatçılar ümumiyyətlə Bibiheybətdə işə başlamağa o qədər də həvəsli deyildilər. Polkovnik Burmeyster

icarə mülkündə qazdı; quyu qəribə şəkildə[48] 560 futdan neft deyil, isti su fəvvarəsi vurmağa başladı. Başqa operatorların səyləri də daha yaxşı nəticə vermədi.

[48] Bu yaxınlarda Bakıda olarkən (yanılmıramsa, Xəzər şirkətinin Sabunçu mülkündə) qəribə bir isti su quyusu gördüm. Bütün avadanlığı çıxarılmış buruğa daxil olanda su qoruyucu borunun başından aşıb axır və pərçim deşiklərindən fışqırırdı. Yarım düzün fəhlə çömbəlib təmiz, ağ isti suyun güclü şəlaləsində yuyunurdu. Bu böyük quyu neft quyularının əhatəsinin mərkəzində olsa da, təmiz su verir.

VII fəsil. Nəqliyyat və qazmada təkmilləşdirmələr (1872–1880)

Əl quyusunun sonu — Amerika kəndir sistemi Rusiyada — At və dəvə boru kəmərinə qarşı — Nobellərin çəkdiyi ilk boru kəməri — Yerlilərin düşmənçiliyi — Nobelin ardıcılları — İlk neft mədəni dəmir yolu — Xəzərdə ilk tökmə neft daşıyan gəmi — Nobellərin ilk tanker paroxodu — Pis təşkil olunmuş sənaye — Amerika işıqlandırıcı yağı ilə rəqabət — Sankt-Peterburq və neftin vergiyə cəlb edilməsi — 1880-ci ildə perspektivlər.

İltizam sisteminin ləğvi ilə 1880-ci ilin sonu arasındakı ilk səkkiz il ərzində çoxsaylı təkmilləşdirmələr tətbiq edildi. Bu dövrün əsas xüsusiyyəti ibtidai əl quyusunun buxarla qazılmış quyu ilə sürətlə əvəz edilməsi idi. Yeni dövrdən əvvəlki ildə, 1872-ci ildə cəmi iki buxarla qazılmış quyu və bir neçə yüz (çoxlu tərk edilmişlər də daxil olmaqla 415) əl quyusu var idi. Buxarla qazılmış quyunun irəliləyişi ən yaxşı şəkildə aşağıdakı cədvəldən görünür:

İl	Buxarla qazılmış	Əl quyuları
1873	17	158
1874	50	185
1875	65	170
1876	101	62
1878	301	—

Nobellər hasilat işinə başlayanda qazma üsulunu təkmilləşdirməyə qərar verdilər. Onlar kəndir sistemini sınamaq üçün altı amerikalı qazıyıcı gətirdilər. Bu sistem Bakıda tələblərə tam cavab vermədi, lakin Nobellər müəyyən dəyişikliklər etdilər və nəticədə tez ümumi istifadəyə daxil olan və bu günə qədər populyarlığını saxlayan qarışıq bir sistem yaratdılar.

Hasilatçıların üzləşməli olduğu növbəti çətinlik neftin quyulardan neftayırma zavodlarına çatdırılması və sonra xam və ya təmizlənmiş halda istehlakçıya daşınması idi. Əvvəlcə xam neft və onun məhsulları burdyuklarla (iki–üç pud neft tutan keçi və ya qoç dərisi tuluqları) atla və ya dəvə ilə daşınırdı. Bu tuluqlarla yüklənmiş bütöv dəvə karvanları Bakıdan Zaqafqaziyanın və İranın uzaq yerlərinə yola düşürdü. Yetmişinci illər ərzində bu tuluqlar dörd pud tutumlu oval formalı çəlləklərlə əvəz olundu; hər dəvə onlardan ikisini belinə aşırıb daşıyırdı. Məsafənin böyük olmadığı yerlərdə arabalar (oxa bərk bərkidilmiş 6–7 fut hündürlüyündə iki təkəri olan yerli arabalar) işlədilirdi. Onlar asanlıqla yol gedir və orta bir at iyirmi–iyirmi beş pud neft çəkə bilir. Çəllək arabanın üstünə yüklənmir, kəndirlə arabanın altından asılırdı. Bu daşıma üsulu hələ də mövcud olsa da, dəri tuluqlarda daşıma iyirmi beş ildən də əvvəl boru kəmərləri və dəmir yolları tərəfindən tamamilə sıxışdırılıb çıxarılmışdı.

Cənab Artur Arnold (1875) “Karvanla İran boyunca” əsərində o zamankı sistemin maraqlı təsvirini verir. “Bütün günü, — deyir o, — neft təsəvvür oluna biləcək ən qəribə quruluşlu arabalarda Bakıya axıb gəlir. On beş nəfərlik tək atlı, iki təkərli Neapol arabası bənzərsizdir, lakin Bakı neft arabası ilə müqayisədə adi bir şeydir. Az adam Bakı neft arabasını idxal edib onu, hətta çox böyük mərc üçün belə, Ricent-strit və ya Pell-Mell boyunca sürməyə cəsarət edərdi. Elə adam haradadır ki, bir çəllək neft tutacaq qədər kiçik, qəfəsli bir arabaya qonub oturaraq, diametri 7 fut olan təkərlər üzərində o qədər hündürə qaldırılaraq ki, oxun altından başqa bir çəllək asmaq mümkün olsun, bütün şey göy qurşağının bütün rənglərinə boyanmış halda və beli oxla ancaq bir səviyyədə olan balaca bir at tərəfindən çəkilərkən bərkdən

cırıldayaraq orada özünü nümayiş etdirməyə cəsarət etsin? Halbuki hasilatçılar deyirlər ki, onlar artıq bu cür arabalarda neftin daşınmasına birlikdə ildə 100 000 funtdan az olmayan məbləğ ödəyirlər."

İlk boru kəmərinin və neft mədəni dəmir yolunun açılmasından əvvəl tez-tez gündə iki dəfə hər iki istiqamətdə səfər edən təxminən 10 000 neft daşıyan araba var idi. Lakin pis havada arabaçılar işləməyə can atmırdılar, çünki yollar yağış vaxtı palçıq gölməçələrinə çevrilir, şəhərlə neft quyuları arasında hərəkəti, hətta atla belə, demək olar ki, qeyri-mümkün edirdi. Neftayıranlar tamamilə havanın vəziyyətindən asılı idilər və bu, onlar üçün tez-tez xeyli zərər demək idi, xüsusən aksiz rejimi dövründə: neftayıranın altı gün üçün qabaqcadan aksiz ödədikdən sonra kublarını boş saxlamalı olduğu hallar tez-tez olurdu. Bundan əlavə, arabaçılar tez-tez daha yüksək haqq üçün tətil edirdilər və çatdırılma qiymətlərini tədricən pudu beş qəpikdən səkkiz qəpiyə qədər qaldırdılar. Bu şərait 1875-ci ilə qədər davam etdi; neftayıranlar yükü hiss edir və şikayətlənirdilər, lakin Nobellər neftayırma zavodu sahibləri kimi meydana çıxana qədər bu zorakılığa son qoymaq üçün heç nə etmirdilər. Xərcləri azaltmaq və daha böyük və daha sürətli təchizatı təmin etmək üçün Nobellər digər firmaları birgə boru kəməri çəkməyə razı salmağa çalışdılar. O yerlərdə çox vaxt sağlam düşüncədən üstün gələn paxıllıq və təşəbbüssüzlük[49] digər firmaları layihədə iştirakdan imtina etməyə vadar etdi və alternativ olaraq onlar 1877-ci ildə öz hesablarına və öz risklərinə neft mədənlərini emal rayonu ilə birləşdirən dəmir yolu tikmək üçün hökumətə icazə istəyi ilə müraciət etdilər. Yerli administrasiya dəstəkləsə də, onların ərizəsi yuxarı hakimiyyət orqanları tərəfindən rəfə qoyuldu. Lakin növbəti il hökumət 1879-cu ilin aprelində açılmış dəmir yolunu tikməyə başladı. Son stansiya bu məqsədlə doldurulmuş Sabunçu gölünün yerində idi və oradan bir qol Suraxanıya, ikincisi isə XII qrup boyunca Balaxanıya çəkildi. Digər son stansiya Bakı ilə Qara şəhər arasında salındı. Neft ya çəlləklərdə, ya da tökmə halında sistern vaqonlarda daşınırdı. Bir hasilatçının xahişi ilə dəmir yolu rəhbərliyi onun mülkü ilə Sabunçu son stansiyası arasında boru kəməri çəkdi. Stansiya mülkdən aşağıda olduğundan neft öz axını ilə axır, nasos mərkəzi isə yol yatağından yuxarıda olduğundan neft sistern vaqonlarına da öz axını ilə dolurdu.

Nobellər 1877-ci ildə 10 000 funta başa gələn boru kəmərini çəkməyə başlamışdılar və bu xərci kəmər işlədiyi ilk ildə çıxardılar. Sənayenin bu sahəsinin bugünkü miqyasını nəzərə alaraq, bu qabaqcıl boru kəmərinin qısa təsviri maraqlı olacaq. 108 000 pud xam neft saxlaya bilən dəmir çənləri olan mərkəzi stansiya Balaxanıda, XV qrupun yanında, Qara şəhər stansiyasından 210 fut yüksəklikdə tikilmişdi. Mədən mərkəzindən neft iyirmi yeddi at gücündə buxar nasosunun köməyi ilə 5 düymlük borularla saniyədə 3½ fut sürətlə vurulurdu. Kəmərin maksimal ötürmə qabiliyyəti gündə 80 000 pud idi. Neftin Balaxanıdakı mərkəzi çənlərə çatdırılması mülklərdə quraşdırılmış daha kiçik nasosların köməyi ilə həyata keçirilirdi. Mərkəzi stansiyada xam neft dəmir çənlərdə saxlanılırdı. Magistraldan bəzi neftayırma zavodlarına qollar çəkildi; onların sahibləri yeni daşıma üsulunun üstünlüklərini tez dərk etdilər. Xam neft onlara böyük Balaxanı nasosunun köməyi ilə çatdırılırdı. Bir neçə il neftayıranlar Nobellərə 6¼ mil məsafəyə vurulan xam neftin pudu üçün 5 qəpik ödəyirdilər. Bir neçə il sonra

[49] "O yerlərdə çox vaxt sağlam düşüncədən üstün gələn paxıllıq və təşəbbüssüzlük" — Bakı sahibkarlarına (müxtəlif millətlərdən olan, o cümlədən rus, erməni, azərbaycanlı, alman və s.) qarşı müəllifin ümumiləşdirici, stereotip xarakterli mühakiməsidir; özü də bir neçə sətir aşağıda həmin sahibkarların hökumətə öz hesablarına dəmir yolu çəkmək təklifi ilə müraciət etdiklərini və bunun yuxarı hakimiyyət tərəfindən rəfə qoyulduğunu yazır. — *Tərc.*

boru haqqı pudu 1½ qəpiyə düşdü. İlk boru kəmərinin meydana çıxması arabaçılar üçün iflas demək idi və Nobellər ilk kəmərlərini qorumaq üçün mühafizəçilər təyin etməli və hər bir neçə yüz yarddan bir gözətçi budkaları tikməli oldular. Gəlirli işləri əllərindən alınmış qəzəbli tatarlar kəmərlərə zərər vururdular[50]. Nobellər boru kəmərini başa çatdıran kimi "Bakı Neft Şirkəti" də onların nümunəsini izlədi və XV qrupunu Suraxanı neftayırma zavodu ilə, sonuncunu isə körpü tikdiyi Zığ burnu ilə birləşdirdi. Bu boru kəmərinin ümumi uzunluğu doqquz ilə on bir mil arasında idi.

1878-ci ilin sonuna yaxın üç yeni kəmərin çəkilməsinə başlandı. Mirzoyev X qrupla Bakı neftayırma zavodu arasında gündə 50 000 pud xam neft ötürə bilən doqquz mil uzunluğunda 4 düymlük boru kəməri çəkdi, Lianozov isə VII qrupundan Qara şəhərə doqquz və dörddə üç mil uzunluğunda, 25 000 pud ötürmə qabiliyyətli 3 düymlük boru kəməri çəkdi. Xəzər şirkətinin çəkdiyi üçüncüsü fasiləsiz deyildi. Quyulardan neft Sabunçu dəmir yolu stansiyasına vurulur, oradan sistern vaqonlarda Kapsili kəndinə daşınır və boru kəməri ilə şirkətin yaxınlıqdakı neftayırma zavoduna çatdırılırdı. Bu boru kəmərlərinin uzunluğu altmış mil idi[51].

Xəzər dənizi boyunca neft daşınması yeni dövrün ikinci ilində yaxşılaşdı. O vaxta qədər göndərişlər tamamilə çəlləklərdə neftdən ibarət idi. 25 pud tutan və Bakıda on–on iki rubla başa gələn çəlləklər işlədilirdi, boş çəllək isə Rusiyada cəmi üç rubla satılırdı. Beləliklə, mazut Bakıda pudu beş qəpik qədər ucuz olanda belə, onu Nijniyə səksən üç qəpikdən aşağı qiymətə çatdırmaq mümkün deyildi; qiymət belə hesablanırdı:

	Rubl	Qəpik
Bakıda 25 pud mazut	1	25
Çəllək üzrə itki	9	0
Nijniyə navlun və sızma, pudu 42 qəpikdən	10	50
Cəmi	20	75

yəni təxminən pudu 80 qəpik, yaxud qallonu 4¼ pens.

Bahalı çəlləklər və navlunlar idxal olunan Amerika nefti ilə uğurlu rəqabətə mane olurdu və əslində emal sənayesinə aksiz vergisinin ləğvindən sonra bir neçə il ərzində Amerika işıqlandırıcı yağı Rusiyaya Rusiya təchizatından artıq miqdarda idxal edilməkdə davam etdi. Neftin Xəzər boyunca tökmə halında daşınmasına ilk cəhdləri 1874-cü ildə Həştərxan taciri Artemyev və cənablar Raqozin və Şipov etdilər. Bu tökmə neft daşıyan gəmilərin xüsusiyyəti o idi ki, neft birbaşa taxta gəmilərə yüklənirdi, suyun təzyiqi isə gövdədən sızmanın qarşısını alırdı. Gəmidə neftin səviyyəsi, təbii ki, su xəttindən aşağıda saxlanmalı idi. Onlar elə tikilirdi ki, aşağı göyərtə su xəttində olsun. Göyərtədə əlavə dəmir çənlər yerləşdirilirdi və gəmilər həm də çəlləklərdə neft daşıyırdı. Tökmə daşımanın tətbiqi Volqa qiymətlərini pudu qırx, hətta otuz qəpiyə endirdi.

[50] Arabaçılıq və neft daşınması Bakıda müxtəlif millətlərdən olan, əsasən yerli və İrandan gəlmiş azərbaycanlı kəndlilərin və fəhlələrin geniş yayılmış qazanc yeri idi. Boru kəmərlərinin tikilməsi minlərlə arabaçını işsiz qoymuşdu; onların etirazı və kəmərlərə vurulan zərər sosial xarakter daşıyırdı, "qəzəbli tatarlar" ifadəsi isə məsələni etnik müstəviyə keçirir. — *Tərc.*

[51] Ayrı-ayrı kəmərlərin yuxarıda göstərilən uzunluqları (9–11, 9, 9¾ mil və s.) cəmi "altmış mil" rəqəmi ilə uyğun gəlmir; uyğunsuzluq orijinala aiddir. — *Tərc.*

Nobellər boru kəmərini başa çatdırdıqdan sonra diqqətlərini dəniz nəqliyyatına yönəltdilər və “Qafqaz və Merkuri” şirkətini Xəzərdə tanker paroxodu xidməti açmağa razı sala bilmədikdən sonra özləri birini tikdilər və 1879-cu ildə onu işə saldılar[52].

* * *

Nəzərdən keçirilən dövrdə tələbat təklifin arxasınca çata bilmirdi; hasilatçıların bəziləri işi dayandırmağa məcbur oldu və durğunluq dövrü gəldi. Əgər sənaye bir qədər də olsa təşkil olunsaydı, hasilatçılar neft böhranı ilə üzləşməli olmazdılar. Yeni dövrə tələbat kimi mühüm məsələyə zərrə qədər də diqqət yetirilmədən qədəm qoyuldu. Hasilatın böyük hissəsi fotogen istehsalında istifadə olunurdu və əgər hər hansı səbəbdən neftayırma zavodları bağlansaydı, neft sənayesi məhv olardı. Neftayırma zavodlarının pis vəziyyətdə olduğu 1874 və 1875-ci illərdə az qala belə oldu. Hasil edilən bütün xam nefti istehlak edə bilməyən rəqabət aparan neftayırma zavodlarının həddindən artıq çox olması üzündən kerosin təklifi tələbatı üstələyirdi. 1876-cı ildə qiymətlər yaxşılaşdı və hasilat sənayesi gəncliyinin günlərində üçüncü böhranla üzləşməli olduğu 1878-ci ilə qədər adi qaydada irəlilədi.

1883-cü ilin sonuna qədər, Zaqafqaziya dəmir yolunda Bakı ilə Batum arasında hərəkət açılana qədər neft mədənlərinin aylıq hasilatı il ərzində qeyri-bərabər paylanırdı. Bu, sənayenin məhsullarının ixracı üçün tək bir yoldan — Xəzər dənizindən — asılı olması ilə bağlı idi. O vaxt dəniz yolu ilə daşıma yalnız martdan oktyabra qədər mümkün olduğundan hasilat adətən bu dövrdə artırdı. Qış aylarında yalnız saxlama imkanları ilə təmin edilmiş bir neçə neftayıran işləməkdə davam edirdi; qalanları dayanırdı. Hasilatın çox az olduğu iltizam rejimi dövründə fərq o qədər də böyük deyildi. Balaxanının 1 482 100 pud hasil etdiyi 1870-ci ildə aylıq göstəricilər belə idi:

Ay	Pud	Faiz	Ay	Pud	Faiz
Yanvar	91 462	6,17	İyul	150 480	10,18
Fevral	100 648	6,79	Avqust	149 550	10,10
Mart	120 226	8,11	Sentyabr	123 043	8,30
Aprel	120 501	8,12	Oktyabr	133 569	9,01
May	146 483	9,62	Noyabr	127 178	8,60
İyun	110 425	7,45	Dekabr	112 190	7,57

Məhdudiyyətsiz inkişafın yeni dövrünün başlanması ilə fərq daha da kəskinləşdi. Bu dövr üçün aylıq göstəricilər mövcud deyil, lakin hasilat sənayesinin tamamilə neftayırma zavodlarının işindən asılı olduğunu nəzərə alaraq, hesablamalarımızı aksiz göstəricilərinə əsaslandırsaq, təxminən müvafiq ekvivalentlərə gələ bilərik. 1873–1877-ci illər dövrü üçün, cənab S. Qulişambarovun dediyinə görə, onlar orta illik xam neft hasilatının yanvarda 5,20 faizinə, fevralda 5,70 faizinə, martda 7,70 faizinə, apreldə 8,20 faizinə, mayda 9,40 faizinə, iyunda 11,80 faizinə, iyulda 11 faizinə, avqustda 12,30 faizinə, sentyabrda 11,30 faizinə, oktyabrda 8 faizinə, noyabrda 4,50 faizinə və dekabrda 5 faizinə bərabər idi.

Rusiyaya Amerika işıqlandırıcı yağı idxalının daxili sənayenin artımından necə təsirləndiyi aşağıdakı cədvəldə aydın göstərilir:

[52] Söhbət 1878-ci ildə İsveçdə tikilib Xəzərə gətirilmiş və dünyada ilk uğurlu neft tankerlərindən biri sayılan “Zoroaster” (“Zərdüşt”) gəmisindən gedir. — *Tərc.*

İl	Amerikadan idxal (pud)	Bakıda hasil edilmiş (pud)	Rusiyada istehlak (pud)
1871	1 720 418	380 000	2 100 418
1872	1 790 334	40 000	2 190 334
1873	2 701 093	832 800	3 533 893
1874	2 524 160	1 336 675	3 860 835
1875	2 653 126	1 990 045	4 643 171
1876	2 662 486	3 145 075	5 807 561
1877	1 701 502	4 594 766	6 296 268
1878	1 989 034	6 255 910	8 244 944
1879	1 711 811	6 963 658	8 675 469
1880	1 445 558	7 858 750	9 304 308
Cəmi	20 899 522	33 757 679	54 657 201

* * *

Bakıda, şübhəsiz, bəzi bacarıqlı, hətta parlaq neftçilər var idi. Onlar inanılmaz çətinliklərin öhdəsindən gəldilər, işin köklü ənənələrindən qopdular və sənayeni daha sağlam əsasa qoydular. İltizam sisteminin gözlənilmədən ləğvi onları hazırlıqsız tapdı; lakin buna baxmayaraq, onların çoxunun məhsulları üçün etibarlı bazar perspektivi olmasa da, hətta neftin qiyməti pudu qırx beş qəpikdən iki qəpiyə düşdüyü vaxtda belə, onlar enerjili şəkildə mülklərini işləməyə başladılar və nəhayət, üçüncü ildə (1875) neft mədənlərinin hökumət tərəfindən işlədildiyi dövrün (1832–1850) hasilatını üstələyən bir hasilata nail oldular. Növbəti ildə hasilat 11 000 000 pud, 1877-ci ildə isə 15 000 000 pud təşkil etdi. 1877-ci ilin sentyabrında sənayenin emal sahəsinə qoyulmuş verginin ləğvi təşəbbüskarlığı həvəsləndirdi. 1875-ci ildə hasilatçılar və neftayıranlar şikayət edirdilər ki, fotogen sənayesinə qoyulmuş aksiz vergisi əl-qollarını bağladığı müddətdə sənayeni lazımınca inkişaf etdirmək mümkün deyil. Bir hökumət komissiyası digərinin ardınca təyin edildi, lakin verginin müəyyən edilməsində cüzi dəyişikliklərdən başqa qənaətbəxş nəticə olmadı. Komissiya üzvlərinin neftin hasilatında və ya emalında təcrübəsi yox idi və onların hesabatları İmperator Rus Texniki Cəmiyyətinin Qafqaz şöbəsinin təcrübəli üzvlərinin qarşısına çıxanda kəskin tənqid olundu. Bu hesabatlar cəmiyyətin Sankt-Peterburqdakı mərkəzi idarəsinə təqdim edildi. Sankt-Peterburq cəmiyyəti aksiz vergisinin ləğv edilməli olduğu barədə Qafqaz şöbəsi ilə razılaşan xüsusi komissiya təyin etdi. Bütün rəsmi və qeyri-rəsmi hesabatlar Maliyyə nazirinə çatdıqdan sonra o, Amerika sənayesini tədqiq etmək üçün professor Mendeleyevi göndərdi, Qafqaz neft rayonundakı vəziyyəti öyrənməyi isə professor Lisenkoya tapşırdı. Bu mütəxəssislər neft sənayesinə vergi qoyulmasının ləğvinin lehinə hesabatlar təqdim etdilər. Professor Mendeleyev Amerika presedentlərinə istinad etdi. O, neft qaydalarının yanğından mühafizə tədbirlərinə, neftin saxlanmasına və daşınmasına aid hissələrinin ləğv edilməsini və təkmilləşdirilməsini; sürtkü yağlarının çıxarılması məqsədilə Qafqaz neftlərinin hərtərəfli tədqiqini; neftin və mazutun yanacaq kimi istehlakını; neftdən daha qiymətli məhsulların çıxarılmasını; neft yataqlarının geoloji şəraitinin daha tam tədqiqini və nəhayət, tam və müasir statistikanın toplanmasını və həm Qafqaz, həm də Amerika neft sənayesi haqqında aylıq hesabatların dərc edilməsini təklif etdi.

Qafqaz canişini də verginin ləğvini faydalı və arzuolunan addım hesab edirdi. Böyük knyazın rəyi ilə razılaşan Maliyyə naziri Dövlət Şurasına müsbət məruzə təqdim etdi və bu orqanın rəyi 1877-ci il iyulun 5-də imperatorun təsdiqini aldıqdan sonra vergi həmin il sentyabrın 1-də ləğv edildi. (1873–1877-ci illər arasında Bakıda aksiz vergisindən Xəzinənin

ümumi gəliri 120 000 funt təşkil etmişdi.) O gündən etibarən tez-tez baş verən əmək çaxnaşmalarına və bazar çətinliklərinə baxmayaraq sənaye bütün sahələrində sürətlə irəlilədi. 1878-ci ildə hasilat 20 000 000 puda, 1879-cu ildə 24 000 000 puda, 1880-ci ildə isə 25 000 000 puda yaxın artdı. Nəzərdən keçirilən dövrdə ixrac belə idi:

İl	Pud
1873	832 800
1874	1 336 675
1875	1 990 041
1876	3 145 075
1877	4 594 766
1878	6 255 910
1879	7 814 521
1880	15 200 000

Bunlar dəniz yolu ilə ixraca aiddir, çünki o zaman Bakıdan Zaqafqaziya və İran üçün quru yolla yalnız az miqdarda məhsul çıxırdı.

Əgər tələbat neft mədənlərinin imkanlarına bərabər olsaydı, 1879-cu ildə hasilat 60 000 000 pud həddinə çatdırıla bilərdi — bu hasilat yalnız dörd il sonra, 1883-cü ildə əldə edildi. 1879-cu ilin əvvəlində iki məhsuldar fontan istisna olmaqla orta hesabla gündə hər biri 3 000 pud verən iyirmi səkkiz hasilat quyusu var idi. Sabunçu–Ramana–Zabrat mülklərində gündəlik orta hasilatı hər biri 2 500 pud olan qırx üç hasilatçı quyu, Bibiheybətdə, Suraxanıda və s. yerlərdə isə gündəlik orta hasilatı 383 pud olan iyirmi səkkiz hasilatçı quyu var idi; cəmi gündə 900 000 pud hasil etmək qabiliyyətinə malik doxsan doqquz quyu. Deməli, əgər Bakı neft mədənləri Amerikada olduğu kimi bütün il boyu gecə-gündüz deyil, ildə cəmi 300 gün işlədilsəydi, Balaxanı həmin il 25 200 000 pud, Sabunçu–Ramana–Zabrat 32 250 000 pud, digər rayonlar isə 3 217 000 pud, yaxud cəmi 60 657 000 pud hasil edə bilərdi, bir şərtlə ki, rus nefti üçün kifayət qədər tələbat və onu ölkə daxilində və ya xaricə çatdırmaq vasitələri olsun. 1873-cü ildə Amerika təxminən 76 677 000 pud (9 893 786 barrel) hasil etmiş, 1879-cu ildə isə bu hasilatı 155 335 000 puda (19 914 146 barrel) çatdırmışdı.

VIII fəsil. Nobellər və rus nefti

İyirmi beş il əvvəlki başlanğıc — Diqqətəlayiq rəqəmlər — Hasilatda dünyada birinci — Ata Emmanuel Nobel, onun işi, ixtiraları və Rusiyada iflası — Silahların və dinamitin ixtiraçısı Alfred — Onun məşhur Sülh mükafatı — Robert Nobelin Bakıya ilk səfəri — Kiçik neftayırma zavodunun alınması — İlk boru kəməri — Balaxanıda dərin qazmanın qabaqcılları.

Bakıda ən böyük və ən mühüm müəssisə Nobel qardaşlarınındır. Bu dünyaca məşhur ad bugünkü sərvəti və geniş sənaye mülkləri ilə, lakin hər şeydən çox iki isveçlinin — Robert və Lüdviqin rus neft sənayesinin hər bir sahəsində etdiyi inqilabla, eləcə də dünyaca məşhur xeyriyyəçi, Nobel Sülh və digər mükafatlarının banisi Alfred Nobelin elmi və hərbi kəşfləri ilə tanınır.

Dörddə bir əsr ərzində onlar ümumi dərinliyi 100 mildən çox olan təxminən beş yüz quyu qazmış və onlardan 19 000 000 – 20 000 000 ton neft çıxarmışlar. Son illərdə orta hasilat 1 000 000 tondan bir qədər çox, yəni Bakının ümumi hasilatının təxminən onda biri olmuşdur, lakin bir-iki ildə onların hasilatı 1 500 000 tona çatmışdır. Onların beş neftayırma zavodu və öz sulfat turşusu və sodalarını istehsal etdikləri altı köməkçi qurğusu var. Neftayırma zavodları iyirmi beş il ərzində 20 000 000 tondan çox neft məhsulu istehsal etmişdir.

Keçən il onlar dəmir yollarına navlun üçün 950 000 funt sterlinq, xarici gəmi sahiblərinə 6 000 funtdan çox, Xəzər gəmi sahiblərinə 295 000 funtdan çox, Qara dəniz gəmi sahiblərinə 16 000 funta yaxın, Volqa gəmi sahiblərinə 335 000 funtdan çox və Don və Oka çaylarında daşımaya 125 000 funt ödəmişlər ki, cəmi 1 072 000 funtdan çox edir. Onlar 1 100 000 funt aksiz ödəmişlər. Həmçinin amortizasiyaya 142 279 funt, istiqrazların ödənilməsinə isə 43 873 funt ayırmışlar. İdarə heyətinə və qulluqçulara cəmi 60 000 funta yaxın mükafatlar da daxil olmaqla digər məqsədlərə böyük məbləğlər ayırdıqdan sonra səhmdarlar arasında 150 000 funt, yəni on faiz dividend paylamışlar.

Bu şirkətin neft mədənlərində 3 800 qulluqçu var, onlardan yüzü kontorlardadır. Bakı neftayırma zavodlarında və emalatxanalarında kontorlarda olan 110 nəfər daxil olmaqla 3 615 nəfər çalışır. Xəzər, Volqa və digər çay donanmalarının heyətləri 250 zabit daxil olmaqla 2 300 nəfərdir. Ümumilikdə şirkət 12 135 nəfər işlədir və maaş və daimi əmək haqqı olaraq 500 000 funtdan çox ödəyir. Hasilata görə bu şirkət dünyada birinci yerdədir və neft sənayesinin emal və paylama sahələrində yalnız “Standard”dan sonra ikincidir.

* * *

Banilərin atası Emmanuel Nobel 1801-ci il martın 24-də İsveçdə, Hevledə[53] anadan olmuşdur. Memar təhsili almış, rəsm və həndəsə müəllimi olmuş və Stokholmdakı Texnologiya İnstitutunun banilərindən biri olmuşdur. O, öz ölkəsinin hökumətinə hərbi körpü tikintisində pontonlar üçün dayaqlara çevrilə bilən yeni rezin əsgər çantası layihəsini və öz istehsalı olan çaxmaqlı tüfəng təqdim etmişdi. O, sualtı mina ixtira etmiş, bu mina 1837-ci ildə Oxta çayında sınaqdan keçirilmiş və nəticədə Rusiya hökuməti ona Rusiyada qalıb mina istehsalı üçün zavod

[53] Emmanuel Nobel Qevledə (Gävle) anadan olmuşdur; “Hevel” müəllifin yazılışıdır. — *Tərc.*

tikmək şərtilə 2 500 funt ödəmişdi. General Oqaryovla birlikdə o, kiçik bir mexaniki emalatxana tikmiş, lakin hökumətdən sualtı minalar üçün böyük sifariş aldıqdan sonra (1846-cı ildə) Sankt-Peterburqda daha geniş zavod tikməyi məqsədəuyğun hesab etmişdi. O, Kronştadt emalatxanalarını maşın və dəzgahlarla təchiz etmiş və ilk mərkəzi su istilik qurğusunu — Nobel ixtirasını — quraşdırmışdı. Krım müharibəsi başlananda Kronştadt və Sveaborq qalalarını müttəfiqlərin donanmalarının hücumlarından minalarla qorumaq işi ona tapşırıldı. O, bunu oğlu Robertin köməyi ilə yerinə yetirdi. Müharibənin ikinci ilində Emmanuel donanma üçün gəmi mühərrikləri tikmək üçün hökumət sifarişi aldı və Baltikdə "Volya" və "Qanqut", Aralıq dənizində isə iki göyərtəli "Retvizan" Nobellər tərəfindən təchiz olunmuş gəmilər arasında idi. Hökumətdən yüz top gəmisi, on dörd korvet və altı klipper tikmək üçün podrat almış cənab N. İ. Putilov kömək üçün Nobellərə müraciət etdi və onlar bir il ərzində "Vol", "Volk" və "Vepr" üçün bütün mühərrikləri və qazanları təhvil verə bildilər.

Zavodlarını Rusiyada bu növün aparıcı müəssisələrindən birinə çevirdikdən sonra Emmanuel şəxsi vəsaitsiz, borclar içində qaldı. Hökumətdə dəyişiklik üzündən donanma üçün sifarişlər xaricə verildi. O, xüsusi sifarişlərlə dolanmağa çalışdı: "Qafqaz və Merkuri", "Samolyot" və digər şirkətlər üçün əlli Volqa paroxodu tikdi, o vaxt ilk dəfə tətbiq olunan vintli paroxodlar üçün ilk mühərrikləri hazırladı və Sankt-Peterburqla adalar və Şlisselburq arasında paroxod əlaqəsini açdı. Ümumiyyətlə, Emmanuel Qərbdəki mühəndislik tərəqqisini yaxından izləyir və müstəqil praktiki işi ilə elmi və mühəndislik problemlərinin həllində fəal iştirak edirdi. Məsələn, o, dirsəkli mühərrikin təkmilləşdirilməsi və onun kiçik gəmilərin hərəkətə gətirilməsində tətbiqi üzərində çox işləmişdi. Zavodun avadanlığının bir çox hissələri, o cümlədən beş tonluq buxar çəkici yerindəcə düzəldilirdi və buraxılan hər bir məmulat həm mühəndislik baxımından, həm də mükəmməl tamamlanma baxımından fərqlənirdi.

Müəssisələrin işgüzar tərəfi pis vəziyyətə düşdü və nəhayət o, işi dayandırmağa və özünü müflis elan etməyə məcbur oldu. Bütün vəsaitini itirərək İsveçə qayıtdı, orada partlayıcı maddələrin öyrənilməsini davam etdirdi və oğulları ilə birlikdə partlayıcı materiallar istehsalı üçün kiçik bir fabrik açdı. O, 1872-ci ildə ailəsini az qala yoxsul qoyaraq vəfat etdi.

Emmanuel Nobelin dörd oğlu var idi. Ən kiçiyi Emil iyirmi səkkiz yaşında öldü. Alfred məşhur mühəndis və ixtiraçı oldu; Robert Nobellər ailəsinin diqqətini ilk dəfə Bakıdakı ticarət imkanlarına cəlb etdi, Lüdviq isə rus neft sənayesinin məşhur qabaqcılı idi. 1833-cü il oktyabrın 21-də anadan olmuş və Sankt-Peterburqda təhsil almış Alfred kimyaya xüsusi meyl göstərirdi. Bu fənni məşhur rus akademiki Zininin bilavasitə rəhbərliyi altında diqqətlə öyrəndikdən sonra xarici laboratoriyalarda işləmiş və tətbiqi kimya sahəsində çoxlu uğurlu iş görmüşdü. Ona fəxri kimya doktoru adı verilmişdi. O, ən məhsuldar ixtiraçılardan biri idi. Adını hər ölkədə hamının dilində gəzən bir sözə çevirən ixtira dinamit və tüstüsüz barıt istehsalına aid idi. 1845-ci ildə Sobrero tərəfindən ixtira edilmiş nitroqliserinin sənayedə tətbiqi ilə maraqlanan Alfred atası və qardaşları ilə birlikdə Krümmeldə (Hamburq yaxınlığında) bu partlayıcı maddənin istehsalı üçün ilk zavodu tikdi. Tezliklə aydın oldu ki, nitroqliserinin daşınması onun axıcılığı və silkələnmədən öz-özünə alışmağa meyilliliyi üzündən həddindən artıq təhlükəlidir. Daşınma zamanı nitroqliserinin partlaması nəticəsində fəlakətlər tez-tez baş verdiyindən onun idxalı demək olar ki, bütün hökumətlər tərəfindən qadağan edildi. Səbat göstərərək Alfred nitroqliserini bərkitmək fikrinə gəldi və bu məqsədlə qumdan istifadə edərək yalnız xüsusi kapsul vasitəsilə partladıla bilən bir birləşmə əldə etdi. Dinamit tezliklə mədənlərdə və

karxanalarda partlatma işləri üçün ümumi tətbiq qazandı və onun istehsalı üçün çoxsaylı zavodlar tezliklə dünyanın hər yerində quruldu.

Sonra o, bir növ jelatinləşdirilmiş dinamit olan partlayıcı jelatini ixtira etdi. Bu Nobel partlayıcıları dünyanın dağ-mədən və mühəndislik sahələrində mühüm rol oynamışdır. Müqəddəs Qotard tuneli məhz cənab Nobelin ixtiralarının köməyi ilə nəzərdə tutulmuş müddətdən üç il əvvəl başa çatdırılmış və təxminən 750 000 funt qənaət edilmişdi. Alfred Nobelin başqa bir ixtirası İtaliyada, Almaniyada, İngiltərədə və digər ölkələrdə hərbi məqsədlər üçün işlədilən tüstüsüz barıt idi. 1879-cu ildə Rusiya şirkəti yaradılanda qardaşları Alfredi banilərdən biri olmağa razı saldılar. İdarəçilikdə fəal iştirak etməsə də, o, kapitalı ilə və neftin emalı ilə bağlı müxtəlif texniki məsələlərdə tətbiqi kimya üzrə nüfuzlu bir şəxs kimi məsləhətləri ilə əvəzsiz kömək göstərdi. O, 1896-cı il dekabrın 7-də vəfat etdi[54].

Onun demək olar ki, bütün sərvəti (dövlət istiqrazlarında və etibarlı qiymətli kağızlarda 2 000 000 funt) vəsiyyətlə bir fondun yaradılmasına verildi ki, onun vasitəsilə hər il bəşəriyyətə ən böyük xidmət göstərənlər arasında mükafatlar paylanır. Faizlər beş bərabər hissəyə bölünür: birincisi fizikada ən mühüm kəşf üçün, ikincisi kimyada, üçüncüsü fiziologiya və tibbdə, dördüncüsü idealist istiqamətli ən yaxşı ədəbi əsər üçün, beşincisi isə militarizmin ləğvi və ya azaldılması və beynəlxalq sülh prinsiplərinin təbliği üçün konqreslərin təşkili ilə sübut olunduğu kimi, xalqları bir-birinə yaxınlaşdırmaqda ən böyük xidmət göstərən insana. Fizika və kimya mükafatlarını İsveç Elmlər Akademiyası, fiziologiya və tibb mükafatlarını Stokholmdakı Karolinska Tibb və Cərrahiyyə Akademiyası, ədəbiyyat mükafatını Stokholmdakı Ədəbiyyat Akademiyası, sülh naminə xidmətlərə görə mükafatı isə Norveç Stortinqinin seçdiyi beş nəfərlik komitə təyin edir. Mükafatlar milliyyətə və cinsə baxılmadan tamamilə ləyaqətə görə verilir.

Robert Nobel 1829-cu il avqustun 4-də Stokholmda anadan olmuş və orada təhsil almışdır. Atası İsveçə qayıdanda Robert də Rusiyanı tərk etdi, lakin 1860-cı ildə geri qayıdıb Finlandiyada nitroqliserin fabriki tikdi. Tez-tez baş verən qəzalar üzündən bu partlayıcı maddənin istehsalı Finlandiya Senatı tərəfindən qadağan ediləndə Robert yenidən İsveçə qayıtdı və orada atasının və qardaşının nitroqliserin zavodlarında mühüm vəzifələr tutdu. Qardaşı Lüdviqin dəvəti ilə 1870-ci ildə Sankt-Peterburqa qayıtdı. Lüdviq İjevskdə tüfəng istehsalı üçün podrat aldıqdan sonra tüfəng qundaqlarının hazırlanmasında idxal olunan qoz ağacını yalnız Qafqazda kifayət qədər miqdarda əldə edilə bilən yerli növ ilə əvəz etməyin mümkün olub-olmadığı məsələsi ortaya çıxdı. Bu, meşə istismarını, xüsusi mişar zavodlarının tikilməsini, rahat və ucuz su nəqliyyatının təşkilini və quruducu qurğuların və anbarların tikilməsini tələb edirdi. Layihənin Zaqafqaziyada həyata keçirilməsi Roberta tapşırıldı. Onun Qafqaza səfəri başqa istiqamətdə bəhrə verdi. Meşə layihəsini inkişaf etdirə bilməyən Robert 1873-cü ildə Sankt-Peterburqa qayıtdı və İrana gedərkən Bakıdan keçəndə gözünə dəymiş neft sənayesinin əhəmiyyətinə diqqət çəkdi. Neft işinə girməyə can ataraq qardaşı Lüdviqi maraqlandırmağa və onu kiçik bir neft müəssisəsinin yaradılmasına kömək etməyə razı salmağa nail oldu. O, Qafqaza qayıtdı və orada 1875 və 1876-cı illərdə bütün ilkin işləri gördü.

[54] Alfred Nobel 1896-cı il dekabrın 10-da vəfat etmişdir. — *Tərc.*



Mərhum cənab Lüdviq Nobel.
Öz dövründə Qafqazın neft kralı idi.



Cənab Q. M. Lianozov.
Bakı neftçilərinin ağsaqqalı, bir çox mübahisədə hakim və ən səxavətli xeyriyyəçilərdən biri.

O, neft sənayesinin böyük imkanlarına və gələcəyinə inanırdı, lakin bu, onun Bakı üsullarının zəif cəhətlərini görməsinə mane olmurdu. 1875-ci ildə o, Tiflis şirkətindən Qara şəhərdə kiçik bir neftayırma zavodu aldı və onun üçün cəmi 1 000 funt ödədi. Onu yenidən quraraq neftin emalında təkmilləşdirmələr tətbiq etdi. Neftayırma zavodunu almazdan bir qədər əvvəl o, qazmaya başladığı bir neçə neft sahəsi əldə etmişdi.

Robert Balaxanı xam neftini emal etməyə başlayan kimi neftin çəlləklərdə daşınması təcrübəsinin ləng, israfçı və bahalı olduğunu anladı. Digər firmalar boru kəməri layihəsində əməkdaşlıq etməkdən imtina etdilər və Lüdviqə müraciət etmək lazım gəldi. 10 000 funta Balaxanıdan Qara şəhərə boru çəkildi və onun ilk ildə xərclərini ödəməsi Robert və Lüdviqə

geniş şöhrət qazandırdı və digər firmaları da eyni şeyi etməyə həvəsləndirdi. Bu yolla onlar Bakıda müasir fəaliyyətin və təşəbbüskarlığın əsasını qoydular.

O vaxt ildə təxminən 150 000 funt qazandığı deyilən minlərlə çəlləkli neft daşıyıcısı işsiz qaldı. Nobellərə qarşı hiss o qədər güclü idi ki, boru kəməri kəsildi və onun qorunması üçün çoxsaylı gözətçi daxmaları tikmək lazım gəldi. Bu gün Nobel kəməri iyirmi başqa kəmərin arasında uzanır. Bakı–Sabunçu qatarı borulara yaxın dayansa, emal zavodlarına doğru axan neftin burulğanının qeyri-bərabər döyüntüsünü və titrəyişini eşitmək olar.

Nobellər dərin qazmanın qabaqcılları idilər. Öz neft sahələrini əldə etdilər, üsulları uğurlu olmayan Pensilvaniya qazıyıcılarını gətirdilər və Bakı yataqlarında yaxşı iş görmüş bütün sonrakı sistemlər üçün nümunə olmuş qarışıq qazma qurğusunu ixtira etdilər. Onların neft mədənləri, neftayırma zavodları kimi, tədricən Bakının ən böyükləri oldu; heç bir şirkət Xəzər dənizində neft daşınmasını inkişaf etdirmək üçün onlardan çox iş gördüyünü iddia edə bilməz; onlar Müqəddəs və Çələkən adalarında neft qazmış, Berikeydə yeni yataq açmış və qazıyıcılarını dağlarda ən ümidverici rayonların bəzilərinə göndərmişlər; onlar nəinki ingilis-rus emal və hasilat şirkətləri ilə dostcasına birlik içində işləmiş, həm də Rotşildlə birlikdə bu ölkəyə [İngiltərəyə] onun malik olduğu ən böyük rus neftinin paylanması müəssisəsini — "Consolidated Petroleum Company, Ltd."-i vermişlər.

Nobellər ailəsinin ətraflı yazılmış tarixi ticarətdə dahiliyin mükəmməl şərəf və düzgünlüklə birləşərək qazandığı zəfərlərə heyran olan hər kəs üçün maraqlı olardı. Marvin neft milyonçuları haqqında onların bugünkündən az olduğu bir vaxtda (1887) yazmışdı. Onun dediyi sitat gətirilməyə dəyər:

"Öz dar pulgirlik sahələrində nəhəng olan bu adamlar ondan kənarda əhəmiyyətsiz və çox vaxt alçaq olurlar. Saxta mal, patentli həblər, birjada fırıldaqçılıq və ictimaiyyəti soymağın digər yolları ilə varlanmış adamlar çox diqqətə layiq deyillər və ədəbiyyat onlar haqqında nə qədər az danışsa, o qədər yaxşıdır. Lakin milyonçu var, milyonçu var."

Bütün bunlar bu gün də, neftdə də, ondan kənarda da doğrudur. Marvinin dediyi kimi, Lüdviq Nobelin karyerasında heç bir saxtakarlıq cizgisi tapılmaz. Şirkətin uğuru geniş nəqliyyat təşkilatını planlaşdıran dahiyə, onu həyata keçirən mühəndislik məharətinə və daşınan məhsulun keyfiyyətini xarici üstünlük qarşısında əzilmiş, aşağı və nifrət edilən bir vəziyyətdən öz növbəsində həmin üstünlüklə rəqabət aparmağa və onu üstələməyə layiq bir vəziyyətə qaldıran düzgünlüyə borcludur. Aydındır ki, Lüdviq Nobelin nail olduğuna yalnız nadir və diqqətəlayiq istedadlara malik bir adam nail ola bilərdi və biz kifayət qədər anqlosakson olduğumuzdan deyirik ki, Nobellər haqqında yazılmış tərifl ər onların bizim bir çox müəssisəmizin o qədər fəlakətli uğursuzluğa düçar olduğu və Britaniya üsullarını və bacarığını rüsvayçılığa təhlükəli dərəcədə yaxınlaşdırdığı bir ölkədə işləyən isveçlilər olmaları bu tərifl ərin dəyərini heç də azaltmır.

Nobellərin milliyyəti barədə dediklərimə aid bir əhvalat. Bir ziyarətçi Nobelin zavodları ona nəzakətlə göstərildikdən sonra idarəçiyə dedi:

"Təşkilatınız əladır; mükəmməldir; lakin məndə təəssüf doğuran bir şey var — nə yazıq ki, rus deyil."

“Rus, yaxud isveçli, nə fərqi var, — (səciyyəvi cavab belə oldu), — təki Rusiya yaxşı, ucuz neft alsın? Deyirsiniz ki, Bakı firmaları bizi sevmir. Buna əlac edə bilmərik; lakin əgər Bakıda bizim namussuz olduğumuzu, aldatdığımızı, saxtakarlıq etdiyimizi və ya ciddi şikayətləri aradan qaldırmaqdan imtina etdiyimizi sübut edə bilən bir adam tapsanız, sizin iştirakınızla təhqiqata gedərik və təqsirli olsaq, əvəzini ödərik.”

Bu gün böyük banilər dünyasını dəyişmişlər, lakin şirkət yaşayır; onu dahilik və düzgünlükdən istifadə edərək birinci mövqedə saxlayan və onu Bakıda sənayenin təkmilləşdirilməsi, indiki böhranda isə yenidən qurulması uğrunda bütün hərəkatlarda xalq rəğbəti qazanmış rəhbərə çevirən adamlar idarə edir.

IX fəsil. 1881–1890-cı illərin böyük fontanları

Qızıl və Şeytan bazarları ön planda — Neft bolluğu — Nobelin ilk fontanı — Qaz püskürməsi Balaxanıda işi dayandırır — Neft mədəni sürprizləri — Sağlam təşkilatın üstünlükləri — Nümayiş üçün fontan — "Drujba" fəlakəti — Sahiblər müflis olur — Hökumət müdaxilə edir — Professor Enqlerin və polkovnik Stüartın təəssüratları — Bibiheybətin ilk məhsuldar fontanları — Balaxanı sensasiyası — Mədən şirkətinin fontanı — Kazakların qoruduğu quyu.

Növbəti dövrdə, 1881–1890-cı illərdə fontanlar rekordu saxlanıldı. Ən məhsuldar quyular 1883, 1886 və 1887-ci illərdə vurdu.

1881-ci ildə 294 futluq layın tükənməsi əlamətlərini göstərməyə başlayan Mnatsakanov quyusu (9 nömrəli sahə, Sabunçu) 434 futa qədər dərinləşdirildi və orada yenidən neft vuruldu. Qoruyucu borunun yuxarı ucu tamamilə möhkəmləndirilmiş və möhkəm qapaq qoyulmuş olsa da, təzyiq uzun müddət müqavimət göstərmək üçün həddindən artıq böyük idi və qumla dolu neft yarıb çıxdı. Sentyabrın 13-dən noyabrın 1-dək 800 000 pud 18 000 rubla (1 800 funt) satıldı. Sonra quyu nəzarət altına alındı və növbəti ildə fevralın 19-dan naviqasiyanın bağlanmasına qədər 86 000 rubla (8 600 funt) satılan 4 500 000 pud verdi. Qışda axın azaldı, lakin 1884-cü ilin fevralında ikiqat qəzəblə yenidən başladı. Sahib kifayət qədər anbar tutumu təmin etdiyindən neft itkisi əhəmiyyətsiz idi. 1882-ci ilin aprelinə qədər neftin xüsusi çəkisi 0,876 idi, sonrakı dövrdə isə 0,881-ə yüksəldi.

Bu il Krasilnikov iki fontan vurdurdu. Onlardan birinin Şeytan bazarında XVI qrupda qazılmasına hələ 1877-ci ildə başlanmışdı, lakin aydın səbəblərə görə Krasilnikov onu başa çatdırmağa tələsmirdi. İş 1881-ci ilə qədər fasilələrlə davam etdi; həmin il 278 fut dərinlikdə borudan qum yuxarı atıldı və ardınca gündə 35 000 pud sürətlə neft gəldi, xüsusi çəkisi 0,850 ilə 0,851 arasında idi. Qapaq qoymaq üçün on bir gün lazım oldu və bu müddətdə 200 000 pud hədər axdı. Nəzarət altına alındıqdan sonra on beş ay ərzində bol təchizat verdi. İkinci fontan, o da Sabunçuda, 504 fut dərinlikdən idi. Gündəlik axın 20 000 pud, ümumi axın isə 10 000 000 – 12 000 000 pud təşkil etdi. Yalnız üçdə biri yanacaq kimi satıldı, qalanı isə Sabunçu gölünə buraxıldı. Sentyabrın 3-də fontan alov aldı və on gün dəhşətli qəzəblə yandı. Alov söndürüldükdən sonra fəvvarə yenidən başladı.

Şeytan bazarında başqa bir fenomenal fontan Orbelov qardaşlarının 2 nömrəli quyusu idi. Əl gücü ilə qazılan quyuya 1877-ci ildə başlanmış və 1881-ci ildə 490 futluq neft layında 10½ düym[55] diametrlə başa çatdırılmışdı. Bir həftədə o, 1 000 000 pud verdi. Neft sütunu 200 futdan hündür idi və güclü külək neft çilələrini 500 yard uzaqlıqdakı "Bakı Neft Şirkəti"nin kontoruna qədər aparırdı; şirkətin idarəçisi mülkün alov almaq təhlükəsi altında olduğunu əsas gətirərək Orbelovlardan şikayət etdi. Neft bataqlıq bir çökəkliyə axdı və orada yandırıldı. Fontan dayananda qoruyucu borunun xarab olduğu aşkar edildi və quyudan imtina olundu.

1881-ci ildə Balaxanının da öz fontanı oldu. Onu Lianozov qardaşları VII qrupun (1896-cı ildə "Rus Neft Şirkəti" tərəfindən götürülmüş) 9 nömrəli quyusunda vurdurdular. Neft 329

[55] Orijinalda yenə "10½ ft." (fut) yazılmışdır; söhbət düymdən gedir. — *Tərc.*

futda, 12 düymlük boru ilə vuruldu. Fontan üç ay işlədi və 1 800 000 pud atdı, bunun böyük hissəsi anbarlara getdi.

1882-ci ildə “Souçastniki” şirkətinin 8 nömrəli quyusu 476 futdan, 10 düym diametrlə fontan vurdu. Qapağı altıncı günə qədər qoymaq mümkün olmadı. İyirmi gün davam edən axın 2 000 000 pud verdi, bundan 400 000 pud satıldı, 1 300 000 pud isə itdi. Quyu Balaxanının ən məhsuldarlarından biri oldu.

Fontanlar məsələsində o vaxta qədər bədnam dərəcədə bəxtsiz olan Nobellər ən az lazım olduğu vaxt bir fontan (25 nömrəli quyu) vurdurdular. Yayda (1881) o, 200 futdan hündürə qum atmağa başladı və 582 futda mənbəyə toxunulanda neftin qəfil püskürməsi bir ton qazma avadanlığını apardı. Mühəndislər borunu qumdan təmizləyəndə neft elə qəzəblə fəvvarə vurdu ki, fontana hazır olmadıqları və bazar zəif olduğu üçün qapaq qoydular və nefti ehtiyatda saxladılar — son illərdə yeni yataqlarda kəşfiyyat işləri apararkən tez-tez etdikləri kimi.

Həmin il Mədən şirkətinin (1896-cı ildə Mantaşev tərəfindən alınmış) 450 futdan fontanı oldu. Sentyabrda o, on iki gündə 100 000 pud, dekabrda altı gündə 300 000 pud, 1883-cü ilin yanvar əvvəlində isə iki yarım gündə 100 000 pud fəvvarə vurdu. Ümumi hasilatdan, 500 000 puddan cəmi 160 000 pud pudu ¾ qəpikdən (tonu təxminən 11 pens) satıldı.

Təxminən eyni vaxtda “Bakı Neft Şirkəti” 305 futda, 12 düym diametrlə neft vurdu. İki milyon pud səthə çıxdı və onun çoxu tonu 3 şillinq 8 pensdən satıldı.

1883-cü il fontanları ilə diqqətəlayiq idi. Lianozovun VII qrup mülkündə iki hasilatçı quyusu var idi. Birinci fontan 15 nömrəli quyuda idi; burada iş 1882-ci ilin noyabrında başlanmış və 1883-cü ilin mayında 12 düymlük boru ilə başa çatdırılmışdı. 420 futda dəhşətli qaz püskürməsi oldu, 490 futda təkrarlandı, hər dəfə neft səthə qalxdı, lakin qapaq quyunun ağzına itələnəndə yox oldu. Üçüncü dəfə, qazma 546 fut aşağı enəndə qaz partlayışı dəhşətli oldu, jelonka buruğun təpəsindən yuxarı uçdu. Sonra quru qum dəhşətli güclə 350–400 fut hündürlüyə fəvvarə vurdu. Qayalar gözdən itənə qədər atılırdı; qonşu maşın binalarının pəncərələri sındı və qazanxananın dəmir damı düşən daşların ağırlığı altında çökdü. Bu “qum vulkanı” qırx beş dəqiqə davam etdi və onu günün qalan hissəsində Balaxanının havasını zəhərləyən qaz püskürməsi əvəz etdi — qazın sonradan Texasın bəzi neft mədənlərindən fəhlələri qovması kimi. Xeyli əziyyətdən sonra qapaq yerinə itələndi. Neftin və qazın təzyiqi az sonra 16 fut daha dərin olan ikinci 10 düymlük quyu tərəfindən azaldıldı; bu quyu 15 nömrəli quyunu qidalandıran laya çatdı və qapanıb qalmış qaz üçün başqa çıxış yolu təmin etdi. Hər iki quyu neftlə dolu idi və qapaqlar götürüldükcə fəvvarə vururdu. Bazar durğun olduğundan sahib uğurundan az fayda gördü.

Nazaret fontanı (32 nömrəli, Sabunçu) neft quyusu qazmasını müşayiət edən qeyri-müəyyənliklərin parlaq nümunəsi idi. Quyuya 1879-cu ildə Abayants və Şərikləri tərəfindən yalnız əl gücündən istifadə edilərək başlanmışdı və 1881-ci ilin[56] sonuna qədər neft əlaməti olmadan 581 futa çatılmışdı. Uğurdan ümidini kəsən sahiblər quyuya bir-iki il toxunmadılar, sonra onu Tumayev və bir neçə başqa ermənidən ibarət xüsusi bir şirkətin başçısı Nazaretə icarəyə verdilər; şərt bu idi ki, o, öz hesabına qazsın və neft vursa, mənfəətin yarısını Abayants

[56] Orijinalda “1891” yazılmışdır ki, kontekstə görə (1879-cu ildə başlanmış, sonra “bir-iki il” toxunulmamış, 1883-cü ilin fontanı) mətbəə səhvidir; düzəlişlə “1881” verilmişdir. — *Tərc.*

və Şəriklərinə versin. Nazaret yeddi fut daha dərin qazaraq bir anbara toxundu və qum fəvvarə vurmağa başladı. Boru 10 düymlük idi, diametri 7½ düymə qədər daralırdı və tezliklə tıxandı. Borunun ağzındakı qum yığınını qazıyıb təmizləməyə iki həftə sərf etdikdən sonra təmizlənməyə nail oldu və neft sərbəst fəvvarə vurdu. Təxminən 800 000 pud atıldı, bunun çoxu yanacaq kimi satıldı. Lakin qoruyucu boru xarab oldu və quyudan imtina edildi.

Daha böyük bir fontanı Mirzoyev 14 düym diametrlə başa çatdırılmış 14 nömrəli quyusundan vurdurdu. Neftə 441 futda çatıldı və gündə 5 000–10 000 pud fəvvarə vurdu, 100 000 puda qədər artdı, lakin yenidən 10 000 puda düşdü. Ümumilikdə yay ərzində 2 500 000 pud hasil etdi, bundan 1 500 000 pud Mirzoyevin Bakı neftayırma zavoduna çatdırıldı, qalanı isə bir göldə saxlanıldı və oradan yanacaq kimi satıldı.


Məşhur “Drujba” quyusunun yaxınlığında diqqətəlayiq bir fontan Nobelin 9 nömrəli quyusu idi. 642 futdan o, bir ay ərzində 7 500 000 pud neft atdı. Sütun 200 fut hündürlüyə qalxır, neft və qum buruqdan 200 fut radiusda torpağı örtürdü. Hərtərəfli təşkilatın üstünlüyü heç vaxt bu fontanla bağlı olduğundan daha yaxşı nümayiş etdirilməmişdi. O, Nobellərin bir çox uğursuzluqlarının əvəzini çıxdı. Bol təchizatla uğurla məşğul olmaq üçün hər cür ehtiyat tədbiri görülmüşdü. Püskürən 7 500 000 puddan yalnız 250 000 pud itdi; 5 000 000 pud dərhal neftayırma zavoduna göndərilərək kerosinə və digər məhsullara çevrildi, qalanı isə anbarlara getdi. Quyunu nəzarətə almaq üçün bütün cəhdlər uğursuz oldu və o, altı həftə, əslində püskürmənin ilkin qüvvəsi təbii olaraq səngiyənə qədər “ram olunmamış” qaldı. İnanılmaz çətinliklər qarşısında quyunun üstündə meydança quruldu və döyən qoç vasitəsilə qazma deşiyinə dirək vuruldu. Hətta o zaman da quyu saatda 4 000 puddan çox axın saxlayırdı.

“Drujba” fəlakətindən bir müddət sonra dəniz naziri admiral Şestakov Bakını ziyarət etdi və Nobellər ona “vəhşi” fontan göstərməyə qərar verdilər. O gələndə 9 nömrəlinin örtüyü götürüldü və qazma deşiyinin ağzındakı ağır qazan təbəqəsi kənara itələndi; bu zaman dəhşətli uğultu ilə neft fısıltılı səslə havanı yararaq 200 fut hündürlüyə qalxdı. Titrəyən və yırğalanan buruq sanki uçacaqdı, lakin on dəqiqədən az müddətdə zati-aliləri kifayət qədər gördüyünü işarə etdi və qazıyıcılar qapağı heç bir çətinlik çəkmədən quyunun üstünə itələyəndə tamaşa sona çatdı.

O günlərdə tıxanmış quyular Qafqazın böyük görməli yerlərindən biri idi. Marvinə tərk edilmiş bir buruq göstərilmişdi ki, ona deyildiyinə görə, orada bir qapaq məngənə qüvvəsi ilə səthdən 600–700 fut aşağıdakı mənbəyində milyonlarla pud nefti saxlayırdı. İlk qapaqlar, 3 düymlük qazan təbəqələri, qumla dolu axının qarşısıalınmaz sürtücü təsiri ilə tamamilə didik-didik olurdu. Məhz bu hal sürüşən klapanlarla təchiz edilmiş xüsusi qapağın ixtirasına səbəb oldu ki, o, vaxtında qoruyucu borunun başına keçirilə bilsə, ən güclü fontanları da saxlaya bilər. Qapağın sürgüsü götürüləndə qəzəbli püskürmə olur, ardınca neft xeyli hündürlüyə atılır, lakin sürgünü tədricən quyunun ağzından keçirməklə bu asanlıqla yatırılır.

Başqa bir Nobel fontanı, 25 nömrəli, 582 fut dərinlikdən gündə təxminən 500 000 pud neft verdi, manometr kvadrat düymə təxminən 200 funt təzyiq göstərirdi. Axın nəhayət növbəti ilin əvvəlində gündə 250 000 puda düşdü.

Lakin ilin sensasiyası — sahiblərinə xəcalət və iflasdan başqa heç nə gətirməsə də, şöhrəti dünyanın hər yerinə yayılmış quyu — sahiblərinin, “Drujba” (Dostluq) şirkətinin adını daşıyan “Drujba” fontanı idi. Şirkətin başına gələn fəlakət böyük ölçüdə bir təsadüflə bağlı idi.



Sağdakı şəkildə fontan vuran quyunun dağıtdığı neft buruğu göstərilir. Digər şəkildə isə fontan vuran quyunun işlək vəziyyəti təsvir olunub

Qoruyucu borunun başı yaxşı möhkəmləndirilmiş və 574 futda neft vurulanda vaxtında qapaq qoyulmuşdu. Nobelin 9 nömrəlisində olduğu kimi təzyiq əvvəlki hallarda qeydə alınmış maksimum dörd atmosferə qarşı on üç atmosferdən çox idi. Yenə də onu boru və qapaq saxlayırdı. Yalnız quyuya cavabdeh olan qazma mühəndisi Qarsoyevin nəzarəti altında qapaq təkmilləşdirilib möhkəmləndirilərkən zəncirlənmiş nəhəng qandalı qırdı: neft qapağı uçurdu və havaya 300 fut qalxdı. Fontanı yenidən nəzarətə almaq üçün heç bir insani imkan yox idi və bir neçə dəqiqə ərzində qumla dolu neft — zaman keçdikcə ən qalın dəmir təbəqəni də deşən maye dəyirman — buruğun təpəsindəki nəhəng tirləri əzib un etdi və geniş ərazidə dağıntı və viranlıq törətdi.

Avqustun 19-da başlayaraq axın dekabrın 10-na qədər dayanmadan davam etdi. O, müxtəlif hesablamalara görə gündə 400 000 ilə 500 000 pud arasında axınla başladı və qonşu mülklərin sahibinin açıq-aşkar aşağı hesablamasına görə fəaliyyətdə olduğu 114 gün ərzində 13 640 000 pud, yaxud 220 000 ton atdı. Bəziləri hətta itkini 30 000 000 pud hesab edirlər.

“Pensilvaniyada bu fontan sahibini varlandırardı; quyudan hər gün 5 000 funt dəyərində neft axır; və buna baxmayaraq o, sahibini müflis etmişdir!” — demişdi amerikalı bir neft

mühəndisi. Bu nidanı qeyd edən cənab Marvin öz fikrini də əlavə etdi. “Quyudan, — deyə yazırdı o, — neft İslandiyadakı Böyük Geyzer hündürlüyündə uçurdu, uğultusu ətrafda bir neçə mil məsafədən eşidilirdi. Fontan möhtəşəm bir mənzərə idi — Bakının o vaxta qədər gördüyü ən böyük fontan idi. İlk püskürmə olanda neft buruğun damını və yanlarının bir hissəsini qoparmışdı, lakin təpədə bir tir qalmışdı ki, neft yuxarı yolunda uğultu ilə ona çırpılır və bu, müəyyən dərəcədə onun sürətini azaldırdı. Buruğun özü 70 fut hündürlüyündə idi və neft və qum damı və yanları yarıb keçdikdən sonra tam üç dəfə hündürə axır, boz-qara bir fəvvarə əmələ gətirirdi; sütun cənub tərəfdə aydın görünür, digər tərəfdə isə otuz yard enində çilə buluduna qarışırdı. Güclü cənub küləyi bizə birinci tərəfdən kraterə bir neçə yard məsafəyə qədər yaxınlaşmağa və buruğun dibi ətrafında əmələ gəlmiş qumlu çuxura baxmağa imkan verdi; orada neft fontanın gövdəsi ətrafında geyzer kimi qaynayır və köpüklənirdi. Neftin içi ilə axdığı borunun diametri 10 düym idi. Ondan çıxarkən fontan təxminən 18 düym qalınlığında aydın bir gövdə əmələ gətirir və buruğun təpəsinə qədər qalxırdı; orada sürtünmədən artıq yarıya qədər yeyilmiş tirə çırpılaraq bir qədər genişlənirdi. Oradan yoluna davam edərək 200 futdan hündürə qalxır, burulub şimal tərəfdə sıx bir bulud halında yerə düşür və bir qum təpəsi əmələ gətirirdi; onun üzərindən zeytun rəngli neft saysız-hesabsız arxlarla ətraf mülklərdə əmələ gəlmiş neft göllərinə doğru axırdı. Hərdənbir neftlə birlikdə axan qum borunu tıxayır, yaxud bir daş yolu bağlayırdı; o zaman sütun bir neçə saniyə 200 futdan aşağı enir, dərhal sonra partlayış və uğultu ilə yenidən 200 futa qalxırdı. Əvvəlki gün boyu şimal küləyi əsmişdi və bu, neftin və qumun biz orada olarkən getdiyi istiqamətin əksinə düşməsinə səbəb olmuşdu. Quyudan atılan materialın kütləsi haqqında iyirmi dörd saat ərzində cənub tərəfdə vurulmuş zərərə bir nəzər salmaqla təsəvvür əldə etmək olardı — bəzi anbarları və dükanları damına qədər basdırmış və 50 yard məsafədəki bütün qonşu buruqları 6–7 fut hündürlüyə qədər bağlamış nəhəng bir qum yığını əmələ gəlmişdi. Qumun və neftin bir hissəsini külək fontandan az qala 100 yard uzağa aparmışdı — qonşu binaların qumla islanmış damları materiya buludunun nə qədər uzağa yayıldığını göstərirdi. Neftin yerdə bir düym və ya daha çox qalınlıqda qaldığı bu xarici sərhəddən qum yığını tədricən yüksəlir, kraterin kənarına yaxın təxminən 20 fut hündürlüyə çatırdı; səthi bərk və islanmış, neftin göllərə süzüldüyü kiçik arxlarla kəsişmişdi. Qarşı tərəfdə yeni bir yığın əmələ gəlirdi və biz düşən qumun qonşu buruqların ətrafında necə yığıldığını və yol üstündəki bütün köməkçi binaları necə basdırdığını görürdük. Orda-burda adam dəstələri taxta küreklərlə işləyir, neftin axıb getməsi üçün quyunun ağzı ətrafında arxlar qazıb təmizləyirdilər. Onların işi heç də asan və xoş deyildi. Başlarına və çiyinlərinə neft və qum yağmaqdan dayanmırdı və onlar kraterin dibi ətrafındakı burulğana çəkilib udulmaqdan ehtiyat etməli idilər. Xoşbəxtlikdən neftlə birlikdə iri daşlar atılmırdı. Bəzən dərinliklərdən bir neçə funt ağırlığında daşlar atılır və o zaman fontana yaxınlaşmaq təhlükəli olur. Qum yığınının təpəsində dayanaraq neftin palçıqdan iyirmi arxla axdıqdan sonra uzaqda, alçaq yerdə bütöv bir neft gölləri silsiləsi əmələ gətirdiyini görmək olardı; onlardan bəziləri qayıqda avar çəkmək üçün kifayət qədər geniş və dərin idi. Bundan o yana neftin geniş bir kanalla dənizə doğru axdığı görünürdü.”

Bu möhtəşəm fontan sahibini müflis etdi; Amerikada bu quyu sahibini milyonçu edərdi. Fontan yalnız buruq tikmək üçün kifayət qədər torpağı olan və anbar düzəltmək üçün artıq yeri olmayan kiçik bir erməni şirkətinə məxsus idi. Neft başqa mülklərə axdı və boş torpaqlarda tutulub saxlanılan miqdar evləri və dükanları neft dənizinə qərq olanların irəli sürdüyü təzminat

iddialarını ödəməyə çatmayan bir qiymətə satıldı. Başqaları quyudan atılan böyük miqdarda qum üzündən işi dayandırmalı olduqları üçün zərər çəkdilər. Əgər "Drujba" şirkətinin quyusunun ətrafında bol torpağı olsaydı və nefti saxlaya bilsəydi, onların vəziyyəti bu qədər pis olmazdı, lakin onların quyusu Balaxanı yaylasını əhatə edən bir neçə yüz başqa mülkün ortasında idi və vurduğu zərər onları məhv etdi.

Bu nəhəng axının nəticəsində xam neft müvəqqəti olaraq dəyərini itirdi. Bir neftayıran çənlərini 30 funta 700 000 pud neftlə doldurdu. Əvvəllər 2 və ya 3 qəpiyə satılan şey üçün heç kəs pudu ¼ qəpikdən (tonu 4 pens) artıq vermirdi. Ondan qurtulmaq üçün minlərlə ton rayondan kənarda yandırıldı; daha minlərlə ton Xəzərə axıdıldı; quyunun yaxınlığında nəhəng neft gölləri əmələ gəldi; bir dəfə isə maye qəflətən bir maşın binasına axdı və mühəndisin ocaqlarını dərhal söndürməsi olmasaydı, bütün ərazi alov içində qalardı.

Fontanı dayandırmaq üçün bütün səylər nəticəsiz qaldı və əmlaka zərər nəzarətsiz davam etdi; yaxınlıqdakı bütün binalar neftlə birlikdə atılan qumun altında qaldı. Rusiyada neftin israf edilməsinə qəzəb hüdudsuz idi; Bakıda quyu sahibləri fontanın karyerasını dayandırmağın ən yaxşı yollarını müzakirə etmək üçün toplaşdılar. Nəhayət, Sankt-Peterburqdakı hökumətə müraciət edildi və Bakıya iki mühəndis göndərildi. Dekabrın 10-da fontan qəflətən öz-özünə dayandı (boru tıxandı), lakin üç saatdan sonra daha böyük şiddətlə yenidən püskürdü. Ağıza 3 düymlük qazan təbəqəsi bərkidildi, lakin o, tezliklə didik-didik olub partladı. Nəhayət, dekabrın 29-da quyunu bağlamaq şərəfi quyu sahibi Zorgeyə nəsib oldu və borunun ağzında neftin güclü hərəkətinə baxmayaraq, quyu bütün qış nəzarət altında saxlanıldı. Püskürmə dayandırılanda Nobelin 14 nömrəlisində böyük bir sarsıntı baş verdi ki, bu da hər iki quyunun eyni neft layı ilə əlaqəsini göstərirdi.

Kifayət qədər kapital və imkanların olmaması üzündən "Drujba" şirkəti bir milyonu barmaqlarının arasından buraxdı və müflis oldu, quyunu qazmış mühəndis Yaribov isə ürək ağrısından öldü.

1886-cı ilin əvvəlində doktor Maks Böhm və doktor R. Yürgensenin müşayiəti ilə Bakını ziyarət etmiş professor Enqler o vaxt on bir fontanın mövcudluğunu qeyd edir. Bunlardan beş Nobel quyusu gündə 160 000 pud hasil etməyə qadir idi, lakin o vaxt ən böyüyü olsa da, onların neftayırma zavodu bu hasilatı emal edə bilmədiyindən və neft açıq havada qaldığı üçün kerosin emalı üçün yararsız hala düşdüyündən, tıxacın əmələ gəlməsinin qarşısını almaq üçün jelonka ilə gündə yalnız 60 000 pud çıxarılırdı. Başqa bir quyu, Avakov fontanı, gündə 100 000 pud (təxminən 1 600 ton) sürətlə axırdı. "Bakı Neft Şirkəti"nin "Kormilitsa" quyusu hələ gündə 3 700–5 000 pud verirdi.

Həmin il Palaşkovski və Bunqenin (Batum Neft Şirkəti) bir fontanı, sahiblərinin narazılığına, gündə 100 000 pud sürətlə uzun günlər axdı, halbuki şirkətin Ağ şəhərdəki neftayırma zavoduna çəkilmiş boru kəməri cəmi 40 000 pud ötürə bilirdi. Quyunu (11 nömrəli) yenidən nəzarətə aldıqdan sonra tıxanmanın və, təbii ki, başqalarının ehtiyatdan istifadə etməsinin qarşısını almaq üçün onu jelonka ilə işlətdilər.

Polkovnik Stüart qəribə bir faktı qeyd edir: Avakov fontanı hər dəfə işə düşəndə Palaşkovski quyusu on dəqiqə sonra onu izləyirdi, 12 nömrəli Nobel quyusu isə geri qalmamaq üçün ikincidən on dəqiqə sonra başlayırdı — bu, onların hamısının eyni neftli laylardan qidalandığını aydın göstərən bir fakt idi. Deyilənə görə, şimal-şərqdən, yaxud hətta şimaldan

əsən güclü külək bu erkən quyuların neft təchizatını və fəvvarə vurmaq meylini artırırdı. Bu diqqətli müşahidəçilər həmçinin belə qənaətə gəldilər ki, daxili tələbatın məhdud və nəqliyyat imkanlarının qeyri-kafi olduğu bir vaxtda Bakı fontanları kiçik hasilatçı üçün heç bir fayda vermirdi. Neft mənbələrinin davamlılığı barədə qorxular ifadə edilirdi, bəziləri hətta onların növbəti dörd-beş il ərzində tükənəcəyini qabaqcadan söyləməyə qədər gedirdilər. 1885-ci ilin sonunda cəmi 334 quyu var idi; bunlardan 142-si hasilat verir, 40-ı tükənmiş, 57-si qoruyucu borunun zədələnməsi, 13-ü qazma qəzaları üzündən boş dayanır, 73-ü qazılır və 19-u qazmağa hazır idi. Belə hesab edilirdi ki, əvvəlki illərdəki kimi fontanlar bir daha heç vaxt görünməyəcək; lakin tezliklə bütün bədbin proqnozların yanlış olduğu göstərildi. Sürpriz yeni bir yerdən — Bibiheybətdən gəldi. İki mülkdə, XIX və XX qruplarda işlər ləng gedirdi. Tağıyevin ən dərini 679 futu keçməyən quyularından bol təchizatı var idi. Zubalovun Tağıyevin neftayırma zavodunun yaxınlığında üç quyusu var idi. Onun quyularından heç biri hasilatına görə qonşusunun quyuları ilə müqayisə oluna bilməzdi; əslində bir quyu hətta 770 futda neft vura bilməmişdi.

Balaxanı və Sabunçu bir-birinin ardınca məhsuldar fontanlar verərkən Bibiheybət az maraq doğururdu. Belə düşünülürdü ki, gündəlik axını 200 000 pud olan “Drujba” quyusuna bərabər quyu heç vaxt olmayacaq. Lakin 10 düymlük qazma deşiyi ilə başa çatdırılmış bir Bibiheybət quyusu gündə 600 000–700 000 pud — Amerikanın bütün 25 000 quyusundan və Qalisiyanın, Rumıniyanın, Birmanın və digər ölkələrin minlərlə başqa quyusundan birlikdə daha çox — atmağa başladı. 1884-cü ildə başlanmış quyu ən yaxşı vaxtında 4 000 puddan çox vermirdi ki, bu da o vaxt qeyri-adi sayılmırdı. Hasilat azaldıqca dərinləşdirmə işlərinə başlandı. Növbəti neft layına 714 futda 1896-cı il[57] sentyabrın 27-də çatıldı; bu zaman neft rekord güclə fəvvarə vurmağa başladı, 224 fut hündürlüyə qalxdı və saatda 30 000 pud hasilat verdi.

“Şəhərdən, — deyə yazırdı “Bakinskiye İzvestiya”, — fontan nəhəng bir tüstü sütunu görkəmində idi, onun zirvəsindən neftli qum buludları ayrılır və yerə toxunmadan böyük məsafəyə üzüb gedirdi. Cənub küləklərinin üstünlük təşkil etməsi üzündən neft Bayıl burnu istiqamətində sovrulur, təpəni və dərəni qum və neftlə örtür, bir yarım mil uzaqlıqdakı Bayıl evlərini isladırdı. Axını dayandırmaq üçün heç nə etmək mümkün deyildi. Bütün Bibiheybət rayonu neftlə örtüldü; neft çuxurları doldurdu, göl əmələ gətirdi və beşinci gün dənizə tökülməyə başladı. Üç gün ərzində axın gündə 5 000 və ya 6 000 ton hesablanırdı. Altıncı gün külək gücləndi və neft çiləri bütün şəhərin üzərinə uçmağa başladı. Bakı Şəhər Dumasının qarşısındakı meydan neftə bulandı, neft hətta şimaldakı kənar evlərin üzərinə də düşdü. Neft itkisi nəhəng idi. Səkkizinci gün maksimuma çatıldı, neft o zaman gündə 700 000 pud sürətlə fəvvarə vururdu. Neftin tamamilə itməsinin qarşısını almaq üçün axını dənizdən uzaqlaşdırıb bəzi köhnə quyulara yönəltməyə cəhdlər edildi. Onuncu gündən sonra o, azalmağa başladı və on beşinci günə qədər mühəndislər onu o dərəcədə nəzarətə aldılar ki, axın cəmi gündə 60 000 pud idi. Ümumilikdə 12 000 000 puda yaxın neftin səthə çıxdığı hesablanır və bunun çoxu anbar yeri olmadığından itdi. Neft sadəcə Xəzər dənizinə töküldü və bəşəriyyət üçün həmişəlik itdi.”

[57] Orijinalda “1896” yazılmışdır, lakin bu, açıq-aydın mətbəə səhvidir: fəsil 1881–1890-cı illərə həsr olunub və bir qədər aşağıda Zubalovun Tağıyevin uğurundan ruhlanaraq 1886-cı ilin noyabrında qazmağı bərpa etdiyi deyilir. Hacı Zeynalabdin Tağıyevin Bibiheybətdəki məşhur fontanı 1886-cı il sentyabrın 27-də vurmuşdur. Müəllif bu tarixi fontanın Tağıyevə məxsus olduğunu yalnız sonrakı abzasda dolayısı ilə qeyd edir. — *Tərc.*

1887-ci ilin yazında Bibiheybətin məhsuldar ehtiyatları XX qrupda Zubalov fontanı kimi tanınan quyu ilə yenidən sübut olundu. Quyunun qazılmasına 1885-ci ildə başlanmışdı və qazma 567 fut dərinliyə çatanda sahiblər ruhdan düşüb əməliyyatları dayandırmışdılar. Bir qədər aralıda 11 000 tonluq fontanı olan Tağıyevin uğuru onları 1886-cı ilin noyabrında qazmağı bərpa etməyə vadar etdi. Fontan püskürəndə çatılmış dərinlik 672 fut idi; 16 düymlük boru 196 futa, 14 düymlük 392 futa, 12 düymlük 623 futa və nəhayət, 10 düymlük 672 futa qədər çatırdı. Tağıyev fontanı 714 fut dərinliyə çatılana qədər fəvvarə vurmamışdı. Martın 20-də, bazar günü səhər quyudan böyük miqdarda neft və iri daşlar 350 fut hündürlüyə atıldı. Külək zəif olduğundan və Bakı tərəfdən əsdiyindən qum və daş quyunun ətrafına düşdü və çox az zərər vurdu. Səhər saat yeddidə vuran fontanın gücündə saat on birdə hiss olunan zəifləmə oldu, sütunun hündürlüyü 200 fut idi. Adam dəstələri axını Zubalovun bəzi anbarlarına yönəltdilər. Onlar tezliklə dolub daşdı və yeni torpaq divarlar uçanda neft çay kimi Xəzərə axdı. Ayın 20-dən 24-dək neft fasiləsiz fəvvarə vurdu; sonra qazma deşiyi daş və qumla tıxanaraq dörd gün qəflətən dayandı. Ayın 28-də yenidən işə düşdü və bir neçə gün böyük şiddətlə fışqırdı, sonra boru tamamilə tıxandı. Neftin demək olar ki, hamısı itdi.

1886-cı ildə Xəzər-Qara dəniz şirkəti (Rotşildlər) Batum şirkətinin müəssisəsini götürmüşdü. Onun Sabunçuda hasilatçı kimi başlanğıcı çox uğurlu oldu. Mayın 2-də 13 nömrəli quyu fəvvarə vurmağa başladı. Ayın 3-ü ilə 9-u arasında o, 250 000 pud verdi. Qapaq qoyulduğu 10 və 11-də dayandı. 12 və 13-də fəvvarə vuraraq 30 000 pud verdi, sonra jelonka işə salındı və hər dəfə qaldırılanda fəvvarə yenidən başladı; quyu ayın 19-u ilə 21-i arasında 47 000 pud verdi. Jelonka ilə işləyən quyu kimi o, bütün 1888-ci il boyu gündə müntəzəm olaraq 4 000–6 000 pud verdi.

Bu şirkətin 3 nömrəli quyusu daha güclü bir fontan idi; o, 13 nömrəli axını dayandırdıqdan altı gün sonra vurdu. Ayın 26-da üç saat işləyib qəflətən dayandı, sonra axşam yenidən başladı və 27-də 150 000 pud, 28-də 120 000 pud, 29-da 50 000 pud, 30-da 50 000 pud və ayın son günü 30 000 pud verdi. İyunun 6-da tükəndi, lakin jelonka ilə gündə 3 000–4 000 pud verməyə davam etdi.

1888-ci ilin yanvarında Xəzər-Qara dəniz şirkətinin 16 nömrəli quyusu iki həftə gündə 6 000 pud sürətlə fəvvarə vurdu. 1887-ci ilin sentyabrında Nobellərin müstəsna dərəcədə məhsuldar bir fontanı oldu. Ayın 27-dən quyu iyirmi gün fəvvarə vurdu və gündə müntəzəm olaraq 40 000 pud verdi. Quyu təmir işləri gedərkən fəvvarə vurmağa başladı. Qapaq çətinlik çəkmədən qoyuldu.

1887-ci ildə Sabunçu və Bibiheybətdəki sensasiyalı hadisələrlə bir qədər arxa plana keçmiş Balaxanı qəflətən hətta Bakıda da heyrət doğuran bir fontanla ön plana çıxdı. Mədən şirkətinə məxsus yeni quyu avqustun 13-də gündə 400 000 pud sürətlə fəvvarə vurmağa başladı. Doqquz saatlıq axından sonra quyu tıxandı. Belə düşünüldü ki, təhlükə keçib və qapaq qoymağa heç bir cəhd edilmədi. Ertəsi gün quyu açıldı. Ayın 23-də sütun hələ 200–350 fut hündürlüyündə, axın isə 300 000 puda qədər idi. Təzyiq dəhşətli idi, neft bəzən Nelson sütunundan iki dəfə hündürə qalxır və Sitidən Vulviç arsenalına qədər olan məsafəyə çatırdı. Quyunun yaxınlığındakı çuxurlar və çökəkliklər neftlə doldu, neft ətrafdakı millərlə ərazini basdı, atılan qum isə quyu ətrafında 14 fut hündürlüyündə bir krater əmələ gətirdi və bir sıra

evləri tamamilə basdırdı. Qaz elə həcmdə ayrılırdı ki, fontana yaxınlaşmaq və ya neft rayonunun hər hansı yerində od yandırmaq təhlükəli idi.

“Bir gün isə, — Marvin bizə danışır, — Bakıdan gəlmiş diqqətsiz bir tamaşaçı siqaret yandırmaq üçün kibrit çəkməyə cəhd etdi; lakin bu axmağı, xoşbəxtlikdən, fəhlələr gördülər, kibriti əlindən vurub saldılar və idarəçi vaxtında gəlib çıxmasaydı, onu yerindəcə linç edər, yaxud neft gölünə atardılar.” Bundan sonra kənar adamları uzaq tutmaq üçün fontanın ətrafı kazaklarla mühasirəyə alındı. Quyunu tıxamaq üçün bir neçə nəticəsiz cəhd edildi. Bütöv ağac gövdələri və 22 tonluq çuqun təbəqə sınaqdan keçirildi, lakin heç bir faydası olmadı. Bir neçə dəqiqə ərzində hər maneə qazma deşiyindən atılırdı və fontan altı həftədən çox gündən-günə fəvvarə vurdu, həcmi tədricən gündə təxminən 120 000 puda düşdü. Nəhayət, Rusiya hökumətinin səbri tükəndi və Bakıdakı digər firmalara quyunu ələ keçirib bağlamağa icazə verildi. Verilmiş səlahiyyətdən istifadə edərək Nobel, Rotşild və digər firmalar ən yaxşı mühəndislərini yerinə göndərdilər və onlar bir neçə gün işlədikdən sonra qapaq qoyub fontanın axınını dayandırmağa nail oldular. On iki milyon pud neft hədər getdi. Bu quyu mədənin ən məhsuldarı deyildi — xatırlanacağı kimi, bəziləri 500 000 puddan çox atmışdı — lakin heç biri bunu bu qədər uzun müddət davam etdirməmişdi.

X fəsil. 1881–1890-cı illərdə sənayenin artımı

Davamlı tərəqqi — Kiçik firmaların sıxışdırılıb çıxarılması — Ağ şəhər — Nəqliyyat çətinlikləri — Rusiya bazarlarında yəhudi qabaqcıllar — Bakı–Batum dəmir yolunun başa çatması — Rotşildlərin gəlişi — Rusiya ixracına maneələr — Polkovnik Stüart Bakının iş üsulları haqqında — Bakıda Britaniya firmaları yoxdur — Boru kəməri layihələri — Xüsusi sistern vaqonların işlədilməsinə icazə — Bakının ilk sindikatı — Kerosinə aksiz vergisinin qoyulması — Statistika bürosunun yaradılması — Dövrün sonunda sənaye.

Neft sənayesinin 1873–1880-ci illər dövründə əldə etdiyi tərəqqi nə qədər böyük olsa da, 1881 ilə 1890-cı illər arasında hər istiqamətdə əldə edilən irəliləyişlə müqayisədə kiçik idi. Xam və təmizlənmiş neft hasilatı, daxili bazarlara göndərişlər və xarici ticarət bu dövrdə hətta 1883-cü ildə də ağla gəlməyən ölçülərə çatdı. Həm yerlilərin, həm də rusların nifrət etdiyi xarici təşəbbüskarlıq[58] öz sözünü deməyə başlayırdı. Hasilat əvvəlki dövrün son ilindəki 25 000 000 puddan 1881-ci ildə 40 000 000 puda yüksəldi və 1890-cı ildə 226 000 000 puda çatana qədər artmaqda davam etdi. Neft məhsullarının ixracı 23 400 000 puddan 176 300 000 puda qalxdı. Aşağıdakı cədvəl sənayenin böyük artımını göstərir.

Rusiyaya və xaricə ixrac (milyon pud)

İl	Hasilat	İşıqlandırıcı yağlar	Sürtkü yağları	Mazut	Xam neft	Cəmi	İxracın hasilata nisbəti, %
1880	25	7,8	—	7,0	0,4	15,2	60,8
1881	40	11,6	—	9,3	2,5	23,4	58,5
1882	50	12,6	0,3	12,6	1,6	27,3	54,6
1883	60	14,2	1,2	12,2	1,9	29,5	49,2
1884	89	21,7	1,4	28,5	2,5	54,1	60,8
1885	115	27,4	1,6	35,6	2,8	67,4	58,6
1886	123	32,4	0,8	35,7	3,0	71,9	58,5
1887	155	44,0	2,3	41,5	3,4	91,2	58,8
1888	182	50,0	2,6	58,5	3,8	114,9	63,1
1889	192	61,1	3,4	88,6	4,2	157,3	81,9
1890	226	67,8	4,6	97,1	6,8	176,3	78,0

1896	27	82,28	12	9,97	19	7,42	8	0,33	102	66	36
1897	21	82,97	14	10,56	20	6,22	9	0,25	101	64	37
1898	22	89,59	11	8,35	8	1,81	9	0,25	88	50	38
1899	27	90,19	11	7,56	8	1,93	7	0,32	86	53	33
1900	32	87,28	14	8,10	20	4,48	5	0,14	84	71	13
1901	36	88,60	17	8,86	12	2,37	4	0,17	69	14	83
1902	33	91,78	10	5,25	15	2,80	4	0,17	62	17	79
1903	38	95,17	9	2,99	9	1,69	5	0,15	58	21	79

Rəqəmlər orijinalda olduğu kimi verilmişdir; 1901–1903-cü illər üçün “Cəmi”, “İşləyən” və “Boş dayanan” sütunlarının cəmi uyğun gəlmir.

Xam neft və onun məhsulları Bakıdan dəniz, dəmir yolu və boru kəməri ilə göndərilir. 1900-cü ilə qədər Bakı ətrafında müəyyən radius daxilindəki ərazi aksiz rüsumundan azad idi və neftlə buradan təchiz olunurdu. Həmin il hökumət azad ərazini Qara və Ağ şəhərlərlə məhdudlaşdırdı və bütün neft, hətta Bakının yaxınlığına göndərilsə də, tam rüsum ödəməli oldu. Buna görə də güman etmək olar ki, xam neft kimi ixrac edilmiş hesab olunan bütün miqdarlar ya Bakıda, ya da onun yaxınlığında istehlak edilmişdir.

Hazırda Bakıdan dəniz yolu ilə ixrac əsasən daxili bazarlarda paylanması üçün Həştərxana, eləcə də Petrovska, Krasnovodska, İrana və digər Xəzər limanlarına gedir. Petrovska göndərilən ən böyük miqdarlar xarici ölkələrə yenidən yüklənmək üçün Vladiqafqaz dəmir yolu ilə Novorossiyskə göndərilir, yalnız kiçik bir hissəsi Rusiyaya və Qara dəniz limanlarına yol tapır. Dəmir yolu ilə daşımaya gəlincə, 1899-cu ilin sonuna qədər o, müstəsna olaraq Zaqafqaziya dəmir yolunun əlində idi və yalnız 1900-cü ildə Vladiqafqaz dəmir yolunun Bakı–Petrovsk qolu hərəkət üçün açıldı. Bu ikinci xətt ümumi ixracda əhəmiyyətsiz rol oynayır və bir qədər artım olsa da, yüksək tariflər üzündən bu yolun böyük iş inkişaf etdirməsi ehtimalı azdır. Bu xətt ilə daşınan neft yükləri 1900-cü ildə 1 228 166 pud, 1901-ci ildə 3 140 602 pud, 1902-ci ildə 4 130 593 pud, 1903-cü ildə 4 852 885 pud, 1904-cü ildə 3 993 000 pud və bu ilin ilk altı ayında 857 488 pud təşkil etmişdir. 1901-ci ildən Zaqafqaziya dəmir yolu ilə göndərilən miqdarlarda böyük artım boru kəmərinin açılması ilə bağlıdır. Boru xəttin daşıma qabiliyyətini xeyli artırmışdır. O, indi ildə 100 000 000 pud ötürə bilər, lakin hətta bu halda da xətt Qara dənizə daşıma imkanlarına tələbatın öhdəsindən gələ bilmir və xeyli miqdarda neft, əsasən işıqlandırıcı yağ, dəniz yolu ilə Petrovska göndərilir və oradan dəmir yolu ilə Novorossiyskə yola salınır. 1895-ci ildən birgə dəniz və dəmir yolu marşrutu ilə xaricə ixrac üçün göndərilən, əsasən işıqlandırıcı yağdan ibarət miqdarlar belə olmuşdur:





“Şibayev Neft Şirkəti”nin (London; sədri cənab C. Keyter Skott) neftayırma zavodunun hissələri — Ağ şəhərdə Britaniyaya məxsus ən müasir və ən böyük zavod. Yuxarıdakı şəkildə fasiləsiz işləyən sürtkü yağı qurğusu göstərilir: o, hər biri 20 ton tutumlu və 10½ ton yüklənən 12 kubdan ibarətdir. Zavodun bu şöbəsi gündə 355–420 ton mazut distillə edir və 100 ton solyar yağı, 16 ton veretən yağı, 90–105 ton maşın yağı və təxminən 10 ton silindr yağı istehsal edir. İkinci şəkildə sürtkü yağı qurğusunun gündə 160 tona qədər maşın yağı istehsal edə bilən təmizləmə şöbəsi göstərilir.

İl	Pud	İl	Pud
1894	5 206 357	1901	18 366 198
1895	10 159 680	1902	11 151 358
1896*	18 381 200	1903	28 524 870
1897	4 778 271	1904	25 756 238
1898	8 929 459	1905 (ilk altı ay)	13 306 615
1899	24 058 308		
1900	32 244 028		

* Zaqafqaziya dəmir yolunda qəza.

Rusiyaya və xaricə ixrac (milyon pud)

İl	Xam neft hasilatı	Kerosin	Sürtkü yağı	Mazut	Xam neft	Digər məhsullar	Cəmi	Xam neft hasilatına nisbətən faiz
1891	275	74,0	5,7	103,3	11,4	0,5	194,9	70,9
1892	286	78,6	5,6	116,6	11,5	0,3	212,6	74,3
1893	325	85,9	5,8	143,5	12,0	0,7	247,9	76,3
1894	297	71,2	6,4	193,6	16,4	0,7	288,3	97,1
1895	377	81,0	6,7	180,4	15,1	1,1	284,3	75,4
1896	386	86,5	8,9	185,0	25,5	1,0	306,9	79,5
1897	421	90,4	9,1	221,7	23,7	1,2	346,1	82,2
1898	486	94,7	10,5	242,4	43,9	1,4	392,9	80,8
1899	525	103,2	11,5	244,9	24,5	1,5	385,6	73,4
1900	601	123,9	13,6	264,4	39,0	2,2	443,1	73,7
1901	672	128,7	13,8	309,3	35,1	1,2	488,1	72,6
1902	636	120,2	14,8	342,5	34,1	2,2	513,8	80,8
1903	596,6	146,5	16,6	303,9	26,4	0,9	494,3	82,8
1904	614,6	153,6	15,5	302,6	18,7	1,4	491,8	80,0

İl	Ümumi ixrac	Dəniz yolu ilə	Dəmir yolu ilə	Dəniz yolu ilə, %	Dəmir yolu ilə, %
1889	157,6	110,2	47,4	70,0	30,0
1890	176,9	118,6	57,3	67,6	32,4
1891	194,4	132,6	61,8	68,3	31,7
1892	212,9	145,1	67,8	68,2	31,8
1893	248,1	174,7	73,4	70,4	29,6
1894	288,4	222,6	65,8	77,2	22,4
1895	284,3	216,1	68,2	76,0	24,0
1896	306,8	244,8	62,0	79,7	20,3
1897	346,1	266,8	79,3	77,1	22,8
1898	393,0	309,3	83,5	78,8	21,2
1899	385,3	301,7	83,6	78,3	21,7
1900	443,1	352,9	88,8	79,6	20,4
1901	488,2	383,8	101,9	78,6	20,85
1902	513,4	409,4	101,2	79,7	19,7
1903	494,0	386,3	105,0	78,2	21,2
1904	491,8	379,8	108,9	77,2	22,1
1905 (ilk altı ay)	224,8	190,9	32,5	84,4	14,4

Bakı xam neft qiymətləri neft mədənlərində təhvilə aiddir. Qara şəhərə boru ilə vurulma qiyməti ¼ qəpik artırır, müxtəlif xərclər və sızma isə onu daha ¼ qəpik qaldırır, belə ki, Qara şəhər qiymətləri mədən qiymətlərindən təxminən ½ qəpik yüksəkdir.

Quyu başında xam neftin qiymətləri (pud başına qəpik)

Ay	1891	1892	1893	1894	1895	1896	1897	1898	1899	1900	1901	1902	1903	1904	1905
Yanvar	4,0	1,4	2,3	2,1	4,5	7,1	8,9	8,4	12,8	16,6	11,42	4,6	7,78	16,16	14,053
Fevral	4,0	1,3	2,2	2,0	4,7	7,4	8,9	8,7	12,9	16,7	10,35	4,7	6,86	15,66	13,444
Mart	3,5	1,2	1,8	2,3	4,3	7,5	7,5	8,9	12,8	17,0	10,40	5,35	7,71	15,98	14,302
Aprel	3,5	1,0	1,2	2,8	5,0	7,7	7,5	8,8	12,8	17,9	7,37	9,42	8,75	14,54	15,033
May	3,0	0,7	0,6	2,6	6,9	8,1	7,5	8,5	12,1	17,8	7,88	7,54	8,50	15,11	17,026
İyun	2,7	0,7	0,6	2,3	7,2	8,1	7,2	9,0	12,6	17,7	8,40	7,64	7,25	14,21	20,584
İyul	2,5	1,0	0,6	3,2	7,1	8,2	7,5	10,1	12,9	17,0	7,80	7,03	7,50	12,72	20,733
Avqust	2,2	0,0	1,0	3,8	8,0	8,1	7,5	10,2	13,25	16,6	7,69	7,44	8,00	13,67	—
Sentyabr	2,0	1,2	1,5	3,7	9,0	7,7	7,6	11,1	13,75	14,9	6,73	7,14	8,54	15,17	—
Oktyabr	1,6	1,1	1,6	3,9	8,0	8,2	7,8	11,1	15,1	12,5	7,36	7,98	9,41	15,23	—
Noyabr	1,5	1,3	1,8	4,0	6,5	8,2	7,6	11,0	17,0	12,5	6,74	7,87	12,21	13,91	—
Dekabr	1,5	1,5	1,9	4,5	7,0	8,5	8,5	12,1	16,5	11,5	5,45	6,94	15,99	13,74	—
İllik orta	2,7	1,1	1,4	3,1	6,5	7,8	7,7	9,8	13,7	15,7	8,11	6,72	9,04	14,67	—

Mazutun qiymətləri (pud başına qəpik)

Ay	1891	1892	1893	1894	1895	1896	1897	1898	1899	1900	1901	1902	1903	1904	1905
Yanvar	4,5	2,5	2,6	3,1	5,3	7,8	8,0	9,2	12,6	15,2	13,58	5,5	7,03	14,21	14,875
Fevral	4,0	2,5	2,6	2,9	5,5	7,4	8,0	9,3	12,4	15,4	13,46	5,3	7,25	14,92	14,625
Mart	3,5	2,0	2,0	3,2	5,5	7,4	8,2	9,2	12,5	16,4	13,05	6,2	7,98	15,62	15,839
Aprel	4,0	1,3	1,7	3,8	6,0	8,0	8,0	9,6	12,6	17,5	9,93	8,58	8,53	15,25	17,229
May	4,0	1,1	1,3	3,8	6,9	8,0	8,0	9,1	12,5	18,0	9,25	9,37	8,75	15,5	17,5
İyun	4,0	1,0	1,2	3,7	6,3	8,2	8,0	10,1	12,9	18,8	9,81	9,28	8,0	15,12	—
İyul	3,0	1,0	1,2	4,0	5,8	8,5	8,2	11,3	13,9	18,4	8,50	8,81	8,75	13,92	22,695
Avqust	3,0	1,0	1,8	4,5	5,8	7,2	8,0	11,4	14,1	17,9	7,92	8,72	8,49	15,05	—
Sentyabr	2,7	1,0	2,4	4,2	6,5	7,2	8,1	12,2	13,9	17,4	7,82	7,86	8,62	16,42	—
Oktyabr	2,5	1,0	2,6	4,1	6,5	7,3	8,4	12,6	13,6	14,5	8,19	7,87	9,12	16,78	—
Noyabr	2,0	1,2	2,8	4,5	6,5	7,5	8,7	12,7	14,2	13,5	7,44	7,60	10,21	13,72	—
Dekabr	2,0	2,0	3,2	5,0	7,0	8,5	9,0	12,0	14,5	13,5	6,34	7,21	12,75	14,07	—
İllik orta	3,3	1,5	2,1	3,9	6,1	7,7	8,2	10,7	13,3	16,4	9,60	7,69	8,79	15,04	—

Bakıda işıqlandırıcı yağın iki qiyməti var — biri tanker gəmilərindəki neft üçün daxili istehlakçılara, digəri isə sistern vaqonlardakı neft üçün xarici istehlakçılara. Daxili qiymətlər az-çox sabitdir. Tanker gəmilərindəki neftin qiymətlərinin ixrac nefti qiymətləri kimi tərəddüd etməməsinin səbəbi güclü rəqabətin olmaması və tələbatın durmadan artmasıdır. Digər tərəfdən, ixrac nefti qiymətləri Bakı bazarına hökm edir və tez-tez, xüsusən yüksələn bazar halında, daxili qiymətlər onlarla birlikdə hərəkət edir.

Kerosinin qiymətləri (pud başına qəpik), 1891–1896

Ay	1891	1892	1893	1894		1895		1896	
				İxrac	Daxili	İxrac	Daxili	İxrac	Daxili
Yanvar	17	10	10,1	3,5	5,5	15,5	8,5	26,0	13,0
Fevral	16	9	11,0	3,5	5,0	12,0	8,5	22,0	13,0
Mart	14	9	12,0	3,5	3,5	12,0	9,5	22,0	13,0
Aprel	12	9	7,2	8,0	4,5	15,5	12,0	30,0	13,0
May	10	7	6,0	8,0	4,5	16,0	13,0	29,2	14,0
İyun	7	6	5,3	8,0	3,5	18,0	15,0	25,5	13,0
İyul	7	6	5,3	8,0	4,5	20,0	17,0	28,0	14,0
Avqust	7	6	5,0	9,0	6,0	21,0	18,0	22,0	14,0
Sentyabr	8	7	5,0	10,5	7,0	21,0	19,5	21,0	13,5
Oktyabr	8	7	5,0	10,0	7,5	19,0	17,0	21,0	13,0
Noyabr	9	7	5,6	10,5	7,5	18,0	13,5	21,0	13,0
Dekabr	9	9	5,7	11,5	8,5	21,0	13,5	—	—
İllik orta	7,7	7,7	6,7	7,9	5,6	17,4	13,7	24,3	13,3


Kerosinin qiymətləri (pud başına qəpik), 1897–1901

Ay	1897		1898		1899		1900		1901	
	İxrac	Daxili	İxrac	Daxili	İxrac	Daxili	İxrac	Daxili	İxrac	Daxili
Yanvar	13,0	16,0	15,4	12,6	24,0	16,5	50,8	31,7	20,58	14,07
Fevral	11,0	12,5	14,0	11,6	25,0	16,0	45,9	28,5	19,25	11,71
Mart	11,2	13,5	13,7	11,3	20,8	15,9	51,0	30,3	16,64	9,29
Aprel	11,5	13,0	12,6	11,0	16,7	15,9	35,6	26,8	8,48	7,05
May	9,2	10,0	11,7	11,0	26,5	17,4	30,5	24,3	8,79	7,59
İyun	10,2	10,0	10,7	10,8	22,7	20,7	29,5	23,0	11,19	8,70
İyul	10,2	10,5	11,8	12,1	24,4	23,2	29,1	21,7	13,75	9,46
Avqust	10,2	10,5	15,5	14,6	26,5	24,7	24,5	19,7	10,21	7,62
Sentyabr	11,0	10,5	16,6	16,8	28,6	26,3	19,3	17,7	7,37	6,75
Oktyabr	11,2	11,2	19,1	17,9	33,8	28,9	17,5	16,2	9,56	7,70
Noyabr	12,2	12,2	24,0	21,1	42,2	34,2	23,7	16,0	9,34	7,69
Dekabr	14,2	14,2	19,4	17,0	54,0	34,0	20,0	14,8	8,44	—
İllik orta	11,3	12,0	15,8	13,9	27,93	21,98	31,5	22,5	11,96	8,87

Kerosinin qiymətləri (pud başına qəpik), 1902–1905

Ay	1902		1903		1904		1905	
	İxrac	Daxili	İxrac	Daxili	İxrac	Daxili	İxrac	Daxili
Yanvar	7,2	6,5	12,56	9,50	35,33	—	16,722	18,25
Fevral	6,16	5,2	14,69	9,55	33,82	24,5	15,000	15,45…
Mart	5,3	—	15,29	11,54	34,41	23,0	14,223	14,00…
Aprel	5,37	5,87	16,0	13,20	24,15	17,91	14,75	14,16
May	6,0	6,0	13,50	12,25	23,78	20,84	17,353	16,00
İyun	6,87	7,25	10,0	9,50	20,71	21,5	18,5	20,00
İyul	8,19	—	12,42	10,75	19,5	17,38	19,559	19,55…
Avqust	9,12	—	15,57	10,84	20,0	17,5	—	—
Sentyabr	11,0	10,4	13,87	12,95	24,5	19,9	—	—
Oktyabr	15,22	11,0	18,30	14,50	27,0	23,12	—	—
Noyabr	16,41	13,75	32,06	24,08	24,5	—	—	—
Dekabr	15,5	—	36,1	—	17,4	18,12	—	—
İllik orta	9,36	8,24	17,28	12,6	25,42	20,33	—	—

1894-cü ildən ixrac və daxili qiymətlər ayrıca verilir. 1905-ci ilin daxili qiymətlərinin bəzi rəqəmləri orijinalın skan nüsxəsində kəsilmişdir (… ilə işarələnib).



Balaxanı–Sabunçu–Ramana rayonunun xəritəsi (orijinalın skan nüsxəsində xəritənin yalnız bir hissəsi saxlanılmışdır)

II HİSSƏ. QAFQAZDA QİYAM

Tərcüməçidən. *Kitabın bu hissəsi 1905-ci ildə Bakıda və Zaqafqaziyada baş vermiş erməni–azərbaycanlı toqquşmalarına həsr olunmuşdur. Müəllif hadisələrin şahidi olmamış, Bakıya fevral qırğınlarından sonra gəlmiş və təsvirlərini əsasən ingilis sakinlərinin, erməni tərəfin və Avropa mətbuatının məlumatlarına əsaslandırmışdır; azərbaycanlı mənbələrə demək olar ki, istinad olunmur. Mətn ixtisarsız və yumşaldılmadan tərcümə edilmişdir. Faktlara uyğun gəlməyən, birtərəfli və ya təhqiramiz yerlər tərcüməçinin qeydlərində göstərilmişdir. 1905-ci il hadisələrinin müasir tarixşünaslıqda daha dolğun mənzərəsi üçün həm rus rəsmi istintaq materiallarına, həm də Azərbaycan (o cümlədən M. S. Ordubadinin "Qanlı illər" əsəri), erməni və Qərb tədqiqatçılarının əsərlərinə müraciət etmək lazımdır. Müəllif tarixləri yeni (Qriqori) təqvimlə verir.*

XIII fəsil. Birinci (fevral) qırğınları — Mühasirədəki erməni

Mənşəyin ziddiyyətli versiyaları — Qafqazda müharibəni kim başladı? — "Times" müxbirinin qəribə təcrübəsi — Erməni və tatar versiyaları — Erməni Adamovun eyvanda döyüşü — Üç günlük mühasirə — Başından yaralanma — Gənc Adamovun ölümü — Ev tatarlar tərəfindən hücumla alınır və sakinləri öldürülür — Lalayevlərin sonu — Tatar ölüləri — Küçə hadisələri — Kazaklar ermənilərə kömək etmək üçün pul tələb edirlər.

Fevral qırğınları kimi tanınan hadisələrin mənşəyinə dair çoxsaylı ziddiyyətli versiyalara qısaca toxunmağı zəruri hesab edirəm. Sentyabrda Qafqazda baş vermiş daha ciddi irqi, dini və siyasi qiyamların təsvirini bir neçə fəsil sonraya saxlayıram, bu fəsli isə fevraldakı döyüşlərin bəzi hadisələrinin təsvirinə, xüsusən də Qafqaz tarixində yaşayacağını vəd edən bir hadisəyə — erməni Adamovun ölümünə həsr edirəm.

Hər şeydən əvvəl, mənşə. Burada qarşılaşdığım keçilməz çətinlik məndə kök salmış bir əqidədir: heç kəs bu qırğınların başlanmasına dair saysız versiyaları təsnif və ya təhlil edə bilməz və mən tərəddüdsüz bəyan edirəm ki, heç kim hamı tərəfindən doğru kimi qəbul ediləcək bir nəzəriyyə irəli sürə bilməz. Bakı vəhşi nəzəriyyələrin, təhriflərin və yalanların ocağıdır. Mən öz nəzəriyyəmi irəli sürmürəm və o dəhşətli günlər haqqındakı hekayəmə ermənilərin və tatarların tərəfdarları tərəfindən, ermənilər halında isə onların liderlərindən biri tərəfindən hazırlandığı şəkildə qısa ifadələri ilə başlamaqla kifayətlənirəm.

Bu irqi iğtişaşların mənşəyinin qənaətbəxş tədqiqinin mümkün olmadığı barədə bu mülahizəm bəzilərinə yəqin ki, zəif görünəcək. Onun doğru olduğunu bu yaxınlarda "Times" kəşf etdi və bu, mənə Bakı kimi bir şəhərdə tarixi həqiqətin işığa çıxmazdan əvvəl mübarizə aparmalı olduğu böyük çətinliklərin parlaq nümunəsini verdi. Qəzet qeyri-adi bir təcrübə yaşamış və redaksiya adından etiraf etməyə məcbur olmuşdur ki,

"Qafqazdakı ədavətin qızğın atmosferi dəqiq məlumat axtaran adama çətin ki, kömək edir. Lakin, — deyə davam edir, — yolda duran maneələrin tam miqyası, bəzi dairələrdə faktların sistemli təhrifi və başqalarında onların yanlış şərhi yalnız müxbirimizin məktubları oxunduqdan sonra qiymətləndiriləcəkdir."

"Times"ın müxbiri "Qafqazda müharibəni kim başladı, tatarlar, yoxsa ermənilər?" sualına cavab tapmağa çalışdı və dörd həftəlik araşdırmadan sonra iki məktub göndərdi. Aşağıda hər birinin giriş abzaslarını verirəm:

QAFQAZDA İĞTİŞAŞ. I. İrqi münaqişə. (Müxbirdən.) Tiflis, 27 sentyabr.

"Son dörd həftə ərzində Yelizavetpol quberniyasının bir çox yerlərini hələ də narahat edən və Bakıda kulminasiya nöqtəsinə çatan son iğtişaşları müzakirə etmək üçün çoxlu imkanım oldu; və bu qədər mürəkkəb bir məsələ barədə, təbii ki, qəti fikir söyləyəcək vəziyyətdə olduğumu iddia edə bilməsəm də, vəziyyətin ümumi cəhətlərinə toxunmaq cəhdinə haqq qazandırmaq üçün kifayət qədər məlumat toplamışam, xüsusən də İngiltərəyə indiyə qədər çatan məlumatlar parça-parça və natamam xarakter daşıyır… Bir qədər təəccüblə gördüm ki, Şuşada da, digər şəhərlərdə də tatarlar baş vermiş toqquşmaları yekdilliklə erməni komitələrinin fəaliyyəti ilə izah edirlər və bitərəf sayıla biləcək bir çox şahidlər, ruslar və gürcülər də məni bu ittihamın doğru olduğuna inandırdılar. Diqqəti cəlb edir ki, Bakıda da qeyri-ermənilərin, istər rus, istərsə də əcnəbi olsun, ümumi rəyi iğtişaşın başlanmasında və düşmənçiliyin davam etməsində erməniləri məsul tutmağa meyillidir."

QAFQAZDA İĞTİŞAŞ. II. İrqi münaqişə. (Müxbirdən.) Tiflis, 28 sentyabr.

"Dünənki məktubumda tatarların ermənilərə qarşı, xüsusən Bakıda irəli sürdükləri əsas şikayət səbəblərini qeyd etdim və göstərdim ki, onlar son acınacaqlı iğtişaşları həmişə erməni komitələrinin məşum təsirinə və fəaliyyətinə aid edirlər. Sübutları mümkün qədər diqqətlə ölçüb-biçdikdən sonra bu qənaətə gəlməyə məcburam ki, bu ittiham tamamilə əsassızdır və ermənilər bütün dövr ərzində müdafiə mövqeyində olmuşlar. Bu qənaətin lehinə həm birbaşa, həm də dolayı sübutlar, mənim fikrimcə, həlledicidir; eyni zamanda tatarların niyə komitələrə bu qədər israrla hücum etdiklərini, eləcə də Bakıdakı əcnəbi sakinlərin niyə şəraitin gücü ilə son hadisələrə sırf obyektiv baxmaq imkanından demək olar ki, qaçılmaz olaraq məhrum olduqlarını başa düşmək çətin deyil."[62]

Beləliklə, "Times" Bakıdakı qeyri-adi irqi sarsıntının mənşəyinə işıq salmağa nail ola bilmədi.

ERMƏNİ VERSİYASI

(Fevral qırğınları sona çatdıqdan bir neçə gün sonra müəllifə Bakıda bir erməni lideri və təşkilatçısı tərəfindən verilmişdir.)

Bu qan tökülməsi son illərdə hakimiyyətin ermənilərə münasibətinin nəticəsidir. Səksəninci illərin əvvəllərinə qədər Qafqazda heç bir xalq rus taxtına ermənilərdən daha sadiq deyildi. Bir çox ingilislərin düşündüyü kimi, ermənidə yalnız yəhudinin ticarət instinktlərinin olduğunu və onun müharibədən qorxduğunu düşünmək səhvdir; əksinə, dünya bilməlidir ki, erməni "təhqirə əl zərbəsi ilə cavab verməyə hazırdır". Rusların Qafqazda ilk peyda olduğu vaxtdan ermənilər çarın kömək üçün arxalana biləcəyi yeganə xalq olmuşdur. Bir vaxt Qafqazın ticarəti bizim xalqın üzvlərinin əlində idi; bu gün nəhəng neft işində təşəbbüskarlıq, sərvət və düzgünlüklə öndə gedən adamlar ermənilərdir və döyüşdə qəhrəmanların əməllərini xatırlamağı sevənlər türklərə və farslara qarşı Rusiya üçün vuruşmuş Məlikov, Lazarev və Terqukasov kimi məşhur erməni generallarının göstərdiyi qəhrəmanlıqları unutmayacaqlar. Ermənilər

[62] Müəllif "Times" müxbirinin iki ziddiyyətli məktubunu yan-yana verərək hadisələrin mənşəyini müəyyən etməyin mümkünsüzlüyünü göstərmək istəyir. Lakin diqqəti cəlb edir ki, birinci məktubda bitərəf şahidlərin — rusların, gürcülərin və Bakıdakı əcnəbilərin — rəyi ermənilərin məsuliyyəti istiqamətindədir, ikincidə isə müxbir bu rəyi rədd edir. Müəllif sonrakı hissədə əsasən ikinci baxışa uyğun materiallar verir. — *Tərc.*

Dağıstanda Şamil üsyanının sona çatdırılmasında böyük rol oynamışlar. Həmvətənlərim bütün bu sədaqət üçün necə mükafatlandırılıb? Onlara həm türklər, həm də ruslar nifrət edir və onları aşağılayır. Dəyişiklik Qafqazı ruslaşdırmağa qərar vermiş III Aleksandr bizim xalqı — yaxşı bədən quruluşlu adamları və qədim bir krallığın övladlarını — öz yolunda maneə kimi gördükdə baş verdi. O vaxtdan bəri Rusiyanın böyük arzusu erməni milli ruhunu qırmaq olmuşdur. Sankt-Peterburq hakimiyyəti erməni məktəblərinin muxtariyyətini ləğv etdi. Səksəninci illərin əvvəllərinə qədər bu məktəblər erməni ruhanilərinin nəzarəti altında idi və Qafqazdakı erməni icmasının könüllü ianələri ilə saxlanılırdı. 1884-cü ildə hökumət məktəblərdə rus dilinin işlədilməsini tələb etdi və sonda məktəblərimiz Rusiya Xalq Maarifi Nazirliyinin nəzarəti altına keçdi. Bu, Rusiyanın ermənilərin milli ruhuna vurduğu ilk zərbələrdən biri idi. Növbəti zərbə Rusiya Türkiyənin erməni vilayətlərində islahatlara qarşı çıxanda vuruldu. 1894-cü ildə Sasun qırğınlarından sonra Böyük Britaniya, Fransa, İtaliya və hətta Avstriya Türkiyəni islahatlar keçirməyə məcbur etməyə meylli idilər, lakin Almaniya və Rusiya buna qarşı çıxdı və xalqımız qəddarlıq və zülm sistemi altında yaşamağa məcburdur. Biz ermənilər 1895-ci ildə Türkiyə Ermənistanında baş vermiş dəhşətli vəhşiliklərdə hələ də Rusiyanı günahlandırırıq. Bizə qarşı hiss hökumətin erməni kilsə mülklərini ələ keçirdiyi 1903-cü ildə kulminasiya nöqtəsinə çatdı — bu, bu və ya hər hansı digər mədəni ölkənin kilsə tarixində ən rüsvayçı müsadirə aktlarından biri idi[63]. Bu, erməni milli ruhuna vurulmuş son zərbə idi və Qafqaz ermənilərini hökumətə qarşı çevirən və onları inqilabçılar ordusuna — açıq üsyanda olmasa da, inqilab üçün təşkilatlanmış adamlara — çevirən məhz bu oldu. Kilsə mülklərinin müsadirəsindən sonra Qafqaz məmurlarının həyatına tez-tez sui-qəsdlər edildi və on aylıq qısa müddət ərzində öldürülmüş on məmuru saymaq çətin olmazdı — yeri gəlmişkən, ayda bir. Onların arasında Yelizavetpol vitse-qubernatoru da var idi. Ermənilərin onları kilsə mülklərindən məhrum edən müsadirə fərmanlarının hazırlanmasına görə məsul hesab etdikləri Qafqaz baş rəisinin müavini knyaz Qolitsının[64] həyatına qəsd edildi. Həyatına edilmiş qəsdi xatırlayan və intiqam almaq istəyən knyaz Bakı qubernatoru knyaz Mixail Nakaşidzeyə[65] sərt tədbirlər görmək zərurətini təkidlə tövsiyə etdi[66].

TATAR VERSİYASI

(Aşağıda tatar versiyası verilir; onu hərbi hakimiyyətin tatarları silahlandırması və onları ermənilərin arsenalı partlatmaq, şəhəri talamaq və müsəlmanları qırmaq niyyətində olduqlarına inandırması barədə ifşa edilmiş faktlarla birlikdə oxumaq lazımdır.)

---

[63] Bakıda erməni işini qələmə aldıqdan sonra hökumət erməni kilsə mülklərini qaytarmaq niyyətini elan etmişdir. Bunun üçün tədbirlər görülür və imperator fərmanı həyata keçirildikdə ermənilərin bir dərdi azalacaqdır.

[64] Tatarlar və ermənilər arasında nifrətin qızışdırılmasını Qafqaza indi Moskvada yüksək vəzifəli məmur olan və yeni (liberal) fikir və hərəkətlərinin son dərəcə qəti xarakteri ilə hətta dostlarını da təəccübləndirmiş knyaz Qolitsın gətirmişdir.

[65] Sentyabr qırğınlarından bir qədər əvvəl knyaz Nakaşidze Bakıda rəsmi iqamətgahının yaxınlığında faytonla gedərkən bomba ilə öldürüldü. [*Tərcüməçinin qeydi:* Bakı qubernatoru M. Nakaşidze 1905-ci il mayın 11-də (köhnə təqvimlə) "Daşnaksütyun" partiyasının terrorçusu tərəfindən atılmış bomba ilə öldürülmüşdür; yəni sentyabr hadisələrindən təxminən üç ay əvvəl.]

[66] Erməni liderinin bu bəyanatı tərəfli sənəddir. Onun "bu gün neft işində öndə gedən adamlar ermənilərdir" iddiası faktlara uyğun deyil: Bakı neft sənayesində həlledici mövqeləri Nobellər, Rotşildlər, Britaniya şirkətləri, eləcə də erməni, azərbaycanlı (H. Z. Tağıyev, M. Muxtarov, Ş. Əsədullayev, M. Nağıyev və b.) və rus sahibkarları tuturdu. Bəyanatda erməni siyasi partiyalarının ("Daşnaksütyun", "Hnçak") silahlı fəaliyyəti və terror aktları "hökumətin siyasətinə cavab" kimi təqdim olunur, onların müsəlman əhaliyə qarşı hərəkətləri isə ümumiyyətlə xatırlanmır. — *Tərc.*

Fevral qırğınlarından iki ay əvvəl müsəlmanlar inanırdılar ki, ermənilər Bakını ələ keçirmək və müsəlmanları məhv etmək məqsədi daşıyan bir qiyam təşkil edirlər. Rəsmi olaraq heç vaxt təkzib edilməmiş bir faktdır ki, hakimiyyət ermənilərin şəhərin müdafiəsi üçün orada saxlanılan top və sursata nəzarəti ələ keçirmək məqsədilə arsenala cavabdeh olan zabitlərə rüşvət verməyə cəhd etdikləri barədə xəbər yaymışdı. Bu, güclü narahatlıq hissi yaratdı. Hərəkatın ermənilər baxımından siyasi xarakter daşıdığına inanan hakimiyyət tatarların tərəfini tutdu və onlara ermənilərin hücuma hazırlaşdığını dedi. Şübhəsiz ki, müsəlmanlar qorxuya düşdülər və qorxularını qubernatora bildirdilər; qubernator isə — bu inkar edilməmişdir — onları silah və sursatla təmin etdi, şəhərdəki az sayda qoşun isə ermənilərə qarşı qırğına başladıqdan sonra onları dayandırmağa heç bir cəhd göstərmədi. Tatar qəzetlərindən biri hətta indi də belə bir nəzəriyyə irəli sürür ki, bütün Qafqazda tatarlarla ermənilər arasındakı toqquşmalar bomba atmağa və sui-qəsdlərə görə məsul olan Erməni İnqilabi Komitəsinin fitnəkarlıqlarına gedib çıxır. Tatarların fikrincə, ermənilər hökumətlə açıq müharibəyə girməzdən əvvəl öz qüvvələrinin zərbə gücünü yoxlamağa can atırlar. Onlar, guya, bunu ən yaxşı şəkildə tatar ünsüründən başlamaqla edə biləcəklərini düşünürlər, çünki İslam ardıcılları ilə hər hansı mübarizədə xristian Avropanın dəstəyini alacaqlarına inanırlar. Bu arada ermənilər hökumətin Qafqaza nə qədər qoşun göndərə biləcəyini görə və onların yerləşməsi haqqında nə isə öyrənə biləcəklərini düşünürlər; başqa sözlə, tatarlar hesab edirlər ki, ermənilər geniş miqyaslı müharibə üçün təşkilatlanır və silahlanırlar.

* * *

Tatarlar ermənilərə dini və iqtisadi səbəblərə görə nifrət edirlər, çünki onlar Bakının və iri Qafqaz şəhərlərinin ticarətini öz əllərinə alırlar. Onların bəyan etdiyinə görə, bu qəzəb partlayışları rəqiblərinin onları tamamilə məhv etməsinə qarşı yeganə silahlarıdır. Dağlardakı tatarların böyük faizi və mədənlərdəkilərin bəziləri insanlığın bu tipinin bütün keyfiyyətləri və nöqsanları ilə əsl barbarlardır və qan tökmək məsələsində tamamilə laqeyddirlər, lakin ədalət naminə əlavə etmək lazımdır ki, onlar tərəqqi edirlər və savadlı və işgüzar tatarlara əvvəlkindən xeyli çox rast gəlinir. Əslində elə tatarlar var ki, işgüzarlıq qabiliyyəti və düzgünlük baxımından Qərbin sivilizasiya anlayışlarına uyğun gəlirlər, bəzi tatar fəhlələri isə, əsasən Kazan tipindən olanlar, verdikləri sözə sadiqlikləri və onlara xeyirxahlıq göstərənlərə vəfaları üçün əcnəbilər arasında populyardırlar[67].

* * *

Hadisələrin başlanmasının hökumət əleyhinə versiyası belədir ki, hadisələr üç səbəbin nəticəsi idi: yerli əhaliyə qarşı ədalətsizlik; əmək şikayətlərinə və narazılıqlarına laqeydlik; irqi və dini nifrətin qızışdırılması. Bunun doğru olduğuna inanan və anti-erməni baxışı tutanlar bəyan edirlər ki, tatarlar hər cür, lakin əsasən torpaqlarından və yaşayış yerlərindən özbaşına məhrum edilməklə zülmə məruz qalmışlar. Haqlarını bərpa etmək üçün heç bir vasitə tapmayan dağlılar illər boyu dolanışıq vasitəsi kimi quldurluğa əl atmış və rus administrasiyasının

[67] Müəllifin “tatar versiyası” adlandırdığı mətn əslində azərbaycanlıların öz ifadəsi deyil, “dostları” tərəfindən, ehtimal ki, avropalılar tərəfindən hazırlanmış təsvirdir; onun ikinci hissəsi azərbaycanlılar haqqında “əsl barbarlar”, “qan tökməkdə laqeyd” kimi irqçi ümumiləşdirmələr ehtiva edir. Bu ifadələr müəllifin və onun mənbələrinin qərəzini əks etdirir. Müqayisə üçün qeyd edək ki, həmin dövrdə Bakıda Azərbaycan mətbuatı (“Həyat”, “İrşad”), xeyriyyə cəmiyyətləri, məktəblər, teatr fəaliyyət göstərir, Ə. Topçubaşov, Ə. Ağaoğlu, H. Z. Tağıyev və başqaları hadisələrin dayandırılması üçün fəal çalışırdılar. — *Tərc.*

cinayətləri cəzalandırmaması onları bu inamda həvəsləndirmişdir. Balaxanı neft rayonu hədə-qorxu ilə pul qoparmaq məqsədilə torpağın ilk müsəlman sahibləri arasında sistemli şəkildə bölüşdürülmüşdür və şirkətlər bu bəlaya son qoymağın qeyri-mümkün olduğunu görmüşlər[68].

Cənab Emmanuel Nobel bəyan etmişdir ki, son iğtişaşın ilkin və əsas səbəbi neft mədənləri islahatı proqramının ləng irəliləməsindən narazılıq idi — bu məsələ qızğın mübahisələrə səbəb olmuşdur: bəziləri iddia edirlər ki, fəhlələrə verilmiş vədləri yerinə yetirməyənlər məhz bu nəzəriyyəni dəstəkləyənlərin bir qismidir.

* * *

Bakının və Qafqazın digər yerlərinin sənaye sisteminin altında qaynayan sirli irqi hərəkatların, siyasi düşmənçiliklərin və şəxsi qan davalarının çaşdırıcı çoxluğu üzündən bütün versiyaları ehtiyatla sitat gətirməyin zəruriliyini dərk edirəm. Həqiqətən də, başlanğıcın əsl sirrini heç vaxt dərk edə bilməyəcəyimdən ümidimi itirərək bu nəticəsiz və nankor vəzifəni Bakıdan indicə aldığım məktubdan aşağıdakı parçanı verməklə bitirirəm:

"Bu qırğınların sonunun nə olacağını heç kim qabaqcadan görə bilməz. Hətta dəstələri ən yaxşı tanıyanlar belə qırğınların məhz niyə və necə başladığını deyə bilmirlər və dediyim kimi, düşünmürəm ki, kimsə tayfaların bu böyük probleminin nəhayət necə həll ediləcəyini deyə bilsin. Mənim fikrimcə, deyə bilərəm ki, ümumi rəyə görə, davamlı sülh yalnız ya tatarların, ya da ermənilərin köçürülməsi ilə təmin edilə bilər. Lakin bunu necə etmək olar?"[69]

Buna yalnız onu əlavə etmək olar ki, hökumət və Qafqaz sənayesində çalışan ən yaxşı adamlar Bakının sənaye sistemi ilə əlaqədar bu tayfaları bir araya gətirmək problemini həll etməyə cəhd etmək kimi böyük bir vəzifə ilə məşğuldurlar.

* * *

İngilis oxucuları atışmanın həqiqətən necə başladığını başa düşə bilmələri üçün Babayev adlı varlı və populyar bir tatarın (qədim bir Qafqaz tayfasının başçısı və neft mədənlərinə çevrilmiş boş torpaqların sahibi) ölümünün hekayəsi danışılmalıdır. Bu adam günorta vaxtı Molokanski meydanından keçərkən ailə mübahisəsi olduğu qəddar bir erməni düşməni ilə üz-üzə gəldi. O, adamı vurub öldürdü. Meydanda çoxlu erməni var idi; onlar qaçıb gəlib təhdidedici vəziyyət aldılar, Babayev isə "Mən o adamı öldürdüm" deyərək özünü bir jandarmın nəzarətinə verdi. Tatarın sürdüyü bir faytonu çağırdılar — Bakı faytonlarının sahibləri də, sürücüləri də tatarlardır — və Babayevlə jandarm ona mindilər, lakin yerindən tərpənməmiş Babayev revolverdən sinəsindən yaralandı. Faytondan atılıb Qrand otel istiqamətində büdrəyə-büdrəyə getdi. Çoxlu erməni ona atəş açdı və o, güllələrlə dəlik-deşik olub yıxıldı. Qətl xəbəri polis tərəfindən tatar məhəlləsinə çatdırıldı[70]. Hadisə yerinə qaçıb gələn bir dəstə tatar meyiti götürdü və bir kortej düzəldib onu yasla deyil, intiqam üçün ən vəhşi qışqırıqlarla və "Ermənilər qalxıblar!" nidaları ilə apardılar. Babayevin meyiti Şamaxı küçəsindən keçirilərkən tatarlardan

---

[68] "Torpağın ilk müsəlman sahibləri" — Balaxanı, Sabunçu və digər kəndlərin neftli torpaqları XIX əsrdə dövlət tərəfindən icma torpaqları kimi tanınmamış və ya alınmışdı (bax: V fəsil); torpaq sahibliyi uğrunda mübahisələr sosial gərginliyin mühüm mənbəyi idi. Müəllifin bu məsələni "hədə-qorxu ilə pul qoparmaq" kimi təqdim etməsi birtərəflidir. — *Tərc.*

[69] Məktub müəllifinin "davamlı sülh yalnız ya tatarların, ya da ermənilərin köçürülməsi ilə təmin edilə bilər" fikri o dövrün bəzi avropalı müşahidəçilərinin baxışını əks etdirir. Müəllif bu fikirdən birbaşa uzaqlaşmır. — *Tərc.*

[70] Ermənilər bəyan edirlər ki, tatarları qiyama təhrik etmək üçün kortejin təşkilini polis həyata keçirmişdir.

bəziləri gənc bir erməni tələbəsinin başını güllə ilə dağıtdılar. Bir anda dəhşətə gəlmiş ermənilər evlərindən axın-axın çıxmağa başladılar və Babayevin meyiti gözdən itməzdən əvvəl onlardan təxminən otuzu küçələrdə vurulmuşdu[71].

Üç günlük qırğın belə başladı; bu qırğın Qafqaz irqi müharibəsinin salnaməsində yəqin ki, yadda qalacaq, lakin sentyabrda baş vermiş dəhşətli qırğınla müqayisə edilə bilməz. Onun haqqında Bakı şəhər başçısı demişdi: "Onlar özləri də bir-birini niyə öldürdüklərini bilmirlər."

Əvvəlcə tatarlar ermənilərin onlara hücum etdiyini deyirdilər, lakin qırğınlar bitdikdən sonra onların sinfinin ən yaxşı və ən nüfuzlu nümayəndələri ermənilərin nümayəndələri ilə görüşəndə bəyan etdilər ki, onları revolverlərini və xəncərlərini işə salmağa hakimiyyət təhrik etmiş və onların çoxunu tüfənglərlə təmin etmişdi[72]. Rəsmi ikiüzlülüyün ifşaları üzə çıxanda mən yazmışdım:

"Bakı qış qarlarından yayın isti günəşinə keçdi. Dəyişiklik qeyri-adi dərəcədə qəfil oldu. Lakin daha qəribəsi şəhərin insan qurbanları dövründən — 2 000 tatar və ermənin qırğınından[73] — ən qeyri-təbii sülh vəziyyətinə keçməsidir. Bu döyüşən dəstələr — dəhşətli tatarlar və daha hesablı, lakin daha az qəddar ermənilər[74] — qanlı işlərinə ara verib hakimiyyətin ikiüzlülüyünə heyrətlə baxırlar… Bu gün olmasa, sabah; sabah da olmasa, ilin sonuna qədər mütləq tayfaların yeni döyüşü olacaqdır."

Qabaqcadan dediyim sentyabrda doğru çıxdı. Yalnız döyüşün miqyasını hesablamaqda yanıldım.

* * *

Kiçik eyvanda (əvvəlki səhifədəki fotoşəkildə göstərilmiş)[75] fevral qırğınlarının ən həyəcanlı və faciəli hadisələrindən biri baş verdi. Bu, Adamovun dəhşətli üstünlüyə qarşı igid mübarizəsinin səhnəsi idi; onun düşmənləri onun və ev əhlinin hər bir üzvünün həyatına son qoymağa qərarlı olan bir tatar dəstəsi idi. O, elə böyük inad və qəhrəmanlıqla dramatik sona qədər vuruşdu ki, bu yer Bakını ziyarət edən ermənilər və Ermənistanın hər hansı dostu üçün həmişə cazibəli olmalıdır.

---

[71] Azərbaycan tarixşünaslığında fevral hadisələrinin bilavasitə başlanğıcı 1905-ci il fevralın 6-da tanınmış azərbaycanlı Babayevin erməni silahlıları tərəfindən öldürülməsi hesab olunur. Müəllifin verdiyi versiya — Babayevin əvvəlcə bir ermənini öldürməsi — mənbələrdə olan versiyalardan yalnız biridir və təsdiq olunmamışdır. Müəllif özü də qeyd edir ki, ermənilər onu jandarmın nəzarətində olarkən güllələmişlər. — *Tərc.*

[72] "Hakimiyyətin təhriki" barədə versiya erməni tərəfi və bir sıra rus liberal və sosial-demokrat dairələri tərəfindən geniş yayılmışdı. Bununla yanaşı, azərbaycanlı ziyalılar və rəsmi istintaq materialları erməni silahlı dəstələrinin əvvəlcədən hazırlığını və silahlanmasını da qeyd edirdi. Məsələ tarixşünaslıqda mübahisəli olaraq qalır. — *Tərc.*

[73] 1905-ci il fevral hadisələrində həlak olanların sayı haqqında məlumatlar mənbələrdə kəskin fərqlənir; müəllifin göstərdiyi 2 000 rəqəmi ən yüksək təxminlərdəndir və rəsmi məlumatlarla təsdiq olunmur. Hər iki tərəfdən çoxlu dinc sakin həlak olmuşdu. — *Tərc.*

[74] "Dəhşətli tatarlar və daha hesablı, lakin daha az qəddar ermənilər" — müəllifin bir xalqı "qəddar", digərini isə "daha az qəddar" kimi səciyyələndirən qərəzli, stereotip ifadəsidir. Bu fəsildə müəllifin özünün təsvir etdiyi hadisələr (məsələn, Adamovun qırx nəfəri öldürməsi, Parapetdəki pusqu, erməni yeniyetmələrinin qətlləri) zorakılığın hər iki tərəfdən olduğunu göstərir. — *Tərc.*

[75] Kitabdakı şəklin altındakı yazı: "Adamovların evi (sakinlərin qətlindən iki gün sonra çəkilmiş fotoşəkildən). Adamov tatarlarla üç gün soldakı kiçik eyvandan vuruşmuşdur. Adamov öldürülməzdən bir neçə ay əvvəl onun qardaşı, o da varlı erməni və şəhərin aparıcı neftçilərindən biri, ictimai bağda güllələnib öldürülmüş və meyiti təhqir edilmişdi. Adamovların məhv edilməsi qırğınlar tarixinin ən həyəcanlı fəsillərindən biridir." — *Tərc.*



Adamovların evi (sakinlərin qətlindən iki gün sonra çəkilmiş fotoşəkildən). Adamov tatarlarla üç gün soldakı kiçik eyvandan vuruşmuşdur. Adamov öldürülməzdən bir neçə ay əvvəl onun qardaşı, o da varlı erməni və şəhərin aparıcı neftçilərindən biri, ictimai bağda güllələnib öldürülmüş və meyiti təhqir edilmişdi. Adamovların məhv edilməsi qırğınlar tarixinin ən həyəcanlı fəsillərindən biridir.

Adamov Bakının ən mahir atıcısı, neft işi ilə məşğul olan ən varlı ermənilərdən biri idi və Armyanskaya küçəsindəki iqamətgahı Şərq bəzəklərinin əzəməti baxımından şəhərin saraylarından biri idi. O, üç günlük mühasirəyə tab gətirdi və son gün küçənin tinində ölülər qalağı yaratmış qırx tatardan az olmayan adamı güllələdi.

Hadisə onun bir tatarı vurması ilə başladı; bundan sonra onun yeganə ümidi kazaklar peyda olana qədər evini və adamlarını uğurla müdafiə etmək idi. Onun himayəsindəki qırx nəfər qətiyyətli müdafiəyə hazırlaşdı. Onlar tatarları üçüncü günə qədər uzaqda saxladılar. Həmin günün səhəri o, eyvanda mövqe tutdu və ilk atəş açılan kimi silahı — güclü təkrar atışlı "Vinçester" — tatarlar arasında ölümcül işini görməyə başladı. Oğlu ona doldurulmuş silahlar verirdi. Diqqətəlayiq faktdır ki, onun qurbanlarının çoxu gözlərinin arasından vurulmuşdu; bir tatar görünən kimi həmişə ayıq olan erməni ölümcül nişan alırdı.

İgid erməni adamları bir-birinin ardınca yerə sərərkən bir neçə tatar bir neft dükanına basqın etdi, başqaları isə küçə fənərlərindən böyük miqdarda neft götürdü. Böyük miqdarda neft

və samanla evə qayıdıb ön qapını sındırdılar, dəhlizi kerosinə batırılmış samanla doldurdular və yanğın saldılar. Məhz bu məqamda Adamov başından yaralandı. O, geri çəkildi, lakin beş dəqiqədən sonra başı kətanla sarınmış halda və dəhşətli mühasirənin başlanğıcındakından heç də az ölümcül olmayan nişanla qayıtdı. Onun yenidən görünəcəyini gözləməyən bir neçə tatar küçədən çıxa bilməmiş vurulub öldürüldü. Alov yavaş-yavaş evin ön tərəfi ilə yuxarı qalxırdı, lakin onun sadiq silahları heç vaxt susmurdu. On yeddi yaşlı oğlu atasının yanında mövqe tutdu; lakin dərhal tatarlar tərəfindən vuruldu və eyvandan küçəyə yıxıldı. Çiynindən yaralanan mahir atıcı tüfəngini eyvanın məhəccərinə saldı, lakin ümidsizliyin cəsarəti ilə güclənərək və həyatını daha baha satmağa qərarlı olaraq atəşi davam etdirdi. Hərəkətləri yavaşladıqca tatarlar daha da cəsarətləndi və nəhayət o, onu eyvanda yerə sərən ölümcül yara aldı. Bu, tatarların evin alov içində olmayan aşağı hissələrinə vəhşi qəzəblə hücum etməsi üçün işarə oldu. Zirzəmilərdə doqquz kişi və on bir qadın tapdılar. Kişilər küçəyə sürüklənib qətlə yetirildi, qadınlar isə aparıldı.

Bu dəhşətli faciənin son səhnəsi Adamovun sevimli xidmətçilərindən biri olan qoca bir qadının quldurların qarşısında diz çöküb hələ evdə olan oğlunun həyatını bağışlamaq üçün yalvardığı an oldu. Qadın bunu edərkən tatarların istehzalı sözlərini eşidən oğul, görünür, anasının onun həyatı üçün yalvarmasından utanaraq cəsarətlə onların arasına addımladı və Sezar kimi başını kiçik xalatı ilə örtüb ölümünü gözlədi. Oğlunu tanıyan ana başını yanan evin divarına çırpıb yıxıldı, yeni qurbanın gəlişindən sevinclə qışqıran kütlə isə dərhal oğlanı parça-parça etdi. Bu, ana yanaraq ölərkən edildi.

Binadan çıxarılmış meyitlərin polis qeydi göstərir ki, qırx qurban var idi; başqa sözlə, ev əhlinin hər bir üzvü ya güllələnmiş, ya da yanaraq ölmüşdü. Adamov dəhşətli intiqam aldı; o, ev əhlinin hər bir üzvünün həyatı üçün bir tatarın həyatını aldı — qanlı, lakin parlaq bir son; şəhərdəki Britaniya koloniyası və ruslar onu çox tərifləsələr[76].

İgid erməni Adamov bir neft şirkətinə adını vermişdi; ölümü ilə o, Qafqaz tarixində yaşamalı və o qədim və məzlum xalqın — Ermənistanın — hər bir dostu tərəfindən hörmət edilməli olan bir ad qoyub getdi.

Başqa bir iyrənc vəhşilik Lalayev ailəsinin və onun himayəsindəki adamların qətli idi. Öldürülmüş ailə başçısı amansız bir mülkədar kimi tanınırdı və tatarların nifrətini qazanmışdı. Onun tamahkarlığı haqqında çoxlu hekayələr danışılırdı. Tatarlar onun evinə hücum etməyə başlayanda o, kömək üçün qubernatora telefon etdi. Kömək vəd edildi, lakin verilmədi. İgid Adamov kimi o da həyatını baha satmağa qərar verdi və görünən bütün tatarlara dəfələrlə atəş açdı. Onun xidmətində üç sadiq kişi xidmətçi var idi və onlar tatarları uzaqda saxlayan atıcılıq məharəti nümayiş etdirərək üç günlük mühasirəyə tab gətirməyə ona kömək etdilər. Üçüncü günün gecəsinə qədər davam edən mühasirə zamanı şəhərdə bir-birinin ardınca yanğınlar başladı. Sursatının tükəndiyini görən və tatarların evinə od vuracağından qorxan o, Sakuzova adlı varlı bir xanıma telefon edib onun xeyrinə qubernator yanında nüfuzundan istifadə etməsi üçün yalvardı. Xanım tanınmış Bakı–London neft firmasının erməni üzvünə telefon etdi, o da

[76] Müəllif burada qırx nəfərin öldürülməsini “parlaq son” adlandırır və onun “Britaniya koloniyası tərəfindən tərifləsələrməsini” qeyd edir. Adamovun öldürdüyü adamların kimliyi, onların arasında dinc sakinlərin olub-olmaması barədə heç bir məlumat verilmir. Bu epizod yalnız erməni tərəfin rəvayətinə əsaslanır; müəllif həmin günlərdə öldürülmüş azərbaycanlı ailələrin taleyini heç bir yerdə belə ətraflı təsvir etmir. — *Tərc.*

mühasirədəki ev əhlinə kömək göndərmək üçün qubernatora müraciət etdi. Yalnız ertəsi gün qubernator atla evə gəldi, lakin evi alov içində, Lalayevin, arvadının və digər qurbanların meyitlərini isə küçədə uzanmış tapdı.

Onun sonu dramatik oldu. Sursatı tükənəndə evə od vuruldu. O, ailəsi ilə gizli bir zirzəmidə sığınacaq axtardı. Tatarlar içəri soxulanda evini müdafiə etməyə ona kömək etmiş xidmətçilərdən ikisini öldürdülər. Üçüncüsü öldürülmədi və ondan ermənin və ailəsinin harada olduğunu tələb etdilər. İşgəncə verildikdən sonra adam son nəfəsində ölümcül sirri az qala açdı.

Lalayev, arvadı, qoca əmisi, qızı və qardaşı oğlu evdən sürüklənib çıxarıldı. Əmi və qardaşı oğlu zirzəmidə öldürüldü, Lalayev isə arvadı və qızı ilə küçəyə çıxarıldı. Tatarlar qadınlara Lalayevi buraxmağı əmr etdilər. Şəhərdə qeyri-adi gözəlliyi ilə məşhur olan arvadı qollarını ərinin boynuna doladı, kütlədən onu buraxmağı yalvardı və başçılara onun həyatı üçün 10 000 rubl təklif etdi. Ər və arvad güllələrlə dəlik-deşik olub birlikdə öldülər. Valideynlərinin öldürüldüyünü görən qızları kütlənin arasına atıldı, lakin bir quldur onu qucağına alıb apardı.

Bəzi vəhşilikləri təsvir etməzdən əvvəl deyim ki, ölmüş tatara yalnız tatar toxuna bilər, ölməkdə olan tatar isə hətta ölüm anında da özünü çömbəlmiş vəziyyətə qaldırmağa çalışır. Tatarlar ölmüş müsəlmanları küçələrdən sürüyüb aparmaqdan nadir hallarda geri qalırlar və bu, Qafqazdakı döyüşlər zamanı döyüş yerinin yaxınlığında çox az ölü tatarın uzun müddət qalmasını izah edir[77].

Qubernator baş molla Şeyxülislam və erməni yepiskopu ilə birlikdə sülh elan edərək küçələri gəzən kimi bütün ölülər çıxarılıb cərgə ilə düzüldü — həm tatarın, həm də ermənin qol-qola qoşulub rəqs etdiyi “sülh” şənliklərinin səssiz şahidləri. Bu, faktdır.

* * *

İcazə verin, ayrı-ayrı qətl hallarını təsvir edim. Neft birjasının yaxınlığında dörd tatar Qorçakovskaya küçəsi ilə faytonda gəlib iki qrup ermənіyə atəş açdı və onlardan dördünü öldürdü. Qatillər 200 yard getməmiş onlardan üçü sürücüləri ilə birlikdə ermənilər tərəfindən vuruldu. İşə gedən gənc bir ingilis bir erməni yeniyetməsinin törətdiyi son dərəcə soyuqqanlı bir qətlin şahidi oldu. Bu yeniyetmə ingilisi kənara itələyərək bir tatarı kürəyindən vurdu. Bir anda gənc qatil başqa bir tatar tərəfindən vuruldu. Dəhşətli qırğında hələ uşaq olanlar da iştirak edirdi. Eyvandan atəş açan bir erməni oğlanı bir tatarı vurdu, lakin onu öldürmədiyini görüb küçəyə düşdü və qurbanına ikinci güllə vurdu. Küçələrdəki dəhşətli səhnələrin nə sürətlə dəyişdiyini göstərmək üçün deyə bilərəm ki, bu qatil qurbanını tərk etmək üçün dönərkən iki tatar suçusu üstünə atılıb onu parça-parça etdilər.

Faciəli bir hadisə də oldu: bir ata həmvətənlərinə kömək etmək üçün dama çıxmazdan əvvəl oğlunu meyvə dükanında bağlı qoymuşdu. Ata təxminən üç gün damdan düşə bilmədi və düşəndə dükanını toxunulmamış və hələ də çöldən bağlı tapdı, lakin oğlu ölmüşdü: qapının çatından atılmış güllə onun ürəyinə dəymişdi.

---

[77] Bu “etnoqrafik” qeyd müəllifin özünün müşahidəsi deyil və heç bir mənbəyə əsaslanmır. İslam adətlərinə görə meyitin tez dəfn edilməsi və onu yaxınlarının götürməsi təbiidir; bunun “ölü tatarların az görünməsi” ilə izahı, mətnin kontekstində, azərbaycanlıların itkilərinin az göstərilməsinə xidmət edir. — *Tərc.*

Ağbəniz gənc bir erməni ingilis kepkası geyib taxta qəlyan çəkərək özünü ingilis kimi qələmə verirdi. Evinin yaxınlığında tatarlar onun maskasını sezib atəş açdılar, lakin vura bilmədilər və o, qaçıb qurtardı.

Döyüşlərin üç gün davam etdiyi Parapetdə təxminən 100 tatar və erməni, hər tərəfdən əlli nəfər, toqquşdu; revolverlər və xəncərlər işə düşdü və nəticələr ən dəhşətli oldu. Ermənilər tatarları öz məhəllələrinə doğru çəkdilər, bu zaman onlardan bəziləri tatarların arxasına keçdi və nəticədə demək olar ki, heç kim xilas olmadı. On beş dəqiqədən sonra küçədə bir canlı da yox idi, lakin doxsan meyit qalmışdı. Bu küçədə başqa döyüşlər də oldu və çoxlu tatar və erməni ölülərini aparmağa cəhd edərkən vuruldu.

Baş verənlərin hər hansı təsviri kazakların oynadığı rola istinad edilmədən natamam olardı. Bu əsgərlər xalqı müstəsna qəddarlıq şəraitində soyurdular və məlumdur ki, qaçan ermənіləri onları təqib edənlər atəş açmaq üçün kifayət qədər yaxınlaşana qədər saxlayırdılar. Onların ermənilərə kömək etmək üçün pul tələb etdiyi minlərlə hal olmuşdur və hətta hərbi vəziyyət elan ediləndə belə onların pasportları cırıb sahiblərini soyduqları məlum idi.

Bu, bir ay əvvələ qədər Qafqaz iğtişaşları salnaməsində tayı olmadığı düşünülən fevral vəhşiliklərinin qısa və natamam siyahısıdır. İndi biz bilirik ki, sentyabrdakı dəhşətli tayfalararası mübarizələr zamanı vəhşiliklər, zorakılıqlar və həyatın və əmlakın kütləvi məhvi onların ən dəhşətli cizgilərini, əgər bu mümkündürsə, daha az dəhşətli göstərmişdir.

XIV fəsil. Bakıda “Şaxsey-vaxsey”

Cənab Herbert Kokson və molokanlar — Əli ibn Əbu Talibin yüksəlişi — 656-cı ildə xəlifə seçilməsi — 661-ci ildə fanatiklər tərəfindən öldürülməsi — Əlinin nəsli xilafət uğrunda mübarizə aparır — Beşinci xəlifə Həsən arvadlarından biri tərəfindən zəhərlənir — Şiələrin tarixi — Əlinin ikinci oğlu Hüseyn — Bakıda “Şaxsey-vaxsey” mərasimləri — “Baş yarma” günü — Uşaq iştirakçılar — Gənclər özlərini zəncirlə döyür, ağ libaslı kişilər isə başlarını xəncərlə yarırlar — Səndələyən, qana bulaşmış fiqurlar.

Müsəlmanların “Şaxsey-vaxsey” mərasiminin Qafqaz variantının təsvir edildiyi heç bir ingilis əsəri yoxdur[78]. Bu, fanatik iştirakçıların özlərini yarıb kəsdiyi və başqa yollarla şikəst etdiyi bir müsəlman mərasimidir. Qafqazdakı ingilislər onu “The Chucksee Wucksee” kimi tanıyırlar. İyirmi il əvvəl cənab Herbert Kokson (Nyukasl-on-Tayn) Şərqə xalça almaq üçün səfəri haqqındakı hekayəsində üzvləri özlərini şikəst edən qəribə bir rus təriqətindən — molokanlardan bəhs etmişdi. “Onlar, — deyir o, — Bakıda güclü təmsil olunurlar və çörəkçilik işi ilə məşğul olduqları bütöv bir küçələri var.”[79] Qafqazın irqi və dini mövzularına aid ingilis əsərində tapa bildiyim yeganə istinad budur.

[78] “Şaxsey-vaxsey” (“Şah Hüseyn, vay Hüseyn” nidasından) — şiə müsəlmanların məhərrəm ayında İmam Hüseynin Kərbəlada şəhadətinin xatirəsinə keçirdikləri matəm mərasimlərinin (aşura, təziyə) xalq arasında adı. Özünü zəncirlə döymək və baş yarmaq (qəmə vurmaq) bu mərasimlərin ifrat formaları idi; şiə din alimlərinin bir hissəsi bu adətləri qəbul etmirdi və XX əsrdə onlar Azərbaycanda və şiə dünyasının əksər yerlərində tədricən tərk edilmiş, bir çox müctəhidlər tərəfindən qadağan edilmişdir. Müəllifin “fanatizm” kimi təqdim etdiyi mərasim xalqın dini matəm ənənəsidir. — *Tərc.*

[79] Molokanlar özünü şikəst etmə ilə məşğul olmayan rus dini təriqətidir (süd içdikləri üçün belə adlanırlar); özünü şikəst etmə (axtalanma) “skoplar” təriqətinə aid idi. Koksonun məlumatı, yaxud müəllifin onu nəqli səhvdir. — *Tərc.*





“Şaxsey-vaxsey” özünüyaralama mərasimindən səhnələr

Mərasimi fevral qırğınlarından düz üç həftə sonra Bakıda müşahidə edəndə onun mənşəyi və xarakteri haqqında bəzi məlumat toplamağa nail oldum. Bunu indi ilk dəfə dərc edirəm və bununla yanaşı, dini fanatizmin qeyri-adi nümayişi kimi qəbul ediləcəyini düşündüyüm şeyə dair öz təəssüratlarımı da verirəm. Əsas şəxslərin hekayəsini danışmaq asandır.

Peyğəmbərin ardıcıllarının ən sadiqi və ən cəsuru Əli ibn Əbu Talib (Məhəmmədin əmisi oğlu və onun qızı Fatimədən kürəkəni)[80] eramızın 600-cü ilində Məkkədə anadan olmuşdur. 656-cı ildə Osman öldürüldükdə Əli xəlifə seçildi, lakin hamının razılığı ilə deyil. O, daim üsyançılarla müharibə aparırdı. Bir müddət uğur qazansa da, sonda üsyançılar üstünlük qazanmağa başladılar. 661-ci il yanvarın 22-də ona üç fanatik hücum etdi və o, aldığı çoxlu yaralardan iki gün sonra öldü. Şücaət, fəzilət və təqvada o, müasirləri arasında birinci yerdə dururdu. Peyğəmbərin kürəkəni olduğu üçün ardıcılları onu peyğəmbərin qanuni varisi hesab edirdilər və İslamın legitimistləri əsrlər boyu xilafəti onun varisləri — Ələvilər üçün tələb etməkdə israr edirdilər. Üsyanlar xilafətin varlığı üçün təhlükəyə çevrildi, çünki farslar milli

[80] Əli Məhəmmədin əmisi oğlu idi; mətndə “qardaşı oğlu” (nephew) yazılmışdır. — *Tərc.*

səbəblərə görə ərəbçiliyə müxalifətlərində legitimizm prinsipindən öz məqsədlərinə çatmaq vasitəsi kimi istifadə etməyə başlamışdılar. İranda Əliyə ehtiram hissi bir kulta çevrilmişdir və bəzi yerlərdə o, hətta Məhəmmədi kölgədə qoyur. Əlinin nəsilləri (şəriflər, yəni əsilzadələr) hələ də Mərakeşdə, Məkkədə və Cənubi Ərəbistanda hökm sürürlər və onun Kufədəki qəbrini çoxlu şiə zəvvarları ziyarət edir[81].

Beşinci xəlifə və Fatimənin (Məhəmmədin qızının) və Əlinin böyük oğlu Həsən atasının yerinə keçdi, lakin cəmi altı aya yaxın hökm sürdü, sonra Müaviyənin ölümündən sonra yenidən vəzifəyə qayıtmaq şərtilə Əməvilər sülaləsinin banisi Müaviyənin xeyrinə taxtdan imtina etdi. Həsən Müaviyənin oğlu Yezidin təhriki ilə arvadlarından biri tərəfindən zəhərləndi. Şiə təfriqəsi belə başladı[82].

Şiə adı "təriqət" mənasını verən ərəbcə "şiə" sözündən götürülmüşdür. Şiələr inanırlar ki, Məhəmmədin kürəkəni Əli peyğəmbərin qanuni varisi idi və bu səbəbdən onun xatirəsinə tamamilə fanatik ehtiram göstərirlər. Onlara görə, ilk üç xəlifə — Əbu Bəkr, Ömər və Osman qəsbkar idilər və onların dini təcrübəsinin əsas hissəsi bu hökmdarların xatirəsini lənətləmək və pisləməkdir. Bu xəlifələr ortodoks müsəlmanlar (sünnilər) tərəfindən böyük ehtiramla qarşılandığından rəqib təriqətlər arasındakı düşmənçilik mümkün qədər şiddətli xarakter daşıyır və əsrlər boyu bir sıra dəhşətli döyüşlərə səbəb olmuşdur. Əli və onun iki oğlu öldürüldüyü üçün şiələr sünnilərdən intiqam almağı dini borc hesab edirlər[83]. İran şiələrin qalasıdır; onlar Orta Asiyada və Hindistanda da var və ümumilikdə təxminən 18 000 000 nəfərdir.

Əli və Fatimənin ikinci oğlu Hüseyn qardaşı Həsənin ölümündən sonra şiələr tərəfindən xəlifəliyin qanuni varisi sayılırdı. Müaviyənin ölümündən sonra (680) Hüseyn I Yezidə qarşı iddiasını həyata keçirməyə cəhd etdi, lakin həmin il oktyabrın 10-da Fərat yaxınlığındakı Kərbələda Yezidin qoşunları tərəfindən məğlub edilib öldürüldü. Onun öldüyü yer (Kərbəla, Məşhəd yaxınlığında)[84] sonradan zəvvarların çox ziyarət etdiyi bir yerə çevrildi, ölüm tarixi (məhərrəmin 10-u) isə İranda hələ də matəm günü sayılır və mərasimlər onun bədbəxt sonunun teatral təqdimatı xarakterini daşıyır.

Həsənin və qardaşı Hüseynin şəhadəti şiələr tərəfindən hər il məhərrəm ayının ilk on günü ərzində qeyd edilir (ərəbcə "qadağan olunmuş" mənasını verir və İslamdan əvvəlki Ərəbistanda bu ayda müharibənin qadağan olunduğuna işarə edir). Məhərrəm müsəlman qəməri ilinin birinci ayıdır və şiələr tərəfindən öz milli müqəddəsləri İmam Hüseynin xatirəsinə tövbə və matəm dövrü kimi saxlanılır.

Şiələr Əlidən başlayıb sirli şəkildə qeyb olmuş və möminlərin hələ də qayıtmasını gözlədikləri Mehdi ilə bitən on iki imam silsiləsinə sadiqdirlər. Bu arada onlar dini və hüquqi

---

[81] İmam Əlinin məzarı Kufə yaxınlığındakı Nəcəfdədir. — *Tərc.*

[82] Həsən ibn Əlinin zəhərlənməsi əksər mənbələrdə Yezidin deyil, Müaviyənin təhriki ilə arvadı Cədə bint Əş'əsə aid edilir; şiə–sünni ayrılığının başlanğıcı isə Peyğəmbərin vəfatından sonrakı varislik məsələsinə gedib çıxır. — *Tərc.*

[83] "Şiələrin dini təcrübəsinin əsas hissəsi ilk üç xəlifəni lənətləməkdir" və "sünnilərdən intiqam almağı dini borc hesab edirlər" iddiaları ümumiləşdirici və yanlışdır; bu cür təsvirlər Avropa ədəbiyyatında İslam haqqında geniş yayılmış stereotiplər idi. Qafqazda şiə və sünni müsəlmanlar əsrlər boyu yanaşı yaşamışlar. — *Tərc.*

[84] Kərbəla İraqda, Fərat çayının yaxınlığındadır; Məşhəd isə İranın şimal-şərqində yerləşir və İmam Rzanın məzarı ilə tanınır. — *Tərc.*

hökmləri sünnilərin, dörd ortodoks sünni məzhəbinin baniləri istisna olmaqla, tanımadığı bir nüfuzlu şəxslər sinfi olan müctəhidlərdən alırlar.

Bacardığım qədər danışa bildiyim "Şaxsey-vaxsey" mərasiminin mənşəyinin hekayəsi budur.

Bu il Bakıda, neft mədənlərində və ətraf kəndlərdə mərasimlər həmişəkindən daha təmtəraqlı idi. Bunun bir neçə səbəbi var idi. Onlar fevral qırğınlarından iki həftə sonra keçirildi və bu, onların müasir Bakının ictimai küçələrində ilk dəfə keçirilməsi idi. Hakimiyyət əhalinin müsəlman hissəsinin xoşuna gəlmək ümidi ilə açıq havada çoxlu sayda mərasim keçirilməsinə icazə verdi.

Mərasimlər küçə yürüşləri ilə başlayıb son gün ən vəhşi mərasimlər və özünü şikəst etmə ilə bitərək on gündən az olmayan bir dövrü əhatə edirdi.

"Baş yarma" günü səhər tezdən şəhərin müsəlman ticarət məhəllələrindən birinə getdim; səkkizlə doqquz arasında hər yerdə küçələri tatarlar, farslar və ruslarla dolu gördüm. Görünür, müsəlmanlar üçün ümumi bayram elan edilmişdi. Bakını ən yaxşı tanıyanlar mənə dedilər ki, küçələrdə heç vaxt bu qədər çox örtülü müsəlman qadın görməmişdilər. Kəfənəbənzər toz örtüklərində olan bu qadınlar mərasimlər üçün hakimiyyət tərəfindən xüsusi seçilmiş və maneələrlə əhatə edilmiş küçələrə baxan evlərin düz damlarında izdiham halında oturmuşdular.

Mərasimlər eyni vaxtda iyirmi yerdə başladı. Müşahidə etdiyim mərasim təmtəraqlı miqyasda keçirilirdi və mən onu əvvəldən axıra qədər bir evin damından seyr etdim. O, qara məxmərlə bəzədilmiş və sirk yəhərinə bənzər quruluş daşıyan iki atın küçənin başından yavaş-yavaş gətirilməsi ilə başladı. Bu atlar şəhid imamları daşımış müqəddəs heyvanları təmsil edirdi. Onları minmir, yedəkdə aparırdılar, baxmayaraq ki, mənə dedilər ki, adətən heyvanlardan birini bir oğlan minir; oğlan çalmasından keçirilmiş qısa qılıncın dəstəyini tutur — zərbə o qədər real, gənc atlının üzündəki əzab ifadəsi isə o qədər dəhşətli dərəcədə həqiqi görünür ki, adam qılıncın alnından keçirildiyini düşünə bilər.

Arxadakı kütlənin kədərli fəryadlarından hürkən atlardan biri Əlinin ardıcıllarından bəzilərini təpiklədi və onu yürüşdən çıxarmaq lazım gəldi; digəri İngilis Atlı Qvardiyasının tanış təbil daşıyan atının bütün yavaş əzəməti ilə yürüşü küçə boyunca bir dəfə yuxarı aparıb geri qayıtdı, sonra onu da çıxardılar.

Bütün bu müddət ərzində kişilər kiçik dəstələrlə küçələrdə hərəkət edir, dini bayraqlar və olduqca rəngarəng əşyalar daşıyan başçıların kiçik yürüşünün ardınca gedir, sinələrinə döyür və kədərlə "Şaxsey-vaxsey" (ingiliscə tələffüzlə) deyə qışqırırdılar[85].

Başqaları diräklərlə, xərək kimi daşınan qutudan konfeti götürüb ətrafa toplaşan adamların üzərinə səpirdilər. [Matəm tutanlar] özlərini daha da şiddətlə döyür və dəhşətli əzab çəkməyin mümkün olan hər əlamətini göstərirdilər. Qara libaslı fiqurlardan ibarət bir cərgə təbilin müntəzəm döyüntüsünə ayaq uyduraraq ritmik şəkildə yolun bir tərəfi ilə aşağı, o biri tərəfi ilə yuxarı yırğalanırdı. Bu dəstənin arxasında iki gənc hərəkət edirdi; onlar çiyinlərindən aşırdıqları zəncirlərlə öz kürəklərini döyür və uca səslə "Şaxsey-vaxsey" sözlərini oxuyurdular. Zəncirlər kobud düzəldilmiş təbilin hər döyüntüsündə əti döyür və kəsirdi. Peyğəmbərin

[85] Mətndə "Chucksee Wucksee"; bu, "Şah Hüseyn, vay Hüseyn" nidasının ingiliscə təhrif olunmuş qeydidir. — *Tərc.*

yeniyetmə ardıcılları çılpaq sinələrinə döyürdülər və on gün hər səhər bunu etdiklərindən ət qırmızı, bəzi hallarda isə əzilmiş və qanlı idi.





Özünüyaralama mərasimi

Adi bir həyətdən qara və qırmızı libaslı fiqurlardan ibarət yeni cərgələr çıxarıldı, lakin özlərini kəsməklə tövbə etməli olan “ağ adamlar” görünənə qədər inilti qəzəbli bir uğultuya çevrilmədi və “Şaxsey-vaxsey” sözləri dəhşətli vurğu ilə qışqırılmadı. Adi paltar və kənarsız keçə papaq geymiş bir neçə güclü kişidən ibarət rəhbərlər libaslı fiqurlara ehtiraslı dillə və çoxlu teatral jestlərlə müraciət edirdilər. Bunun ardınca kişilər fəryad edir, hönkürür və özlərini şiddətlə döyürdülər. Təxminən bir saatın sonunda əsas ifaçılar — ağ geyinmiş və yalnız özlərini kəsən adamlar — ikinci dəfə çıxdılar. Bir cərgədə hərəkət edərək, təbilin döyüntüsünə uyğun irəli-geri yırğalanaraq və daha uca “Şaxsey-vaxsey” qışqırıqları ilə onlar küçənin bir tərəfi ilə sürətlə aşağı keçdilər. O biri tərəflə yuxarı gələndə mərasim başçıları bir dəstə xəncər daşıyaraq bu ağ geyimli adamların yanında gedir və qışqıraraq onları daha vəhşi hərəkətlərə sövq edərək onları baxması dəhşətli olan bir coşğu halına salırdılar. Onlar dəhşətli xəncərləri ifaçıların əlinə verdilər və məhz bu silahlarla onlar başlarını yarmağa başladılar. Hər adam xəncəri əlində tutaraq onu qabağa qaldırıb başının təpəsinə endirirdi. Demək olar ki, hər zərbədə qan fışqırır və tezliklə adamlar bir-birinin ardınca səndələyən, qana bulaşmış fiqurlara çevrilirdi. Çoxları özlərini vurmaq üçün həddindən artıq zəiflədi və qan itkisindən huşunu itirərək üzüstə yıxıldı və onlara silah vermiş adamlar tərəfindən ya sürüklənib, ya da qolundan tutulub aparıldılar.

Mənə dedilər ki, mərasimlərdə, xüsusən Keşlədə* və Balaxanı neft mədənlərində adamlar başlarını yarır və ölümcül yaralar vururdular. Özlərini ən vəhşicəsinə kəsənlərdən bəziləri varlı müsəlmanların günahlarını yuyurdular. Varlı günahkarların onlara ödədiyi pulu onlar ruhanilərlə bölüşürdülər[86].

[86] Mərasimlərdə “ölümcül yaralar” vurulması və “varlı günahkarların pul ödəməsi” barədə məlumatlar müəllifə “deyilmişdir” və yoxlanılmamış şayiələrdir. — *Tərc.*



Küçələrdə güllələnib öldürülənlər. Teleqraf dirəyinə ən yaxın adamın əlində revolver var.



Lal qurban

* Balaxanıya gedən səyyahın yolüstü keçdiyi çirkli kiçik tatar kəndi olan Keşlədəki bayramlar özünü şikəst etmənin miqdarına görə bütün tatar dünyasında məşhurdur. Bunun niyə belə olması, bir növ, Keşlənin Qafqazın ən çox cinayətə bulaşmış yerlərindən biri olması ilə izah olunur. Əhalinin əsas hissəsi neft kəməri oğrularından — Balaxanıdan Bakıdakı neftayırma zavodlarına çəkilmiş boru kəmərlərini deşən və dəfələrlə boru kəməri gözətçisi kimi işə götürülməkdən imtina etmiş adamlardan ibarətdir[87].

[87] Keşlə kəndinin bütün əhalisinin "neft kəməri oğruları", kəndin isə "çirkli" və "Qafqazın ən çox cinayətə bulaşmış yerlərindən biri" kimi təqdim edilməsi heç bir mənbə ilə əsaslandırılmayan, təhqiramiz ümumiləşdirmədir. — *Tərc.*

XV fəsil. Sentyabrda Bakı

Şuşanın nümunəsi — Xarabalıqlarda Şuşa — Bakı silahlanır — Əsgərlər və tramvay tətilçiləri — Kiçik atışmalar günü — "Qara yüzlük" — Tatar məhəlləsinin təsviri — İlk qurban, müsəlman dükançı — Erməni gözətçiləri — Aman verilmir; "gözə göz" — Neft mədənləri alov içində.

"Milyonlarla funt sterlinq tüstüyə və külə çevrilmiş və minlərlə fars, türk, gürcü, erməni və rus təbəəsi ya güllə, bıçaq, yaxud məşəldən həyatını itirmiş, ya da ömürlük şikəst olmuş və ya yaralanmışdır."[88]

"Qırğınlar haqqında məlumatlar natamam olsa da, iyrənc qəddarlıq — onun çoxu əxlaqi səbəblərə görə təsvirəgəlməzdir — və şeytani xəyanət baxımından baş verənlərin Qafqaz müharibəsi və inqilabı salnaməsində tayı olmadığını sübut etmək üçün kifayət qədər dolğun və uzundur. Bu böyük qan-qırmızı mənzərədə bir işıq şüası da var: onu cəngavərliyin və insan cəsarətinin Qafqazın bu qana bulaşmış yerlərini tərk etmədiyini göstərən çoxlu qəhrəmanlıq hərəkətləri yaradır… Qəhrəmanlıq hərəkətləri? Bəli, çoxlu, çünki hətta neft mədənlərində də yüksək Qərb ideallarına layiq qəhrəmanlar var."[89]

Qırğın dəhşətli idi; onu təsvir etmək mümkün deyildi və sensasiyalı və teatral şeylər uydurmağa ən az meylli olanlar belə qırğınların dəhşətli miqyasını inkar edə bilməzlər. Bu dəhşətlər ayını həddindən artıq tünd rənglərlə təsvir etmək arzum yoxdur; mənim hekayəm, bu ölkədə dərc olunmuşların ən dolğunu ola bilsə də, çoxu senzuradan keçmiş rus məlumatlarının ciddi xülasəsindən başqa bir şey deyil; ona şahidlərin məktublarından parçalar əlavə olunmuşdur[90].

Bəziləri deyir ki, Bakıda xalqlar müharibəsini Şuşa[91] başlatdı. Bakıya şayiə çatmışdı ki, Şuşada ermənilər üstünlük qazanıblar və müsəlmanları intiqam almağa çağırırdılar. Ermənilər

---

[88] "Morning Post".

[89] C. D. H., "Daily News"də.

[90] Müəllif burada etiraf edir ki, sentyabr hadisələrinin şahidi olmamışdır və onun təsviri rus məlumatlarının və şahid məktublarının xülasəsidir. — *Tərc.*

[91] Xarabalıqlarda olan Şuşa vadinin üzərində asılmış bir terrasda yerləşir və arxası ətəyindən iki kiçik çay axan bir dağa söykənir. Şəhərin qədim hissəsi divarlarla qorunur və bu divarlarda üç qapı var — biri Yelizavetpola, digəri Şamaxıya, üçüncüsü Gorusa və Naxçıvana aparır. XVI əsrdə, Qarabağ xanlığının paytaxtı olanda, onu farslar və türklər mühasirəyə almışlar. Ruslar onu 1805-ci ildə tutmuşlar; on səkkiz il sonra onu "birləşdirmişlər". Şuşa müsəlmanları bütün Qafqazda fanatizmləri ilə tanınırlar və Hüseyn və Əlinin şərəfinə keçirilən bayramlar zamanı bu kiçik yerdə Qafqazın demək olar ki, hər hansı başqa yerindən daha çox özünü şikəst etmə olur. Şuşa döymə və filiqran gümüş işləri ilə məşhurdur. Onun toxuculuq fabrikləri var və ipək, yun, taxıl və kolza ilə mühüm ticarət aparılır. Dağlarda bəzi mis mədənləri də var. Yanılmıramsa, yalnız bir London qəzeti, "Morning Leader", qırğınların ilk həftəsində Şuşanın dağıdılmasını təsvir etmişdi. Həmin qəzetin müxbiri yazırdı: "Səfərimin sonuna yaxınlaşanda yüzlərlə silahlı və atlı tatarla qarşılaşdım. Yüksək mövqeli qoca bir kişi məndən hara getdiyimi soruşdu. 'Şuşaya', — dedim. 'Şuşa dağıdılıb', — dedi ciddi şəkildə. Şuşaya gedən yolun son hissəsi möhtəşəmdir. Şəhər 5 000 fut hündürlükdə yerləşir və ona çatmazdan iki-üç saat əvvəl görünür. Gözəl poçt yolu dağın yamacında irəli-geri dolanır və hər döngədə mənzərə genişlənir. Gəldiyim zaman xarabalıqlardan yüngül bir tüstü burulub qalxırdı. Bu, həqiqətən acınacaqlı mənzərə idi. Küçə küçənin ardınca xarabalığa dönmüşdü, çılpaq divarlardan başqa heç nə qalmamışdı. 30 000 sakini olan bu gözəl şəhərin ən yaxşı hissəsinin dağıdılmasında kimin günahkar olduğunu demək çətin olardı. O, bu böyük fəlakətdən nəhayət özünə gələ bilər, lakin uzun illər keçməmiş deyil və həm tatarların, həm də ermənilərin əhvalına görə, həqiqi barışığın baş verməsi ehtimalı azdır. Bir nəsil üçün kifayət edəcək qədər acı hiss oyanmışdır və Rusiya hökumətinin imkanları İmperiyanın bu hissəsində sülhün hər hansı bir görünüşünü bərpa etmək üçün son həddə qədər gərginləşdiriləcəkdir."

bəyan edirdilər ki, əgər şəhərin qubernatoru knyaz Nakaşidzenin qətlində təqsirləndirilən erməni dustaqlar azad edilsə, müsəlmanlar döyüşə başlamaq niyyətindədirlər[92]. Dəstələrin başçılarının evlərində sirli yığıncaqlar keçirilirdi. Məlum idi ki, fevral qırğınlarından sonra həm erməni, həm də müsəlman dəstələri silahlanmağa başlamışdı; bəziləri bunu qanuni yolla edirdi, hakimiyyət lisenziyaları sərbəst verirdi, lakin minlərlə adam lisenziya ilə özünü narahat etmirdi və açıq şəkildə növbəti döyüşə hazırlaşırdı. Şəhərdə və Xəzər dənizinin bəzi kiçik adalarında gizli şəkildə böyük miqdarda silah saxlanılırdı. Avqustun son günlərində Bakı əhalisi irqi sui-qəsdlərin, əmək tiranlığının, siyasi qəsdin və inqilabi təbliğatın gizli vulkanı üzərində yaşayırdı.

Bəzi dairələrdə hiss edilirdi ki, dini və siyasi düşmənçilik, minlərlə şəxsi ədavət və fevral qırğınlarının qəzəbli xatirələri ilə öd kimi acılaşmış tatar və erməni hisslərinin o güclü fəvvarələrinə yenidən püskürməyə imkan verilsə, yalnız bir son ola bilər: dünya neft sənayesinin rus yarısının demək olar ki, tam məhvi (neft mədənlərinin yandırılması və nəhəng neft paylama sistemlərinin, məhv edilməsə də, pozulması ilə bu nə qədər həyata keçirilə bilərsə), şəhərin yandırılması, revolverin, tüfəngin, xəncərin və məşəlin şeytani tətbiqi və ən dəhşətli və təsvirəgəlməz xaos, qarşılıqlı ittihamların, yalan xəbərlərin və Bakının Qafqazın sənaye paytaxtı sayıldığı və bu qəddar döyüşçülərin fikrincə, ya kapitala, ya da hökumətə qarşı müharibə başlatmaq üçün münasib yer olduğu dağlarda qırğınların adi Qafqaz nəticələri ilə.

Tramvay işçilərinin tətili var idi; hakimiyyət tramvaylara əsgərlər qoyana qədər tamamilə dinc bir iş idi. Lakin əsgərlərə yarımcıq bir hücumdan, havaya kovboy sayağı atəş nümayişindən və bir neçə tətilçinin həbsindən başqa ciddi bir şey baş vermədi. İğtişaşın tramvaylardan başladığı iddiası ilə əlaqədar xatırlatmaq lazımdır ki, fevral qırğınları başlayanda tramvaylardan çoxlu atəş açılmışdı. Əslində bu tramvaylardan biri ermənilər tərəfindən sıra ilə düzülmüş kiçik bağlı dükanların yanından sürülərkən tatar güllələri üçün hərəkətli hədəf olmuşdu. Çoxlu dik təpələri olan Bakıda tramvay sistemi kiçik və nisbətən əhəmiyyətsizdir; kiçik vaqonları atlar çəkir və xətt körfəzi əhatə edən düz küçə boyunca çəkilmişdir. Bu nöqtədə çoxlu tatar dükanı var və həm tatarlar, həm də ermənilər gəmi təmiri emalatxanalarında və körpülərdə çox sayda işləyirlər.

Taleyüklü 2 sentyabrda[93] Petrovsk meydanındakı atışma müsəlmanları və ermənilər toqquşdurdu. Bu, kiçik atışmalar günü idi, lakin həqiqətdən uzaq düşmərəm, desəm ki, 2-sinin gecəsi başçılar, yəqin ki, qaçmağa can atmırdılar və qan şəhərində baş verəcəyini çox yaxşı bildikləri ölüm-dirim mübarizəsinə hazırlaşırdılar.

Terror hökmranlığı — bir il ərzində ikincisi — başlamışdı və küçələrdə və neft mədənlərində gələcək bəlanın xəbərçisi olan çoxlu tükürpədici hadisə baş verdi.

[*Tərcüməçinin qeydi:* Şuşa qalası XVIII əsrin ortalarında (1750-ci illərdə) Pənahəli xan tərəfindən Qarabağ xanlığının paytaxtı kimi salınmışdır; “XVI əsr” ifadəsi yanlışdır. Qarabağ xanlığı 1805-ci il Kürəkçay müqaviləsi ilə Rusiyanın himayəsini qəbul etmiş, 1822-ci ildə ləğv edilmişdir. “Şuşa müsəlmanlarının fanatizmi” haqqında ifadə əsassız ümumiləşdirmədir: Şuşa XIX əsrdə Azərbaycan musiqisinin, poeziyasının və maarifinin mühüm mərkəzi idi (Natəvan, Nəvvab, Üzeyir Hacıbəylinin və b. vətəni). 1905-ci ilin avqustunda Şuşada baş vermiş toqquşmalarda hər iki tərəfdən çoxlu adam həlak olmuş, şəhərin həm müsəlman, həm də erməni hissələri ziyan çəkmişdir.]

[92] Nakaşidze, yuxarıda qeyd edildiyi kimi, “Daşnaksütyun” partiyasının terror aktı nəticəsində öldürülmüşdü; müəllifin özünün verdiyi bu məlumat həmin dövrdə erməni silahlı təşkilatlarının fəaliyyətini təsdiq edir. — *Tərc.*

[93] Müəllif yeni təqvimlə yazır: “sentyabrın 2-si” köhnə (rəsmi) təqvimlə avqustun 20-sinə uyğundur; aşağıda “avqustun 20-si” kimi xatırlanan tarix də, görünür, köhnə təqvimlə verilmişdir. Mətndəki tarixlərdə müəllif ardıcıl deyil. — *Tərc.*

Xuliqanlar — “Qara yüzlük”ün məşhur üzvləri — neft mədənlərində fəhlələrə hücum etməyə başladılar[94]. Londondakı “European Petroleum Company, Ltd.”-in bir mexaniki Balaxanı stansiyasından mədənlərdəki evinə gedərkən qara papaq geymiş bir adamın hücumuna məruz qaldı. O, adamdan niyə ona sataşdığını soruşdu və aldığı cavab bu oldu: “Görmürsənmi qara papaq geymişəm? Mən ’Qara yüzlük’dənəm və biz istədiyimizi edəcəyik.” Sonra xuliqan mexanikin üstünə atıldı və o elə ağır xəsarət aldı ki, Balaxanıdakı xəstəxanaya aparılmalı oldu.

* * *

Güclü tatar məhəllələrindən biri Bayılın yuxarı hissəsində, “Qafqaz və Merkuri” Gəmiçilik Şirkətinin körpüləri yaxınlığında yerləşir; oradan o, qalanın şimal divarı boyunca, Sisianov küçəsi və Şamaxinka vasitəsilə erməni məskəni ilə təhlükəli təmas nöqtəsinə — Bakı irqi müharibəsinin ən dəhşətli toqquşmalarından bəzilərinin səhnəsinə qədər uzanır. Düşmənçilik başlayanda bu küçələr müsəlmanlar tərəfindən güclü şəkildə tutulmuşdu, əhalinin xristian hissəsi isə evlərini tərk edib erməni mərkəzlərində təhlükəsizlik axtarmışdı.

Stansiyanın yaxınlığında ermənilərin, gürcülərin və rusların əsas döyüş koloniyası yerləşir. 2-sində bu yeri silahlı ermənilər qoruyurdu; bu ehtiyat tədbiri hələ avqustun 20-də, tatar məhəlləsində bəzi erməni evləri və dükanları talan ediləndə və bir neçə erməni öldürüləndə görülmüşdü. Yandırıcılar şəhərin Çəmbərəkənd tərəfində erməni evlərində işləyir, xuliqan dəstələri isə ətrafda gəzib çoxlu qəddarlıq və qətl törədirdilər. Qoşunlar və kazaklar bu qorxaqları küçələrdən qovanda onlar küclərin arxasından və pəncərələrdən atəş açmağa başladılar, lakin qoşunun açdığı bir neçə yaylım atəşi müvəqqəti olaraq onların talançılığına son qoydu.

2-sinin gecəsi bitməzdən əvvəl küçələr bir-birinin ardınca yandırılmışdı, Qubernski küçəsi birincilərdən idi. Ətraf kəndlərdən yaramazlar — dəhşətli quldur dəstəsi — şəhərə girməyə cəhd etdilər, lakin Çəmbərəkənd və Şamaxinkanın kənarında əsgərlər və kazaklarla qarşılaşdılar və onlardan çoxu güllələndi.

“Atəşlərin şaqqıltısı qarşılıqlı məhv dövrünü başlatdı” — 3-ü səhər başlanğıcın təsvirlərindən biri belədir. Şəhərin aşağı hissəsində revolverlər atıldı, lakin bəziləri bəyan edir ki, onlar əsgərlərin tramvayları qoruduğu Petrovsk meydanında atılmışdı.

Krasnovodsk küçəsində bir müsəlman dükan sahibi yaralandı. Onu xərəkdə Çadrov küçəsi ilə və Tatarskaya küçəsi ilə yuxarı, tatar məhəlləsinə doğru apardılar. Tatar kütləsi tezliklə uğuldayan bir izdihama çevrildi, “ta ki, — deyir yürüşün şahidi, — şəhərin müxtəlif yerlərində atəş başladı”. Bir şahid deyir: “Axşam saat beşdə Krasnovodsk küçəsində, Bağırov meydanının yaxınlığında müsəlman ət dükanı sahibi ölümcül yaralandı. Onu Çadrov küçəsinə gətirdilər, orada xərəyə qoydular və tətiyi çəkilmiş revolverli müsəlman kütləsinin müşayiəti ilə küçələrdən apardılar. Kütlə həyəcanlı tatarlardan ibarət kiçik bir orduya çevrildi. Yürüş Tatarskaya küçəsi ilə yuxarı, Hərbi hospitala doğru hərəkət etdi. Sonra şəhərin müxtəlif yerlərində revolver və tüfəng atəşləri eşidildi. Həmin gecə çoxlu atəş açıldı.” Bu hadisənin rəsmi versiyası belədir ki, tatar bir erməni ilə adi davada öldürülmüşdü.

---

[94] “Qara yüzlük” (çernosotentsi) — Rusiyada monarxist, millətçi təşkilatların ümumi adı; onların Bakı hadisələrindəki rolu barədə müəllif konkret məlumat vermir. — *Tərc.*

Məhz o zaman çoxlu silahlı izdiham toplandı və heç biri aman vermədi. Erməni məhəlləsində müsəlmanlar peşəsindən və mövqeyindən asılı olmayaraq amansızcasına döyülüb öldürülür, şəhərin tatar hissəsində isə müsəlmanlar ələ keçirə bildikləri bütün ermənilərdən dəhşətli intiqam alırdılar. Ardınca gələn gecə nisbətən sakit keçdi, deyir bir müəllif, və bizə deyirlər ki, nə yaylım atəşi, nə yanğın, hətta arabir bir atəş belə olmadı — yalnız bu qədər acı nifrətlər şəhərində ölü sükutu.

Ən vəhşi şayiələr dolaşırdı. Bu inqilab ocağında bazar günü qan tökülmüşdü; qoşundan məhrum edilmiş şəhərdə kütləvi qırğın qaçılmaz idi. Qeydə almaq üçün həddindən artıq çox, bu amansız düşmənlərin unutması və ya yeni güc sınağı olmadan sülhü mümkün etməsi üçün də həddindən artıq çox qətl var idi.

Biri tüfənglə, dördü revolverlə silahlanmış altı erməni Krasnovodsk küçəsində bir suçunu vurdu, bir tatar fəhləsi isə Bolşaya Morskaya və Karantinnaya küçələrinin tinində revolver gülləsi aldı. Çadrov küçəsində iki müsəlman qaçan fiqurları erməni sanıb atəş açdı, lakin vura bilmədi; lakin başqa bir evin həyətində bir erməni gözətçisini görüb atəş açdılar və onu yaraladılar. Həmin küçədə başqa bir erməni gözətçisi ölümcül yaralandı və meyit qaranlıq düşənə qədər səkidə qaldı, sonra aparıldı.

Bu, Bakı gözətçiləri üçün pis gün idi. Gözətçilər bir çox varlı erməninin və onların ailələrinin evlərində diri-diri yandırıldığı o dəhşətli fevral günlərinin məhsuludur və bəzi cəhətləri ilə bizim feodal dövrlərimizin gözətçilərinə bənzəyir. Gecələr onlar varlı ermənilərin evlərinin ətrafında və bağlarında dolaşırlar. Bir neçə dəqiqədən bir alçaq səsli fit çalırlar; bu yolla sakinlər gözətçinin harada olduğunu bilə bilirlər və yalnız fit bir müddət eşidilmədikdə qeyri-adi bir şeyin baş verdiyini başa düşürlər.



Küçədə güllələnmiş adam



Dəfn üçün düzülmüş qətlə yetirilmiş ermənilər

Qanayan və yanan Bakını — öz xalqı tərəfindən talanan müdafiəsiz bir şəhəri — tərk edək.

XVI fəsil. Balaxanı neft mədənləri alov içində

Bakıdan Balaxanıya — Mantaşev sahələri yanır — Bəzi həyəcanlı epizodlar — Balaxanıda kilsə zənginin sirri — Ermənilər tatarları məğlub edir — Kazaklar tatarlara hücum edir — Tatar başçılarının gəlişi — Xəstəxanada döyüş — Mantaşev zavodunda dəhşətli döyüş — Qafqaz canişininin mülkünə hücum.

Bakıdan qaçan adamlar Keşləyə yaxınlaşanda tüstü örtüyü altında yanan bir buruq meşəsi gördülər. Dəhşətli xəbər: neft mədənləri alov içində idi!

“Günorta saat iki olsa da, günəşi görə bilmirdik”, — deyir biri, başqası isə bəyan edir ki, “Sabunçuda tüstü elə qatı idi ki, gözlərimizi ağrıdırdı”. Yenə: “Yolda üzləri tüstü kimi qara olan çoxlu fəhlənin evlərinin yanında çarəsiz dayandığını gördük. Stansiyada bir neçə əsgər və neft mədənlərindən qaçan, vaxtaşırı yanğınlar tərəfə baxan, qatillərin bağırtılarını və qurbanlarının fəryadlarını eşidən adam qrupları perron boyunca o yan-bu yana gedirdi. Stansiyanın qarşısında, Ter-Akopov mülkündə quyular tüstüyə qalxan od və alov püskürürdü. Tezliklə alov dilləri bir böyük yanğına çevrildi; sonra gurultu oldu, buruqlar uçdu və qığılcımlar qaçaraq xilas axtaran izdihamın arasına səpildi. Şeytana bənzəyən adamlar tüstüyə dalır, sonra çıxıb stansiyaya doğru qaçırdılar; bunlar əşyaları ilə qaçan fəhlələr idi. Mantaşev mülkləri yanmağa başladı və tüstü o tərəfdəki böyük yanğını görməyimizə imkan vermirdi.”

Budur başqa bir təsvir:

“Sabunçu stansiyasında ağ kombinezonlu bir neçə adam gördüm; onlar təcili yardım dəstəsi idi. Onlardan öyrəndim ki, fəhlələrin və kontor işçilərinin çoxu Sabunçu xəstəxanasında sığınacaq tapmışdır, bir neçəsi isə Bakıya (on iki mil uzaqlıqda) gedir və Zabratda olanlara çatmaq mümkün deyil. Xəstəxanaya doğru getdik. Kiçik yürüşümüzün başında göy xaçlı ağ bayraq daşıyan təcili yardım işçilərindən biri gedirdi. Bir gölün üstündən keçərək qatı və keçilməz qaranlıq bir bölgəyə daxil olduq. Əsəblərimiz son dərəcə gərgin idi, aramızda istənilən an güllə ala biləcəyini bilməyən yox idi, lakin igid adamın qarşımızda daşıdığı bayrağa baxaraq özümüzü təhlükəsiz hiss edirdik və bilirdik ki, bizə qəsdən atəş açılmayacaq. Xəstəxanaya sağ-salamat çatdıq və orada hər birinin üzündə dərd yazılmış minlərlə adamın həyətdə gəzindiyini gördük. Çoxu revolver və tüfənglərlə silahlanmışdı, divarlardakı açıqlıqlarda isə hücum edə biləcək düşmənlər üçün patrullar gözətçilik edirdi. Hamı ac idi və xəstəxanaya gətirilmiş bir az çörək tez yeyildi. Həmin gün qayıtdım və Bakıya sağ-salamat çatdım.”

Bu hekayəni rusca yazan adam Bakıya qayıtdı. O, jurnalist idi və bir neçə gün sonra şəhərin küçələrində güllələnib öldürüləndə qəzeti qara haşiyəli elanda yazdı ki, o, borcunu — açıq küçələrdə qırğınlar haqqında məlumat toplamaq kimi təhlükəli borcunu yerinə yetirərkən həlak olmuşdur.

Bakıda atəşin yenidən başladığı barədə telefon xəbəri Balaxanıdakı ermənilər arasında vəhşi çaxnaşmaya səbəb oldu; onlar tələsik dükanlarını bağlayıb erməni təhlükəsizlik mərkəzlərinə qaçdılar. Bütün gecə boyu silahlı tatarlar faytonlarda neft mədənlərində vəhşicəsinə gəzirdilər. 3-ü səhər Mantaşev və Şərikləri erməni firmasında işləyən bir tatar qazma ustasının Lianozov mülkünün yaxınlığında öldürüldüyü barədə şayiə yayılırdı. Tatarlar yerə qaçdılar və yığıncaq keçirdilər, onun nəticəsi sirr olaraq qaldı. Tatarlar və gürcülər saat

birə qədər ticarəti davam etdirdilər. Bu arada tatar dəstələri tək-tük düşmənləri axtararaq neft mədənlərində yürüş edir və faytonlarda gəzirdilər. Hər saat Bakıdakı qırğınlar haqqında məlumatlar telefonla neft mədənlərinə çatdırılır və oradakı əhvalı qızışdırırdı. Sonra məşum bir sükut çökdü; telefonlar təxminən bir gün cavab vermədi və şəhərlə dəmir yolu əlaqəsi yox idi. Bu, narahatlıq hissini artırdı və izdihamı Bakıda ciddi bir şeyin baş verdiyinə inandırdı. Ermənilər arasında hiss gərgin həyəcana çevrildi, tatarlar isə stansiyada dəmir yolu xəttində izdiham halında toplaşdılar. Görünür, onlar düşmənçiliyə başlamağa hazırlaşırdılar, lakin Bakıdan etibarlı məlumat istəyirdilər. Heç bir əsgər və ya polis görünmürdü.

Otaqlarında gizlənmiş ermənilər hücumu gözləyirdilər. Bazar günü saat dördə qədər keçdi, sonra atəşlər eşidildi. Bunları bu yolla tatarları ermənilərə hücuma başlatmaq ümidində olan “Qara yüzlük”ün üzvləri açmışdılar. Yenə də hücum ləngiyirdi; tatarlar hələ də gözləyirdilər. Gecəyə yaxın Balaxanı tatarları ilə hərəkət planını müəyyən etmək üçün qonşu Ramana mədənindən yüzlərlə silahlı müsəlman gəldi. Balaxanı təhlükədə idi və hamı atəşin istənilən an başlayacağını gözləyirdi. Yenə də axşam sakit keçdi. Səhər saat dörddə Sabunçuda buruqların arasında iyirmi-otuz atəş səsləndi və Balaxanı kilsəsinin — neft mədənlərindəki xristian ibadətgahının — zəngi qarşıdakı qırğının müqəddəs xəbərçisi kimi məşum şəkildə çalındı. Bu zəngin çalınması dəhşətli intizar gecəsinin çoxsaylı sirlərindən biridir; heç kim onu kimin və niyə çaldığını izah edə bilməmişdir[95].

Ermənilər daha yaxşı müqavimət göstərmək üçün mümkün qədər az nöqtədə toplanmışdılar. Sabunçuda onlar fəhlə kazarmalarında, Ramanada və uzaqdakı Zabrat mədənində isə Mantaşev zavodunda və digər yerlərdə toplaşmışdılar. Həmin gecə Balaxanı alov içində idi, Ramanada isə talan və qırğın başladı. Yanğının şaqqıltısına revolverlərin taqqıltıları və tüfənglərin daha güclü səsləri qarışırdı — bu səslər Ramanada tatarların əlinə keçən ermənilərin taleyini çox aydın bildirirdi. Həmin gecə əsgərlər və kazaklar pusqudan qorxaraq Ramanaya getməkdən imtina etdilər, lakin ertəsi gün səhər bir kazak dəstəsi çıxdı. Daha çox sayda müsəlmanın mühasirəsində qaldıqlarını görən ermənilər daha uzun müqavimət göstərməyin mümkün olmayacağını anladılar və kazakların müşayiəti ilə 200–300 nəfərlik qruplarla Hasilatçılar Qurultayının Sabunçu xəstəxanasına getdilər. Ramana başdan-başa yansa da, rus fəhlələri ermənilərlə getməkdən imtina etdilər və kazarmalarında qaldılar.

4-ü səhər açılanda revolverlərlə, tüfənglərlə və xəncərlərlə silahlanmış minlərlə tatar yenidən dəmir yolu xəttində toplaşdı. Bir neçə dəqiqəlik danışıq və onlar qanlı işlərinə — uzun bir həftəlik dəhşətli qırğına başladılar.

Əvvəlcə onlar Bakı Neft Sənayeçiləri Qurultayının texniki nəzarət binasına hücum etdilər; orada bir sıra erməni fəhləsi sığınmışdı. Ermənilər döyüşə girdilər; tatarları qovdular, tatarlar sevimli toplanma yerləri olan dəmir yolu xəttinə geri çəkildilər və orada məqsədsiz olaraq havaya iyirmiyə yaxın yaylım atəşi açdıqdan sonra çoxlu erməni fəhləsinin yaşadığı “Vatan” zavoduna getdilər. Orada tatarlar ikinci məğlubiyyətə uğradılar. Onlara kazaklar hücum etdi və qılınclarından istifadə edərək onları amansızcasına doğradılar; çoxları öldü və yaralandı, bir çoxu isə silahını atıb qaçdı. Tatarlar heç gözləmirdilər ki, kazaklar onlara hücum edəcək; əksinə,

[95] Kitabdakı şəklin altındakı yazı: “Balaxanı neft mədənindəki kilsə. Sentyabr qırğınları başlayanda böyük qüllədəki zəng sirli və məşum şəkildə çalındı; kimin çaldığını heç kim bilmirdi.” — *Tərc.*

ermənilәri öldürmәk üçün sәrbәst buraxılacaqlarını gözlәyirdilәr. Daha çox kazak gәlәndә tatarlar tam qaçış halında idi.

Küçәlәri tәmizlәdikdәn sonra kazaklar yeri tәrk etdilәr. Tatar dükanları yenidәn açıldı vә Bakıdan ürәkaçan xәbәrlәr gәldi. Qatarla gәlәnlәr bildirdilәr ki, nizam bәrpa olunub vә bunun tәsdiqi Bakı ilә dәmir yolu әlaqәsinin bәrpa edilmәsindә görünürdü.

Tәәssüf ki, Bakıdan gәlәn qatarlardan biri bir neçә tatar başçısı gәtirdi; onlar perrona addımlayanda ән vәhşi alqışlarla qarşılandılar. Tatar qışqırıqları Qurultayın mәktәbinә çatdı vә düşmәnlәrinin yenidәn qәtl missiyasına çıxdığına inanan ermәnilәr dәmir yolu xәtlәrindә vә stansiya girişinin yaxınlığındakı meydanda toplaşmış izdihama atәş açdılar[96]. “Tatarlar yavaş başladılar… Yanan buruqların vә neft quyularının alovları cәhәnnәmin üzәrindә asılmış dәhşәtli tüstü örtüyünә qalxırdı. Sabunçu stansiyasından Balaxanıya baxanda hәyatımda ilk dәfә ‘Cәhәnnәm azad edildi’ sözlәrinin mümkün olan bütün mәnasını dәrk etdim” (deyir orada olanlardan biri). “Adamlar alovdan sürünәrәk vә ya qaçaraq çıxır, yalnız tatarlar tәrәfindәn vurulub yerә sәrilirdilәr… Balaxanıda stansiyadan çıxanda düşündüm ki, bu sәhnәni Pompeyin son günlәri ilә müqayisә etmәk olar. Tüfәng vә revolver güllәlәrinin vıyıltısı, partlayan neft çәnlәrinin dәhşәtli gurultusu, qatillәrin vәhşi bağırtıları vә qurbanlarının ölüm fәryadları onu Pompeydә baş verә biläcәk hәr şeydәn daha pis edirdi. Bazar (Rusiyada öz növünün ән pisi olan kiçik, çirkli dükanlar küçәsi)[97] qәtlgaha çevrilmişdi.”

5-dә Sabunçu ermәnilәrinin demәk olar ki, hamısı, tam 2 000 nәfәr, xәstәxanada toplanmışdı. Bu, dәhşәtli mәnzәrә idi — hәyәcanlı insanların bu sıx kütlәsi. Yemәk üçün demәk olar ki, heç nә yox idi, hәtta xәstәlәr üçün quru çörәk belә. Ermәnilәrin çoxu silahlı idi. Meydanda bir dәstә kazak xәstәxananı vә texniki nәzarәt kontorlarını qoruyurdu. Tatarlar görünmürdü. Ermәnilәr xәstәxananı yandırıcılardan qorumaq üçün ön postlar qoydular. Birdәn iki çәllәk mazutla yaxınlaşan bәzi tatarlar göründü. Bu xәbәr ildırım sürәti ilә yayıldı; tatar yandırıcıları xәstәxananı yandırmağa çalışırdılar vә ermәnilәr onlara qızğın atәş açdılar. Gözlәnilmәz bir son oldu. Ermәnilәrin onlara atәş açdığını düşünәn kazaklar vәhşicәsinә cavab atәşi açdılar — “görünür, — dedi bir şahid, — qorxudan, çünki erməni atәşindәn yalnız bir-iki kazak atı öldürülmüşdü”. Bu gözlәnilmәz inkişafdan çaşan tatarlar qarışıqlıqda iştirak etmәdәn yox oldular.

Bir ingilis-rus şirkәtinin mülkündә bәzi dәhşәtli vәhşiliklәr baş verdi. Ter-Akopov mülkündәn qaçan bir erməni qaçqın bu şirkәtin gözәtçilәri tәrәfindәn tutuldu; onlar meyiti parçalayıb hissәlәrini alova atdılar. Bu mülkdә çoxlu qurban var idi vә gözәtçilәr iyrәnc qәddarlıq nümayiş etdirdilәr. Bәzi adamlar Moskva–Qafqaz şirkәtinin Ramana gölü tunelindә sığınacaq axtardılar. Onları bәzi şeytanlar tapdılar, girişi yanar materiallarla doldurdular vә sonra onları diri-diri yandırdılar[98].

---

[96] Müәllifin özünün tәsvirinә görә, Sabunçu stansiyasındakı hәlledici atışmanı stansiyada toplaşmış izdihama atәş açan ermәnilәr başlamışdır; bundan әvvәlki hücumlarda isә tatarların itkilәri (kazakların qılıncla “amansızcasına doğraması”) qeyd olunur, lakin sayı göstәrilmir. Bu fәsildә azәrbaycanlı itkilәri haqqında heç bir ətraflı tәsvir yoxdur. — *Tәrc.*

[97] Mötәrizәdәki ifadә — Balaxanı bazarının “Rusiyada öz növünün ән pisi olan çirkli dükanlar küçәsi” kimi tәsviri — müәllifin şәxsi, aşağılayıcı qiymәtlәndirmәsidir. — *Tәrc.*

[98] Kitabdakı şәklin altındakı yazı: “Bu tunel sentyabrda ән dәhşәtli vәhşiliklәrdәn birinin sәhnәsi olmuşdur. Ona bir sıra ermәnilәr sığınmışdı, lakin tatarlar girişi neftә batırılmış odun vә zibillә bağlayıb onları boğaraq vә yandıraraq



Bu tunel sentyabrda ən dəhşətli vəhşiliklərdən birinin səhnəsi olmuşdur. Ona bir sıra ermənilər sığınmışdı, lakin tatarlar girişi neftə batırılmış odun və zibillə bağlayıb onları boğaraq və yandıraraq öldürdülər. Ramana gölünün suyu bu tuneldən öz axını ilə Xəzər dənizinə axır.

7-də tatarlar və ləzgilər Mantaşev zavodunu əsl mühasirəyə aldılar. Hər cür silahla silahlanmış bir izdiham hücuma keçdi, lakin mühasirədəkilərin yaylım atəşləri ilə geri qaytarıldı. Sonra bəziləri araba ilə mazut və kerosin gətirən kiçik bir tatar ordusu gəldi, lakin qoşunlar vaxtında göründü və hücum edənlərə atəş açdı. Bəziləri müqavimət göstərdi, lakin əksəriyyəti dəhşət içində qaçdı. Tüstünün qalxdığı görüldü. Tatarlar bunun öz işləri olduğunu dedilər və zavoddakı hər kəsin ya güllələndiyini, ya da yanaraq öldüyünü sevinclə qışqırdılar. Bu toqquşma haqqında başqa bir məlumata görə, Mantaşevin adamları qoşun tərəfindən tərksilah edilmiş və getməyə icazə verilmişdi; tatarlar isə qoşunun onlara murdar işlərini başa çatdırmağa imkan vermədiyi üçün açıq şəkildə narazılıqlarını bildirirdilər.

öldürdülər. Ramana gölünün suyu bu tuneldən öz axını ilə Xəzər dənizinə axır.” Müəllifin mətnində bu hadisənin iştirakçıları “bəzi şeytanlar” kimi göstərildiyi halda, şəkil yazısında o, birbaşa tatarlara aid edilir; hadisənin mənbəyi göstərilmir. — *Tərc.*

Hətta Qafqaz canişininin neft mülkü də yandırıcıların diqqətindən yayınmadı. Balaxanıda Xələfi və Mantaşev şirkətlərinin iki buruğu yanırdı. Alov Vorontsov-Daşkovun mülkünə (canişinə məxsus) keçdi və orada on bir buruq yandı. Keçən il canişinin mülkü (5 nömrəli sahə) təxminən 40 000 ton neft vermişdi. Mülkdə iyirmi yeddi quyu var idi, onlardan on doqquzu hasilat verirdi, lakin mübarizə bitəndə yalnız dörd buruq ayaqda qalmışdı.

* * *

Minlərlə faciə olmuşdu. Tatarlar Ramanada Məlikov zavoduna atəş açdılar. Buradan bir qədər aralıdakı daş binaya qaçan ermənilər pusquda yatmış tatarlar tərəfindən vurulub yerə sərildi. Yetmiş nəfər qaldı. Tatarlar zirzəmilərə kerosin vurdular, binaya od vurdular və hər bir ermənini diri-diri yandırdılar. Ramanada Mantaşevin qazma ustası köməkçisi olan bir erməni varlı bir tatarın evində gizləndi. Silahlı tatarlar onu Zabratdakı Mantaşev zavoduna sağ-salamat çatdıracaqlarını vəd edərək çölə çıxardılar. Yolda onu güllə ilə dəlik-deşik etdilər, meyitini doğradılar və hissələrini oda atdılar. Ramanada üç erməni "Rus Neft Şirkəti"nin qazanxanaları arasında bir jelonkada gizləndi, lakin mülkdəki şikəst bir gözətçi onları revolverlə vurdu və meyitləri jelonkada yandırdı; jelonka, izah etməliyəm ki, quyudan bir ton neft çıxara bilən nəhəng uzunsov çəlləkdir.

Binaların toplarla bombalanması, dəhşətə gəlmiş qurban kütlələrinin diri-diri qovrulduğu yanğınlar və neft anbarlarından sürünərək çıxan adamların öldürülməsi haqqında hekayələr danışılır[99].

[99] Müəllif bu fəsildə yalnız ermənilərə qarşı törədilmiş zorakılıqları ətraflı təsvir edir. Rəsmi məlumatlara və sonrakı tədqiqatlara görə, 1905-ci ilin avqust–sentyabr hadisələrində Bakıda və mədənlərdə həm erməni, həm də azərbaycanlı əhali arasında ağır itkilər olmuş, erməni silahlı dəstələri də müsəlman fəhlələrə və kəndlərə hücum etmişdir. Müəllifin "binaların toplarla bombalanması" barədə yazdığı məlumat, görünür, hərbi hissələrin hərəkətlərinə aiddir. — *Tərc.*

XVII fəsil. Balaxanı (davamı). Neft mədəninə həyəcanlı səfərin təsviri

Gözə göz — Qəhrəmanlıq əməlləri — Cəsarətli hiylə — Kazak paltarında ermənilər — Erməni kontor işçisinin hekayəsi — Təqib olunan ermənin başına gələnlər — Onun xilası.

Talan və atəşi tatarlar, ləzgilər, Kazan tatarları və rus fəhlələri edirdilər. “Bu şeytanlar üçün, — deyir bir məlumat, — gözə göz, dişə diş idi və neft mədənlərinin bəzi yerlərində bu, bəzi erməni döyüşçülərinin davranışını da düzgün təsvir edir.” Göyə qaldırılmış əllər, aman diləmək üçün dualar, qarğışlar və lənətlər — hamısı faydasız idi; bir dəfə diz çökən adam bir daha qalxmırdı. Onu ya revolverlə vururdular, ya da xəncərlə doğrayıb deşirdilər[100].

Dörd günlük döyüşdən sonra, hər neft sahəsi ölülərlə — üzərinə qızmar sentyabr günəşi parlayan ölü qalaqları ilə — dolu olanda, ermənilər bir neçə möhkəmləndirilmiş binanı əllərində saxlayırdılar, o cümlədən bu növ müharibədə əla strateji mövqedə dayanan Hasilatçılar Qurultayının məktəbini, Ramana təcili yardım binasını və Qoldlust, Bağdasar, Akopov və başqalarının anbarlarını. Bu yerlər arasında əlaqəni tüfənglərlə silahlanmış, yaxşı atlı kiçik erməni dəstələri saxlayırdı. Onlar haqqında bir rus demişdi: “Onlar qədim cəngavərlər kimi davranırdılar; çarəsiz adamları, qadınları və uşaqları təhlükəli yerlərdən təhlükəsiz yerlərə aparırdılar. Onlar qəhrəman idilər.”

Qırğınların bəzi hadisələri Qafqaz tarixinin o yerlərin şiddətli döyüşçülərinin nəcib əməllərini qeyd edən səhifələrində yaşamalıdır. 7-sinin gecəsi baş vermiş bir hadisə yəqin ki, Şotland qəhrəmanlığı hekayələrini — bəzi gözəl köhnə sərhəd rəvayətlərini xatırladacaq.

Sabunçu, Ramana və Balaxanı yanırdı, minlərlə ton neft, yüzlərlə buruq və onlarla emalatxana alovları qidalandırırdı. Ramana təcili yardım binasının erməni müdafiəçilərinin qadınlar və uşaqlar üçün suyu yox idi. Dəhşətə gəlmiş qadınları və uşaqları bir neçə təcili yardım arabasına yerləşdirərək ən cəsur ermənilərdən bəziləri kazak paltarı geyinib müşayiət dəstəsi təşkil etdilər və qəhrəmanlar karvanı tatar düşmənlərinin izdihamı arasından dəmir yolu stansiyasına doğru hərəkət etdi.

* * *

Aşağıda Balaxanıdan xilas olmuş bir ermənin həyəcanlı hekayəsinin hərfi tərcüməsi verilir:

“2-sində Balaxanıda ‘Rus Neft Şirkəti’nin mülkündə (VII qrup, Sabunçu stansiyasından təxminən bir mil şimal-qərbdə, Balaxanının kənarında) olarkən eşitdim ki, şəhərdə döyüş başlayıb və Sabunçuda, stansiyadan yarım mildən az cənub-qərbdə yerləşən və işlənmiş Sabunçu mülklərinin ən cənubdakı olan 36 nömrəli sahədəki mənzilimə qayıtdım. Mənimlə qalan bir qohum şəhərdən gəldi və bir çox nüfuzlu sakinin Suraxanı qatarı ilə Bakını tərk etdiyini və izdihamın dəmir yolu stansiyasına axışdığını, lakin iğtişaşın başlamadığını deyərək qorxularımı bir qədər yatırdı. Qatar getdikdən bir saat sonra şəhərdə tüfəng atəşi başladı. Ertəsi gün neft mədənlərində iğtişaş olmadı, lakin bazar günü bir çox mülkdə iş dayandı. Heç bir

[100] Müəllifin istinad etdiyi məlumat özü etiraf edir ki, “gözə göz” prinsipi bəzi erməni döyüşçülərinin davranışını da təsvir edir. — *Tərc.*

yalvarış, nə də əlavə haqq təklifləri fəhlələri buruqlara girməyə razı sala bilmirdi. Gecə sakit keçdi və mən yalnız bir neçə atəş eşitdim. Bazar ertəsi səhər iş bərpa edildi, lakin tezliklə dayandırıldı. Telefonla mənə xəbər verdilər ki, Sabunçu dəmir yolu stansiyasının yaxınlığında ermənilərlə müsəlmanlar arasında toqquşma olub və müsəlmanlar 'Rus Neft Şirkəti'nin Balaxanı kontorunun yaxınlığında toplaşırlar. Saat ikidə Ramana gölünün sahilindəki 140 nömrəli Sabunçu mülkümüzün erməni kontor işçisi mənə zəng etdi. O, bildirdi ki, indicə tatarların 'Raduqa' şirkətinin 37 nömrəli sahəsindəki quyulara od vurduğunu görüb. 'Souçastniki' və 'Raduqa' şirkətlərinin mülkləri ilk yandırılanlar idi. Eyni zamanda o, mənə dedi ki, kənardan tatarlar gəlib onun mülkündəki tatarlardan kontor işçisinin erməni olub-olmadığını soruşublar. Təsdiqedici cavab aldıqdan sonra onun öldürülməsini təklif ediblər, lakin mülkdəkilər onlarla razılaşmayıblar. Günortaya yaxın mənə xəbər verdilər ki, tatarlar evlərə və neft mədənlərinə od vurmağa başladıqları üçün, həm də kontorun həyətində yerləşdirilmiş on əsgərlik dəstə getmək əmri aldıqlarını bildirdiyi üçün kontorda işləyən ermənilər stansiyaya yarı yolda olan 'Souçastniki' şirkətinin mülkünə (XIII qrup) köçməyə hazırlaşırlar. Təxminən yarım saat sonra şirkətin 140 nömrəli sahəsindən mənə zəng edib erməni kontor işçisinin öldürüldüyünü bildirdilər. Bu xəbər məni mənzilimi tərk etməyə vadar etdi; onu bağlayıb landoda Neft Şirkətinin Balaxanı mülklərindən birinə getdim. Yolda kiçik erməni və rus dəstələri ilə qarşılaşdım. Oraya çatanda məni otaqlardan birində gizlətdilər. Məni gizlədənlər evin yaxınlığında toplaşan tatarların məni görə biləcəyini düşünərək məni qaranlıq bir otağa bağladılar. Pəncərə qapaqlarını bir az açaraq çöldə nə baş verdiyini ancaq görə bilirdim. Əvvəlcə arabir bir atəş, sonra arabir sərbəst atışma, sonra isə müntəzəm yaylım atəşi.

* * *

Yanğının əksi tədricən səmaya yayıldı; bir yanğın digərinin ardınca başladı və ən yaxında olanı tədricən mənim sığındığım 'Bakı Neft Şirkəti'nin binalarına doğru sürünüb gəlirdi. Bu, mən — erməni qaçqını üçün dəhşətli gecə idi. 7-si səhər, həbsimin üçüncü günü, ev sahiblərim mənə dedilər ki, yanğın təhlükəsi bu qədər böyüdüyü üçün evi tərk etmək niyyətindədirlər. Mənə qalmağı, vanna otağında qapanmağı və ən pisi baş verərsə, pəncərədən atılıb harasa — haraya və hansı istiqamətdə olduğunu mən də bilmirdim — qaçmağı məsləhət gördülər. Lakin mən razılaşmadım və onlarla birlikdə evi tərk edəcəyimi bildirdim. Həyətə çıxan kimi silahlı tatarlar şirkət işçilərinə kömək etmək üçün irəli gəldilər. Onlar bir sıra əşyaların daşınmasına kömək etdilər və onları qoruyacaqlarını vəd etdilər. Mənə toxunmadılar, çünki, Allaha şükür, saçım açıq rəngdədir və mühəndis forması papaq geymişdim. Neft Şirkətinin mühəndisləri məni N.-in arvadının yanına aparmaq tapşırığı ilə bir tatarın himayəsinə verməklə əllərindən gələni etdiklərini düşündülər. Tüfənglə silahlanmış bu tatar məni müşayiət etdi… Boğulduğumu hiss edirdim. Boğazım qurumuşdu və ayaqlarım məni çətinliklə saxlayırdı. Yenə də irəliləyirdim, hər an məni tanıyan bir tatara rast gəlib həlak olacağımı gözləyirdim. Nəhayət, N.-in arvadının olduğu yerə gəldim. Məni görən kimi qaçdı. Əvvəlcə bunu niyə etdiyini başa düşə bilmədim. Düşündüm ki, qorxub və ərinin işlədiyi şirkət emalatxanalarının həyətinə yol tapmağa çalışır, lakin həyətdə ona yaxınlaşanda o və xidmətçisi mənə arxa çevirdilər və dəhşət içində qışqırdılar: 'Bizi rahat buraxın.' Hara getməli idim? Dəhşət içində gördüyüm ilk açıq qapıdan içəri atıldım; bu, şirkətin tornaçılarından birinin otaqlarına aparırdı. Özümü N.-in dostu kimi təqdim edərək ona dedim ki, Qafqaza yenicə gəlmiş yeni adamam və baş verənlər mənə çox dəhşətli təsir etmişdir. Qeyd etdim ki, bir çox başqaları ilə birlikdə N.-in otaqlarını tərk etmişəm və bir neçə

dəqiqə oturub dincəlmək üçün icazə istədim. Mənə çay verdilər və otağa girməyi təklif etdilər. Təxminən iki-üç saatdan sonra, N.-in otaqlarına yanğın təhlükəsi qalmadığı və hamı yenidən evə qayıtdığı görünəndə, ona məni gizlicə onun yanına qaytara biləcəyi bir nəqliyyat göndərməsini xahiş edən bir not göndərdim. Tornaçının otağında uzun müddət qalmağımın şübhə doğurduğunu hiss etdim. N. aşağıdakı cavabı göndərdi: ‘Ona deyin ki, mənim varlığımı tamamilə unutsun. Mənim arvadım və uşağım var; qoy özünə bacardığı kimi baxsın.’ Mesajı gətirən fəhlələr necə hərəkət edəcəklərinə şübhə ilə yanaşırdılar və mən onlarla birlikdə N.-in yanına gedib məsələni izah etməyi təklif etdim. Lakin ətrafım tatarlarla dolu ikən onun yanına necə gedəydim?… Burada qeyd etməliyəm ki, notum N.-ə yalnız yanğın yenidən başladıqdan və onlar yenidən evi tərk etdikdən sonra çatmışdı. Fəhlələrə izah etdim ki, N. yəqin ki, həyəcanlıdır və mənimlə məşğul olmağa vaxtı olmayıb. Yanğınlar yatırılana qədər qalmağa icazə istədim. Axşam gec N. şirkətin bir mexanikindən qaçmağıma kömək etməyi xahiş etdi. Bu mexanik mənə ən böyük rəğbət göstərdi, hətta məni öz mənzilində yerləşdirdi. Burada mənim dəhşətli təcrübəmə birbaşa aid olmasa da, qeyd edilməyə layiq bir faktı qeyd etməliyəm. 8-i səhər şirkətin emalatxanaları şirkətin bir sahə mühəndisindən otuz novun tez təhvil verilməsi üçün sifariş aldı. Qurbanların meyitləri yaxınlıqda uzanarkən — o qədər yaxında vurulmuşdular ki, hələ qaxsımamışdılar — və fəhlələrin uşaqları aclıqdan ölərkən nov sifarişi! Mərkəzi idarə göstəriş vermişdi ki, 9-da şirkətin emalatxanalarında və neft mədənlərində iş bərpa edilsin. 9-da fitlər çalındı, lakin fəhlələr, təbii ki, gəlmədilər… Həmin səhər məni üç əsgər stansiyaya müşayiət etdi. Yolda gördüklərim təsvirəgəlməzdir. Faciənin miqyasını tam dərk etmək, onu bütün dəhşətli rəngləri ilə təsəvvür etmək üçün Balaxanı sakini olmaq, Balaxanını və onun əhalisini tanımaq və sonra hər şeyi mənim gördüyüm kimi görmək lazımdır. Stansiyada rus dülgərlərimiz mənə dedilər ki, ləzgilər əllərinə keçə bilən hər şeyi apardıqdan sonra mənim mənzilimə od vurublar.”[101]

[101] Bu şahidliyin özündə diqqəti cəlb edən cəhətlər var: erməni kontor işçisinin mülkündəki yerli tatarlar onu öldürmək təklifini rədd edirlər; silahlı tatarlar şirkət işçilərinə əşyalarını daşımağa kömək edir və onları qoruyacaqlarını vəd edirlər; erməni qaçqını məhz tüfəngli bir tatar müşayiət edərək təhlükəsiz yerə çatdırır. Müəllif bu cəhətləri şərh etmir, halbuki onlar azərbaycanlıların hamısının qırğın iştirakçısı kimi təqdim edilməsinin yanlış olduğunu göstərir. — *Tərc.*

XVIII fəsil. Zabrat, ingilislərin mühasirədə qaldığı yer

Cənab Roland Uollisin gündəliyi — İngilislərin adları — Tatarlar çörək istəyir və ermənilərin təhvil verilməsini tələb edirlər — Müşayiət təklifi — Mantaşevin Zabrat kazarmaları tatarların hücumu ilə alınır — Tövləçi Bakıya kömək məktubu aparır — Aramazdın buruqları yandırılır — Ləzgi gözətçi vurulur — "Gündüz kimi işıqlanmış" — Pitoyevin zavodu talan edilib dağıdılır — Tatar gözətçilər ermənilərı qoruyur — Səkkiz erməni güllələnir və eybəcər hala salınır — Bir Kazan tatarı iki erməni qadını necə xilas etdi — Zəlzələ təkanı — Cənab Lesli Urkartın səfəri — "Cəsarətlə edilmiş cəsarətli əməl" — Bir ermənin məktubu.

Qırğınlar həftəsində kiçik bir ingilis dəstəsi "Bakı-Rus Neft Şirkəti"nin Zabrat mülkündə mühasirədə qalmışdı. Baş verənlər haqqında yazmaq barədə xahişimi nəzakətlə yerinə yetirdiyi üçün cənab Roland Uollisə minnətdaram. O, təəssüratlarını mənə gündəlik şəklində göndərmişdir[102].

* * * *

2 sentyabr (şənbə). — Maştağada sakit həftə sonu keçirmək üçün axşam saat 5.18 qatarı ilə şəhərdən çıxdım, lakin yalnız "Bakı-Rus Neft Şirkəti"nin Zabrat emalatxanalarına çatanda eşitdim ki, tatar-erməni düşmənçiliyi yenidən başlayıb — bu dəfə şəhərin mərkəzində və mən yola düşməzdən cəmi təxminən on beş dəqiqə əvvəl. Ona görə də Uillansın yanında qalıb hadisələrin gedişatını gözləməyi qərara aldım. Həmin vaxt Balaxanıda yeddi ingilis var idi — Uillans, Makkallum, Merryat, Mörtə, Kerd, Çembers və mən — Birləşmiş Krallığın hər bir tərkib hissəsini təmsil edirdik.

4 sentyabr (bazar ertəsi). — Şəhərdən xəbər belə idi ki, atışma və döyüş hələ davam edir, ona görə də Uillansın yanında qalmağı qərara aldım. Saat doqquzdan bir az sonra Aramazd tərəfdən atəş eşitdik və atışma ümumi xarakter aldığından Uillans köməkçiləri Çembers və Kerdə telefon edib yanına gəlmələrini istədi. Sonra ehtiyat içməli su gətirməyə çalışdıq, lakin müvəffəq olmadıq, buna görə də atlara başqa (içməli olmayan) su verməyi qərara aldıq. Bir neçə erməni bizi tərk etdi; emalatxanalar isə nahar fasiləsinə qədər işlədi, lakin sonra iş bərpa edilmədi. Günortadan bir az sonra ilk yanğın başladı və çox qısa müddətdə səkkiz ayrı-ayrı yanğın gördüm, lakin güclü külək əsdiyindən tezliklə tamamilə qatı tüstüyə büründük. Həyətdə kiçik bir yanğın oldu: o, uçuşan qığılcımlardan başlamışdı və tezliklə söndürüldü. Telefon fasiləsiz işləyirdi, lakin həmişə eyni xəbər: filan sahənin yaxınlığında yanğın başlayıb və onu söndürməyə cəhd edən hər kəsə dərhal atəş açılır. Günortadan sonra telefon əlaqəsi, hətta Balaxanının daxilində də, kəsildi və biz bütün xarici xəbərlərdən təcrid olunduq.

5 sentyabr (çərşənbə axşamı). — Gecə külək tamamilə istiqamətini dəyişdi və bütün gün boyu Bakıda məşhur olan "Nord" toz fırtınası ilə birlikdə əsdi. Bazar ertəsi və çərşənbə axşamının dəyişkən və güclü küləkləri üzündən alov heyrətamiz sürətlə yayılırdı. Səhər tezdən Çembers və Kerd yola düşüb öz sahələrinə çatmağa çalışdılar. Sonra öyrəndik ki, onlar nə oraya

[102] Uollisin gündəliyində tarixlər yeni (Qriqorian) üslubla verilmişdir: 2 sentyabr köhnə üslubla 20 avqusta, 7 sentyabr isə 25 avqusta uyğundur. Fəslin sonunda verilən erməni məktubunda isə tarixlər köhnə üslubladır (23 avqust = 5 sentyabr). — *Tərc.*

çata, nə də geri qayıda biliblər, lakin sağ-salamat şəhərə çatmağı bacarıblar. Sonra tatar fəhlələr gəlib bizdən onları çörəklə təmin edəcəyimizə zəmanət istədilər. Təbii ki, biz bunu edə bilməzdik və onlar hamılıqla bizi tərk etdilər. Bu, narahatedici təsir bağışladı. Bizim sayımız onda təxminən 300 idi, əsasən ruslar, təxminən bir düjün erməni və yarım düjün ləzgi gözətçi (müsəlman). Saat 11 radələrində bir neçə tam silahlı tatar (qonşu evlərdən) içəri girib ermənilərin təhvil verilməsini tələb etdilər. Cavab verdik ki, bizdə heç kim yoxdur; bundan sonra onlar bütün evi axtardılar. Bizi Zabrat kəndinə və ya Maştağaya müşayiət etməyi təklif etdilər, lakin Uillans getməkdən imtina etdi. Onda bizi əmin etdilər ki, ermənilərə gizlətmədiyimiz müddətcə tamamilə təhlükəsizik. Çətinlik də məhz burada idi və vəziyyətimizi bu qədər təhlükəli edən də bu idi.

Günortadan sonra tezdən, təxminən bir saat davam edən güclü atışmadan sonra Mantaşevin Zabrat kazarmalarının hücumla alındığını gördük. Onlar təxminən dörddə üç mil uzaqda idi, lakin hücum edənlərin qışqırıqlarını aydın eşidirdik. Yer dərhal talan edilib od vuruldu. Bir saat sonra bir fəhlənin (görünüşcə rus idi, lakin sonra məlum oldu ki, erməni imiş) düzənlik boyunca bizə tərəf qaçdığını gördük. O, 150 yarda qədər yaxınlaşdı, sonra, görünür, bəzi tatarların silahlarının nişanında olduğunu görüb qəfildən geri dönərək Aramazda tərəf qaçdı; tatarlar dərhal ona atəş açdılar. Bir müddət yerə uzandıqdan sonra qalxıb düz tatar evinə tərəf getdi və bu dəfə ermənilər atəş açdılar[103]. Bu, tərəddüd edənin həlak olmasının açıq-aydın nümunəsi idi: müxtəlif tərəflərdən atəşə tutularaq tezliklə ölümcül yaralanıb yıxıldı, lakin gecəyə qədər can üstə qaldı; yalnız qaranlıq düşəndə bədbəxtin əzabına son qoymaq mümkün oldu.

6 sentyabr (çərşənbə). — Tövləçilərdən biri şəhərə məktub aparmağa razı oldu və səhər tezdən yola düşdü. Bu səhər içməli su gətirmək üçün vedrələrlə kənar quyulara gedən rus fəhlələrimizə ermənilər atəş açdılar və onları geri dönməyə məcbur etdilər, lakin bundan başqa səhər hadisəsiz keçdi. Günortadan sonra Aramazdın buruqlarının yandığı görüldü. Külək xeyli zəifləmiş və onların məhəlləsindən o tərəfə əsdiyindən, ehtimal ki, mülkdəki fəhlələr buruqları özünümüdafiə məqsədilə özləri yandırmışdılar. Bir az sonra bir düjünə yaxın adam düzgün "Qırmızı kitab" üslubunda atəş açaraq irəlilədi[104]. Onlar düz bizə tərəf gəlirdilər; məqsədləri, ehtimal ki, Mantaşevin mülkünə son xilas hamləsi etməzdən əvvəl divarlarımızın himayəsinə sığınmaq idi. Onlar bizim emalatxanalara qədər olan məsafənin təxminən yarısını keçib geri çəkildilər. Məhz bu zaman ləzgi gözətçilərimizdən biri başını divardan çıxaranda alnından güllə ilə vuruldu. Qaranlıq düşəndə qasidimiz, bir Kazan tatarı (müsəlman), geri qayıtdı, lakin əynində yalnız köynək vardı və əlində cənab Urkartın xətti ilə Uillansın adına ünvanlanmış boş bir zərf gətirmişdi. Beləliklə, məktubumuzun çatdırıldığını bildik, lakin bu, bizə o qədər də təsəlli vermədi, çünki adam şəhərdə işlərin daha pis olduğunu dedi.

7 sentyabr (cümə axşamı). — Bu gün hadisələr ən yüksək nöqtəyə çatdı. Ərzaqımız tükənmişdi; səhər yeməyinə hər birimizə bir yumurta düşdü, lakin etiraf etməliyəm ki, artığına iştahımız yox idi. Səhər tezdən Aramazdın məhəlləsinin alov içində olduğu görüldü, lakin

---

[103] Gündəliyin bu və sonrakı yerləri göstərir ki, mədənlərdə atəşi yalnız bir tərəf açmırdı: erməni döyüşçüləri bu qaçan ermənіyə, ertəsi gün isə su gətirməyə gedən silahsız rus fəhlələrinə də atəş açmışdılar. — *Tərc.*

[104] "Qırmızı kitab" — yəqin ki, rus ordusunun piyada nizamnaməsinə işarədir; yəni hücum edənlər nizami qoşun kimi, növbə ilə atəş açaraq irəliləyirdilər. — *Tərc.*

adamlardan əsər-əlamət yox idi; onlar, ehtimal ki, gecə Mantaşevin mülkünə keçmişdilər, baxmayaraq ki, bu, böyük çətinliklə bağlı olmalı idi, çünki yanan ambarların və rezervuarların tüstüsü çəkiləndə bütün ərazi gündüz kimi işıqlanırdı. Çox keçmədən önümüzdəki bütün düzənlik tatarlarla doldu və Pitoyevin mülkündən gələn çarpaz atəş tamaşaçı kimi qalmağı məsləhətsiz etdi. Atəş dayananda gördük ki, Pitoyevin zavodu talan edilir və yanır. Bir az sonra yaxında əlli kazak göründü, lakin demək olar ki, dərhal Zabrata tərəf uzaqlaşdı. Tatarların çoxu geri çəkilməyə başlamışdı, lakin kənar kəndlərdən olan, bizə tamamilə tanış olmayan və görünür, fanatik şəkildə həyəcanlanmış təxminən 100 nəfər emalatxanalarımızı mühasirəyə aldı. Onlar kiçik bir erməni içki dükanını sındırıb rus fəhlələrimizi içkidən götürməyə dəvət etdilər. (Müsəlman dini spirtli içki içməyi qadağan edir.) Onlar dükana od vurdular və dərhal sonra həyətimizi ələ keçirdilər. Gözətçilərlə (müsəlmanlarla) qızğın mübahisədən sonra — gözətçilər öz dinlərinə and içirdilər ki, bizim otaqlarda erməni yoxdur — onlar otaqlarımıza girmək cəhdindən əl çəkib binaların qalan hissəsini axtarmağa başladılar. Səkkiz erməni (onlardan beşi şirkətin kontor işçisi idi) tapıldı və revolveri olanlar onları dərhal güllələdilər, xəncər daşıyanlar isə əksər hallarda sonradan onların sinəsini bir neçə dəfə doğradılar. Belə qeyri-insani qırğına passiv şahid olmaq dəhşətli idi, lakin heç nə etmək mümkün deyildi; buna dəlil budur ki, bizdən cəmi bir neçə yüz yard aralıda, Mantaşevin mülkündə ən azı 300 tam silahlı erməni var idi[105]. Bu qırğın bitəndən sonra ilk gündən həyətimizdə erməni olmadığını iddia edən gözətçilərlə dəhşətli dava düşdü. Kəskin sözlər işlədildi, lakin nəhayət, bizim böyük rahatlığımıza, tatarlar uzaqlaşdılar. Məlum oldu ki, kontor işçilərindən birini xüsusilə ələ keçirmək istəyirdilər, lakin onu tapmamışdılar; əslində o, sağ qalan üç nəfərdən biri idi, kənardan gəlmiş daha doqquz nəfər isə tapılmamış qaldı və sonradan Mantaşevin mülkünə müşayiət edildi. Burada baş faytonçunun, bir Kazan tatarının göstərdiyi böyük igidliyi qeyd etməliyəm: o, iki erməni qadını öz arvadları kimi geyindirdi. Həyətdəkilərin hamısı qadınların harada olduğunu təxmin edirdi və onun hiyləsi açılsaydı, bu, ani ölüm demək olardı[106].

Ən pisin geridə qaldığını təzəcə dərk etmişdik ki, artıq hamısı alovlanmış qonşu tatar evlərindən gələn yanğın bizi ciddi təhdid etməyə başladı; onlar erməni içki dükanından od almışdılar. Sonra gördük ki, Mantaşevin zavodunda ağ bayraq dalğalanır. Nəhayət, topla birlikdə təxminən 300 piyada gəlib çatmışdı və həmin andan bir dənə də atəş açılmadı, bir dənə də tatar görünmədi. Bu, təxminən saat 2-də olmalı idi. Ermənilər tərksilah edilib şəhərə müşayiət olundular. Komandirdən əsgər istədik. O, dəstəsini bölməkdən imtina etdi, lakin bizə Balaxanıda dağıntıdan xilas olmuş yeganə erməni müəssisəsi olan Mantaşevin mülkündə ona qoşulmağı təklif etdi. Lakin günortadan sonra müəyyən miqdarda çörək əldə etdik, bir neçə əlavə gözətçi tapdıq və işıqları yandırdıqdan sonra qalanlar arasında inamın bərpa olunduğu göründü. Xeyli adam mal-mülkü ilə stansiyaya getmişdi. Burada qeyd edim ki, yanacağımıza

---

[105] Müəllif fəslin başlığında “Tatar gözətçilər ermənіləri qoruyur” deyə qeyd etsə də, mətndə bu hadisənin mahiyyəti kifayət qədər vurğulanmır: müsəlman (ləzgi) gözətçilər öz dinlərinə and içərək silahlı dəstəni ingilislərin otaqlarına buraxmamış, sonra da gizlədilmiş ermənilərə görə həmin dəstə ilə “dəhşətli dava” etmişlər; şirkət müdiri Uillans da öz həyatı bahasına ermənіləri gizlədən tatardan bəhs edir. Qətli törədənlərin isə Uollisin sözlərinə görə “kənar kəndlərdən olan, bizə tamamilə tanış olmayan” adamlar olduğu göstərilir. — *Tərc.*

[106] Kazan tatarı da müsəlman türk idi. Beləliklə, Uollisin gündəliyində iki erməni qadınını həyatı bahasına xilas edən də, mühasirədəki ingilislərin məktubunu Bakıya çatdıran da, ingilislərin otaqlarını axtarışdan qoruyan da müsəlmanlardır. Bu faktlar müəllifin başqa yerlərdə “tatarlar” barədə işlətdiyi ümumiləşdirici qiymətləndirmələrlə ziddiyyət təşkil edir. — *Tərc.*

qənaət edirdik, cəmi bir yarım gecəlik işıqlandırmaya kifayət edəcək qədər yanacağımız var idi və əvvəlki gecələri kerosin lampaları və şamlarla keçinmişdik.

8 sentyabr (cümə). — Səhər saat 5 radələrində kifayət qədər güclü zəlzələ təkanı bizi oyatdı. Bir saat sonra Maştağadan cənab Urkart gəldi, onun ardınca tezliklə su və ərzaq gəldi. Bir qədər müzakirədən sonra getmək istəyən rus fəhlələri Ağ şəhərdəki, hər şeyin sakit olduğu Şibayev neftayırma zavoduna göndərməyi, bizim isə nəyin bahasına olursa olsun şəhərə getməyimizi qərara aldıq. Lakin bəzi fəhlələrin xudbin hərəkətləri və bizim qərarımızı onlara inamsızlıq kimi yozan gözətçilərin tutduğu mövqe üzündən nə cənab Urkart, nə də cənab Uillans getməyi riskə ata bilmədilər, buna görə də ertəsi günə qədər qalmağı qərara aldıq. Cümə günü yalnız Makkallum getdi, Urkart, Uillans və mən isə şənbə səhəri şəhərə yola düşdük. Lakin Uillans ertəsi səhər mədənə qayıtdı. Yol boyu demək olar ki, bir nəfər də görünmürdü; orda-burda dağıntıdan xilas olmuş evlərin pəncərələrində qorxmuş üzlər görürdük, lakin tüstü o qədər qatı idi ki, hər iki tərəfdə əlli yarddan o yana heç nə görünmürdü. Xarabalıqlar hələ də tüstülənirdi. Hadisədən sonra ağıllı olmaq asandır, lakin o beş günün ən dəhşətli tərəfi intizar və başqa yerlərdə həqiqətən nə baş verdiyini bilməmək idi. Fəhlələrin arvadları və qadın xidmətçilər ən böyük sınaq idi: özlərinin tamamilə qorxmuş olmaları ilə kifayətlənməyib, ən qan dondurucu şayiələr uydurub yaymaqla məşğul olurdular, o dərəcədə ki, çoxları onlara həqiqətən inanmağa başladı. Ən çətin hissə cümə axşamı günortadan sonra və cümə günü fəhlələrlə oldu. Əsəblər üzərindəki gərginlik aradan qalxdıqdan və öz postunda cəsarətlə qalaraq şirkətin əmlakını xilas etdikdən sonra Uillans fəhlələrə qarşı sərt ata rolunu oynamaq kimi heç də asan olmayan vəzifəni yerinə yetirməli oldu; fəhlələr ən uşaqcasına tələblər irəli sürür və iki dəqiqə ərzində fikirlərini bir yerdə saxlaya bilmirdilər. Nümunə olaraq qeyd edim ki, ailələrin bütün əşyaları ilə köçüb onları cümə axşamı iki dəfə və cümə günü yenə iki dəfə geri gətirməsi halları olmuşdu.

Cənab Urkartın xilas etdiyi adamlardan biri kimi, ona qarşı ədalət naminə onun Bakıdan Zabrata səfərindən bəhs etmədən bu hekayəni bitirə bilmərəm. Qəzetlər material əldə etmək həvəsi ilə bütün hadisəni absurd şəkildə şişirtmişlər. Bəzi qəzetlər silahlı izdihamlar arasından döyüşə-döyüşə yol açmağımızdan danışır və həmçinin cənab Urkartın Zabrata hər şey bitdikdən sonra gəldiyi bildirildiyindən, hiss edirəm ki, bu ziddiyyətli ifadələr onu gülünc vəziyyətə sala və İngiltərədə faktların təhrif edilməsinə səbəb ola bilər. Cənab Urkart Bakını cümə axşamı, həmin anın həyəcanı içində yazdığımız məktubu aldıqdan sonra tərk etdi. O, iki kazakla yola düşdü və arvadı kənar kəndlərdən birində olan bir rus da ona qoşuldu. Onun nəyə doğru getdiyi və əsir olduğumuz yerə çatana qədər nələrdən keçməli olacağı barədə qətiyyən təsəvvürü yox idi. Zabrata qərbdən yaxınlaşmaq və yanan neft mədənlərinin düz içindən keçməmək üçün geniş dairə vuraraq, o, təəssüf ki, düz geri çəkilən tatar dəstələrinin içinə düşdü və onun kiçik dəstəsi bir neçə dəfə tüfənglərin nişanına alındı. Məhz buna görə o, Zabrata gecədən əvvəl çata bilmədi. Sonra onun yol yoldaşını gördüm; o, bu səfəri həyatında bir daha, hətta yüz arvad üçün belə təkrar etməyəcəyini təsdiq edir. Onun dediyinə görə, sağ-salamat keçə bilmələri əsasən cənab Urkartın onların dilini mükəmməl bilməsi, həm də böyük ölçüdə Qafqaz həyatını müstəsna dərəcədə yaxşı tanıması sayəsində olmuşdur; bu bilik sayəsində o, xalqla ünsiyyətində bir başçının, səlahiyyəti olmasa da, görkəmini əldə etmişdir. Bu imkandan istifadə edərək — və indi özüm və yoldaşlarım adından yazıram — qeydə almaqdan son dərəcə məmnunam ki, bu, cəsarətlə edilmiş cəsarətli bir əməl idi.

* * * *

Cənab Uollis ingilislərin başına gələnlərin canlı təsvirində bəzi həmvətənlərimizin erməni qulluqçularını qorumaqdan imtina etdiyi və ya buna etinasızlıq göstərdiyi, hətta onların bəzilərini düşmənlərinə təhvil verdiyi barədə ağır və geniş yayılmış ittihamı təkzib edən bəzi faktlar göstərir. "Bakı-Rus Şirkəti"nin mədən müdiri cənab Uillans da eyni mövzuda yazmış və Zabratdakı mülkdə baş verənlərlə bağlı bəzi yanlış ifadələri təkzib etmişdir. Cənab Uillans qətiyyətlə qeyd edir ki, mülkün sahə müdiri (bir ingilis) və digər işçilər sahəyə sığınan ermənilərin həyatını xilas etmək üçün mümkün olan hər şeyi, hətta qeyri-mümkün görünən bəzi şeyləri də etmişlər. Onlar bir neçə ermənin həyatını xilas etməyə müvəffəq olmuşlar; onları gizlətmiş və təhvil verməyərək öz həyatlarını təhlükəyə atmışlar. Doğrudur ki, təxminən səkkiz erməni tatarlar tərəfindən tapılıb qətlə yetirilmişdir, "lakin, — deyə cənab Uillans yazır, — onları xilas etmək insan imkanı xaricində idi, çünki yadda saxlamaq lazımdır ki, bizim heç bir müdafiəmiz yox idi və kənardan kömək almırdıq". Sözünə davam edərək o deyir: "Əlavə etməyi zəruri sayıram ki, Aramazd sahəsindən açılan bir atəş bizim mülkdə gizlədilmiş ermənilərdən birini təhvil verməkdən imtina etmiş bir tatarı öldürdü[107]. Ehtirasların bu qədər qızışdığı indiki kimi bir vaxtda ifadələrin sitat gətirilməsində və dərc edilməsində ehtiyatlı olmaq, sözlərin işlədilməsində isə son dərəcə diqqətli olmaq lazımdır. Qərəzsiz oxucular 'centlmen ingilis' barədə istehzalı şərhlərin nə qədər ədalətsiz olduğunu başa düşəcəklər. Vicdanımız təmizdir; günahsız insanların həyatını xilas etmək üçün əlimizdən gələni etdik."

* * * *

İngilis müdirlərə qarşı ittihamlar "Bakı" (erməni) qəzetində dərc edilmişdi. "Avropa Neft Şirkəti"ndə işləyən bir ermənin yazıb həmin qəzetə göndərdiyi inandırıcı izah və təkzib məktubu rədd edildi. Bu fakt sədr cənab H. Payk Piz, parlament üzvünün nəzərinə çatdırıldıqdan sonra məndən bu dərc edilməmiş məktuba bu kitabda yer verməyim xahiş edildi. Onu aldığım kimi, dəyişdirmədən verirəm[108]:

> "Hörmətli cənab, 30 avqust tarixli qəzetinizdə xəbər verirsiniz ki, 'Avropa Neft Şirkəti'nin mülkündə işləyən ermənilərin cinayətkarlar tərəfindən məhv edilməsinin səbəbi bu şirkətin onların müdafiəsi üçün lazımi tədbirlər görməməsi olmuş, həmçinin onların məhvinin səbəbkarı ləzgi gözətçilər olmuşlar. Bu xəbərlərin müəllifinin heç bir faktiki sübutu olmadığından və o, ona çatdırılan hadisələrin doğruluğunu yoxlamadan bu xəbərləri yalan şayiələrə əsaslandırıb dərc etməyə yol verdiyindən, mən həqiqəti aydınlaşdırmaq və firmamızın və xeyirxah rəislərimizin şərəfini bərpa etmək üçün sizdən aşağıdakı məktubu ən yaxın nömrələrinizdən birində dərc etməyinizi xahiş edirəm:
>
> 23 avqustda (çərşənbə axşamı) səhər tezdən 'Avropa Neft Şirkəti'nin müdiri cənab Finberq onun himayəsinə tapşırılmış mülklərdəki erməni qulluqçuların üzləşdiyi yaxınlaşan təhlükədən xəbər tutan kimi dərhal şəhəri tərk etdi və mülklərə çatan kimi

---

[107] Yəni ermənini gizlədən və onu təhvil verməkdən imtina edən bir müsəlman Aramazd sahəsindəki erməni döyüşçülərinin açdığı atəşlə həlak olmuşdur. — *Tərc.*

[108] Bu məktubda da diqqəti çəkən cəhət budur ki, erməni müəllifin özü də erməni qəzetinin ləzgi gözətçiləri ittiham etməsini əsassız şayiə adlandırır. Erməni mətbuatının yoxlanılmamış ittihamlar dərc edib təkzibi rədd etməsi faktı müəllifin özünün də əsasən erməni mənbələrinə istinad etdiyi nəzərə alınmaqla əhəmiyyətlidir. — *Tərc.*

müxtəlif sahələrə səpələnmiş bütün bu ermənilər dərhal kontora topladı, oradan isə onları bütün digər evlər arasında ən təhlükəsiz yer sayılan müdirin evində gizlətdi. Sonra cənab Finberq işçilərindən birini çoxlu ermənilərin toplaşdığı Neft Hasilatçıları Qurultayı Şurasına (Sovet Syezda) göndərib bizi qəbul etməyə razı olub-olmadıqlarını soruşdu və razılıq aldıqdan sonra bizə, ermənilərə, gizləndiyimiz evdən o qədər də uzaq olmayan Sovet Syezdaya öz gözətçilərimizin müşayiəti ilə və şəxsən özü ilə birlikdə getməyi təklif etdi, gözətçilərə müşayiət üçün çox böyük mükafat vəd etdi. Onun israrlı xahişlərinə və yalvarışlarına baxmayaraq, yolda müxtəlif tatar dəstələri tərəfindən öldürülə biləcəyimizdən qorxaraq evdən çıxmadıq. Beləliklə, cənab Finberq səhər saat 9-dan günorta saat 2-yə qədər bizimlə qalıb onunla birlikdə Sovet Syezdanın binasına getməyimiz üçün yalvarır və israr edirdi, bizi xəbərdar edirdi ki, burada, bu evdə məhv ola bilərik, çünki bir neçə dəfə tatar dəstələri bu sahənin ətrafına gəlib bütün binaları axtarırdı və bizi arayırdı; lakin, böyük bədbəxtliyimizdən, ona qulaq asmadıq və müdirin evində qaldıq.

Bizi razı sala bilməyən cənab Finberq mülkdən getməzdən əvvəl yenidən, az qala gözlərində yaşla, bizə yalvarıb onunla birlikdə Sovet Syezdaya keçmək üçün bir cəhd etməyimizi xahiş etdi, lakin bu dəfə də onun yalvarışları əbəs oldu.

Cənab Finberq mülkdən gedəndən bir müddət sonra bizi evə soxulan təxminən otuz tatardan ibarət bir dəstə mühasirəyə aldı. Gözətçilərimiz azsaylı olduqlarından bizi müdafiə etmək iqtidarında deyildilər. Bu anda Balaxanı müdirinin xidmətçisi məni bir gizli çuxura atıb orada gizlətdi. Bundan sonra tatarlar evə soxulub bizdən dördünü öldürdülər, birini yaraladılar.

Mən mülklərin idarəsi sayəsində xilas oldum; onlar gecə məni bu çuxurdan çıxardılar və iki gün məni yedizdirib müxtəlif yerlərdə gizlətdilər. Nəhayət, 26 avqustda mülklərin rəhbərliyi kazak müşayiəti almağa nail oldu və onların köməyi ilə mən, köməkçi maşinistin arvadı iki uşağı ilə və erməni qapıçımızın oğlu olan bir yeniyetmə polis məntəqəsinə müşayiət edildik, oradan sağ-salamat şəhərə gəldik; beləliklə, biz beş nəfər cənab Finberqin və ‘Avropa Neft Şirkəti’ rəhbərliyinin səyləri və gördükləri tədbirlər sayəsində xilas olduq və bu fürsətdən istifadə edərək xilas olanlar adından və öz adımdan onlara ürəkdən təşəkkürümüzü bildirirəm.

‘Avropa Neft Şirkəti’ Limitedin mülkündə baş kontor işçisi (İmza) Sitrak Ter-Astvatsaturov.”

Qırğınlardan sonra Londonda keçirilmiş “Avropa Neft Şirkəti” səhmdarlarının yığıncağında sədr cənab H. Payk Piz, parlament üzvü dedi: “Heyətimizin bir neçə üzvü, o cümlədən cənab A. C. Parkerin köməkçisi cənab Finberq, cənab Şvarts və cənab Manikoviç, hər tərəfdə adamlar qətlə yetirilərkən öz həyatlarını təhlükəyə ataraq mülklərimizi igidliklə müdafiə etmiş və qorumuşlar.” Səhmdarlar bu bəyanatı bəyəndiklərini aşağıdakı qətnaməni qəbul etməklə göstərdilər: “Bu yığıncağın ən səmimi təşəkkürü köməkçi müdir cənab Finberqə, cənab Şvarts və cənab Manikoviçə və şirkətin Bakıdakı digər işçilərinə son Bakı iğtişaşları

zamanı şirkətin əmlakının qorunmasında şəxsi risk bahasına göstərdikləri dəyərli xidmətlərə görə bildirilsin.”[109]

[109] Kitabda bu yerdə 202-ci səhifənin qarşısında bir fotoşəkil lövhəsi var; onun altındakı yazı: “Yüzlərlə müxtəlif fotoşəkil bu böyük neft mədənlərinin bütün hissələrində dağıntının nə qədər tam olduğunu göstərir. Hər yerdə dağılmış buruqlar, emalatxanalar və kontorlar.” — *Tərc.*







Yüzlərlə müxtəlif fotoşəkil bu böyük neft mədənlərinin bütün hissələrində dağıntının nə qədər tam olduğunu göstərir. Hər yerdə dağılmış buruqlar, emalatxanalar və kontorlar.

XIX fəsil. Bibiheybət

Qırğınlar haqqında rəsmi hesabat — Ermənilər kazak düşərgəsinə atəş açırlar — Bombalarla müharibə — İngilis-rus mülkləri yandırılır — Əsgər paltarında ermənilər — Tayn sahillərindən cənab Rey hadisələrin mərkəzində — Varşava və Bakı — Diqqətəlayiq bir əmr — Xəbərdarlıqsız atəş açmaq əmri — "Qalsalar, onları öldürəcəyik" — Ermənilərin vadidən qaçışı — Cənab Mançonun cəsarətli hərəkəti — Fransız müdirin qətli — Üç erməni və üç kazak — Bəxşişlə xilas edilmiş həyatlar — Telefon işləyir — Erməni oğlanın intiqamı — Dəniz quldurları — Buxar katerı və şxuna silahlı tatarları sahilə çıxarır.

Bakı qəzası rəisinin 3–12 sentyabr arasında Bibiheybətdə baş vermiş hadisələr haqqında general-qubernatora hesabatı[110].

3 sentyabr. — Axşam saat doqquz ilə on arasında Pitoyev mülkünün yaxınlığında baş verən atışma Bibiheybət əhalisi arasında narahatlıq hissi yaratdı. Həmin vaxt "Tiflis Şirkəti"nin kazarmasındakı ermənilər dəniz sahilindəki kazak düşərgəsinə atəş açdılar. Rəislərinin əmri ilə kazaklar yaylım atəşi ilə cavab verdilər. Bundan sonra Pitoyev və Mirzoyev zavodlarından ermənilərin izdihamlarının Afanasyev kazarmalarına doğru hərəkət etdiyi görüldü; oradan da qoşunlara atəş açıldı. Baş verənlər barədə teleqrafla məlumat alan pristav hər iki binanın dərhal axtarılmasını əmr etdi. Qoşunlar iki tüfəng və doxsan patron, üç revolver və iki yüz patron, iki xəncər və üç qutu tüstüsüz barıt tapdılar. "Tiflis Şirkəti"nin kazarmasındakı ermənilər həbs edildi.

4 sentyabr. — Günorta Bibiheybətin bir çox yerində atışma başladı və "Gefest" zavodunun bir buruq ustası "Kaspi Şirkəti"nin sahəsinin yaxınlığında öldürüldü. "Şıxovo Şirkəti"nin mülkündə işləyən ermənilərin verdiyi ifadələrə görə, bu qətli qaçıb gizlənmiş tatarlar törətmişdilər. Onların dediyinə görə, atışma "Şıxovo" və "Kaspi" şirkətlərinin mədənlərindəki ermənilərlə tatarlar arasında baş vermişdi. İyirmi beş kazakla bir polis nəzarətçisi hadisə yerinə getdi və tezliklə asayişi bərpa etdi. Ermənilərin göstərdiyi iki tatar həbs edildi. Günortadan sonra saat dörddə iki qətl törədildi: qurbanlardan biri Şibayev Neft Şirkətinin qazan ustası, digəri "Rus Neft Şirkəti"nin bir fəhləsi idi.

5 sentyabr. — Pristavın xahişi ilə Bibiheybətdəki kazak dəstəsi bir dəstə dənizçi ilə gücləndirildi. Bu dəstə tatarlarla ermənilər arasında toqquşmanın qarşısını almaq üçün fəhlə kazarmalarının yaxınlığında, Mantaşev meydanında düzüldü, kazaklara isə bütün Bibiheybətin şimal hissəsində patrul xidməti tapşırıldı. Rayonun cənub hissəsində Bibiheybət su kəmərinin qurğularına od vuruldu və müdir mühəndis Timoni öldürülüb meyiti alova atıldı. Gecə yarısına yaxın "Soyuz" (İttifaq) mülkündə iki quyu, "Bakı-Rus Neft Şirkəti"nin mülkündə bir buruq və Mantaşevin mülkündə dörd buruq yandırıldı. Buradan alov küləklə Londonun "Bibiheybət Neft Şirkəti"nin mülkünə keçdi; orada elektrik stansiyası, iki Zubalov buruğu və bir o qədər də "Xəzər və Qara dəniz" buruğu yandı. Xatisov zavoduna od vuruldu və iki erməni öldürüldü; onlardan biri Nobel mülkündə zirzəmidə tapılmış Xatisov zavodunun müdiri idi.

---

[110] Bu fəslin ilk hissəsi rus rəsmi hesabatının tərcüməsidir və müəllifin əvvəlki fəsillərdə əsasən istifadə etdiyi erməni mənbələrindən fərqli olaraq, hadisələri hər iki tərəfin hərəkətləri ilə təsvir edir: atışmanı Tiflis Şirkətinin kazarmasındakı erməni silahlılarının kazak düşərgəsinə atəş açması başlatmış, erməni kazarmalarında bombalar, tüfənglər və tüstüsüz barıt tapılmış, əsgər paltarı geyinmiş ermənilərin müsəlmanlara atəş açması barədə xəbəri ingilis müdir Rey təsdiq etmişdir. Tarixlər yeni üslubladır (3 sentyabr = 21 avqust köhnə üslubla). — *Tərc.*

6 sentyabr. — Yanğınlar davam edirdi və rayonun hər yerində atəş səsləri eşidilirdi. Bu gün iki tatar və bir neçə rus fəhləsi polis nəzarətçisinə bildirdilər ki, Milov və Tairovun kazarmalarından əsgər paltarı geyinmiş ermənilər müsəlmanlara atəş açırlar — bu xəbər Londonun "Rus Nefti və Maye Yanacaq Şirkəti"ndə işləyən müsəlman fəhlələr arasında son dərəcə böyük həyəcan yaratdı. Bunu "Rus Yanacaq Şirkəti"nin mədən müdiri cənab Rey[111] təsdiq etdi. Otuz kazakla gələn polis nəzarətçisi atışmanı dayandırdı və əsgər paltarı geyinmiş ermənilərin olduğu deyilən Milov və Tairov kazarmalarını axtararkən iki bomba və bir neçə tüfəng, revolver və xəncər tapdı. Axşam kənd polisinin rəisi on beş kazakla mədənləri gəzdi. Muxtarovun fəhlələrinin yanına gedib onlardan ermənilərlə döyüşməkdən çəkinəcəkləri barədə söz aldıqdan sonra kazak kazarmasına qayıtdı. Elə bu zaman "Naftalan" və Kalantarov kazarmalarında atışma başladı. Nəzarətçi əlli kazak və bir dəniz dəstəsi ilə düz hadisə yerinə getdi, rəis isə adamların üstünə qəfildən çıxmaq üçün dolama yolla getdi. Su anbarının yaxınlığında qoşunlara atəş açıldı, onlar beş yaylım atəşi ilə cavab verib iğtişaşçıları hər tərəfə dağıtdılar.

7 sentyabr. — Yanğınlar davam edirdi. Günortaya yaxın, yanğınlardan biri ən şiddətli şəkildə alovlanarkən, bir dəstə ilə Bibiheybətə gəlmiş bir dəniz zabiti nəzarətçiyə bildirdi ki, yuxarı rəhbərlik ona dəniz dəstəsini Mantaşev meydanından Bayıla daha yaxın bir nöqtəyə köçürməyi tapşırıb. O, dəstənin komandirinə bu barədə bir yazılı göstəriş verdi. Polis nəzarətçisi zabitdən kazarmanı tərk etmək istəyən Mantaşev ermənilərini də özü ilə aparmasını xahiş etdi. Bu, edildi. Dəniz dəstəsi Bayıl polis məntəqəsinə ermənilər tərəfindən atıldığı güman edilən bir bomba təhvil verdi.

8 sentyabr. — Səhər nəzarətçi tərk edilmiş mülklərin talan edilmədiyinə əmin olmaq və qalanları sakitləşdirmək məqsədilə Bibiheybəti gəzdi. Kalantarov mülkündə kazaklar bir yaşayış binasının ocaqlarından birində iki bomba tapdılar. Məntəqəyə qayıdarkən nəzarətçi bir jandarm zabiti ilə rastlaşdı; onun yanında bir rus oğlan Milov və Tairov kazarmalarında dörd bomba gizlədildiyini bildirdi. Nəzarətçi və zabit kazak müşayiəti ilə kazarmalara getdilər və bombaları Milov və Tairov şirkətlərinin kontorlarının yaxınlığında tapdılar. Başqa bombalar da aşkar edildi. Gün boyu yanğınlar davam etdi, lakin daha kiçik miqyasda.

9 sentyabr. — Yanğınlar tədricən səngidi. Nəzarətçi səhər gəzintisi zamanı Zubalov mülkündə mədən avadanlığını oğurlayan on altı İran təbəəsini[112] həbs etdi.

10 və 11 sentyabr. — Yeni yanğın olmadı; 7-sinə qədər alovlanmış hər şey yanıb sönürdü.

12 sentyabr. — Səhər tezdən (saat dörddə) Muxtarovun zavodunda axtarış aparıldı, lakin üç tüfəng, üç revolver, üç xəncər və bir neçə patrondan başqa ittihamedici heç nə tapılmadı.

---

[111] Cənab Rey (bir vaxt Tayn üzərində Nyukaslda mühəndis olmuşdur) Bibiheybətdə sahə müdiri olduğu "Rus Nefti və Maye Yanacaq Şirkəti" haqqında yanlış bir ifadəni açıq şəkildə düzəltmişdir. O, qətiyyətlə təkzib edir ki, onun mülkündəki gözətçilər kimisə doğrayıb qarnını yarmışlar; onun sözlərinə görə, mülkdə ermənilər axtarılmamış və heç bir erməni təhvil verilməmişdir. Onun mülkündəki bütün erməni fəhlələr sağ və salamat idi. "Bakı" qəzeti səhvi düzəldərək deyir ki, hadisə Bibiheybətdə deyil, "Bakı-Rus Neft Şirkəti"nin Balaxanı mülkündə baş verib, lakin oxucularım xatırlayacaqlar ki, əvvəlki səhifələrin birində sonuncu şirkətin müdiri cənab Uillans bəzi ingilislərin ermənilərə tatarlara təhvil verməsi barədə ittihamı təkzib etmişdir. [Tərcüməçinin qeydi: beləliklə, müsəlman gözətçilərin vəhşiliyi barədə erməni qəzetinin yaydığı bu xəbər də təkzib olunmuşdur.]

[112] "İran təbəələri" — Bakı mədənlərində işləyən mövsümi fəhlələrin böyük hissəsi Cənubi Azərbaycandan gəlmiş azərbaycanlılar idi; onlar rəsmi sənədlərdə "İran təbəələri" kimi qeyd olunurdular. — *Tərc.*

Gün sakit keçdi. Gecə Zubalov mülkündə bir fontan vurmağa başladı. Tüstülənən taxta qalaqlarının üzərinə leysan kimi tökülən neft yeni yanğına səbəb oldu.

* * * *

Varşava qubernatoru qoşunlara iğtişaşçılara atəş açmağı əmr edən məşhur bəyannaməsini verəndə bizim ölkədə böyük hay-küy qopdu və atəş əmrinin ifadə edildiyi dili pisləyən az şey yazılmadı. Mən ilk dəfə ingilis dilində Bibiheybətə aid olan, Salyan ehtiyat piyada alayından polkovnik Valter, Bakı hərbi qarnizonunun komandiri tərəfindən verilmiş oxşar bir əmri dərc edirəm. O, 4 sentyabrda verilmiş və belə idi:

> "Əmr edirəm ki, general-qubernatorun göstərişlərinə ciddi uyğun olaraq, sayı əllidən az olmayan bir dəniz piyadası dəstəsi Bibiheybətdə fasiləsiz patrul xidməti aparsın. Qoşun dəstələrinin komandirlərinə əmr edirəm ki, general-qubernatorun göstərişlərini ciddi yerinə yetirsinlər: hər hansı bir evdən atəş açılarsa, qoşunlar dərhal atəş açılan pəncərəyə və ya eyvana nişan alınmış atəşlə cavab verməli və atəş açanları həbs etməlidirlər. Lakin atəş açan şəxs gizlənərsə və ev sahibi onu təhvil verməkdən imtina edərsə, ev sahibi həbs edilməlidir. Əgər iğtişaş törətmək niyyəti ilə izdiham toplaşarsa, xəbərdarlıqsız atəş açın; izdiham toplaşan kimi dərhal mənə məlumat verin ki, dərhal artilleriya göndərə bilim. Dünən iğtişaşçılar Labinsk alayının 3-cü dəstəsinə, Dağıstan alayının kazarmasına və batareya həyətinə atəş açdıqları zaman təcavüzkarlara qarşı artilleriya atəşi açılmamasına təəssüfümü bildirirəm."

* * * *

Şəhərdə iğtişaşlar başlayanda Bibiheybətdəki müsəlmanlar yığıncaq keçirib qərara aldılar ki, mədəndə bir nəfər də olsun erməni qalmasına icazə verilməsin. "Qalsalar, onları öldürəcəyik", — deyə onlar müdirlərə bildirdilər. 4-ündə "Kaspi Şirkəti"nin bir buruq ustası və bir fəhləsi, hər ikisi erməni, əsas yolda öldürüldü və ermənilərin qırğınına açıq hazırlıq görülürdü. Şəhərdə başlamış mübarizə xəbəri sevinc nidaları ilə qarşılandı. Bu arada müdirlər telefonla hərbi müdafiə istəsələr də, yalnız onu öyrəndilər ki, heç bir əsgər göndərilə bilməz, çünki şəhərin, Balaxanının və Sabunçunun müdafiəsi üçün belə kifayət qədər əsgər yoxdur. Dəhşətə gəlmiş ermənilər Bibiheybəti tərk edib buruqlarla dolu vadiyə baxan təpə olan Bayıla qaçmağa başladılar[113].

Ermənilərin Bibiheybət vadisindən qaçışı dəhşətli mənzərə idi. Hər cür nəqliyyat vasitəsi — yüngül faytonlar və ağır mədən arabaları — qadınlar və uşaqlarla dolu, qorxmuş atların çəkdiyi halda təpəyə doğru sıxlaşırdı. Kişilər və qadınlar ağır yüklər altında səndələyə-səndələyə gedir, uşaqlar isə ağlaya-ağlaya yanlarında qaçırdılar. Təpənin başında Bibiheybətdən gələn izdihamlar Bayıldan qaçmağa hazırlaşanlara qoşuldu. Onlar şimal fırtınasının bütün qəzəbi ilə üzləşməli oldular və küləyin qovduğu, gözləri kor edən qum buludları qaçışın dəhşətlərini artırırdı.

Bir şahid deyir: "O dəhşətli gecə gördüklərim mənə barbarların hücumuna məruz qalmış qədim xalqların qaçışı haqqında oxuduğum təsvirləri xatırladırdı." Ermənilər böyük dəstələrlə hərəkət edərkən tatarlar onlara hücum etmirdilər, lakin izdihamdan ayrılan hər hansı bir bədbəxt

---

[113] Müəllif bu hissədə (rəsmi hesabatdan fərqli olaraq) mənbəsini göstərmir. Müsəlmanların yığıncağı və "qalsalar, onları öldürəcəyik" sözləri barədə məlumat yoxlanıla bilməz; rəsmi hesabatda bu barədə heç nə deyilmir. — *Tərc.*

erməni üçün güllə həmişə hazır idi. “Bibiheybət Neft Şirkəti”nin mədən müdiri, London neft dairələrində yaxşı tanınan cənab Mançonun Bibiheybətdən bir erməni tələbəni şəhərə aparması cəsarətli bir əməl idi. Xatisov zavodunda ermənіyə bənzəyən müdir, bir fransız, yanan mənzilini tərk etməyə məcbur oldu. O, küçədə xəncərlə vurulub öldürüldü.

Erməni fəhlələr Xatisov zavodundan qaçandan sonra bir mexanik kazarmada qaldı. Şəhərə çatanlardan bəziləri onun təhlükəli vəziyyəti barədə polisə məlumat verib kömək istədilər, lakin kömək göndərilmədi. Onun qardaşı dost ləzgilərin müşayiəti ilə ona kömək etməyə getdi[114]. O, sağ tapılıb sahilə endirildi, lakin Nobel mülkünün yaxınlığında kiçik qayığa minəndə bir neçə tatar onu güllələyib öldürdü[115].

[114] Diqqət yetirilməlidir ki, erməni mexaniki xilas etməyə polis deyil, “dost ləzgilər” — müsəlmanlar — kömək etmişlər. — *Tərc.*

[115] Kitabda 210-cu səhifənin qarşısında “Ölmüş ermənilər” yazılı fotoşəkil lövhəsi var. — *Tərc.*





Ölmüş ermənilər

Zubalov mülkündə üç erməni — bir buruq ustası, bir kontor işçisi və fəhlələrdən biri — qalmışdı. Üç kazak gəldi.

“Onları şəhərə aparın, bu da sizə bəxşiş. Əgər onları sağ-salamat çatdırdığınız barədə məktubla qayıtsanız, daha çox verərəm”, — dedi müdir.

Kazaklar sözlərinə əməl etdilər, adamları təhlükəsiz yerə çatdırdılar və vəd edilmiş bəxşiş üçün müdirin yanına qayıtdılar. Gecə qalıb onlara hücum edə və ya mülkə od vurmağa cəhd edə

biləcək tatarları dəf etməyə kömək etmələri xahiş ediləndə cavab verdilər ki, bunu edə bilməzlər, çünki otuz altı saatdır yatmayıblar.

Bu mülkün müdiri cənab P. İ. Yarkel bütün erməni fəhlələrini təhvil vermədiyi üçün tatarlar tərəfindən təhdid edildi. O, bıçaqlarla üstünə cuman bir neçə tatarı dəf etməli oldu. Telefonla müdafiə istəyəndə adi cavabı aldı: "Hərbçi yoxdur."

"Axı hamımız öldürüləcəyik", — deyə o cavab verdi.

"Yaxşı, bəlkə göndərərik."

Bu mülkə 5-i gecəsi od vuruldu.

* * * *

Tatarlar su kəmərinə od vurdular, su təchizatını kəsdilər və hərbçilərin alovu söndürmək üçün hər hansı bir şey etməsini qeyri-mümkün etdilər. Diqqət çəkdi ki, sahil yaxınlığında, "Rus Neft Şirkəti"nin, Mantaşevin və "Bakı-Rus Neft Şirkəti"nin mülklərində başlayan yanğın fırtınanın əksinə şimala doğru irəliləyirdi; bu da göstərirdi ki, sahələr bir-birinin ardınca cənubdan şimala doğru hərəkət edən qəsdən od vuranlar tərəfindən yandırılırdı. Bundan başqa, Bibiheybət quyularının çoxu gipsolitlə örtülmüşdü və onlara yalnız buruğun içindən od vurmaq olardı. Əllərində işıq olan od vuranların "Kaspi Şirkəti"nin buruqları arasında içəri girib-çıxdığı görünürdü. Əsas zərər çəkənlər erməni firmaları idi, o cümlədən Mantaşev, "Rus Neft Şirkəti", "Tiflis Şirkəti", "Milov-Tairov Aramazd Şirkəti", Zubalov, Xatisov və bir çox başqaları. Hər ikisi ingilis-rus olan "Rus Nefti və Maye Yanacaq Şirkəti" və Şibayev Neft Şirkəti, həmçinin Nobel daha az zərər çəkdi. 300-dən çox buruq, o cümlədən hasilat verən quyuların üzərindəki 100 buruq məhv edildi, təxminən 77 quyu isə — onların çoxu tərk edilmiş idi — salamat qaldı. Yanğınlar alovlanarkən xeyli talan oldu.

* * * *

Bu mədəndəki mübarizə haqqında bəzi dəhşətli əhvalatlar danışılır. Baş qəhrəmanı on üç yaşlı bir oğlan olan faciələrdən biri 4-ündə Mantaşev sahəsinin darvazası yanında baş verdi. O, erməni idi və səhər atasının güllələnib öldürüldüyünü görmüşdü. O, girişin düz içində gizləndi və üç tatar cumub gələndə ikisini güllələyib öldürdü, üçüncüsünü yaraladı. Bunu görən başqa tatarlar onu bir xəndəkdə yaxalayıb öldürdülər.

Ləzgi gözətçilər öz sahiblərinin mülklərini qorumaq əvəzinə talanda iştirak edirdilər[116]. Ermənilərin apara bilmədiyi şeyləri — böyük güzgüləri, bufetləri, qab-qacağı, harmoniumları, pianinoları və masaları — bu adamlar tatarlarla birlikdə məhv edirdilər. Müsəlmanlar üçün murdar sayılan donuzlar ən vəhşi şəkildə kəsilirdi, inəklər və atlar isə aparılırdı.

6-sı gecəsi Zubalov mülkünün qarşısında tatarlarla dolu bir buxar katerı göründü. Bu, mütəşəkkil bir hücum idi: dənizdə sirli siqnallar verilir, mədənlərdə cavab işıqları yellədilirdi və kater sahilə yaxınlaşanda işıqları sönmüşdü. Silahlı bir dəstə dəniz qaydasında sahilə çıxdı.

---

[116] Bu ümumiləşdirmə müəllifin özünün əvvəlki fəsildə dərc etdiyi faktlarla ziddiyyət təşkil edir: Zabratda müsəlman (ləzgi) gözətçilər öz dinlərinə and içərək gizlədilmiş insanları qorumuş, onlardan biri vəzifə başında həlak olmuş, "Avropa Neft Şirkəti"nin erməni işçisi isə ləzgi gözətçilərə qarşı ittihamları yalan şayiə adlandırmışdır. Cənab Rey də öz mülkündəki gözətçilərə qarşı ittihamı təkzib etmişdir. — *Tərc.*

Bu adamlar ləzgilərin və tatarların köməyi ilə Zubalov mülkünü talan etdilər və qiymətli hər şeyi katerə daşıdılar; ağır yüklənmiş kater yenidən dənizə çıxdı.

Körfəzə bir çox gəmi girib quldur və qatil silahlı dəstələrini sahilə çıxarırdı. Hakimiyyət Qara şəhər neft emalı rayonuna dənizdən hücum ediləcəyini gözləyirdi. Məlum idi ki, gündüzlər Müqəddəs ada[117] arxasında gizlənib qaranlıq düşəndən sonra körfəzə girən kiçik gəmilərdə yüzlərlə tatar var idi. Sahil mühafizəçiləri ayıq idilər və 15-i gecə saat onda işıqsız bir şxunanın Şibayev, Mantaşev və "Elektrik Gücü" şirkətlərinin körpülərinin yanından keçdiyini gördülər. Onlar sirli gəmini səslədilər, lakin cavab almadılar. Sonra ona atəş açdılar, lakin o, yoluna davam edərək Tağıyevin körpüsünə qədər getdi. Sahil mühafizəçiləri onu təqib etmədilər, lakin ertəsi səhər bir zabit və on əsgər Tağıyevin zavoduna getdilər və orada yüzlərlə silahlı tatar aşkar etdilər. Onlar gələndə şxunanın heyəti onu körpüdən uzaqlaşdırmaq və yelkən qaldırıb dənizə qaçmaq üçün çılğın səylər göstərirdi. Zabit ona dayanmaq işarəsi verdi və gəmi körpüyə geri gətirildi. O, körpüyə yan alan kimi bir neçə tatar sahilə atılıb müxtəlif istiqamətlərə qaçdı. Gəmidə xeyli sursat var idi və həbs edilən yeganə tatar dedi ki, tüfəng yükü dənizə atılıb. Müşayiət dəstəsinin azlığı və tatarların təhdidedici mövqeyi üzündən zabit zavodu axtarmadı. Ona dedilər ki, əvvəlki gecə onun adamları gəmiyə atəş açanda bir iranlı öldürülüb, biri isə yaralanıb[118].

Bu qırğınlarda heç bir Britaniya təbəəsi həyatını itirmədi, lakin başqa millətlərdən olan bəzi neftçilər öldürüldü. Bununla belə, ingilis-rus neft şirkətlərinin kontorlarına atəş açıldı və artilleriya bir ingilisin tutduğu otağa mərmi saldı. Hadisələr başlayandan sonra mümkün qədər tez Britaniya koloniyasının üzvləri "Peddi" tanker gəmisinə mindilər və gəmi onları topların çata bilmədiyi uzaqlığa, dənizə apardı.

İndi bu Qafqaz faciəsinin üzərinə pərdə endirmək olar. Tayfalar qanlı səylə rəqib rollarını oynadılar; onlar bunu sentyabrın sonuna qədər etdilər — bu ay tatar-erməni çəkişməsinin bu ən bədbəxt meydanında onu yaşamış olanlar tərəfindən heç vaxt unudulmayacaqdır[119].

---

[117] "Müqəddəs ada" (rusca Святой остров) — Abşeronun şərqindəki Pirallahı adasının o dövrdəki rus adı. — *Tərc.*

[118] Müəllif şxunanın Tağıyevin körpüsünə yan alması faktını şərhsiz qeyd edir, lakin onu tanınmış azərbaycanlı xeyriyyəçi H. Z. Tağıyevlə bağlayan heç bir sübut gətirmir. Tağıyevin özü 1905-ci ilin fevral hadisələrindən sonra müsəlman və erməni nümayəndələri arasında barışıq görüşlərinin təşkilatçılarından biri olmuşdur. Müəllif bu barışıq səylərindən, demək olar, bəhs etmir; halbuki kitabda fəslin sonundakı lövhədə məhz barışıq yürüşləri təsvir olunmuşdur. — *Tərc.*

[119] Kitabda 216-cı səhifənin qarşısında iki fotoşəkildən ibarət lövhə var; onların altındakı yazılar: "Sülh elan edən ermənilər" və "Sülh yürüşü. Solda — molla; mərkəzdə — ermənilərin nümayəndələri." Bu şəkillər azərbaycanlı ruhanilərin və erməni nümayəndələrinin birgə barışıq yürüşlərini göstərir. — *Tərc.*



Sülh elan edən ermənilər



Sülh yürüşü. Solda — molla; mərkəzdə — ermənilərin nümayəndələri.

* * * *

Sentyabrdakı mədən yanğınları

Rayon	Məhv edilmiş quyular: sayı	Onların aylıq hasilatı (ton)	Qalan hasilat quyuları: sayı	Onların aylıq hasilatı (ton)
Balaxanı	408	67 639	194	33 696
Sabunçu	405	170 150	205	92 346
Ramana	94	63 893	104	71 969
Bibiheybət	118	137 034	80	98 207
Zabrat	1	102	—	—
Cəmi	**1 026**	**438 818**	**583**	**296 218**

Quyuların vəziyyəti: yanğınlardan əvvəl, salamat qalmış və yanğında məhv edilmiş quyular

Rayon	Yanğından əvvəl: tərk edilmiş	Yanğından əvvəl: digər siniflər	Qalan: qazma, təmir, dərinləşdirmə	Qalan: müvəqqəti boş	Qalan: istismarda	Qalan: müəyyən edilməyib	Qalan: cəmi
Balaxanı	282	1 016	44	125	194	18	381
Sabunçu	423	1 236	71	132	205	15	423
Ramana	98	408	90	36	104	2	232
Bibiheybət	59	427	98	17	80	—	195
Zabrat	—	23	—	15	—	—	15

Rayon	Yanğında məhv edilmiş: qazma, təmir, dərinləşdirmə	Müvəqqəti boş	İstismarda	Müəyyən edilməyib	Cəmi
Balaxanı	81	120	408	26	635
Sabunçu	212	191	405	5	813
Ramana	45	37	94	—	176
Bibiheybət	97	17	118	—	232
Zabrat	7	—	1	—	8

III HİSSƏ. BATUM — BAKININ ƏSAS NEFT LİMANI

XX fəsil. Batum: onun boru kəmərləri, gəmiçiliyi və neft ixracı

Dünyanın ən böyük neft limanı — Onun yox olan ticarəti — Yeddi illik ixrac — Neft yükləmə qurğuları — Novorossiysk ixracı — Tanker gəmisinin ilk günləri — Tikinti prinsipləri — Ayrı-ayrı çən sistemi uğursuzluqdur — İkili yüklər — İlk tanker "Faderland" Tayn üzərində Carrouda tikilmişdir — Xəzərdə tanker gəmiləri — İngiltərədə tikilmiş ilk transatlantik neft daşıyan gəmi — Almanlara məxsus "Glükauf" — İngiltərəyə çatdırılmış ilk tökmə neft yükü — Bədbəxt "Bakuin" — Sanderlenddə tikilmiş "Çiqvell" gəmisi — Səksəninci illərin neft daşıyan gəmiləri ilə bugünkü nəhənglərin müqayisəsi — Donanmaların artımı.

Batum dünyanın ən böyük neft limanıdır[120]. Liman qurğularına bir milyon funt sterlinq xərcləyib baş neft limanı mövqeyi uğrunda və gəmiçilik aləmində Qara dənizin Qafqaz sahilinin Odessası kimi tanınmaq şərəfi uğrunda onunla rəqabət aparmış Potini o, çoxdan geridə qoymuşdur. Novorossiysk də Batuma uduzmuşdur, lakin hələ də xeyli əhəmiyyətli neft limanıdır. Qafqaz dağları onları ayırsa da, Xəzərin neft limanı Bakı və onun Qara dənizdəki bacı limanı Batum indicə tamamlanmış və xarici bazarlar üçün neftin ilin sonuna qədər vurulacağı altı yüz millik boru kəməri ilə bir-birinə bağlanmışdır[121].

Batum Bakının yaratdığı şəhərdir və təxminən yarım əsrdir ki, Qafqazın o tayından ona göndərilən neftlə qidalanır və böyüyür. Bu iki yer neft sənayesinin dəniz sahəsinin tarixində mühüm rol oynamışdır, lakin hazırda tamamilə aydındır ki, onlardan biri (və mən, əlbəttə, Batumu nəzərdə tuturam), bəlkə də hər ikisi, Qafqazdakı irqi və siyasi üsyanlar və ticarət mərkəzlərindəki bitib-tükənməyən əmək iğtişaşları nəticəsində ciddi zərər çəkməli olacaq. Yeşiklərdə neft ticarəti artıq Batumdan yox olur — İskəndəriyyəyə və digər Aralıq dənizi limanlarına keçir — və gələn on iki ay ərzində okean tankerlərinin limana adi sayda gəlməsinə ehtiyac olmayacaq.

Bəzi diqqətəlayiq rəqəmlər Batumdakı neft işinin miqyasını göstərir. Son yeddi ildə neft ixracı belə olmuşdur:

İl	Pud	Ton
1899	71 202 200	1 148 422
1900	65 377 000	1 054 477
1901	77 519 700	1 250 317
1902	84 234 000	1 358 613
1903	82 211 500	1 325 976
1904	79 526 900	1 282 692
1905*	23 666 803	381 723
1904*	40 501 547	653 251

[120] Batum (Batumi) — Gürcüstanın Acarıstan bölgəsində liman şəhəri; 1878-ci il Berlin konqresindən sonra Rusiyaya keçmişdir. Bakı–Batum dəmir yolunun (1883) çəkilməsindən sonra Bakı neftinin Qara dəniz vasitəsilə ixracının əsas limanına çevrilmişdir. — *Tərc.*

[121] Bakı–Batum kerosin kəməri 1897–1906-cı illərdə hissə-hissə tikilmiş və tam şəkildə 1906-cı ildə istifadəyə verilmişdir; müəllifin kitabı yazdığı vaxt kəmərin tikintisi başa çatmaq üzrə idi. — *Tərc.*

** İlk altı ay.*

Batum limanından Rus Gəmiçilik və Ticarət Cəmiyyətinin gəmiləri, bütün dəniz ölkələrinin trump gəmiləri və rus neft ticarətində müntəzəm işləyən çoxlu tanker gəmisi istifadə edir. Limanın böyük təbii üstünlükləri olsa da və onun tikintisinə böyük məbləğlər xərclənsə də, adi yanalma imkanları qeyri-kafidir və neft dalğaqıranı adlanan qurğu dəniz dalğalı olanda və körfəzdə ləpə olanda tanker gəmiləri üçün kifayət qədər müdafiə təmin etmir. Pis havada gəmilər ya reydə lövbər salmalı, ya da açıq dənizə çıxmalı olurlar. Yenidənqurma layihələri hazırlanmış, lakin qəbul edilməmişdir; liman rəhbərliyi gəlirin limanın yenidən qurulmasına haqq qazandırmadığını hesab edərək bir çox milyon rubl xərc tələb edəcək təkmilləşdirmə layihələri üzərində işləyir.

Kerosin daşıyan tankerlər üçün yükləmə yeri dalğaqıranın içərisindədir. Bütün neft vurma stansiyalarından gələn boru kəmərləri bu dalğaqırana çəkilmişdir və orada dörd ayrı dayaqda qurtarır; burada dörd gəmi eyni zamanda yüklənə bilir. Yenə də neft dalğaqıranının içərisində olan çəllək və yeşik rıhtımında altı gəmi eyni vaxtda yüklənə bilər. Heç bir başqa gəmi tökmə neft daşıyanlar qədər sürətlə yola salınmır.

1903-cü ildə 241 tanker gəmisi 642 194 ton müxtəlif məhsul yüklədi, 157 gəmi isə çəlləklərdə 29 516 ton, yeşiklərdə 246 000 ton və bidonlarda 43 355 ton götürdü. 1903-cü ildə limana 5 226 gəmi daxil oldu; onlardan xaricdən gələn 700-ə yaxını buxar gəmisi, 2 000-i yelkənli idi, sahilboyu ticarətdə olanların sayı isə 723 buxar gəmisi və 1 763 yelkənli idi.

Qonşu Novorossiysk limanından son altı ildə neft ixracı belə olmuşdur:

İl	Pud	Ton
1901	15 039 900	242 579
1902	10 453 000	168 597
1903	28 687 200	462 697
1904	27 060 300	436 456
1905*	8 466 000	136 548
1904*	12 025 920	193 966

** İlk altı ay.*

Bildiyimə görə, dünyanın neft daşıyan donanmalarının tam siyahısı yoxdur — Rusiyanın, Amerikanın, İngiltərənin, Hollandiyanın, Almaniyanın və digər gəmi sahibi olan ölkələrin bayrağını daşıyan buxar gəmilərinin və yelkənlilərin adlarını, tonnajını və s. göstərən siyahı şübhəsiz ki, yoxdur. Neft daşıyan gəmilər həm sayca, həm də yükgötürmə qabiliyyətinə görə möhtəşəm donanma təşkil edir. Həm neftin hasilatında, həm də istehlakında fəaliyyət sahələrinin sürətlə genişlənməsi ilə işin gəmiçilik hissəsi maliyyə və dənizçilik baxımından xeyli əhəmiyyət kəsb etmişdir. Yaranması, sabit inkişafı, bugünkü yüksək səmərəliliyi və sənayenin xüsusi tələblərinə heyrətamiz uyğunlaşması ilə o, dünya ticarət donanmasının ən böyük uğurlarından biri kimi tanınır. Hər ton hesabı ilə tanker adi trump gəmisindən xeyli bahadır. Daha bahalı və mürəkkəb avadanlığı olduğundan onun saxlanması adi ümumi yük daşıyan gəmidən baha başa gəlir onun tikintisi isə gəmiqayırma sənətində ixtisaslaşmış işlər arasında tamamilə bənzərsiz olan mühəndislik və elmi biliklərin nümayiş etdirilməsini tələb edir.

Hamıya məlum deyil ki, son iyirmi ildə neftin və onun məhsullarının daşınmasında tətbiq olunan sistemdən əslində əsrlərdir istifadə edilir. Böyük miqdarda mayeləri tökmə halda daşımaq sistemi şərab və su ilə bağlı çoxdan tətbiq olunur. Şimali İtaliya limanlarında kiçik sahil gəmilərində şərabı tökmə halda daşıma üsulu qəbul edilmişdir. Arada heç nə olmadan bilavasitə gəminin xarici örtüyünə toxunaraq daşınan şərab kiçik əl nasosları ilə rıhtımdakı çəlləklərə və ya küplərə boşaldılır. Bu kiçik gəmilərin üzmə qabiliyyəti hər iki ucda şərab keçirməyən taxta arakəsmələr quraşdırmaqla təmin edilir. Cənubi Amerikanın qərb sahilində, yağışın çox az yağdığı və şirin suyun çox qiymətli olduğu yerdə, suyu buxar gəmilərində daşımaq və köhnə yelkənli gəmi gövdələrində saxlamaq çoxdan adət olmuşdur.

Neft ticarəti o dərəcədə artdı ki, böyük miqdarı çəlləklərdə daşımaq çətinləşməyə başladı və onda tərəqqipərvər bir neft taciri yuxarıdakı ideyanı neftin daşınmasına tətbiq etməyi düşündü. Müasir tanker belə doğuldu. Lakin taxılı tökmə halda daşıyarkən istifadə edilən qidalandırıcı prinsipi tətbiq etmək lazım idi, çünki tankerlərin uzun səfərlərində baş verə biləcək sızma və buxarlanma, həmçinin yüksək genişlənmə əmsalı ilə bağlı sıxılma və genişlənmə nəzərə alınmalı idi. Bu ilkin prinsiplərin düzgün olduğunu tökmə neft ticarətinin bugünkü vəziyyəti tam sübut edir.

Tökmə neft daşıyan gəmi meydana çıxmazdan əvvəl neftin əvvəlcə çəlləklərdə, sonra isə düzbucaqlı qalay yeşiklərdə daşınması üzrə böyük ticarət yaranmışdı. Yeşiklər çəlləklərdən üstün sayılırdı, çünki bir-birinə sıx yerləşirdi və müəyyən həcmdə daha çox neft daşımaq olurdu; həmçinin yeşiklərin neftin satışını asanlaşdırdığı müəyyən edildi, çünki iki yeşiyi güclü bir heyvanın belinə, iki bidonu isə daha zəif heyvanın belinə aşırmaq olurdu. Bu, çəlləkdəki neftdə olduğu kimi qabları açmaq zərurətini aradan qaldırırdı. Lakin tezliklə məlum oldu ki, ən mükəmməl işçilikdə belə böyük miqyasda sızma baş verir. Bu, təkcə xeyli neft itkisi deyil, həm də gəmi üçün ciddi təhlükə demək idi, çünki buxarlanmış neft anbarları partlayıcı qazlarla doldururdu və bunun nəticəsində bir neçə dəfə fəlakətli partlayışlar və yanğınlar baş verdi. Bu riskdən qaçmaq və xərcə qənaət etmək üçün təklif edildi ki, gəmilərin özlərində neftin vurulub çıxarılacağı çənlər olsun. Gəmi sahibləri ayrıca çənlər olmalıdır fikri ilə başladılar, lakin bu prinsipdən tezliklə imtina edildi. Bütün mümkün ehtiyatlara baxmayaraq, həmişə sızma olurdu və sızan neft buxarlanaraq çənlərin altındakı və çənlərlə gəminin bortları arasındakı boşluqları partlayıcı qazlarla doldururdu. Bu boşluqları lazımınca təmizləmək və ya çənləri təmir etmək qeyri-mümkün oldu. Açıq işıqdan istifadə etmək olmazdı və, əlbəttə, isti pərçimlərin vurulması söhbət mövzusu ola bilməzdi. Ayrı-ayrı çən sistemi yeşiklər və çəlləklərlə daşımadan nəinki daha riskli, həm də daha baha idi. Təkamül prosesində növbəti addım gəminin özündən neft çəni kimi istifadə etmək oldu; üzmə qabiliyyətini təmin etmək, mühərriklərə yer vermək, heyət üçün otaqlar və nasos qurğuları üçün yer ayırmaq məqsədilə hər iki ucda bir hissə arakəsmə ilə ayrılırdı. Göyərtələrarası sahə neftin genişlənməsi üçün şaxtalarla təchiz edilir, qalan hissə isə kömür bunkerləri və anbar kimi istifadə olunurdu. Bu sistemlə məlum oldu ki, praktiki olaraq neft itkisi yoxdur. Müxtəlif birləşmələrin tikintisində və quraşdırılmasında o qədər təkmilləşdirmə edilmişdir və gəmiqayıranlar indi işlərini o qədər yaxşı başa düşür və yerinə yetirirlər ki, sızma demək olar ki, mümkün deyil. Bütün tankerlər indi bu üsulla tikilir.

Növbəti problem nefti bir istiqamətdə, ümumi yükü isə əks istiqamətdə daşıyacaq buxar gəmilərinin tikilməsi idi. Buna süni ventilyasiya, anbarların mükəmməl təmizlənməsi və neftin hər bir izinin aradan qaldırılması ilə nail olundu. Güclü ventilyatorlar anbarlardan fasiləsiz hava

dövriyyəsini təmin edir. İndi buxar gəmiləri Batumdan Şərqə neft aparır və Şərq istehsalının ən incə məhsullarını, düyü kimi ərzaqları və hətta çayı geri gətirir.

İlk tanker gəmisinin tikilməsi gəmiqayırma sənətində böyük hadisə, hətta ümumiyyətlə hər hansı əhəmiyyəti olan hadisə sayılmırdı. Bu tankerdən əvvəl adi və o qədər də dənizə davamlı olmayan "Çarlz" adlı taxta yelkənli gəmi var idi. Onun əlli doqquz ayrıca çəni vardı, 794 ton götürürdü və 1869-cu ildə Amerika ilə Avropa arasında xam neft daşımağa başlayaraq 1872-ci ilə qədər gözəl öncül iş gördü. Bu illərdə Antverpenə və Havra tökmə neft daşıyan bir neçə taxta yelkənli gəmi var idi. Buxar tankerinin başlanğıcı bir qədər sirli idi. Həmin il (1872) o vaxtkı "Palmer və Kompaniya" firması — indi dünyada tanınan məşhur "Palmer Gəmiqayırma və Dəmir Şirkəti" — Tayn üzərindəki Carrouda "Faderland"ı (2 748 ton) tikdi; onun ardınca 1873 və 1874-cü illərdə "Nederland" və "Svitserland" gəldi. Bu gəmilərin neft ticarətində nə etdiklərini — əgər ümumiyyətlə nə isə etmişdilərsə — öyrənə bilmədim və əlavə etməliyəm ki, onların tökmə neft daşıma problemini həqiqətən həll edən gəmilər olduğuna inanılmır.

Təxminən beş il sonra Bakıdakı məşhur neft firmasının banisi cənab Lüdviq Nobel İsveçin Göteborq şəhərində Motala şirkətinə iki tanker gəmisi — "Svet" və "Lüdviq Nobel" — tikdirdi[122]. Onların uzunluğu 286 fut idi, sürəti on bir düyün idi və "Svet" ilk yüklərindən birini Batumdan Londona gətirdi. Nobel firması bu İsveç tərsanəsində başqa gəmilər də tikdirdi, məsələn, 1890-cı ildə "Blesk". Onların bəziləri hissə-hissə Rusiyanın daxilindəki kanallarla və Volqa ilə çayın Xəzərə töküldüyü yerin yaxınlığına qədər daşınmış, orada yığılaraq Bakıya getmişdir. Onlar tökmə kerosin yükləyirdilər və bu gün mövcud olan Xəzər neft daşıyan gəmilərinin böyük donanmasının uğurlu ilk buxar gəmiləri idilər. "Lüdviq Nobel" uzun illər Baltik neft ticarətində işləyərək Sankt-Peterburqla Finlandiya arasında müntəzəm reyslər edirdi.

Atlantik neft ticarətində işləyən ilk tanker gəmisi 1885-ci ildə Midlsbroda "Kreqqs və Oğulları" tərəfindən tikilmiş və 1880-ci ildə Sanderlenddə "Bertram Hasvell və Kompaniya" tərəfindən tankerə çevrilmiş "Fergyusons" idi; o vaxt gəmi "Lennard və Oğulları"nın mülkiyyətinə keçdi[123]. Çənlər anbarın içində quraşdırılmışdı. Gəmi Sena çayında dayanarkən partlayış nəticəsində məhv oldu.

Atlantik okeanını almanlara məxsus "Glükauf" da keçdi; o, Nyu-Yorkdan Bremenə 2 600 ton təmizlənmiş neft gətirdi. Gəmi Nyukaslda "Armstronq, Mitçel və Kompaniya" tərəfindən son dövrün ən böyük tankerlərindən bəzilərinin tikintisinə bu qədər dərin maraq göstərmiş cənab H. F. Svanın layihəsi əsasında tikilmişdi.

İngiltərədə tanker gəmisi ilə boşaldılan ilk neft yükü Qreyt-Sent-Helensdəki "Leyn və Makendryu" firması üçün idi, ikinci yükü isə Batumdan tankerə çevrilmiş "Petriana" gətirdi[124]. Bu gəmi 1880-ci il dekabrın 11-də Liverpulda 2 000 ton boşaltmağa başladı. Bu yük İngiltərəyə

---

[122] Nobel qardaşlarının ilk tankeri 1878-ci ildə İsveçdə Motala zavodunda tikilmiş və Xəzərdə işləmiş "Zoroastr" idi; bu gəmi dünyada ilk uğurlu neft tankerlərindən biri hesab olunur. Müəllif onu çəkmir. Beləliklə, tökmə neft daşınmasının ilk təcrübəsi məhz Xəzərdə, Bakı nefti ilə bağlı aparılmışdır. — *Tərc.*

[123] Müəllifin verdiyi tarixlər bir-birinə uyğun gəlmir: 1885-ci ildə tikilmiş gəmi 1880-ci ildə tankerə çevrilə bilməzdi. Aşağıda "Petriana"nın Liverpula gəlməsi də 1880-ci ilə aid edilir, halbuki növbəti fəsildə Rusiyadan bu üsulla ilk yükün 1887-ci ildə göndərildiyi bildirilir. Görünür, bu tarixlər mətbəə xətasıdır (1880 əvəzinə 1886 və ya 1888 olmalıdır). — *Tərc.*

[124] Təfərrüatlar sonrakı fəsildə verilir.

çatmazdan bir neçə həftə əvvəl “Markiz Şikluna” (sonralar “Aland”) kerosin yükü ilə Avstriyanın Fiume şəhərinə gəldi. Foks tankerlərinin ilkləri arasında hamısı “çevrilmiş” gəmilər olan “Çiqvell”, “Çarlz Hovard” (adı “Mineral” olaraq dəyişdirilmiş) və “Titian” var idi.

1886-cı ildə Hartlpulda “U. Qrey və Kompaniya” tərəfindən cənab Alfred Syuart üçün tikilmiş “Bakuin” Britaniya tərsanəsindən çıxan ilk tanker gəmisi idi. İlk səfərində, ona kapitan Kortrayt (sonralar “Petriana”da partlayışda həlak olmuşdur) komandanlıq edərkən, o, Hamburqda sürtkü yağı yükü boşaltdı. O vaxt (1886) bu gəmi çevrilmiş tipli bütün neft daşıyan buxar gəmilərindən irəli addım sayılırdı. Onun haqqında deyilirdi: “Görünür, ’Bakuin’in tikintisində yanğın təhlükəsinin bütün mümkün mənbələrindən qaçmaq üçün böyük diqqət göstərilmişdir. O, elektriklə işıqlandırılır, kayutlar kömür sobaları əvəzinə buxarla qızdırılır və xörək buxarla bişirilir.” “Bakuin” Peruda Kalyao körfəzində üzən dokda olarkən yanğından məhv oldu. O vaxt gəmi Talaradakı “London və Sakit Okean Neft Şirkəti” ilə çarter əsasında işləyirdi.

“Petriana” neft ticarətində işləməyə başladıqdan bir neçə həftə sonra başqa bir çevrilmiş tanker “Çiqvell” Batumla Fiume arasında neft daşımağa başladı. 1889-cu ildə Sanderlenddə “R. Tompson və Oğulları” tərəfindən tökmə neft ticarəti üçün tikilmiş ilk gəmilər arasında Filadelfiyadan çıxdıqdan sonra bütün heyəti ilə (kapitan Stenvellin komandanlığı ilə) itən “Uaydflauer” var idi. 1886-cı ildə Tayn üzərindəki Hebernda “Houtorn, Lesli və Kompaniya” tərəfindən tikilmiş “Hafiz” də o dövrün uğurlu tankeri idi. Sonra 1887-ci ildə “Era” (indi “Abşeron”) görkəmli gəmi memarı ser E. C. Ridin hazırladığı layihə əsasında Palmer şirkəti tərəfindən tikildi. Təxminən on beş ay sonra eyni şirkətin tikdiyi “Oka” (indi “Brodmeyn”) kimi, o da öz tipinin ən mükəmməl nümunəsi sayılırdı. Tez-tez Atlantikanın o tayına göndərilən “Brodmeyn” 334 fut uzunluğunda, 40 fut enində və 16,9 fut dərinliyindədir. O, təxminən 3 000 ton neft götürür. O vaxt “Brodmeyn” haqqında deyilirdi ki, onu aşırmağın mümkün olub-olmadığı şübhəlidir — bunu ilk tanker gəmilərinin hamısı haqqında demək olmazdı. “Oka” “Era”dan böyük idi. “Era”, “Oka” və “Çariots” (Qrinokda “Rassel və Kompaniya” tərəfindən tikilmiş) haqqında deyilirdi ki, onlar tökmə neft daşıma problemini tam həll etdilər. “Roklayt” (1888-ci ildə Sautgemptonda “Leyn və Makendryu” üçün tikilmiş, indi isə “Şell Nəqliyyat və Ticarət Şirkəti”nə məxsusdur) və “Tankervill” (1889-cu ildə Stoktonda “Kreyq, Teylor və Kompaniya” tərəfindən cənab Syuart üçün tikilmiş) tez-tez Amerika və Qara dəniz ticarətində olurdu.

Cənab Alfred Syuart üçün tikilmiş ilk tanker gəmilərindən biri iki səfər etdikdən sonra öz dəyərini ödədi; o vaxt fraxt tonu 35 şillinq 6 pens idi, bu gün isə bunun üçdə biridir. İndi “Şell” xəttində işləyən “Robert Dikinson” 1887-ci ildə cənab Syuart üçün Lesli şirkəti tərəfindən çevrilmişdi; həmin il suda iyirmi beş-otuz tanker var idi.

Səksəninci illərin neft daşıyan gəmiləri tonnajca son iki ildə suya buraxılmış nəhəng tankerlərin bəzilərinin yalnız üçdə biri qədər idi. Ticarətin təhlükəsizliyi, sürətli və gəlirli işləməsi üçün lazım olan demək olar ki, bütün əsas biliklər ilk üç ildə, 1886–1889-cu illərdə tankerlərə rəhbərlik edənlər tərəfindən toplanmışdır. 1890-cı ildən gəmilərin formasında, “Kafkeyjən” (1899) və daha böyük “Narraqansett” və “Tuskarora” kimi gəmilərdə qəbul edilmiş mühərriklərin gəminin ortasında yerləşdirilməsi istisna olmaqla, çox az dəyişiklik olmuşdur; lakin “Şell” şirkəti xüsusi tikilmiş gəmilərində bunu qəbul etməmişdir.

Qəzaların bu qədər az olması ilk tankerlərə rəhbərlik edənlərin fasiləsiz ayıqlığından çox şey xəbər verir. Zabitlər barıtdan az olmayan, bəlkə də daha çox ehtiyat tələb edən tamamilə yeni bir yük növü ilə işləyirdilər. Təcrübəsizlikləri üzündən partlayıcı buxarların nə qədər uzağa yayıla biləcəyini bilmirdilər. Bir neçə çevrilmiş gəmidə elektrik qurğuları o qədər qüsurlu idi, yaxud mexaniklər onlardan o qədər az başa düşürdülər ki, ilk iki-üç ildə gəmidə elektrik işığı yox idi.

1880-ci ildə cəmi səkkiz neft daşıyan buxar gəmisi və yelkənli gəmi — hər birindən dörd — var idi və onlar yalnız yerli ticarətdə işləyirdi. Təxminən 1887-ci ildə on dörd buxar gəmisi və iki yelkənli tikildi və onların bir neçəsi sonralar transatlantik ticarətdə işlədi. 1888-ci ildə ümumi yükgötürmə qabiliyyəti 42 047 ton olan on səkkiz buxar gəmisi tikildi, ümumi tonnajı 1 254 olan bir yelkənli gəmi isə suya buraxıldı. 1893-cü il bu ticarətdə böyük gəmiqayırma ili idi: ümumi tonnajı 94 568 olan otuzdan az olmayan tanker suya buraxıldı. Həmin il "Şell Nəqliyyat və Ticarət Şirkəti" "Bullmut"u ("Qrey və Kompaniya"), "Trokas"ı (Ceyms Leynq), "Elaks"ı ("Qrey və Kompaniya") və bir neçə başqasını tikdi. Elə həmin il "İngilis-Amerika Neft Şirkəti"nin uğurlu tankeri "Potomak" Qlazqoda "A. və C. İnqlis" tərəfindən çevrildi. Həmin şirkət üçün Port-Qlazqoda "Danlop və Kompaniya" eyni il "Lakavanna"nı suya buraxdı, iki il sonra isə hazırda "İngilis-Amerika Neft Şirkəti"nə məxsus olan tanınmış Atlantik gəmisi "Çesapik"i hazırladı.

1898-ci ildə neft daşıyan təxminən 150 buxar gəmisi və on dörd yelkənli gəmi var idi. Onlardan hər növdən yalnız biri Nyu-Yorkda qeydiyyatda idi, yetmiş buxar gəmisi və iki yelkənli isə Britaniya limanlarında qeydə alınmışdı. Hamburq və Rotterdamın hər birinin on, Həştərxan və Bakının isə hər birinin on iki gəmisi var idi. O vaxt Britaniya tərsanələrinin istehsal etdiyi 121 neft daşıyan buxar gəmisindən yetmiş yeddisini Tayn üzərindəki Nyukasl tikmişdi. Ondan sonra on ilə Sanderlend, səkkiz ilə isə indi tanker tikintisində qabaqcıl çay olan Klayd gəlirdi.

Rusiyadan kənarda az adam Xəzər dənizinin neft daşıyan gəmiləri haqqında bir şey bilir, baxmayaraq ki, onların bəziləri Britaniya şirkətlərinə məxsusdur.

Sayı təxminən 160 olan, təxminən 1 000 000 kub fut yükgötürmə qabiliyyətinə malik böyük yelkənli donanmasından əlavə, tökmə neft daşıma işi ilə məşğul olan 140 buxar gəmisi var. Bu buxar gəmilərinin yükgötürmə qabiliyyəti təxminən 5 500 000 kub futdur. Aşağıdakı cədvəl 1892-ci ildən bəri Xəzər dənizində tanker gəmiləri donanmasının artımını göstərir[125]:

[125] Kitabda 224-cü səhifənin qarşısında "Qafqazın neft limanı Batumda mənzərələr. Ortada neft dalğaqıranında neft yükləyən tipik Britaniya tanker gəmisi" yazılı üç fotoşəkildən ibarət lövhə var. — *Tərc.*



Qafqazın neft limanı Batumda mənzərələr. Ortada neft dalğaqıranında neft yükləyən tipik Britaniya tanker gəmisi.

İl	Gəmilərin sayı	Ümumi tutum (kub fut)
1892	58	1 720 825
1893	59	1 758 463
1894	66	1 992 947
1895	87	2 728 217
1896	92	2 942 327
1897	93	2 998 447

İl	Gəmilərin sayı	Ümumi tutum (kub fut)
1898	112	3 804 746
1899	129	4 616 702
1900	134	4 884 692
1901	126	4 690 312
1902	126	4 753 658
1903	127	4 917 259
1904	134	5 328 094

Gəmilərin bəziləri yaxşı ildə Volqaya altmış reys edir. Hazırda hakimiyyəti on dörd futluq reyddən Həştərxana qədər su yolunu dərinləşdirməyə razı salmaq üçün hərəkat var. Bu edilərsə, tankerlər birbaşa Həştərxana gedəcək və neftin barjalara boşaldılmasına ehtiyac qalmayacaq.

Xəzər tankerlərini də — onların bəziləri böyük, tam güclü gəmilərdir və "C. M. Qaffi"yə, "Polkovnik Dreyk"ə (bu il standart neft barjasını Atlantikanın o tayından bizim ölkəyə yedəkləyərək yeni və qeyri-adi rekord qoymuşdur) və Texas neft ticarətində işləyən digər tankerlərə bənzəyir — hesaba alsaq, dünyanın hər yerində neft daşıyan 500 buxar gəmisi olmalıdır. Uzaq Şərqdə "Şell" və "Royal Datç" şirkətlərinə məxsus çoxlu kiçik tanker gəmisi var. Sonra yelkənlilər — onların çoxu tam yelkən təchizatlı gəmilərdir — və çoxsaylı kiçik sahil gəmiləri, həmçinin "Standard Oyl" şirkətinin Meksika körfəzi limanlarından neft aparmaq üçün istifadə etdiyi tipdə böyük dəniz barjaları var. Lakin şübhəsiz ki, dünya tankerlərinin ən çoxu, həmçinin ən böyük tonnajlı tankerlər Britaniya bayrağı altında üzür; sayca onlar 150-yə yaxındır. Hər il siyahıya daha böyük gəmilər əlavə olunur və "Kafkeyjən", "Oriflamm" və "Rossiya", İngilis-Amerika şirkətinin "Tuskarora" və "Narraqansett"i, "Şell"in "Bulisses", "Pinna", "Kardium", "Pekten", "Qoldmut" və "Silverlip" kimi gözəl neft daşıyan gəmiləri, "Pyur Oyl" şirkətinin kiçik donanması, "Prins" və "Moss" xətlərinin gəmiləri və bir çox başqaları tökmə neft daşıma ticarətinə qoşulmuşdur.

Çoxsaylı rus sahiblərini, "C. M. Qaffi Neft Şirkəti"ni, "Standard Oyl" şirkətini, Texas ticarətinə çevrilmiş tankerlərdən ibarət "Nort" donanmasını işlədən şirkəti və Sakit okean sahilindəki bir neçəsi də daxil olmaqla bir çox başqalarını saymasaq, tanker sahibi olan iyirmiyə yaxın firma var. Nyu-Yorka və Batuma tez-tez gəmi göndərən tanınmış "Prins" xətti ilə bağlı dörd-beş tanker var; onlardan biri, "Serkeşən Prins", Sakit okeanda neft daşıyaraq sahilboyu reyslər edir. Avropada "Standard"la əlaqəsi olan bəzi şirkətlər öz tankerlərini işlədir, bəzi Hollandiya müəssisələri, xüsusən "Royal Datç", Uzaq Şərq ticarətində neft daşıyan gəmilərdən istifadə edir. "Birma Neft Şirkəti"nin (Qlazqo və London) gözəl tankerlərdən ibarət donanması var. Yelkənli bölmədə bir çox sürətli və gözəl formalı gəmilər var, o cümlədən dörd dorlu bacı gəmilər "Brilliant" və "Deylayt". Bu birinci dərəcəli yelkənlilərin çən qurğuları onlara neft boşaltdıqdan sonra su ballastı götürməyə imkan verir. Bu, boşaltmanı asanlaşdırır və yüksüz olanda onların müstəsna dayanıqlığını izah edir[126].

[126] Kitabda 230-cu səhifənin qarşısında iki fotoşəkildən ibarət lövhə var: "Britaniya neft daşıyan gəmisi" və "Xəzərdə neft tanker gəmiləri". — *Tərc.*



Britaniya neft daşıyan gəmisi



Xəzərdə neft tanker gəmiləri

XXI fəsil. Avropa–Batum neft ticarətinin artımı

Təxminən dörddə bir əsr əvvəl Londonun neftçiləri Qafqazdakı hadisələri diqqətlə izləyirdilər. Bəziləri ümid edirdi ki, bir gün rus nefti Avropa bazarlarına çıxarılacaq və Bakı–Batum xətti başa çatan kimi (1883) Bakının neft məhsullarını idxal etmək məsələsi burada müzakirə edilməyə başladı. O vaxt Avropanı yalnız Atlantik okeanı vasitəsilə palıd çəlləklərdə gətirilən Amerika nefti təmin edirdi. Rusiyada lampa neftini təhlükəsiz daşıya biləcək çəlləklərin hazırlanması üçün lazımi keyfiyyətdə ağac olmadığından, nefti Batumdan Avropanın müxtəlif bazarlarına daşımaq üçün başqa vasitələr icad etmək zəruri oldu.

Təxminən o vaxt Bakı hasilatı ilə maraqlanmağa başlamış Fiume neftayırma zavodlarının direktorları "Leyn və Makendryu" firmasını bu məsələni öyrənməyə dəvət etdilər. Məsələnin bütün tərəflərinin diqqətli öyrənilməsinin nəticəsi bu oldu ki, onlar Xəzər dənizində qənaətbəxş işlədiyi müəyyən edilmiş okean daşıma sistemini qəbul etməyi mümkün saydılar[127]. Onlar neftin Batumdan Avropanın müxtəlif bazarlarına işləyən böyük buxar gəmilərində tökmə halda daşınmasını tövsiyə etdilər. Çox əmək və xüsusən Lloyd Registri tərəfindən göstərilən böyük müqavimətdən sonra onlar bəzi ingilis gəmi sahiblərini (ilklərdən biri cənab Alfred Syuart idi) neftin okeanla tökmə halda daşınmasına xüsusi uyğunlaşdırılmış buxar gəmiləri çevirməyə və ya tikməyə razı saldılar. Gəmi sahibləri və neftçilər Bakı mədənlərinin hasilatını Avropa bazarlarına çıxarmağın mümkünlüyünü məhz bu yolla dərk etdilər.

Okean daşımasının yeni üsulunun inkişafı dünya neft ticarətində irəli bir addım oldu; o, hasilatçıların özlərinin nefti hasilat nöqtəsindən daşıyıb Avropanın və Uzaq Şərqin bütün ölkələrində mümkün qədər kiçik miqdarlarda bilavasitə istehlakçıya çatdırdıqları təşkilatların yaranmasına səbəb oldu. Rusiyanın göstərdiyi nümunə amerikalıları da eyni üsulları qəbul etməyə təşviq etdi.

Rusiyadan bu üsulla göndərilən ilk yük 1887-ci ilin iyununda "Leyn və Makendryu" tərəfindən təşkil edildi; artıq deyildiyi kimi, o, Nobel qardaşlarına məxsus "Petroliya" gəmisində Londona gəldi[128].

Qitədəki başqa firmalar da tezliklə bu yolu tutdu; onların aparıcıları arasında Hamburqdan "Olrix", Antverpendən "Şpet və Ko", Amsterdamdan "Krokervit və Ko", Palermodan "Vedekind və Ko", Vyanadan "Librax və Kantor", Almaniyada "Nobel qardaşları" və Parisdən "A. Andre və Oğlu" var idi; onların əksəriyyəti üçün "Leyn və Makendryu" lazımi tanker gəmilərinin təchizi barədə müqavilələr bağladı. O vaxtdan rus lampa nefti Avropa bazarlarında tez möhkəmləndi.

O zaman amerikalıların dünyanın digər hissələrindəki bazarlarda inhisarı var idi; lakin 1886-cı ildə "Leyn və Makendryu" Parisdəki Rotşildlərin nəzarət etdiyi şirkətlə, yəni "Xəzər və Qara Dəniz Neft Ticarət və Sənaye Cəmiyyəti" ilə razılaşma əldə edərək rus neftini Şərq bazarlarına çıxarmağı öhdəsinə götürdü və nəhayət, 1886-cı ilin noyabrında ilk yükü Şərq

---

[127] Bu, mühüm etirafdır: neftin tankerlərdə tökmə halda daşınması sistemi əvvəlcə Xəzərdə — Bakı neftinin daşınmasında yaradılmış və sınaqdan keçirilmiş, sonra okean ticarətinə köçürülmüşdür. — *Tərc.*

[128] Əvvəlki fəsildə müəllif İngiltərəyə Batumdan ikinci yükü gətirən gəmini "Petriana" adlandırır və onun gəlişini 1880-ci ilə aid edir. Burada isə ilk yük 1887-ci ilə və "Petroliya" gəmisinə aid edilir. Müəllifin mətnindəki bu ziddiyyətlər olduğu kimi saxlanılmışdır. — *Tərc.*

ticarətindəki ən böyük firmalardan birinə (“Uolles qardaşları”) satmağa nail oldu; bundan sonra “Leyn və Makendryu” “Uolles qardaşları” və Xəzər cəmiyyəti ilə birlikdə rus neftinin Şərqə ixrac ticarətini tədricən genişləndirdi və 1893-cü ildə rus yeşik neftinin Uzaq Şərq ölkələrinə ixracı təxminən 10 000 000 yeşiyə çatdı.

“Leyn və Makendryu”nun 1887-ci ildə “Petroliya”nın yükünü idxal etməklə Birləşmiş Krallıqda yaratdığı iş tədricən “Kerosin Şirkəti”nin təşkilinə gətirib çıxardı; onlar bu şirkətlə “Uolles qardaşları” ilə birlikdə işləyirdilər. Rus neftinin ticarəti sürətlə artdı: 1886-cı ildə idxal cəmi 46 814 çəllək idi, 1887-ci ildə bu, 188 461 çəlləyə qalxdı, “Kerosin Şirkəti”nin təsis edildiyi 1888-ci ildə isə 549 126 çəlləyə çatdı.

Bakı ilə Batum arasında dəmir yolu başa çatdıqdan az sonra Rusiyanın sürtkü yağları ixracı ticarətinin qurulmasını Parisdən cənab Ogüst Andre, Antverpendən cənab Çarlz Qud və Hamburqdan doktor Albrext öz üzərlərinə götürdülər; onlar başlanğıcdan rus sürtkü yağlarının satışı və paylanması üzrə aparıcı firmalar olmuş və bu işi elə inkişaf etdirmişlər ki, bu gün rus sürtkü yağları ticarəti bütün Avropa ticarətinin təxminən 50 faizini təşkil edir.

1891-ci ildə “Markus Semyuel və Kompaniya” tökmə daşıma sistemini Rusiyadan Uzaq Şərq ölkələrinə genişləndirmək ideyasını irəli sürdü[129]. Bu məqsədi güdən təşkilatı dəstəkləmək üçün “Leyn və Makendryu” bu firma ilə Rotşild şirkəti — “Xəzər və Qara Dəniz Neft Ticarət və Sənaye Cəmiyyəti” arasında lazımi neft təchizatına zəmanət verən müqavilə bağlanmasına vasitəçilik etdi və rus neftinin Şərqə ixracının tökmə sistemin tətbiqi ilə daha da inkişafı məhz bu yolla başladı və möhkəmləndi. 1891-ci ildə rus neftinin Uzaq Şərq ölkələrinə, yeşiklərdə ixrac ediləndən əlavə, tökmə halda ixracı 9 000 000 yeşiyə bərabər olmuşdur[130].

Bu ölkədə fəaliyyət göstərən aparıcı rus neft paylayıcı şirkətləri Roud-Leyndəki “Konsolidasiya edilmiş Neft Şirkəti” Limited və Sent-Meri-Aksdakı “Houmlayt Neft Şirkəti” Limiteddir.

Keçən il (1904) Britaniya adalarına tökmə halda rus təmizlənmiş nefti ixracı belə olmuşdur: Batumdan 13 304 835 pud və Novorossiyskdən 5 456 087 pud; 1903-cü ildə isə müvafiq olaraq 12 404 076 və 8 690 203 pud.

Cari ilin (1905) ilk altı ayında Britaniya adalarına tökmə halda təmizlənmiş neft ixracı belə olmuşdur: Batumdan 2 455 334 pud və Novorossiyskdən 2 604 272 pud, 1904-cü ilin eyni dövründə isə 8 093 655 və 3 217 487 pud[131].

---

[129] Markus Semyuel (sonralar lord Bersted) — “Şell” şirkətinin banisi. Onun 1892-ci ildə Süveyş kanalından keçən ilk tankeri “Mureks” Batumdan Uzaq Şərqə Rotşildlərin Bakı kerosinini aparmışdı; bu, “Şell”in yaranmasının başlanğıcı idi. — *Tərc.*

[130] Rəqəmlər müəllifin mətnində olduğu kimi verilir; burada, ehtimal ki, 1891-ci il deyil, sonrakı bir il nəzərdə tutulur. — *Tərc.*

[131] Kitabda 234-cü səhifənin qarşısında fotoşəkil lövhəsi var; onun altındakı yazı: “Bu şəkil oxucuya yanğının bürüdüyü tək bir sahəyə vurulan zərərin miqyası haqqında müəyyən təsəvvür verəcək: hər tərəfdə binaların dağıntıları, qaralmış, közərmiş və əyilmiş maşın qalaqları, yanan neftin hərarətindən büzüşmüş və çatlamış çənlər.” — *Tərc.*



Bu şəkil oxucuya yanğının bürüdüyü tək bir sahəyə vurulan zərərin miqyası haqqında müəyyən təsəvvür verəcək: hər tərəfdə binaların dağıntıları, qaralmış, közərmiş və əyilmiş maşın qalaqları, yanan neftin hərarətindən büzüşmüş və çatlamış çənlər.

İxrac qaydaları və adətləri

Bütün qitə və Britaniya bazarlarında neftin qiyməti yalnız çəlləkdə göstərilir. Yeganə istisnalar Hamburq və Bremendir; orada tökmə neft üçün də qiymətlər göstərilir. Qiymətlər belə göstərilir:

- İngiltərədə — bir qallon üçün pensdə.
- Almaniyada — 50 kq üçün markada.
- Fransada, Belçikada, İspaniyada — 100 kq üçün frankda.
- İtaliyada — 100 kq üçün lirədə.
- Avstriyada — 100 kq üçün Avstriya guldenində.

Bunların bir pud üçün qəpiklə ekvivalentini tapmaq üçün vurmaq lazımdır:

Qiymət	Əmsal	Nümunə
İngilis	17,25	5½ × 17,25 = 94,875 qəp./pud
Alman	15,18	6,25 × 15,18 = 94,875 qəp./pud
Belçika və s.	6,15	15,40 × 6,14 = 94,7 qəp./pud
Hollandiya	12,81	7,40 × 12,81 = 94,794 qəp./pud
Avstriya	15,37	6,15 × 15,37 = 94,525 qəp./pud

Lakin Bakı neft emalçısını yalnız f.o.b. Batum[132] və tökmə neft üçün müvafiq f.o.r. Bakı ekvivalenti maraqlandırır. Buna görə də xarici qiymətlərin bir pud üçün qəpiklə Bakı ekvivalentini hesablamağa çalışarkən o, aşağıdakıları çıxmalıdır:

(a) Batuma daşınma xərci (pudu 19 qəpik) və liman və boşaltma rüsumları (pudu təxminən 3 qəpik); və

(b) Batumdan təyinat limanına daşınma, sığorta və sızma xərci.

[132] F.o.b. (free on board) — malın göndərmə limanında gəminin göyərtəsinə qədər çatdırılma qiyməti; f.o.r. (free on rail) — malın dəmir yolu vaqonuna yüklənmiş halda qiyməti. — *Tərc.*

Fraxt həmişə ümumi çəkinin hər tonu üçün şillinqlə göstərilir; funt sterlinqin orta məzənnəsi 940 qəpik olduqda hər ton üçün bir şillinq pud başına 0,7577 qəpik təşkil edir. Batumdan tökmə yüklər üçün adətən üç qiymət göstərilir. Ən yüksəyi İngiltərənin və Almaniyanın okean limanlarına, ondan ucuzu Fransa limanlarına, ən ucuzu isə İtaliya və Fransanın Aralıq dənizi limanlarınadır.

Dəniz sığortası adətən yükün dəyərinin ½ faizini təşkil edir, sızma itkisi isə adətən 1 faiz qiymətləndirilir.

(c) Təyinat limanlarında yerli rüsumlar və xərclər.

Qiymətlər çəlləkdəki neft üçün nəzərdə tutulduqda bunlar aşağıdakılardan ibarətdir: boşaltma və saxlama; çəlləyin halqalarının bərkidilməsi, yapışdırılması, rənglənməsi, doldurulması və bağlanması; taraya əlavə güzəşt nəticəsində çəki itkisi (yerli adətə görə); komissiya, nağd ödəniş üçün güzəşt və kapital üzrə faiz.

Bu maddələr təxminən pud başına 11 qəpik təşkil edir.

Tökmə neftə aid qiymətlərdə bu xərclərin bəzisindən qaçılır və xərc təxminən pud başına 5 qəpik olur.

(d) Boş çəlləklərin dəyəri.

Bu heç yerdə göstərilmir. Adətən 4 şillinq 6 pensdən 5 şillinqə qədər, yaxud, deyək ki, pud başına 24-dən 25½ qəpiyə qədər hesablanır.

(e) Amerika və rus nefti arasında qiymət fərqi.

Rus ixracatçıları arasında rəqabət olmadıqda London fərqi pud başına 2 qəpiyə çatır. Digər bazarlarda o, daha yüksəkdir. Kəskin rəqabət olduqda fərq tez-tez 10 qəpiyi aşmışdır.

Batumda yeşik neft ticarəti

Yeşik neftin satışını adətən Batum ixracatçıları alıcının buxar gəmisinin və ya yelkənlisinin göyərtəsinə təhvil verilməklə (f.o.b. Batum) həyata keçirirlər. Uzaq Şərqə göndərişlər üçün qiymətlər bir qallon üçün pensdə, Aralıq dənizi və Dunay limanlarına isə bir yeşik üçün frank və santimdə göstərilir. Uzaq Şərq üçün yüklərin satışı yalnız Londonda həyata keçirildiyi halda, Aralıq dənizi üçün satışlar Batumda, Konstantinopolda və digər limanlarda razılaşdırılır. London qiyməti (pensdə) həmişə alıcının göstərdiyi banka konosament təqdim edilməsi qarşılığında, yaxud gəminin Batumdan yola düşməsindən və ya konosamentin tərtib edildiyi tarixdən təxminən on gün sonra nağd ödəniş üçün nəzərdə tutulur. Aralıq dənizi satışları ilə bağlı ödəniş şərtləri müxtəlifdir (sənədlər qarşılığında nağd və ya müəyyən müddət keçdikdən sonra), lakin ödəniş adətən yenə alıcının göstərdiyi bank vasitəsilə aparılır. London brokeri satıcıdan 1 faiz komissiya alır.

Batum qiymətini Bakı qiymətinə çevirərkən satıcı aşağıdakı maddələri nəzərə almalıdır:

(a) Bir yeşikdə 1,8 pud kerosin olur. Bakıdan Batuma yolda sızma 0,3 faiz, dəmir yolundan gəmiyə qədər isə 1 faiz təşkil edir; cəmi 1,3 faiz, yaxud Bakıdan göndərilən hər pud üçün 0,013 pud. Buna görə də hər yeşik üçün 1,8 + (0,013 × 1,8) = 1,8234 pud, yaxud təxminən 1,83 pud neft tələb olunur.

(b) Broker komissiyası, 1 faiz.

(c) Bank haqqı, hər 10 funt üçün təxminən 30 qəpik.

(d) Qablaşdırma və göyərtəyə təhvil xərci, təxminən pud başına 65 qəpik.

(e) 1,83 pud üçün pudu 19 qəpikdən Batuma dəmir yolu tarifi = bir yeşik üçün 34,77.

(f) Dəmir yolu daşıması üçün ödənilən məbləğə illik 7 faiz (neftin Batuma gəlməsi ilə yükün pulunun alınması arasında iki ay keçdiyini fərz etməklə), pud başına 0,25 qəpik.

(g) Batumda liman rüsumu, pud başına 1 qəpik, yaxud 2¼ pud üçün (yeşik daxil) 2,25 qəpik.

Beləliklə, bir yeşik üçün 50 pens qiymət və 10 funtun 94 rubl 15 qəpiyə bərabər olduğunu fərz etsək, Bakı qiyməti belə olacaq:

Maddə	qəp.	qəp. (bir yeşik üçün)
(a) 50 pensdən 1 faiz broker komissiyası çıxıldıqda 49,5 pens qalır		
(b) 10 funt üzrə bank haqqı (0,30 qəpik) çıxıldıqda 1 pens 3,91 qəpik edir, deməli, 49,5 pens =		193,545
Yuxarıdakından çıxılır:		
(c) Qablaşdırma və yükləmə xərcləri, təhvil və saxlama daxil, təxminən	65,00	
(d) 1,83 pud üçün pudu 19 qəpikdən Batuma fraxt	34,77	
(e) Fraxt üzrə iki ay üçün illik 7 faiz	0,25	
(f) 2¼ pud üçün pudu 1 qəpikdən Batumda liman rüsumu	2,25	102,27
1,83 pud üçün xalis qalır		**91,275**

Yaxud f.o.r. Bakı pud başına 49,87 qəpik[133].

[133] Kitabda 240-cı səhifənin qarşısında “Alov içində neft quyuları” yazılı iki fotoşəkildən ibarət lövhə var; ondan əvvəlki səhifədə belə bir mətn verilmişdir: “Yanğına davamlı və yanğınsöndürücü vasitələrin artmasına və buxar, kimyəvi maddələr və qumdan istifadəyə baxmayaraq, yanğın dünyanın hər yerində neft quyusu qazanın ən qorxulu düşməni olaraq qalır. Bu maye od fontanlarının püskürməsi — çıxan qazın dəhşətli gurultusu, qısa, kəskin partlayışlar, gözqamaşdırıcı işığın şiddətli parıltıları və qat-qat yuxarı qalxıb səmanı örtən qatı tüstü buludları — həyəcanlı və dəhşətli mənzərədir. Fontan ətrafdakı sobaları söndürməyə fəhlələrə imkan verməyəcək qədər sürətlə vurur — tək bir qığılcım və ya ehtiyatsız hərəkət, deyək ki, işığın yerə düşməsi, və neftə hopmuş torpaq, rezervuarlar, çənlər, buruqlar və binalar bir anda alova bürünür. Neft sənayesinin tarixində mədən yanğınları haqqında çoxlu həyəcanlı hekayələr var; dünyanın indiyə qədər gördüyü və, ehtimal ki, nə vaxtsa görəcəyi ən dəhşətli yanğınlar bu kitabda təsvir edilmişdir.” — *Tərc.*





Alov içində neft quyuları

ƏLAVƏ

Bakı neftinin daşınması

Zaqafqaziya tarifləri

Aşağıdakı cədvəl Zaqafqaziya dəmir yolunun neft daşınması üçün aldığı haqların dəyişməsini göstərir:

Dövr	Pud başına qəpik
1894-cü ilin əvvəlindən 1 marta qədər	19
2 mart 1894 – 1 iyul	14
1 iyul 1894 – 15 may 1895	9
15 may 1895 – 1 iyul	14
1 iyul 1895 – 3 dekabr 1897	19
3 dekabr 1897 – 15 yanvar 1900	12
15 yanvar 1900 – aprel 1904	16
1904-cü ildən	19

Rus neftinin xarici bazarlara göndərilməsinin əsas yolu olan bu xətdə tariflərin sabitliyini hasilatçılar dəfələrlə tələb etmişlər; bunu heç kim “Rus Nefti və Maye Yanacaq Şirkəti”ni və “Bakı-Rus Neft Şirkəti”ni təmsil edən və maliyyə naziri olduğu vaxt cənab Vitte ilə görüşmüş möhtərəm İvlin Habbard qədər qızğın tələb etməmişdir. Rus ixracatçıları bu yaxınlarda Amerika nefti ilə rəqabət apara bilmək üçün tariflərin xeyli azaldılması xahişi ilə Maliyyə Nazirliyinə müraciət etmişdilər. Sankt-Peterburqda keçirilən müşavirə Nobellərin, Qukasovun, Pappenin, Skalkovskinin (Rotşild) və digər aparıcı hasilatçıların təqdim etdiyi tövsiyələrin rədd edilməsi ilə nəticələndi. İndi belə hesab edilir ki, Rusiya hökuməti son acınacaqlı hadisələrin işığında bu tövsiyələrə yenidən baxacaq. Rus nefti xarici bazarlarda mövqeyini itirmişdir; bunu bərpa etmək lazım olacaq və uğur yalnız hökumət tariflərin xeyli azaldılmasına qərar verərsə mümkün olacaq. Tarif tənzimləmələrinin etibarsızlığı rus ixrac ticarətinə ciddi maneə törədir.

Zaqafqaziya dəmir yolunun işinə Bakıdakı hadisələrin nə dərəcədə təsir etdiyi aşağıdakı rəqəmlərdən görünəcək. Cari ilin ilk altı ayında gəlir 1 180 700 funt, ümumi xərc 725 500 funt, xalis gəlir isə 455 200 funt təşkil etmişdir; keçən ilin müvafiq dövründə isə gəlir 1 645 500 funt, xərc 777 800 funt, xalis gəlir 867 700 funt olmuşdu.

* * * *

Daxili bazarlara dəmir yolu daşıması

Mərkəzi Rusiyanın sənaye rayonlarının nümayəndələri maliyyə nazirinə müraciət edərək Bakıdan və Petrovskdan dəmir yolu fraxtının pud və verst başına 1/70 qəpikdən hazırda kömür üçün alınan pud və verst başına 1/125 qəpiklik differensial tarifə endirilməsini xahiş etmişlər. Bu, Moskvaya fraxtı on doqquz qəpiyə, Petrovskdan isə on altı qəpiyə endirərdi. Həm Bakıdan, həm də Petrovskdan Moskvaya hazırkı tarif tamamilə qadağanedicidir. Neft tarifləri belə hesablanır: pud və verst başına 1/24 qəpikdən başlayan tarif 532 millik məsafədə tədricən azalaraq pud və verst başına 1/70 qəpiklik minimuma çatır və bundan sonra daha heç bir fərqləndirmə edilmir. Məqsəd kömür və maye yanacaq istehlak edən mərkəzləri daşıma xərci baxımından bərabər vəziyyətə qoymaqdır. Lakin hazırda maye yanacağın müstəsna dərəcədə yüksək qiymətləri üzündən Moskva və Volqa rayonları kömür istehlak edən mərkəzlərlə

rəqabəti qeyri-mümkün edən vəziyyətə düşmüşlər. Volqa naviqasiyası bağlananda Moskvaya və ya Volqa mərkəzlərinə yeganə yol ya buz bağlamayan Petrovsk limanından, ya da birbaşa Bakıdan dəmir yolu olacaq. Neft üçün mövcud minimum tariflə (1/70 qəpik) və Bakıda mazutun[134] qiymətinin pudu cəmi iyirmi qəpik olacağını fərz etsək, Moskvaya çatdırılmış bir pud maye yanacaq əlli beş qəpiyə başa gələcək; sənaye bu qiyməti uzun müddət ödəyə bilməzdi. Müraciətdə tariflərin maye yanacağı Moskvaya və qonşu sənaye mərkəzlərinə münasib qiymətə çatdırmağa imkan verəcək səviyyəyə endirilməsi təklif olunur. Aşağıda neft məhsulları və kömür üçün məsafələrin və tariflərin müqayisəsi verilir:

Haradan	Məsafə (verst)	Məsafə (mil)	Bakıdan neft tarifi, pud başına qəp.: hazırkı	təklif edilən	Kömür tarifi
Tsaritsın	1 563	1 036	22,73	14,93	12,90
Saratov	2 297	1 522	33,21	19,01	18,78
Nijni	2 782	1 844	40,14	22,66	22,66
Moskva	2 386	1 681	34,49	19,50	19,49
Vladimir	2 549	1 689	36,81	20,79	20,79
İvanovo-Voznesensk	2 680	1 776	38,69	21,69	21,84

* * * *

Xəzər və Volqa naviqasiyası

Bakıdan Həştərxana dəniz yolu ilə məsafə təxminən 595 mildir. İlk 490 mildə üzmək asandır, lakin yolun son hissəsi ən çətindir. Volqa yüksək su dövründə, əlli gün ərzində 1 000 000 tondan çox qum gətirir. Bu qum 8 000 kvadrat millik nəhəng delta yaratmışdır. Çay bir çox qollara bölünür və onların ən dərinində belə dayazlıqlar var. Böyük miqdarda qum dənizə doğru aparılır və nəticədə şimal-şərq hissəsi mənsəbdən xeyli uzağa qədər dayazdır və dərinliyi 11–12 futu keçmir. Yalnız sahildən qırx iki mil aralıda 15 fut suya çatmaq olar. Mənsəbdə farvaterin dərinliyi 9 futdur, lakin dayazlıqlarda 4 futu çətinliklə keçir, buna görə də Volqa və onun mənsəbi dəniz tanker gəmiləri üçün üzməyə yararlı deyil. Naviqasiyaya Xəzərin şimal-şərq hissəsində əsən şiddətli küləklər də böyük maneə törədir. Şimal-qərb külәkləri mənsəbdə və farvaterdə suyun dərinliyini 10 futdan 2 futa, 12 futdan 4 futa qədər azaldır. Belə vaxtlarda mənsəbdə və sahil yaxınlığında naviqasiya dayanır və gəmilər külək cənubdan əsənə qədər lövbər salmalı olurlar. Xəzər neft donanmasının mübarizə aparmalı olduğu təbii çətinliklər bunlardır. İlk 495 mili qət etdikdən sonra neft tankerləri 12 futluq reyddə lövbər salırlar. Bu reyd Həştərxandan 100 mildən bir qədər çox məsafədədir və məhz orada bar kanalı Volqanın farvaterindən ayırır. 12 futluq reydin sabit yeri yoxdur. Tankerlərin oturumu 9 futdan 14 futa qədər olduğundan neftin dayaz oturumlu gəmilərə vurulması üçün istifadə edilən sahə xeyli genişdir. Səksəninci illərin ortalarına qədər, tankerlərin əksəriyyətinin oturumu cəmi 9 fut olanda, 9 futluq reyd adlanan yükvurma yeri Həştərxana çox yaxın idi və indi ondan ümumi yük daşıyan gəmilər istifadə edir. Əslində Volqanın Baxtemir qolu Həştərxandan təxminən altmış mil aralıda, Biryuçya Kosa adası yaxınlığında qurtarır. Tankerlərin bəziləri 15 fut dərinlikdə lövbər salır. Reyddə Bakıdan gələn tankerlər Həştərxandan gələn çay gəmiləri ilə qarşılaşır. Gün ərzində gələn gəmilərin sayı orta hesabla 70 ilə 100 arasındadır. Firmaların əksəriyyətinin reyddə xüsusi gəmiləri var və onların heyəti orada daimi yerləşir. Burada

[134] Mətndə rusca “astatki” (остатки) — neft emalından sonra qalan qalıq, yəni mazut. — *Tərc.*

həmçinin üzən gömrükxana, teleqraf məntəqəsi, ərzaq anbarı və kiçik xəstəxana var, belə ki, əslində 12 futluq reyd üzən bir koloniyadır. Reyddə həyat naviqasiyanın açılması ilə başlayır və mövsümün sonunda, bütün stasionar gəmilər Həştərxana aparılanda bitir.

Gəminin gəlişi agentlərə siqnal sistemi ilə bildirilir. Dayaz oturumlu gəmilər yanına gətirilir və neft onlara vurulur. Bütün buxar gəmilərinin öz nasosları var, yelkənlilər isə reyddə saxlanılan üç nasosdan istifadə edirlər. Tanker çox vaxt üç saata boşaldılır. Reyddən dayaz oturumlu gəmilər nefti Həştərxana aparır, orada o, çay gəmilərinə vurulur, daha kiçik miqdarlar isə anbarlara gedir. Reyddən Həştərxana səfər otuz beş-qırx saat, geri dönüş isə cəmi on doqquz saat çəkir.

Volqa naviqasiyası təxminən altı ay davam edir. Son iki ildə o, adi vaxtdan gec açılmışdır; əslində, 1897-ci ildən bəri heç vaxt bu qədər gec başlamamışdı.

İl	Nijnidə buzun qırılması	Çayın buzdan təmizlənməsi
1901	10 aprel	16 aprel
1902	9 aprel	23 aprel
1903	8 aprel	14 aprel
1904	22 aprel	28 aprel
1905	20 aprel	29 aprel

Volqa su yollarının (qolları, gölləri və kanalları daxil olmaqla) uzunluğu 29 965 mildir, onlardan yalnız 9 676 mili hər iki istiqamətdə üzməyə yararlıdır. Həştərxandan Volqa bölgəsinin əsas paylayıcı mərkəzlərinə qədər məsafələr belədir:

Şəhər	Mil	Şəhər	Mil
Tsaritsın	306	Kazan	1 107
Kamışin	414	Sviyajsk	1 119
Saratov	551	Nijni	1 348
Sızran	750	Kineşma	1 476
Batraki	756	Kostroma	1 543
Samara	824	Rıbinsk	1 656
Ufa (Volqa, Kama və Belaya çayları ilə)	1 570	Perm (Volqa və Kama çayları ilə)	1 606

Çay gəmiləri təxminən 140 qışlaq yerində dayanır, onların əsasları yuxarıda adı çəkilən mərkəzlərdədir.

Volqadakı gəmilərin sayı:

İl	Buxar gəmisi	Yelkənli və s.
1884	665	5 896
1890	1 015	5 928
1895	1 392	7 000
1900	1 718	8 250

Son siyahıyaalma göstərir ki, Xəzər donanması beş poçt və sərnişin gəmisindən, altmış bir yük və sərnişin gəmisindən, iyirmi üç yük gəmisindən, 134 tankerdən və qırx beş yedək və xidmət gəmisindən ibarətdir. Neft ticarətində işləyən yelkənlilərin sayı 153-dür. 134 tankerin tutumu 4 917 260 kub fut, yelkənlilərin tutumu isə 2 970 428 kub fut idi.

Bu ilin ilk səkkiz ayında axın yuxarı göndərilən neftin miqdarı 1904-cü ilin eyni dövründəki 289 005 000 pudla müqayisədə 259 400 000 pud təşkil etmişdir.

* * * *

Bakıda işin bərpası

Londona hər gün çatan məlumatlarda bildirilir ki, buruqların yenidən qurulması, quyuların təmizlənməsi və qazma və nasos avadanlığının quraşdırılması işləri mümkün olan bütün sürətlə aparılır. Balaxanı canlanıb, baxmayaraq ki, qəribə də olsa, həyat və əmlak hələ də zəif qorunur: hərbi qüvvə açıq-aşkar qeyri-kafidir və yüzlərlə fəhlə işlədikləri müəssisələrdə praktiki olaraq dustaq vəziyyətindədir. Sentyabrda böyük qırğın səhnəsi olmuş kənd gecələr boş qalır. Podratçılar böyük gəlir əldə edirlər: qırğınlardan əvvəl 250 rubla başa gələn buruq üçün indi 800 rubl alırlar. Yeni buruqların əksəriyyəti gipsolitdən tikilir. Bir çox quyudan neft jelonka ilə çıxarılır.

İşin dayanması su problemini daha da ağırlaşdırmışdır; jelonka ilə çıxarma ən qısa müddətdə geniş miqyasda bərpa olunsa belə, bu problem yaxın aylarda böyük olacaq. İşin dayanmasından əvvəl də bir çox quyu dibdən dörd, hətta səkkiz hissə su, üstdən isə bir hissə neft çıxarırdı. Kir və ya sementlə sementləmə üsulları tamamilə qənaətbəxş nəticə verməmişdir və məlumdur ki, bəzi şirkətlər öz sərhəd xətlərində sementləmə işlərinə qəsdən etinasızlıq göstərir, nəticədə rəqiblərin quyuları zədələnir və su basır. Üst laylardan gələn su neftli laylara daxil olaraq neftin axınını yayındırdığı üçün quyuları tez-tez tərk etmək lazım gəlir. Orta hesabla hər pud neftlə iki pud su jelonka ilə çıxarılır və suyun Xəzərə axıdılması hasilatçıların büdcəsinə ciddi yük olur.

Hazırda məhsuldar fontanın vurması şansları suyun mövcudluğu və mülklərdə quyuların sıx yerləşməsi ilə azalır. Hesablanır ki, bir quyu layın uzanması boyunca diametri 500–700 fut olan sahəni drenaj edə bilər və bir çox quyular arasındakı məsafə cəmi 30–50 fut olduğundan bir quyu təbii olaraq digərinin mənbələrinə müdaxilə edir və həm jelonka ilə istismar edilən, həm də fontan vuran quyuların hasilatının azalmasına səbəb olur.

Bibiheybətdən gələn son məlumatlara görə, işi tez bərpa etmək üçün böyük səy göstərilir. Sahəcə kiçik olsa da, bu, dünyanın ən diqqətəlayiq neft mədənidir. Onun yarımadadakı cəmi 2 000 quyudan 222 quyusu var, lakin quyuların yalnız onda birinə malik olmasına baxmayaraq, hasilatın təxminən üçdə birini verir. Bibiheybətdə böyük fontanların sonuncusu hələ görünməmişdir. Son neftli laya hələ çatılmamışdır — bəlkə də Balaxanı istisnadır, lakin Ramanada və Bibiheybətdə, şübhəsiz ki, çatılmamışdır. Bibiheybətin qədim tarixini nəzərə alsaq, onun keçmişi və bugünkü vəziyyəti diqqətəlayiqdir. Az neftçi bilir ki, bu mədənin sərvətlərinin istismarı hələ XVIII əsrin birinci yarısında başlamışdır[135]. XVIII əsrin sonunda Bibiheybəti ziyarət etmiş Qmelin yetmiş quyu qeyd edir. 1819-cu ildə on doqquz quyu var idi, 1825–1826-cı illərdə bölgəni ziyarət etmiş Eyxvald isə iyirmi iki quyu gördü. Onlardan müəyyən Qasım bəyə məxsus ikisi dənizdə idi — biri sahildən 63 fut aralıda, 1½ fut suda və 8 fut dərinlikdə; digəri isə birincidən 238 fut şimalda və sahildən 105 fut aralıda[136]. 1834–1849-

[135] Müəllifin bu iddiası dəqiq deyil: Bibiheybət və ümumiyyətlə Abşeron neftinin istismarı orta əsrlərdən məlumdur. Hələ X–XIII əsrlərin ərəb və fars müəllifləri (Məsudi, İstəxri və b.) Bakı neftindən bəhs etmiş, Balaxanıda 1594-cü ilə aid kitabəli quyu (Allahyar Məhəmməd Nur oğlunun quyusu) aşkar edilmişdir. — *Tərc.*

[136] Söhbət Bakı sakini Hacı Qasım bəy Mənsurbəyovdan gedir; o, 1803-cü ildə Bibiheybət sahilində dənizdə, sahildən 18 və 30 metr aralıda iki quyu qazdırmışdı. Bunlar dünyada dənizdə neft hasilatının ilk məlum nümunələri hesab olunur. Quyular 1825-ci ildə fırtına nəticəsində dağılmışdır. — *Tərc.*

cu illərdə Bibiheybətin hasilatı belə olmuşdur: 1834 — 113 889 pud; 1835 — 113 310 pud; 1836 — 112 730 pud; 1837 — 112 300 pud; 1838 — 104 835 pud; 1839 — 121 470 pud; 1840 — 114 037 pud; 1841 — 114 084 pud; 1842 — 113 934 pud; 1843 — 114 186 pud; 1844 — 113 966 pud; 1845 — 113 814 pud; 1846 — 114 130 pud; 1847 — 81 245 pud; 1848 — 19 955 pud; 1849 — 8 300 pud. 1900-cü ildə bu rəqəm 109 207 063 puda çatdı. Mədən qırğınlar səbəbindən işin dayanmasından əvvəl yaxşı hasilat verməklə yanaşı, unutmaq olmaz ki, başqa yerdə izah etdiyim kimi, torpağın dənizdən qurudulması layihəsi həyata keçiriləndə mədən dənizə doğru genişlənəcək. Bibiheybətdəki ən yaxşı sahələrin bəziləri Londonun "Bibiheybət Neft Şirkəti"nə məxsusdur.

Bakı neft mədənləri, şübhəsiz ki, genişlənir. Sabunçuda ehtiyat neftli torpaqlar var və indi sübut olunub ki, Ramana gölündə torpağın qurudulması uğurlu mühəndislik nailiyyəti və kommersiya baxımından gəlirli müəssisə olmuşdur. Balaxanının yaxınlığında Binəqədi var; üsyan zonasından xeyli kənarda bir Britaniya şirkətinin (Spis) qırğınlardan sonra yeni fontan vurduğu və Rotşildlərin indicə Axverdov şirkətinin mülkünü əldə etdikləri Qroznı neft mədəni var; Nobellərin açdığı və Şibayevin və bir çox digər şirkətin daxil olduğu yeni Berikey mədənində qazma işləri sabit aparılır; bu ilin erkən yazında ziyarət etdiyim başqa bir mədəndə, Dağıstanda Qayakənddə qazma yeni yerlərdə, yeni xətlər üzrə və uğura böyük ümidlə aparılır. Rus neftinə dünya miqyasında artan böyük tələbatı ödəmək üçün lazım olan ehtiyatlara əlavə ediləcəyi gözlənilən digər mədənlərə Çatma, Kerç (Krım), Çələkən adası, Saxalin adasının rus (şimal) hissəsi, Fərqanə, Telavi (Tiflis yaxınlığında) və bir çox başqa yerlər daxildir.

* * * *

Quyuların saxlanması və su problemi

XII fəsildə quyuların ömründən bəhs edirəm. Neft mədənlərinin inkişafı genişləndikcə quyuların saxlanması, əsasən dərinləşdirmə və təmir, mədənlərdəki gündəlik işin daha mühüm hissəsinə çevrilir. Quyuların ömrü, yəni neft verdiyi dövr, sabit olaraq azalır. Əvvəllər o, orta hesabla 6–7 il idi, indi isə bunun yarısı qədər də deyil. Artan dərinlik və su problemi mədən işinin texniki hissəsini daha mürəkkəb və çətin edir. Son bir neçə ildə su demək olar ki, bütün işlənmiş laylara yol tapmışdır və buna görə də təmir və sementləmə daha tez-tez tələb olunur. Əvvəlcə dərinləşdirmə gəlir, sonra deformasiyaya uğramış qoruyucu boruların möhkəmləndirilməsi, sementləmə və bu kimi əməliyyatlar şəklində təmir. Quyunun dibini tez-tez tədricən yığılaraq neftin keçdiyi kanalları tıxayan qumdan, gildən və ya qırıntılardan təmizləmək lazım gəlir. Quyu, xüsusən yenicə istismara verilmişsə, adi jelonka barabanı, Amerika qum nasosu və s. ilə tez-tez təmizlənməlidir. Quyunu cavanlaşdırmaq üçün bu vasitələrin kifayət etməyəcəyi an yalnız zaman məsələsidir; onda istismar müvəqqəti dayandırılmalı və jelonka barabanının yerinə qazma qurğusu quraşdırılmalıdır.

Aşağıdakı cədvəl bütün mədənlərdə dərinləşdirilmiş quyuların sayını göstərir:

İl	Quyu	İl	Quyu
1889	28	1897	155
1890	50	1898	213
1891	87	1899	196
1892	111	1900	255
1893	103	1901	309
1894	101	1902	249

İl	Quyu	İl	Quyu
1895	131	1903	278
1896	172	1904	293

* * * *

Sankt-Peterburq müşavirəsi

Sankt-Peterburqda birinci müşavirədə (5 oktyabr) əlli səkkiz nümayəndə iştirak edirdi. İştirakçılar arasında bunlar var idi: sədrlik edən maliyyə naziri V. N. Kokovtsov; maliyyə nazirinin müavini İ. V. Timiryazev; Qafqaz canişinini təmsil edən İ. F. Djunkovski; Yollar Nazirliyindən A. İ. Drey; Dövlət dəmir yolları idarəsinin direktoru E. K. Tsiqler; Rus Ticarət və Sənayesini Həvəsləndirmə Cəmiyyətindən P. V. Ol; Vladiqafqaz dəmir yolunun direktoru V. N. Petsikovski; müvafiq olaraq Bakı, Moskva və Varşava birjalarından M. V. Pappe, Yassyuninski və E. Y. Kaminski; Bakı Neft Hasilatçıları Qurultayı Şurasından P. O. Qukasov (sədr), Q. Kyandjuntsev və Frolov; İmperator Texniki Cəmiyyətinin Bakı şöbəsinin sədri Xatisov; Sankt-Peterburq Texniki Cəmiyyətindən N. S. Lavrov; Cənubi Rusiya metallurgiya zavodlarından A. A. Volski; Donets kömür mədənlərindən N. S. Avdakov və F. Enaki; Dombrova kömür mədənlərindən Yukovski; Volqa gəmiqayıranlarından D. V. Sirotkin; Bakı hasilatçılarından E. L. Nobel, K. A. Skalkovski (“Xəzər və Qara Dəniz Cəmiyyəti”), C. Hacıyev, Ter-Akopov, Benkendorf, Skrepinski, Oqulieviç, Tağıanosov, Lianozov və Sadukyants; Bakıdan cənablar Topçubaşov və Ağayev[137]; mühəndis Lazarev; Bakıdakı ingilis-rus maraqlarını təmsil edən Lapşin, Lesli Urkart və fon Ofenheym; Londonun “Konsolidasiya edilmiş Neft Şirkəti”ndən Fred Leyn; “Xəzər Şirkəti”nin London kontorundan A. Qukasov və başqaları.

Sədr uzun nitqində dedi ki, o acınacaqlı “avqust-sentyabr günlərinin” hadisələri indiyə qədər inkişaf edən və son dərəcə faydalı bir sənayeni tamamilə məhv etməsə də, dəhşətli dərəcədə sarsıtmışdır. Neftli sahənin təxminən beşdə üçü xarabalıq halındadır, qalan beşdə ikisi isə işi təhlükəsiz bərpa etmək mümkün olana qədər boş qalacaq.

Müşavirənin ikinci iclasında Bakı Neft Hasilatçıları Cəmiyyətinin memorandumu oxundu. Hasilatçılar deyirdilər ki, bu il ikinci dəfə dünyanın diqqəti Bakıya və onun neft mədənlərinə yönəlmişdir; ikinci dəfə kütləvi qırğınlar baş vermişdir və sonuncular yanğınlar və mədən əmlakının məhv edilməsi ilə daha da ciddiləşmişdir. Fəlakət dərin, xroniki və sürətlə inkişaf edən bir bəlanın möhürünü daşıyırdı. Dekabrda xam neft hasilatını 30 000 000 pud azaldan və quyuların orta hasilatının azalmasına səbəb olan tətil oldu. Fevralda qırğın oldu; onun gedişində şəhərdəki yaşayış evləri yandırıldı və talan edildi. Tətillər epidemiyası mayda ümumi əmək iğtişaşı və işin dayanması ilə nəticələndi. Anonim hədə məktubları göndərilirdi, sui-qəsdlər olurdu və hamı fevral qırğınlarının təkrarını gözləyirdi. Nəhayət, avqust və sentyabrdakı çaxnaşma müddətinə, qurbanların sayına və toqquşan tərəflərin qəzəbinə görə

[137] Əli Mərdan bəy Topçubaşov (1863–1934) — hüquqşünas, “Kaspi” qəzetinin redaktoru, sonralar Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin sədri; Əhməd bəy Ağaoğlu (Ağayev; 1869–1939) — publisist və ictimai xadim. Hər ikisi 1905-ci ildə Bakıda müsəlman əhalinin maraqlarının görkəmli müdafiəçiləri idi. “C. Hacıyev” — Bakı neft sənayeçisi. Müəllif kitabın əsas hissəsində azərbaycanlı ziyalıların və sahibkarların bu hadisələrdəki mövqeyindən demək olar ki, bəhs etmir; onların adları yalnız bu siyahıda görünür. — *Tərc.*

fevral qırğınlarını kölgədə qoydu. Neft mədənləri od vuranlar və silahlı dəstələr tərəfindən sistemli şəkildə məhv edildi. Fəhlə hərəkatı fəhlələr və sənaye üçün faydalı olacaq məcraya yönəldilməli, həmçinin qırğın, quldurluq və yanğın törədənlərin əsasən toplandığı əhalinin ən rəzil ünsürlərinin vəhşiliklərini yatırmaq üçün tədbirlər görülməlidir. Bakı və mədən rayonunun sakinləri hər saat soyulmaq və öldürülmək qorxusu içində yaşayırdılar və onların, şübhəsiz ki, hökumətdən həyatlarının və əmlaklarının müdafiəsini tələb etməyə haqqı var idi. Hasilatçılar hökumətə əhalini qatillərdən və quldurlardan qorumaq çağırışı ilə müraciət etdilər. Hökumətin fəaliyyətinin əsasını hərbi hakimiyyətin bərpası və dəyişmiş şəraitə uyğun təkmilləşdirilmiş və əlavə edilmiş qanun təşkil etməlidir. Əgər hakimiyyət öz vəzifəsini yerinə yetirsəydi, fevral qırğınları baş verməzdi, çünki onun iğtişaşlara son qoymaq üçün vasitələri var idi. Qırğınların qarşısı alınmadı; qatillərə öz işlərini maneəsiz görməyə imkan verildi və onlar heç vaxt məhkəmə qarşısına çıxarılmadı. Bakıda istintaq müstəntiqi fevral qırğınları ilə bağlı araşdırmasını yalnız oktyabrın 19-da başa çatdırdı. Onun araşdırması 412 işi əhatə edirdi və hər biri haqqında ayrıca hesabat prokurora göndərilmişdir. Cinayətkarların cəzasız qalması İrəvanda, Naxçıvanda, Şuşada və digər yerlərdə baş vermiş toqquşmalara səbəb olan və sentyabr qırğınlarını sürətləndirən əsas səbəblərdən biri idi[138]. Hasilatçılar uzun bir tövsiyələr siyahısı təqdim etdilər. Hər iclasda uzun müzakirələr olurdu, lakin onlar həmişə nəticəsiz qalırdı. Nəticələr elan edilən son iclasda onların iştirakçıları qane etdiyini demək olmaz. Hökumət mazutun rüsumsuz idxalına icazə verməkdən və iğtişaşlar zamanı zərər çəkənlərə təzminat ödəməkdən imtina etdi. Mədənlərin yenidən təchiz edilməsi üçün kreditlər verilməsi ilə prinsipcə razılaşsa da, o, illik beş faiz, kredit alanların mülklərinin girov qoyulması və on iki il ərzində qaytarılması şərtlərini qoydu. Digər qərarlar yalnız daxili sənaye ilə bağlı olanlar üçün maraqlı idi.

* * * *

Bakı ehtiyatları (1 iyul 1905-ci ilə qədər)

Min pudla

Tarix	Xam neft: mədənlərdə	Xam neft: zavodlarda	Mazut və digər məhsullar	İşıqlandırıcı yağlar	Sürtgü yağları	Cəmi
1 yanvar 1891	4 775	5 000	15 000	5 346	756	30 877
1892	9 220	11 000	27 000	7 076	1 064	55 360
1893	16 280	13 140	32 000	8 192	708	70 320
1894	19 577	14 932	34 353	10 341	878	80 081
1895	9 269	11 789	26 606	5 665	1 254	54 583
1896	4 224	29 907	25 122	11 231	1 560	72 044
1897	6 372	21 971	47 692	14 357	1 384	91 776
1898	4 937	15 335	52 301	13 410	1 681	87 664
1899	7 163	12 186	53 024	10 361	2 321	85 055
1900	7 152	39 809	38 612	18 112	2 082	105 767
1901	9 069	37 324	60 310	22 033	2 639	131 375
1902	17 158	56 831	74 225	14 735	3 539	166 488

[138] Neft hasilatçılarının memorandumu (onların arasında həm erməni, həm də müsəlman sahibkarlar var idi) hadisələrin əsas məsuliyyətini hakimiyyətin hərəkətsizliyinə və cinayətkarların cəzasız qalmasına aid edir, hər hansı bir xalqı bütövlükdə ittiham etmir. Bu mövqe müəllifin kitabın II hissəsindəki bəzi ümumiləşdirmələrindən daha balanslıdır. — *Tərc.*

Tarix	Xam neft: mədənlərdə	Xam neft: zavodlarda	Mazut və digər məhsullar	İşıqlandırıcı yağlar	Sürtgü yağları	Cəmi
1903	10 150	33 900	83 908	20 065	3 475	151 498
1904	8 225	28 828	57 549	24 510	2 330	121 442
1905	7 969	35 482	44 445	16 106	3 382	107 384
1 iyul 1905	6 449	25 884	42 325	13 897	2 216	90 771

1892–1905-ci illər üçün rəqəmlər hər ilin 1 yanvarına aiddir.

1905-ci ilin birinci yarısında Bakı hasilatı (pudla)

Ay	Balaxanı	Q.	Sabunçu	Q.	Ramana	Q.	Bibiheybət	Q.
Yanvar	6 371 363	615	15 864 864	551	9 902 302	181	12 893 295	171
Fevral	6 284 215	624	15 239 180	548	8 559 588	186	12 435 797	177
Mart	7 078 367	625	17 321 996	552	10 779 129	186	14 604 555	179
Aprel	6 878 479	607	17 226 267	559	8 938 330	182	14 162 366	182
May	5 368 378	623	12 572 719	557	7 521 329	182	13 692 186	181
İyun	6 645 420	—	16 484 349	—	9 385 826	—	13 799 542	—
Cəmi	**38 626 222**	—	**94 709 375**	—	**55 086 504**	—	**81 587 741**	—

Ay	Cəmi*	Hasilat verən quyular	Fontanlar
Yanvar	45 062 984	1 529	1 271 000
Fevral	42 550 189	1 548	1 599 700
Mart	49 810 361	1 555	1 850 000
Aprel	47 232 823	1 543	2 438 400
May	39 195 468	1 556	612 500
İyun	46 342 717	—	1 228 700
Cəmi	**270 194 542**	—	**9 000 300**

** Binəqədi və Zabrat hasilatı və quyuları daxil olmaqla. “Q.” sütunları hasilat verən quyuların sayını göstərir.*

Binəqədi və Zabrat hasilatı (pudla)

Ay	Binəqədi	Hasilat verən quyular	Zabrat	Hasilat verən quyular
Yanvar	21 460	10	9 700	1
Fevral	21 709	12	9 700	1
Mart	11 914	12	14 400	1
Aprel	14 481	12	12 900	1
May	31 706	12	9 150	1
İyun	14 730	—	12 850	—
Cəmi	**116 000**	—	**68 700**	—

Batum ixracı

Batumdan 1905-ci il 1 yanvardan 1 oktyabra qədər (köhnə üslubla) ixrac belə olmuşdur (pudla):

İstiqamət	İşıqlandırıcı yağlar 1904	1905	Mazut 1904	1905	Digər məhsullar 1904	1905
Avropaya	31 268 000	17 531 000	976 000	…	10 356 000	7 464 000
Şərqə	16 434 000	8 573 000	75 000	…	234 000	310 900
Rusiyaya	3 373 000	2 334 000	13 000	…	158 000	193 000

Limandakı bəzi ciddi tətillər və iğtişaşlar üzündən ixrac ticarəti bir neçə həftə dayandı. Oktyabrın 19-da "Şell Nəqliyyat və Ticarət Şirkəti"nin ən böyük tanker gəmilərindən biri olan "Spondilus" Şərq üçün 10 000 ton işıqlandırıcı yağ yükləyəndə iş bərpa edildi.

Bu kitab çapda olarkən Uzaq Şərqə böyük miqdarda Amerika yeşik nefti göndərilir. Məqsəd rus neftinin bu mühüm bazarlarda yenidən mövqe qazanmasının qarşısını almaq və eyni zamanda Rusiyanın bədbəxtliyi dövründə başqalarının üstünlük əldə etməsinə yol verməməkdir. Rusiya mədənləri yenidən hasilata başlayanda Bakı və Batum neftçiləri görəcəklər ki, amerikalılar Uzaq Şərq bazarlarını həddindən artıq mallarla doldurublar və dünyanın həmin hissəsində itirdikləri mövqeyi bərpa etmək onlar üçün praktiki olaraq qeyri-mümkün olacaq. Onda onlar daxili rus bazarlarına daha çox diqqət yetirmək məcburiyyətində qalacaqlar. Deməyə ehtiyac yoxdur ki, rus nefti həmişə bu ölkəyə göndəriləcək, baxmayaraq ki, Bakıdakı hadisələr Rumıniyanı, Qalisiyanı və digər hasilatçı ölkələri Britaniya istehlakçısının xoşuna gələn keyfiyyətdə neft emal etməyin üstünlüyünə diqqət yetirməyə təşviq etmişdir.

Batumdan göndərişlər demək olar ki, dayandığından bu ölkədə neftin qiyməti qalxmışdır; paylayıcı şirkətlər bir razılaşmaya gəlmişlər, lakin o, şifahi olduğundan uzun ömürlü olacağını vəd etmir.

* * * *

Rus ölçü və çəki vahidləri

Aşağıdakı məlumat dünyanın müxtəlif yerlərində rus neft işi ilə məşğul olan bir çoxları üçün faydalı olmalıdır[139].

Çəki vahidləri

- Rus funtu = 0,9028 ingilis funtu = 0,4095 kq.
- İngilis funtu = 1,1076 rus funtu = 0,4536 kq.
- Bir kiloqram = 2,2046 ingilis funtu = 2,4419 rus funtu.
- Bir pud (40 rus funtu) = 36,114 ingilis funtu = 16,38 kq.
- Hundredweight (112 funt) = 124,0512 rus funtu = 50,8032 kq.
- Metrik sentner (100 kq) = 220,46 funt = 244,19 rus funtu.
- İngilis tonu (2 240 funt) = 62,0280 pud = 1,06 metrik ton.
- Metrik ton (1 000 kq) = 0,9842 ingilis tonu = 61,048 pud.

Uzunluq ölçüləri

- Rus düymü = ingilis düymü.
- Verşok = 1¾ düym.
- Fut (12 düym) = 1 ingilis futu = 0,30479441616 metr.
- Arşın (3 fut) = 0,(7) yard = 0,71118696104 metr.

[139] Ölçü vahidlərinin qiymətləri müəllifin mətnində olduğu kimi verilir. — *Tərc.*

- İngilis yardı = 1,285714 arşın (36 düym) = 0,914391428 metr.
- Metr = 3,2808992 fut = 1,09362355 yard = 22,49759792 verşok.
- Sajen (7 fut) = 2,133291 metr.
- Verst (500 sajen) = 0,66269 ingilis mili = 1,06678 kilometr.
- İngilis mili (5 280 fut) = 1,50857 verst = 1,6093 kilometr.
- Kilometr = 0,9374 verst = 0,6211 ingilis mili.
- Rus mili (7 verst) = 4,63883 ingilis mili = 7,48746 kilometr.

Sahə ölçüləri

- Desyatin (60 × 40 sajen) = 117 600 kvadrat fut = 2,6997 akr = 1,0925 hektar.
- Akr = 0,3704 desyatin = 0,442244 hektar.
- Hektar = 0,9153 desyatin = 2,4708 akr[140].

Tutum ölçüləri (mayelər üçün)

- Vedrə = 2,70698 ingilis qallonu = 3,249 Amerika qallonu = 12,299 litr (12 299 kub sm).
- İngilis qallonu = 0,3694 vedrə = 1,2 Amerika qallonu = 4,5435 litr.
- Litr = 0,081308 vedrə = 0,228 ingilis qallonu = 0,264 Amerika qallonu.
- Amerika qallonu = 0,3078 vedrə = 0,8332 ingilis qallonu = 3,785 litr.

Qafqaz və Amerika neftlərinin ekvivalent çəki və ölçüləri

Xüsusi çəkisi 0,878 olan Qafqaz xam nefti:

- Vedrə = 26,34 rus funtu.
- İmperial qallon = 9,7 rus funtu.
- Litr = 2,144 rus funtu.
- Amerika qallonu = 8,1 rus funtu.
- Bir pud 1 139 kub düym = 4,123 imperial qallon = 18,656 litr = 4,939 Amerika qallonu həcm tutur.

Xüsusi çəkisi 0,825 olan Qafqaz ixrac kerosini:

- Vedrə = 24,75 rus funtu.
- İmperial qallon = 9,139 rus funtu.
- Litr = 2,015 rus funtu.
- Amerika qallonu = 7,617 rus funtu.
- Pud = 4,377 imperial qallon = 19,9 litr = 5,249 Amerika qallonu.

[140] Mətndə “·4048 acre” verilmişdir, bu, açıq-aşkar xətadır: 1 hektar ≈ 2,47 akr; burada düzəldilmiş qiymət verilir. — *Tərc.*

- İngilis tonu = 271,49 ingilis qallonu.

(Bərabər həcmdə Amerika kerosini rus ixrac kerosininin çəkisinin cəmi 96,6 faizini təşkil edir, yəni Amerika kerosini rus kerosinindən 3,4 faiz yüngüldür.)